Müəllifin vəsaiti hesabına nəşr olunur

Əsəri Azərbaycan EA Tarix İnstitunun
elmi şurası çapa məsləhət görmüşdür.

Elmi redaktoru: Tarix elmləri doktoru S. M. Onullahi
Rəyçilər; tarix elmləri doktoru, elm xadimi S. B. Aşurbəyli,
Tarix elmləri doktoru K. H. Əliyev.

**Abdulla Həsənalı oğlu Fazili.** Ulusunu tanımayan tanrısını tanımaz. (Atropatena e. ə. IV – e. VII əsri) – Bakı: E 1992. – 216 s.

İSBN 5-8066-0451-9

Əsər təqribən II əsri əhatə edir. III Dara Makedoniyalı İskəndər tərəfindən məğlub edildikdən sonra Əhəməni imperiyası dağılır. Məhz həmin tarixdən etibarən Atropatın başçılığı ilə Azərbaycanda müstəqil Atropatena dövləti yaradılır və bu sülalə 350 ilə yaxın yaşayır.

Monoqrafiyada Azərbaycan xalqının Roma işğalçılarına qarşı apardığı müharibə Atropatenanın tarixi coğrafiyası, iqtisadiyyatı, şəhərlərin, ticarəti və ticarət yolları, habelə göstərilən ərazidə aparılan arxeoloji qazıntıların nəticələrindən bəhs olunur.

Burada azərbaycanlıların dini etiqadı məsələləri də öz əksini tapmışdır.

H 0503020907 - 260 Elansız – 92
655 (07) – 92

© Fazili A. H., 1992

## Redaktordan

Vətənimizin ərazisində təşəkkül tapmış ən qədim dövlətlərdən biri olan Atropatena dövlətinin sosial-siyasi, iqtisadi və mədəni tarixi Azərbaycan tarixşünaslığında ən zəif öyrənilmiş sahələrdən biridir. Bunun əsas səbəbi müvafiq yazılı mənbələrin olmaması, eləcə də qədim Atropatena dövlətinin əhatə etdiyi ərazidə məqsədyönlü arxeoloji qazıntıların demək olar ki, aparılmaması, antik və erkən orta əsr müəlliflərinin verdiyi məlumatların sistemləşdirilib elmi təhlildən keçirilməməsindən ibarətdir. Lakin fraqment xarakterli məlumatların və eləcə də təsadüfi arxeoloji (Həsənlu və Təxt-e Süleyman qazıntıları istisna təşkil edir) tapıntıların müqayisə və ümumiləşdirilməsi müəllifin müəyyən elmi nəticəyə gəlməsinə, atropatenaşünaslıqda yeni söz deməsinə imkan vermişdir. Ərşə, Germi, Muğan və başqa mahallarda son illərdə əldə edilmiş arxeoloji materialların tədqiqata cəlb edilməsi müəllifin gəldiyi elmi nəticələrin sanbalını daha da artırmışdır.

Əsərdə Atropatenanın sərhədləri, təbii-coğrafi şəraiti, dövlətin təşəkkülü, ölkənin təsərrüfat həyatı, əhalinin məşğuliyyəti, şəhər həyatı, ticarət əlaqələri, Roma işğalçılarına qarşı qəhrəmanlıq mübarizəsi, Zərdüştiliyin dövlətin həyatında oynadığı rol, məzdəkilər hərəkatı və s. barədə ətraflı məlumat verilmişdir. Müəllif ilk dəfə olaraq Atropatena hökmdarları sülaləsinin – Atropatilərin şəcərə cədvəlini tərtib etmişdir. Bu tədqiqat əsəri müəllifin uzun və gərgin axtarışlarının məhsuludur.

Müəllif Atropatena tarixinin bəzi problemlərinə özünün “Azərbaycanın qədim tarixi İran tarixçilərinin əsərlərində” (Bakı, 1970), “Azərbaycanın qədim və ilk orta əsr tarixi İran tarixşünaslığında” (Bakı, 1986) monoqrafiyalarında və silsilə məqalələrində toxunmuşdur.

Oxuculara təqdim olunan bu əsər həm faktiki materialların zənginliyi, həm də elmi təhlilin nəticələri baxımından atropatenaşünaslığa yeni bir töhfə hesab edilə bilər. Doğrudur, müəllifin gəldiyi nəticələrin hamısı ilə razılaşmaq çətindir. Məsələn, Atropatena əhalisinin etnik tərkibi, ölkədə mövcud olmuş teokratiya, dövlət idarə sistemi və s. haqqında deyilən fikirlərlə razılaşmaq çətindir. Kitabda mübahisə doğuran başqa mülahizələrə, metodoloji ardıcıllığa əməl edilməməsi hallarına da təsadüf edilir.

Bütün bunlara baxmayaraq, böyük zəhmətin və gərgin elmi axtarışların məhsulu olan bu kitabın geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağı şübhəsizdir.

# ÖN SÖZ

**Valideynlərim Şeyx Həsənalı və Rəna xanımın əziz xatirəsinə həsr edirəm**

Zəngin təbii-coğrafi şəraitə malik olan Azərbaycan (Atropatena) ərazisi tarixən insanın formalaşmasında dünyada ilkin məskənlərdən biri olmuşdur. Bu ərazi cəmiyyət tarixinin müxtəlif mərhələlərini özündə nümayiş etdirən abidələr diyarıdır; Urmu, Ərdəbil, Meşginşəhr, Mərənd, Sarab, Təbriz, Miyana, Marağa, Zəncan, Magı, Germi və digər ərazilərdə dövrümüzə qədər gəlib çatan mağaralardan tutmuş Həsənlu, Göytəpə, Qaratəpə, Muğan, Təxt-e Süleyman, Mərənd, Gənctəpə və s. abidələr tarixliyi, zənginlik və əzəmətinə görə indi də insanı heyrətə gətirir.

Hər xalqın əcdadı tərəfindən yaradılan, vaxtilə öz övladlarına yadigar qalmış abidələr kimi, atropatenalılar da öz nəsillərinə olduqca qiymətli, zəngin maddi-mədəniyyət nümunələri, abidələr qoyub getmişlər. Lakin yadelli işğalçıların ardı-arası kəsilməyən hücumları nəticəsində Atropatenanın mədəni abidələri ciddi dağıntılara məruz qalmışdır. Tarixi abidələrin qorunub saxlanılması, onun nəsildən-nəslə çatdırılması çox mühüm dövləti əhəmiyyətə malikdir. Təəssüf ki, İranda şahlıq rejiminin baxımsızlığı nəticəsində bir sıra mədəniyyət nişanələri aradan getmişdir. Lakin qeyd etməliyəm ki, 1979-cu ildən etibarən İranda İran İslam Cümhurisinin tarixi abidələrə olan qayğısı nəticəsində xalqımızın olduqca qiymətli, tarixi və zəngin maddi mədəniyyəti, habelə abidələri dağılmaq təhlükəsindən xilas edilməklə bərabər, onların bir qisminin bərpa edilməsinə başlanmışdır.

Xalqımızın zəngin və mənəvi irsə malik olmasını bir sıra xarici ölkə alimləri də inkar etmir. Lakin bəzi qərb, xüsusən İranın burjua alimləri tərəfindən tariximizin təhrif edilməsinə yol verilir. Onlar Azərbaycan tarixini, Azərbaycan xalqının dilini və mədəniyyətini İran tarixi və mədəniyyəti içərisində "həll" etməyə səy göstərirlər. Onlar habelə Azərbaycanın tarixi sərhədlərini belə təhrif etməkdən çəkinmirlər. Cəmaləddin Fəqih, Cavad Məşgur, Mənucehr Mürtəzəvi, Ə. Yəzdi bu qəbil tarixçilərdəndirlər. Məhz buna görə də əsərdə tarixi faktlara əsaslanıb, saxtakarlara ciddi elmi cavab verməyə səy göstərilir.

İnsan cəmiyyətinin bütün dövrlərinə aid abidələr diyarı olan Atropatena hələ keçən əsrdən etibarən dünya tədqiqatçılarının nəzər-diqqətini cəlb etmişdir. Lakin Atropatena tarixini əhatə edən bu əsərdə ölkənin ictimai-iqtisadi tərəfindən istənilən səviyyədə tədqiq edilməmişdir.

Atropatenanın eramızdan əvvəl IV – eramızın VII əsrlər tarixini əhatə edən bu əsərdə ölkənin ictimai-iqtisadi və mədəni-siyasi tarixi araşdırılır.

Atropatena satraplığı iqtisadi-ictimai inkişaf səviyyəsi baxımından Əhəmənilərin digər satraplıqlarından fərqlənirdi: daha doğrusu, Atropatena

Əhəməni imperiyasını taxıl, ət, yun, minik atı və s. ilə təchiz edən əsas baza idi. Əhəmənilər, sonralar isə parfiyanlar, sasanilər həmişə apardıqları uzun-uzadı müharibələrdə Atropatena ərazisinin əlverişli strateji mövqeyindən istifadə etmiş, həm də öz ordularını buranın maddi və iqtisadi sərvətləri ilə təmin etmişlər. Təsadüfi deyil ki, Əhəməni imperiyasının süqutundan sonra məhz Atropatenada müstəqil dövlət təşkil edilmişdir.

Əsərdə mənbə və ədəbiyyatın, arxeoloji qazıntıların təhlilinə, ölkənin tarixi-fiziki coğrafiyasına, iqtisadi-ictimai və siyasi tarixinə, yerli əhalinin maddi-mənəvi mədəniyyətinə xüsusi diqqət verilmişdir.

İran tarixçilərindən M. Etimad əs-səltənə "Mirat əl-buldan", Cəmaləddin Fəqih "Aturpatakan və nəhzət-e milli", Cavad Məşgur "Təbriz tarixi" və "Azərbaycan tarixi" adlı monoqrafiyalarında Atropatenanın qədim dövr tarixinin bir sıra məsələlərinə toxunmuşlar. Həmin müəlliflər iqtisadi-ictimai problemlərin tədqiqindən yan keçərək elmə çoxdan məlum olan bir sıra məsələlər üzərində səthi olaraq dayanmışlar. C. Fəqih Atropatenanın tarixi sərhədlərini belə düzgün müəyyənləşdirə bilməmişdir.

Cavad Məşgur "Azərbaycan tarixi" və "Təbrizin tarixi" adlı əsərlərində öz həmkarlarının fikirlərini təkrar etmişdir. Ümumiyyətlə, İran tarixçiləri İranın qədim tarixini yazarkən istər-istəməz Atropatena tarixinə də toxunmuşlar. O cümlədən H. Pirniya "İran-e bastan", Ə. Kəsrəvi "Azəri ya Zəban-e bastan-e Azərbaycan", S. Nəfisi "Təməddün-e Sasani", Rəhimzadə Səfəvi "Tarix-e iqtisadi-İran", Əbülfəz Nəbii "Azərbaycan dər qələmrove islam" ("Məcəllə-e danişgədə-e əsəbiyyat və ülüm-e insani-e daneşgahe Firdovsi", Şəmare-e sevvom sal-e Cahardahhom (№54) Məşhəd, 1979) və başqaları öz əsərlərində səthi də olsa Atropatenanın siyasi tarixindən bəhs etmişlər. İranın qədim tarixinin Sasanilər dövrü ilə məşğul olan bir sıra Avropa tarixçiləri, o cümlədən A. Kristensen "Tarix-e Sasaniyan" əsərində ərəb və erməni müəlliflərinə istinad edərək Sasanilərin inzibati idarə sistemini geniş şərh etmişdir. Rus və sovet alimlərindən V. V. Bartold, G. A. İnostrantsev, A. E. Krımski, sovet tarixçilərindən M. M. Dyakonov, İ. H. Əliyev, Z. İ. Yampolski, Z. M. Bünyadov, A. Q. Perixanyan, V. Q. Lukonin, Ə. S. Sumbatzadə, K. H. Əliyev, T. M. Məmmədov, F. C. Məmmədova, S. Y. Qasımova və başqaları öz əsərlərində yeri gəldikcə Atropatena tarixinin bir sıra məsələlərinə toxunmuş və ya xüsusi tədqiqat əsərləri həsr etmişlər.

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə alaraq Atropatenanın ictimai-iqtisadi, siyasi və mədəni həyatı xüsusi tədqiqat obyekti olmamış və ilk təşəbbüs kimi oxuculara təqdim etdiyimiz həmin əsər Atropatena tarixinə həsr edilmişdir. Şübhəsiz, kitabda bəzi mübahisəli problemlər də öz yerini tapmışdır ki, bu problemlərin qəti həlli öz gələcək tədqiqatçısını gözləyir.

Kitabın çapa hazırlanmasında mənə yaxından köməklik etmiş Azərb. Respub. EA Tarix İnstitutu qədim dövr şöbəsi kollektivinə, əməkdar elm xadimi,

tarix elmləri doktoru S. B. Aşurbəyliyə və Qurbanov Rzaya təşəkkürümü bildirirəm.

## GİRİŞ

Azərbaycan tarixşünaslığında Atropatena tarixinin geniş tədqiq edilməsi müxtəlif dilli mənbə və ədəbiyyatın araşdırılması çətinlikləri ilə sıx bağlıdır. Lakin Sasani imperiyası haqqında istər Sovet İttifaqında, istərsə də xarici ölkələrdə xeyli tədqiqat əsərləri yazılmışdır. Atropatena Sasanilərin ən mühüm padkuslarından olduğuna görə onun iqtisadi-ictimai tarixi də həmin əsərlərdə işıqlandırılmışdır.

Tədqiq etdiyimiz dövrün (eramızdan əvvəl IV-eramızın VII əsrləri) öyrənilməsində ilk növbədə Atropatena ərazisində aparılmış arxeoloji qazıntıların nəticələrini araşdırmaq lazımdır. Lakin indiyə qədər Atropatena ərazisində planlı sürətdə arxeoloji qazıntı işləri nisbətən az aparılmışdır. Son vaxtlar yeni yolların və kanalların çəkilişi, müxtəlif tikintilərlə əlaqədar təsadüfi hallarda bir sıra maddi-mədəniyyət abidələri aşkar edilmişdir. Məsələn, Ərdəbil, Meşginşəhr, Maku, Mərənd, Sarab və digər ərazidə aşkar edilmiş tapıntıları nümunə göstərmək olar.

Atropatena tarixinin öyrənilməsində Baruc, Gənctəpə, Təxt-e Süleyman, Muğan, Ərşə mahalı, Germi və Sarab qazıntıları böyük əhəmiyyətə malikdir.

Baruc qalası Mərənd şəhərindən 12 km aralıda yerləşir. Orada qala aşkar edilmiş, qaladan külli miqdarda tapılmış dəmir alətlər, saxsı qablar, habelə zinət şeylərinin tədqiqi həmin qalanın Atropatena dövrünə aid olduğunu sübut edir. Maraqlı burasıdır ki, Baruc qalasının materialları Ərşə və Germi mahallarından tapılmış materiallarla eyniyyət təşkil edir. Ərşədən tapılmış materiallar Atropatena tarixinin iqtisadi-ictimai inkişaf səviyyəsini öyrənməyə imkan verir. Bu ərazidə aşkar edilmiş küp qəbirlər Albaniya (Mingəçevir və s.) küp qəbirləri ilə nəinki oxşar, bəlkə də dövr və material baxımından eynidir. Germi qazıntılarından (Ərşədə) tapılan zinət və saxsı məmulatlar eramızın I – III əsrlərində Atropatenada sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyini söyləməyə imkan verir.

Tarixi mahal olan Ərşə vilayətinin etimologiyasını Arşakilərlə əlaqələndirmək bir daha məqsədəuyğundur. Biri digərinə yaxın olan Ərşə və Germi mahalları Savalan dağının şimalında, Qaradağ silsiləsinin Talış dağları ilə birləşdiyi ərazidə yerləşir. Parfiyan kəndlərində (Germi rayonu) aparılmış arxeoloji qazıntılar bu ərazidə 3 növ qəbir tipinin mövcud olduğunu aşkar etmişdir. I tip qəbirlər (e.ə I və eramızın I əsri).

I tip: Düzbucaqlı tip 1,50 m dərinliyində 2-2,5 m uzunluğa malik olan bu qəbirlər böyük daşlarla tikilirmiş. Üstünə isə bir və ya bir neçə iri daş qoyulurmuş. Qəbrin içi qırla suvanmışdır. Ölünün ayaq tərəfində tikilmiş daxmaca balaca qapı vasitəsi ilə qəbir ilə birləşdirilmişdir. Ölünün istifadə etməsi üçün daxmaya kasa, kuzə, cam, şərab və başqa hədiyyələr qoyulurmuş. Dəfn edilənin baş tərəfində düşmənlə mübarizə etmək üçün xəncər, qılınc, gürz kimi silahlar qoyulurdu.

Qadınların yanına isə zinət şeyləri: sırğa, üzük, boyunbağı, sürmə, vəsmə, ənlikləri döymək üçün həvəng, bəzənmək üçün güzgü, xörək bişirmək üçün tabaq, müxtəlif qablar, habelə yun əyirici əşyalar qoyurdular. Həmin qəbirlərdən parfiyalıların çarı Ord və IV Fərhadın adına zərb edilmiş sikkələr də tapılmışdır.

II tip qəbirlər (e. 40 - 50-ci illəri). Tədricən daş qəbirlərin aradan çıxması ilə yanaşı böyük və kiçik küplərdən də ölünün dəfn edilməsində istifadə edilirdi. Küplər kərpic rəngli olmaqla onların palçıqları yaxşı bişirilir, həm də olduqca möhkəm hazırlanırdı. Bu küplər 1,80 sm uzunluğa, 1,20 diametrə, ağız tərəfdən isə diametri 1,60 metrə bərabər idi. Uşaqlara aid olan küplər 90 sm uzunluğa, 60 sm ağızları isə 30 sm diametrə bərabər idi. Bu tip qəbirlərdə ölünü küplərə qoyub, ağzına isə bir, ya iki yastı sal daş parçası qoyduqdan sonra gəcdən hazırlanmış palçıqla onu suvayırdılar. Həmin küpləri çay sahillərində olan yamaclarda yerin səthindən 2,5-dən 3 metrə qədər dərinlikdə basdırırdılar.

Küp qəbirləri əvvəlcədən bir-birindən 1 – 1,5 metr aralı hazırlayıb, hər ölünü öz qəbrinə qoyurmuşlar. Qəbirlər təpələrin yamaclarında mağara formasında qazıldığına görə dövrümüzə qədər nisbətən toxunulmamış qalmışdır. Qəbirlərdən tapılmış sikkələr həmin abidələrin dövrünün dəqiq müəyyənləşdirilməsində əsas amildir.

III tip qəbirlər (137-191-ci illər). Bu qəbirlər təpə yamaclarının yuxarısından, 1 metr dərinliyində qazılması, həm də küplərin maili formada basdırılması ilə səciyyələnir. Bu qəbirlərdən külli miqdarda III Balaş adına zərb edilmiş sikkələr əldə edilmişdir. Bəzi küplərdə iki və ya üç nəfər dəfn olunmuşdur. Bu dəfn adəti onun həmin dövrdə müəyyən bir tayfa birliyinə aid olmasını sübut edir. Bu tip qəbirlərə Atropatenanın Gilan əyalətinin Əmliş rayonunda, habelə Albaniya ərazisində (Mingəçevir) aşkar olunmuşdur. Qadınlara aid qəbirlərdən tunc dəmirdən olduqca zövqlə hazırlanmış müxtəlif üzüklər də tapılmışdır. Üzük qaşları çox kiçik olsa da xüsusilə şüşə qaşlar üzərindəki insan, it, habelə quş təsvirləri çox sənətkarlıqla, nəfis formada hazırlanmışdır[1].

Təxt-e Süleyman (Qazaka) materialları dövrün iqtisadi-ictimai vəziyyətini öyrənmək baxımından daha əhəmiyyətlidir. Atropatenanın tarixinin araşdırılmasında Təxt-e Süleyman (qədim Qazaka) və Muğanda aparılmış (Cənubi Azərbaycan hissəsi) arxeoloji qazıntıların nəticələri mühüm əhəmiyyətə malikdir.

Təxt-e Süleymanda Almaniya və İran arxeoloqları tərəfindən aparılmış qazıntılar (1963, 1964, 1968, 1969-cu illərdə) nəticəsində əldə edilmiş materiallar tədqiq etdiyimiz dövrün iqtisadi-sosial və siyasi tarixinin, habelə inzibati bölgü, eləcə də idarəetmə üsullarının öyrənilməsində böyük elmi əhəmiyyətə malikdir.

Təxt-e Süleymanda 1958-ci ildə ingilis arxeoloqları tərəfindən aparılmış qazıntılar elm aləminə dəyərli materiallar verdi. Bu qazıntılar, Təxt-e Süleyman məhz Atropatenanın paytaxtı Qazaka (nisbətən sonrakı dövrlərə aid olan ərəb

---

[1] Kambəxşfərd. Göstərilən əsəri, s. 10.

mənbələrində Cənzə) olduğunu bir daha sübut etdi. Hələ XIX əsrin ortalarında ingilis zabiti H.K. Raulinson (1810 – 1895) Qazaka şəhərinin müasir Təxt-e Süleyman ərazisində olduğunu güman etmişdir[2].

Sonralar Cekson, Hertsfeld və digər alimlər də onun fikrini təsdiq etmişlər. Nəhayət, Fondrasten və Almiker 8 il İran arxeoloqları Mahmud Rad, Əli Hakimi və Ələkbər Sərfərazın iştirakı ilə burada qazıntı işləri aparmışlar. Nəticədə isə Azərgəşəsp atəşgədəsinin möhtəşəm binasını aşkar etdilər. Bu atəşgədə binasının aşkar edilməsi Qazaka (Şiz) şəhərinin bu ərazidə yerləşdiyi fikrini bir daha təsdiq etmiş oldu. Bundan başqa Qazaka şəhərinin vaxtilə müdafiəsi üçün parfiyalılar dövründə tikilmiş qala divarları da aşkar edilmişdir. 27 bürcə malik olan bu müdafiə divarı şəhər ətrafını üzük qaşı kimi mühasirə etmişdir. Qalanın iki böyük (şimal və cənub) darvazaları nisbətən salamat qalmışdır. Qala divarlarının tikinti texnikası mütəxəssislər tərəfindən araşdırılmış və onun parfiya dövründə tikilməsi müəyyənləşdirilir. Plutarxa görə Antoni Atropatenə hücum etdikdə o, Fraataya gəlmişdir. Dion Kassi (XXXX – X, 25) bu şəhəri Praaspa adlandırır. Lakin o, bu şəhərin ölkənin hansı səmtində yerləşdiyini göstərmir. Vaxtilə Strabon Atropatenanın iki paytaxt şəhəri olduğunu qeyd etmişdir. Onlardan qış iqamətgahı Vera, yay iqamətgahı isə Qazaka olmuşdur. Qazakanın Araz çayından 2400 stad aralı yerləşdiyi qeydə alınmışdır. O, şəhərin düzənlikdə yerləşdiyini qış iqamətgahı, Veranı isə ətrafında möhkəm qala olduğunu göstərir. Hansı ki, Antoni bu şəhəri hücumla ala bilməmişdir. Tədqiqatçılar bu şəhərin yerini müəyyənləşdirməkdə çətinlik çəkirdilər. Lakin Azərgəşəsp və qala divarlarının aşkar edilməsi bu fərziyyələrə son qoyub, şəhərin Urmu gölünün ətrafında olmasına heç bir şübhə qoymadı. Beləliklə, Atropatenanın 350 ildən artıq paytaxtı olmuş Qazaka şəhərinin dəqiq yeri müəyyənləşdirildi. Bir sıra tədqiqatçılar Atropatena hakimlərinin yay iqamətgahını Ərdəbildə, qış iqamətgahının isə Marağa şəhərinin yaxınlığında olan Leylanda olduğunu iddia etmişlər (Markart, Minorski və başqaları). Görünür, bu alimlər Ərdəbilin soyuq iqlimə malik olduğunu nəzərə alıb bu fikrə gəlmişlər. Lakin Ərdəbilin mərkəzdən uzaqda yerləşməsi və sərhəddə yaxın olması heç bir vaxt onun paytaxt olmasına imkan verməzdi. Deməli, vaxtilə Strabonun irəli sürdüyü fikir həqiqətə daha müvafiqdir.

Vera şəhəri isə indiki müasir Marağanın yaxınlığında olmuşdur. 36-cı ildə Antoni 100 min nəfərlik ordu ilə məhz Qazaka şəhəri ətrafında atropatenalılar tərəfindən məğlubiyyətə uğradılmışdı.

Qazıntı zamanı aşkar edilmiş qala divarları ellips formalıdır. Gölün suyundan istifadə etmək üçün 7 su kanalı da aşkar edilmişdir. Bu kanallar vasitəsilə yaxınlıqda olan əkin sahələri suvarılırdı. Qazaka gölü ölkənin iqtisadiyyatında mühüm rol oynayırdı. Bundan başqa bu ərazidən müxtəlif dövrlərə aid silahlar, zinət əşyaları, saxsı məmulatı, möhürlər və s. də əldə

---

[2] Raulinson H.K. Atropaten şəhərləri haqqında qeydlər – Ekbatan, Kral coğrafiya cəmiyyətinin jurnalı, Paris, 1940, X. s. 65 – 158.

edilmişdir. Bu ərazidən bir sıra qiymətli maddi-mədəniyyət nümunələri də aşkar edilmişdir. Möhürlər ticarət müqavilələrində mühüm rol oynamışdır. Təxt-e Süleyman qazıntılarına alman, ingilis və fars dilində irihəcmli tədqiqatlar həsr edilmişdir. Bu əsərlər Atropatena tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. İran arxeoloqu Ələkbər Sərfəraz "Təxr-e Süleyman" qazıntıları haqqında farsca irihəcmli bir əsər yazmışdır. O, bu əsərdə Qazakanın təbii, fiziki coğrafiyasını, şəhərin tarixini və Azərgəşəsp atəşgədəsinin mühüm dini rolunu izah etmişdir. Lakin əsərdən tənqidi surətdə istifadə etmək lazım gəlir. Ümumiyyətlə, Atropatena tarixini tədqiq etdiyimiz dövrdə (eramızdan əvvəl IV – eramızın VII əsrləri) Ələkbər Sərfərazın "Təxt-e Süleyman" adlı kitabının mühüm əhəmiyyəti vardır.

Qazaka şəhəri dövrün mühüm ticarət yolu üzərində yerləşirdi. Bu şəhər həm də Sasanilərdən xeyli əvvəl, hələ Parfiya vaxtından atəşpərəstlərin əsas dini mərkəzi idi. İran ərazisində olan başqa atəşgədələr müqəddəs odu öz atəşgədələrinə buradan aparırdılar.

Muğan arxeologiyası: İran arxeoloqları Muğanın Germi mahalında (parfiyan kəndləri) qazıntı işləri aparmışlar. Arxeoloqlar qazıntı işləri zamanı bu ərazidən parfiyan dövrünə aid külli miqdarda maddi-mədəniyyət abidələri aşkar etmişlər. Bu abidələrin (xüsusilə küp qəbirlər mədəniyyəti) öyrənilməsi Atropatena tarixinin araşdırılmasında mühüm əhəmiyyətə malikdir.

Eramızın I əsrinə aid olan bu qəbirlər Mingəçevir ərazisində aşkar edilmiş küp qəbirlərlə eyniyyət təşkil edir. Bu fakt bir daha sübut edir ki, vaxtilə hər iki ərazinin sakinləri eyni etnik mənşəli olmuşlar. Qazıntılar zamanı parfiyan kəndləri ətrafında olan təpələrdən külli miqdarda Valagez, Fraat, Mitridad tərəfindən vaxtilə zərb edilmiş parfiyan sikkələri, zinət şeyləri, toxuculuq alətləri və məişətdə işlənən saxsı məmulatı və s. aşkar edilmişdir. Öz növbəsində Muğanın Germi mahalında aparılmış qazıntıların da Atropatenanın iqtisadi-ictimai tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Meşginşəhr yaxınlığında aşkar edilmiş Sasani şahı Nersi tərəfindən yazdırılmış kitabənin də dövrün siyasi tarixinin öyrənilməsində mühüm tarixi əhəmiyyəti vardır. Ərdəbil, Maku, Sarab, Təbriz və Mərənd ətrafında təsadüfi hallarda tapılmış maddi-mədəni abidələr də öz növbəsində Atropatena tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Məntəqənin vaxtilə iqtisadi-ictimai cəhətdən inkişaf etmiş dövlətlərindən biri olmuş Atropatenanın bu ərazisi Azərbaycan xalqının təşəkkül tapmasında böyük rol oynamışdır.

III Daranın Qavqameldəki məğlubiyyətindən sonra Əhəməni imperiyasının şimal-qərb satraplığında müstəqil Atropatena dövləti yarandı. Antik müəlliflərdən Plutarx, Ammian, Marsellin bu ölkəni Atropaten Midiyası adlandırmışlar. Strabon isə bu ərazini kiçik Midiya adlandırmış, Atropatenanın başçılığı ilə Atropaten dövlətinin təşkil edildiyini göstərmişdir. Sasani hakimiyyəti dövründə bu ölkə Adərbadaqan, erməni mənbələrində Atropataqan, yaxud

Atərpataqan, ərəblərdə Adərbican, farslarda isə Azərbaycan və s. kimi qeyd olunmuşdur.

Polibinin yazdığına görə Midiyadan dağlar vasitəsi ilə ayrılan bu ölkə, Fasiddən Hirkan (Xəzər) dənizinə kimi geniş bir ərazini əhatə edir (Polib, V, 55). Strabona görə Matiana ilə Midiya arasında olan bu ərazinin hüdudlarında Spavta gölü yerləşir. Yay iqamətgahı Qazaka, qış iqamətgahı isə Veradır (XI, 13, 2, 3). Burada Kadusilər, amardlar, tapurlar, kurtilər və başqa tayfalar yaşayır. Çox güman ki, bu tayfalar qeyri-İrandilli avtoxton dilli tayfalar olmuşlar. Atropatena haqqında Sasani hökmdarı I Şahpurun tərəfindən (240-270) "Kəbeye Zərdüşt"də yazılmış kitabədən başqa qədim yazılan mənbə hələlik aşkar edilməmişdir. Kitabədə qismən də olsa Ermənistan, İberiya, Atropatena və Albaniya haqqında məlumat verilmişdir. Lakin yunan və latın dillərində olan antik dövr mənbələr Atropatena, onun yerli əhalisi və s. haqqında nisbətən ətraflı məlumat vardır. O cümlədən, tarixin atası Herodot, Miletli Hekatey, Strabon, Tatsit, Plutarx, Plini və başqalarının əsərlərində bu ərazi və onun sakinləri haqqında məlumata təsadüf edilir. Miletli Hekatey (e. ə. VI – V əsr) "Zemleopisanie" ("Yerin təsviri") adlı əsərində "Muk" tayfalarının Araz sahilində yaşadıqlarını qeyd etmişdir.

Hekateyin məlumatlarından parçalar qədim müəlliflərin əsərlərində qalmaqdadır. Skiflərin, Kimmerlərin Əhəməni dövlətinin satraplıqlarına olan yürüşləri, müklər, kaspilər, utilər və başqa tayfalar haqqında olan məlumatlara "tarixin atası" Herodotun (e. ə. 484 – 425) əsərində rast gəlmək olur.

Atropatena haqqında ilk dəfə ətraflı məlumat verən Strabon (e. ə. I eramızın I əsri) olmuşdur. Strabon Atropatenanın sərhədləri, əhalisi, təsərrüfatı, sakinlərinin etnik tərkibi, məşğuliyyəti, hərbi qüdrəti, qonşuları, adət və ənənələri barədə məlumat vermişdir. Şübhəsiz, Strabon Midiya haqqında özündən əvvəl yazanların məlumatlarına da biganə qalmamışdır.

Strabon Antoninin Atropatenaya hücumu zamanı onunla bu müharibədə iştirak etmiş dostları Apollonid və Delliyə istinad etmişdir.

İOSİF FLAVİ Roma-Parfiya münasibətlərindən bəhs etdikdə Midiya və Albaniyaya aid məsələlərə də toxunmuşdur.

Məşhur Roma tarixçisi Korneli Tatsit (55 – 117) "Tarix" və başqa əsərlərində Roma-Parfiya münasibətlərindən, Qafqazdan, Albaniya, İberiya və Ermənistan haqqında ətraflı məlumat vermişdir. Tatsitin əsərləri eramızın I əsrində baş vermiş siyasi hadisələri əhatə edir.

Atropatena tarixi haqqında (eramızın I – II əsrləri) məlumat verən görkəmli tarixçilərdən biri də Plutarxdır[3]. Plutarx Antoninin Atropatenaya olan hücumu haqqında ətraflı məlumat verir. Roma sərkərdəsi Krassın parfiyanlar tərəfindən məğlubiyyətə uğradılması və s. barədə ətraflı məlumat vermişdir. Onun məlumatına görə romalılarda olan cəza tədbiri həyata keçirilsə də (hər 10 nəfər

---

[3] Плутарх. «Сравнительные жизнописания», «Параллельные биографии, жизнь и дело замечательных людей в древности», том I – II, 1989.

əsgərdən birinin öldürülməsi) lakin bu tədbir nəticə verməmiş, ağır tələfata məruz qalan Antoni tezliklə və təcili surətdə Atropatena ərazisini tərk etməyə məcbur olmuşdur. Antoni Atropatenaya gəldiyi yolla deyil, başqa dağətəyi yolla geri çəkilmişdir.

Bu taktika romalıları böyük qırğından xilas etmişdir. Plutarx müharibədə iştirak edən şəxslərin adını, ordunun sayını göstərməyi belə unutmamışdır. Plutarx bu məlumatları müharibə iştirakçısı Delliyə istinad edərək yazmışdır.

Yunan və latın dillərindən vaxtilə rus dilinə tərcümə edilmiş tarixi və coğrafi əsərlərin Atropatena tarixinin öyrənilməsində mühüm rolu vardır. Bu barədə K. F. Qan, V. V. Latışev və P. F. Mişşenkonun tərcümələrinin Q. A. Stratanevskini xüsusilə qeyd etmək lazımdır. Onlar Polibinin, Diodorun, Strabonun, Tatsitin, İosif Flavinin, Arrianın, Ammian Marsellinin və digər antik müəlliflərin əsərlərini rus dilinə tərcümə etmişlər. Öz dəqiqliyi ilə seçilən həmin tərcümələr indi də öz elmi əhəmiyyətini itirməmişdir.

Eramızın III – VII əsrlərinə aid pəhləvi dilində yazılmış əsərlərdə Atropatena tarixinə aid ayrıca məlumatlar çox azdır. Sasani imperiyası haqqında olan materialları araşdırdıqda, orada Atropatenanın inzibati bölgüsü, hüquqi normaları, iqtisadi-sosial tarixinə dair məlumata da təsadüf edilir.

Ümumiyyətlə, yazılı mənbələrdə Atropatena tarixinə aid demək olar ki, yazılı mənbələrdə çox cüzi məlumat verilmişdir. Bəzi tədqiqatçılara görə hələ Avestadan əvvəl İran ərazisində istər yazılı və istərsə də şifahi halda xalq rəvayət, nağıl və əfsanələri mövcud olmuşdur[4]. Az da olsa "Avesta"da bəzən qədim adlara rast gəlmək olur ki, bu adlara sonrakı dövrlərdə yaranmış mənbələrdə təsadüf edilmir. Çox güman ki, Avestanın meydana çıxdığı dövrdə istər Azərbaycanda, istərsə də İranda qədim dövrə aid yazılı mənbələr mövcud olmuşdur. Görünür, o dövrün istər ruhani və istərsə də başqa siniflər arasında geniş yayılmış dastanlar, gözəl və təmtəraqlı cümlələrlə rəvayət halında şifahi formada xalq arasında söylənirmiş.

Azərbaycan – İran tarixinə aid olan dastanların oxşarlığı bu müddəanı sübut etmək üçün ikinci bir dəlil hesab edilə bilər. Əvvəllər, Avesta şifahi rəvayətlər şəklində qədim İran ərazisində yaşayan bir sıra tayfalar arasında nəsildən-nəslə keçmişdir. O, həmin tayfaların mifoloji və əxlaqi təsəvvürlərini əks etdirmişdir. Avestada yazılmış rəvayətlər öz tarixi kökü etibarı ilə çox qədimdir. Əkinçiliyə keçidin başa çatdırılması və tayfa quruluşunun dağılmasının başlanması dövrünə aiddir. Avestada əkinçi əməyinin mədh edilməsi də məhz bununla əlaqədardır. Qədim Azərbaycan tarixinin öyrənilməsində zorastizmin dini kitabı olan Avestanın rolunu qeyd etmək lazımdır. Şübhəsiz ki, Avestanın rəngarəngliyi, böyük keyfiyyəti, çox pilləli olması müxtəlif ərazi və habelə dövrlər haqqında ilk mənbədir[5].

---

[4] Teodor Nelbeke. Həmase hay-e milli İran, tərcümeyi Bozorqələvi. Tehran, 1325, s. 2.

[5] И. Алиев. История Мидии. Баку, 1960, s. 13

İ. Purdavudun göstərdiyinə görə qədim İrandan yazılı şəkildə iki yadigar qalmışdır. Onlardan biri İran yaylasının cənub-qərb sakinlərinin dilində mixi xətlə daşlar üzərində, ikincisi isə həmin ərazinin şimal-qərb sakinlərinin dilində yazılmış "Avesta"dır[6].

Müəllifə görə birinci kitabə (daş yazıları) soldan sağa, ikinci isə (Avesta) sağdan sola yazılmışdır. Avestanın ilk tədqiqatçısı Angüstil Düperron 1755-ci ildə Fransadan Hindistana gəlmiş, bu ölkəni 10 ay gəzdikdən sonra Sort şəhərində məskunlaşaraq 1760-cı ilə qədər bu şəhərdə yaşamışdır. O, sonralar burada Avestanı əldə edərək fransız dilinə tərcümə etmişdir. Müqəddəs külliyat olan Avesta Azərbaycanın qədim tayfalarından qalmış ən qiymətli yadigardır. Avestadan istifadə etməklə Atropatena tarixinin bir sıra məsələlərini araşdırmaq olar. Öz quruluşuna görə Avesta çoxtəbəqəli və müxtəlif mənbələrdən ibarətdir; burada təkrarlanan və eyni halda ziddiyyətli fikirlərdən də bəhs edilir. Avestanın istər dil xüsusiyyətləri, istər onun yazı üslubu, ayrı-ayrı fraqmentləri, rəngarəngliyi, onun Azərbaycan ərazisində toplanması xalqımızın qədim abidəsi sayılmasına imkan verir. Avesta Azərbaycanda qələmə alınmışdır, ona görə də Azərbaycanın qədim tarixinin araşdırılmasında bu külliyatın özünəməxsus yeri və mövqeyi vardır.

I Şahpurun əmri ilə "Kəbeye Zərdüşt"də Muğ Kartitin yazdığı kitabə III əsr Sasani imperiyasının inzibati bölgüsü və dövlət idarəetmə sistemində olan mürəkkəb məsələlərin aydınlaşdırılmasında elm aləminə çox məlumat vermişdir. Orada zərdüştilərə məxsus atəşgahlardan, habelə başqa dini görüşlərlə olan mübarizədən bəhs edilir. Müasir tədqiqatçıların həmin kitabəyə dair külli miqdarda tədqiqatları vardır.

I Şahpurun əmri ilə "Kəbeye Zərdüşt", "Nəqş-e Rüstəm", "Nəqş-e Rəcəb", "Səre Məşhəd" və başqa yerlərdə yazılmış kitabələrin tədqiqi də Atropatena tarixinin öyrənilməsində əhəmiyyətə malikdir.

Atropatena tarixinin öyrənilməsində pəhləvi dilində yazılmış mənbələrin olduqca mühüm əhəmiyyəti vardır. I Ərdəşirin (224-240) tapşırığı ilə onun vəziri Tanser Mazandaran hakimi Cəşnəsəf şaha məktub yazmışdır. Tanserin bu məktubu dövrün iqtisadi-sosial tarixinin öyrənilməsinə dair qiymətli mənbədir. Burada torpaq mülkiyyəti formaları, habelə silklərdən və vergi növlərindən ətraflı surətdə bəhs edilir.

"Tanserin məktubu" VIII əsrdə İbn Müqəffə tərəfindən ərəb dilinə tərcümə edilsə də təəssüf ki, nə bu tərcümə, nə də onun orijinalı bizə gəlib çatmamışdır. Lakin İbn İsfəndiyar "Tarixi Təbəristan" əsərini yazan zaman "Tanserin məktubu"nda oranın şahı Cəşnəsəfə yazdığına görə o, onun bir nüsxə ərəb mətnini tapıb fars dilinə tərcümə etmişdir. Bu məktubda dövlətin daxili quruluşu, şahənşahın məbədlər və əhali ilə olan münasibətindən bəhs edilir.

---

[6] İ. Purdavud. Qatha, Bombey, 1927, s. 44.

Tanser bu məktubda mövcud vergilərdən, torpaq mülkiyyətindən və ictimai təbəqələrdən ətraflı bəhs edir. Bu məktub bir sıra tarixçilərin nəzər-diqqətini özünə cəlb etmiş, haqqında sovet və Avropanın bir sıra tədqiqatçıları tədqiqat işi aparmışlar. Həmin dövrün mənbələrindən biri də "Karnamak-e Ərdəşir-e Papakən"dir. Tarixi roman formasında yazılmış bu əsərdə Sasanilərin hakimiyyət başına gəlməsi və parfiyalıların sonuncu hökmdarı Ərdavanın məğlub edilməsi, Habelə Sasanilər imperiyasının inzibati bölgüsü haqqında məlumat verilir. Əsər öz növbəsində dövrün iqtisadi-sosial tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Əsərdə Parfiya sülaləsinin sonuncu nümayəndəsi Ərdavanın hakimiyyətdən əl çəkib qaçması, Avestanın Makedoniyalı İskəndər tərəfindən yandırılması və yeni sülalə olan Sasanilərin hakimiyyət başına necə və hansı yolla keçməsindən ətraflı surətdə danışılır. "Matakdani hazar datastan" adlı mənbə haqqında son illərdə Leninqrad şərqşünası A. Perixanyan tədqiqat işi aparmışdır. Bu əsərin öz növbəsində Atropaten tarixinin öyrənilməsində də mühüm əhəmiyyəti vardır. Əsərdə "şəhrik" və "anşəhrik", "Xastak", "dastakert" terminləri ətraflı işıqlandırılır, İran və Azərbaycan ərazisində süni suvarma kanallarının çəkilməsindən, onların kimlərə məxsus olmasından, habelə orada qulların əməyindən istifadə edilməsindən ətraflı surətdə danışılır. Sasanilər dövrünün hüquqi kodeksi olan əsərdə dövrün hüquqi normaları müəyyənləşdirilir. Bu dövr quldarlıq quruluşundan feodalizmə keçid dövrüdür. Ona görə də bu əsərdə hər iki quruluşun iqtisadi-ictimai və hüquqi normaları aydınlaşdırılır. Dünyanın bir sıra tarixçiləri, o cümlədən Sovet tarixçiləri bu əsərdən geniş surətdə istifadə etmişlər. Pəhləvi dilində yazılmış əsərlərdən biri də "Şatristanha-ye İran" əsəridir. Əsərin VIII əsrdə Bağdadın xəlifəsi əl-Mənsur tərəfindən bina edilməsi ilə əlaqədar redaktə edilmiş nüsxəsi bizə gəlib çatmışdır.

Markvartın dediyinə görə, "Şatristanha-ye İran" "Xvatay namaq" ilə əlaqədar olaraq əldə edilmişdir. Bu əsər qiymətli əsərdir. Adından da məlum olduğu kimi İran və Azərbaycan şəhərlərinin tarixinə aid olan bu əsər demək olar ki, yeganə mənbədir.

Əsərdə Qanzak (Qazaka) – Atropaten dövlətinin paytaxt şəhərindən və habelə Bağdaddan bəhs edilir. Bu əsər XIX əsrin sonundan tədqiq edilməyə başlanmış, sonralar müxtəlif dillərə tərcümə edilmişdir. Əsərdə ticarət yolları haqqında da məlumatlara təsadüf edilir.

Pəhləvi dilində yazılmış "Ardavirafnamə", "Şəkand-e kamanik", "Şətrənc" adlı əsərlərin də mühüm elmi əhəmiyyəti vardır. "Xosrov Ənuşirəvanın öz yaxın adamlarına məktubu" adlı əsərdə qədim Azərbaycanın sərhədləri şimaldan Dərbənd, cənubdan isə Həmədana qədər olan əraziləri əhatə etdiyi göstərilir. Azərbaycanın tarixi sərhədlərinin müəyyənləşdirilməsi üçün mühüm elmi əhəmiyyətə malikdir.

Atropatena tarixinin öyrənilməsində I Şahpurun tərəfindən yazdırılmış kitabənin də öyrənilməsi vacibdir. Bu kitabədə bir sıra inzibati və siyasi bölgülərin adı çəkilir. Bundan başqa Kartir tərəfindən yazılmış "Kəbeye Zərdüşt", "Sər Məşhəd", "Nəqşe Rəcəb" və başqa kitabələrin araşdırılması da məqsədəuyğundur.

Pəhləvi dilində olan bir sıra mənbələrdə Zərdüşt dini, Atropatenanın bu dinin mərkəzi olması ilə əlaqədar ölkənin təbiəti, faydalı qazıntıları, şəhərləri, çayları, gölləri, dağları, habelə münbit torpaq sahələri haqqında məlumata təsadüf edilir. Nəhayət, ərəb xilafəti dövründə Atropatena, Ermənistan və Gürcüstanla maraqlanan bir sıra coğrafiyaşünas, tarixçi və səyyah Azərbaycana gəldikdən sonra bu ölkənin təbii-fiziki coğrafiyası, faydalı qazıntıları, yerli əhalisi, istehsal edilən mallar, habelə bu ərazinin məhsuldarlığına dair qiymətli məlumatlar vermişlər. Onlardan IX – XII əsrlərdə yaşamış Məhəmməd Təbəri, əl-Məsudi, əl-İstəxri, əl-Müqəddəsi, İbn Hövqəl, İbn Fəqih, İbn əl-Əsir, əl-Yəqubi, Yaqut Həməvini və b. göstərmək olar. Bu müəlliflər tədqiq etdiyimiz dövrdən bir neçə əsr sonra yaşayıb-yaratsalar da, onların əsərlərində Atropatenanın fiziki coğrafiyası, təbiəti, ölkənin iqtisadi-ictimai və siyasi tarixinə aid külli miqdarda məlumata rast gəlirik.

Qədim erməni müəlliflərinin əsərlərində də Atropatena tarixinin öyrənilməsinə aid qiymətli tarixi və coğrafi faktlar vardır. Bu müəlliflər Ermənistan tarixini yazarkən istər-istəməz Atropatena, İran və digər qonşu ölkələrin tarixinə də toxunmuşlar.

Aqafangel, Yeqişe, Favst, Buzand, Movses Xorenatsi, Sebeos, habelə alban (Qafqaz) tarixçisi Movses Kalankatvatsi və başqaları Atropatenanın şəhərləri, iqtisadi-ictimai və siyasi tarixi, təbii sərvətləri və s. haqqında olduqca dəyərli fikir söyləmişlər.

Atropatenanın tarixi haqqında ərəb və farsdilli mənbələrin də araşdırılması mühüm elmi əhəmiyyətə malikdir. Azərbaycan, eləcə də Zaqafqaziya ərəblər tərəfindən işğal edildikdən sonra həmin əsərlərin müəllifləri Azərbaycan, Gürcüstan və Ermənistanı hərtərəfli öyrənməyə başlamış və hər üç ölkəni "Ərməniyyə" adı altında tədqiq etmişlər. Ərəb tarixçilərindən Təbəri (IX – X əsrlər) özünün "Tarixi Təbəri" əsərində Sasani dövrünün iqtisadi-siyasi tarixini yazan zaman əsərinin çox mühüm hissəsini Azərbaycana həsr etmişdir. O, öz əsərində Azərbaycanın qədim ölkə olmasını göstərmiş, onun iqtisadi-ictimai və siyasi tarixi haqqında qiymətli məlumat vermişdir. "Xudaynamə"yə əsaslanan Təbəri Azərbaycanın mükəmməl siyasi tarixini verə bilmişdir. Lakin onun Azərbaycanın qədim tarixi haqqında olan məlumatı o qədər də dövrə uyğun gəlmir. İstər-istəməz onun fikirlərinin hansı mənbədənsə götürüldüyü nəzər-diqqəti cəlb edir. Görkəmli ərəb coğrafiyaşünası Məsudi (X əsr) "Müruc əl-zəhəb və əl-məadin əl-cövhər" əsərində Azərbaycanın faydalı qazıntılarından, təbii coğrafi şəraitindən, habelə siyasi tarixindən ətraflı məlumat vermişdir. Məsudi Qanzak şəhəri ətrafında qiymətli daş-qaş, neft və digər faydalı qazıntıların olduğunu qeyd edir. Məsudinin Qazaka (Şiz) şəhəri, Azərgəşəsp atəşgədəsi və habelə Zərdüşt haqqında olan

məlumatları olduqca qiymətli faktlardır. Ona görə də təsadüfi deyildir ki, indiyədək tədqiqatçılar Məsudinin əsərlərindən istənilən qədər istifadə edə bilmişlər.

Azərbaycanda yaşayan əhalinin dili, onun şəhərləri və təsərrüfatı haqqında məlumat verən Yaqut Həməvi, İstəxri, İbn Hövqəl, Yəqubi, İbn əl-Əsir, İbn Kəlbi və başqaları Azərbaycanın iqtisadi-siyasi və ictimai həyatı haqqında həqiqətən dəyərli faktlar irəli sürmüşlər. Onlar Azərbaycanın şəhərləri, ticarət yolları, çayları, dağları və yerli əhalisinin mənşəyi, habelə qədim dili haqqında antik tarixçilərdən daha irəli gedib qiymətli mülahizələr irəli sürmüşlər.

Məlum olduğu kimi böyük fars şairi Firdovsinin (X əsr) "Şahnamə" əsəri qədim "Xudaynamə"yə əsasən yazılmışdır. Firdovsinin 60 min beytdən ibarət olan bu əsərində Azərbaycanın qədim tarixi, şəhərləri, siyasi-iqtisadi məsələləri, Avesta, Zərdüşt, Azərgəşəsp atəşgədəsi haqqında dəyərli məlumat vardır. Poetik təfəkkür məhsulu olsa da bu əsər başdan-başa tarixi məlumatlarla doludur. Firdovsi "Şahnamə" əsərində Sasanilər imperiyasının siyasi vəziyyətini şərh edən zaman müəyyən münasibətlərlə əlaqədar Azərbaycanın da siyasi hadisələrinə toxunmuşdur. Şəhristaninin (XII əsr) əsərində də Atropatena tarixinə aid geniş məlumat vardır. Orada torpaq mülkiyyəti formaları, vergilər, mədəniyyət, ideologiya, Zərdüşt və Avesta haqqında ətraflı məlumatlar verilmişdir.

Həmdullah Qəzvini (XIII əsr) orta əsr müəllifi olmasına baxmayaraq özünün "Nüzhət əl-qülub" əsərində Azərbaycanın əyalət və vilayətləri, iqtisadiyyatı, qədim şəhərləri, qalaları, ticarət yolları və s. haqqında dəyərli məlumat vermişdir. Onun Ruindej, Ərdəbil haqqında olan məlumatı çox güman ki, Roma və latın tarixçilərinin əsərlərindən iqtibas edilmişdir.

Sovet tarixçilərinin və habelə xarici müəlliflərin əsərlərində Sasanilər dövrünün siyasi, iqtisadi və ictimai tarixinə dair külli miqdarda məlumata rast gəlmək olar. Bəzi tədqiqatçılara görə İran tarixşünaslığında İranın qədim tarixi səthi işıqlandırılmışdır. N. K. Belovanın son illərdə İran tarixçiləri haqqında nəşr etdirdiyi məqaləni nümunə göstərmək olar. N. K. Belovanın fikrincə, İran tarixçilərinin əsərlərində tarixi dövrlərin elmi təhlili, ölkənin iqtisadi-ictimai və siyasi təhlilinə təsadüf edilmir. İran tarixçilərindən Cəmaləddin Fəqih, Cavad Məşkur, Əli Sami, Əbülfəzl Nəbii, Rəhim Hüveyda, Seyid Əhməd Kəsrəvi, Seyid Həsən Tağızadə, Səid Nəfisi, ədəbiyyatçılardan Purdavud İbrahim, Məhəmməd Müin, arxeoloqlardan Mahmud Rad, Əli Hakimi, Ələkbər Sərfəraz və başqaları İranın qədim dövrünün müəyyən problemlərini tədqiq etmişlər. Bu göstərdiyimiz tədqiqatçılar öz əsərlərində Atropatenanın sərhədləri, faydalı qazıntıları, şəhərləri, tarixi coğrafiyası, sakinlərinin etnik tərkibi, dili, dini görüşü, Avesta, xüsusilə onun maddi-mədəniyyəti, habelə siyasi tarixi haqqında da ətraflı məlumat vermişlər.

XIX əsrin sonu və XX əsrin əvvəllərində A. Kristensen Sasanilər dövrü haqqında dövrünə görə bütün mənbələri gözdən keçirib fundamental tədqiqat əsəri yazmışdır. A. Kristensen həmin əsərində Sasanilər imperiyasının kusti olan Atropatena haqqında da bir sıra dəyərli məlumat vermişdir. Lakin o, I Şahpurun

“Kəbeye Zərdüşt” və “Nəqşe Rüstəm”də olan kitabələrindən lazımi səviyyədə istifadə edə bilməmişdir. II dünya müharibəsindən sonra tarixi kitabələr dəfələrlə tədqiqatçılar tərəfindən yenidən araşdırılmış və ilk tədqiqatlarda qaranlıq qalan mətnlər oxunulmuşdur. Şahpur tərəfindən yazdırılmış kitabələr Sprinqli tərəfindən oxunub şərh edilmişdir. İran arxeoloqu Əli Sami Sasanilərin mədəniyyəti haqqında əsər yazdıqda Sprinqlinin tədqiqatından istifadə etmişdir. Sovet tarixçisi M. M. Dyakonov “Очерк истории древнего Ирана” adlı əsərində I Şahpurun kitabələrindən istifadə etmişdir. Son vaxtlarda “İranın irsi” adlı əsərin müəllifi R. Frayın göstərdiyinə görə hələ I Şahpurun dövründə Sasanilərin vahid inzibati bölgüləri olmamışdır. V. V. Bartold, K. A. İnostrantsev, A. E. Krımski də Sasanilər dövrünün bir sıra məsələləri barədə əsərlər yazmışlar. Görkəmli şərqşünaslardan N. V. Piqulevsskaya, İ. H. Əliyev, M. M. Dyakonov, İ. M. Dyakonov, V. Q. Lukonin, A. Q. Perixanyan, Z. İ. Yampolski, Ə. S. Sumbatzadə, F. M. Məmmədova, K. H. Əliyev, A. H. Fazili, T. M. Məmmədov, Ə. Süleymani, S. Y. Qasımova və başqaları Atropatenanın bir sıra problemlərinə dair tədqiqat aparmışlar. Yeri gəlmişkən biz göstərdiyimiz tarixçilərin əsərlərindən istifadə edəcəyik.

Müəllifin 1970 və 1984-cü illərdə “Elm” nəşriyyatı tərəfindən buraxılmış “Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında” və “Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında” adlı tədqiqatlarında da Atropatena tarixinin öyrənilməsinə xüsusi diqqət verilmişdir.

1983-cü ildə S. Y. Qasımovanın rus dilində nəşr etdirdiyi “Cənubi Azərbaycan III – VII əsrlərdə” kitabı da tədqiqat prosesində nəzərdən qaçmamışdır. Azərbaycan Respublikası EA müxbir üzvü İ. H. Əliyevin 1989-cu ildə çap etdirdiyi “Atropatena tarixinin oçerki” (rus dilində) monoqrafiyası Atropatena ərazisində yaşayan etnik qrupların mənşəyinə həsr olunmuşdur.

İ. Əliyev Azərbaycan ərazisində yaranmış Atropaten dövlətinin təşkilindən, onun iqtisadi-siyasi yüksəlişindən, yadelli işğalçılara qarşı apardıqları müharibələrdən və nəhayət, atropatenlilərin dini əlaqələrindən bəhs edir.

# I FƏSİL

## ATROPATENANIN TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ

Atropatenanın təbii-coğrafi şəraiti haqqında mənbələrdə ətraflı məlumata təsadüf edilmir. Antik müəlliflərdən Strabon öz əsərində bu diyarın təbii, fiziki coğrafiyasının bir sıra məsələlərinə toxunmuşdur. Bundan başqa Polibi, Plini, Dion Kassi, habelə Antoninin dostu Delliyə istinad edən Plutarx bu ölkə haqqında məlumat vermişlər. Erməni dilli tarixçilərdən Aqafanqel, Favst Buzand, Movses Kalankatvatsi, Movses Xorenatsi və başqaları da Atropatenanın təbii-fiziki coğrafiyası haqqında məlumat vermişlər. Bir sıra müəlliflər istər İran, Ermənistan, Gürcüstan və habelə Albaniyanın təbii coğrafiyası məsələlərinə toxunduqda istər-

istəməz Atropatenanın da təbii-coğrafi şəraitinə toxunmuşlar. Zəngin təbii-coğrafi şəraitə malik olan bu ölkənin təbii zənginliyi qədim yunan, Roma, pəhləvi, erməni, ərəb və farsdilli mənbələrdə öz əksini tapmışdır. Əldə olan məlumatlar, arxeoloji tapıntıların nəticələri təsdiq edir ki, dağlıq ölkə olan Atropaten ərazisini zirvələri qarla örtülmüş Savalan, Səhənd, Büzgüş, Qaflantı, Bağro (Amard) və Zaqros dağları əhatə edir.

Ərdəbilin şimalında yerləşən Savalan dağı dəniz səviyyəsindən 4480 metr hündürlüyə malikdir. Savalan dağı qədimdən od püskürən vulkan mənşəli dağlardan biri olmuşdur. Onun səfalı çəmənlikləri, bol sulu çayları və güvara suya malik çeşmələri vardır. Bu dağ başdan-başa təbii-faydalı metallarla zəngin mədənlərə malikdir. Xüsusən bu dağdakı müalicə əhəmiyyətli mineral sular bir çox xəstəliklər üçün şəfa mənbəyidir. Mənbəyini bu dağdan alan Acı çay, Balıqlı, Nəştəri, Unar, Xiyov və başqa çaylar düzən torpaqların suvarılmasında tarixən böyük iqtisadi əhəmiyyətə malikdir. Lakin bu çaylar dağ çayları olduğundan onlarda forel və qızıl balıq da olduqca çoxdur.

Maldarların yaylaq zonasına çevrilmiş bu ərazidə minlərlə qoyun və iribuynuzlu mal-qara, xüsusən at ilxıları və dəvəçilik təsərrüfatı vardır. Şahsevən tayfası öz mal-qaralarını Savalan dağında yaylağa çıxarır. Hələ qədimdən bu dağ Atropatenanın tarixində iqtisadi-ictimai və strateji baxımdan mühüm rol oynamışdır.

Atəşpərəstlik ilə əlaqədar olaraq bu dağ zərdüştilər arasında müqəddəs məkan sayılarmış. Pəhləvi və digər mənbələrdə Savalan dağının müqəddəsliyi və Zərdüştün buradan öz ideologiyasını təbliğ etməsi haqqında əfsanələr yaradılmış, habelə külli miqdarda əsərlər yazılmışdır. Qeyd etmək lazımdır ki, bu dağ hazırda da xalq arasında müqəddəs sayılır.

Məlumdur ki, xalq arasında tarixi qəhrəmanlıq dastanlarında mənəvi, həmasi rütbəyə, əfsanəvi şan-şöhrətə malik olan insanlara və müqəddəs sayılan dağ və çaylara titul (ləqəb) vermişlər. O dağlardan biri Sultan Savalan, çaylardan isə Xan Arazı göstərmək olar.

Səhənd dağı Atropatenanın təqribən mərkəzi hissəsini təşkil edir. Onun qərbində yerləşən Urmu gölü tarixən müqəddəs göl sayılmışdır. Lakin suyunun həddən artıq şor olduğundan orada canlılar yaşamır. Göldən ancaq gəmiçilik və külli miqdarda duz əldə etmək üçün istifadə edirdilər. Qədim mənbələrdə Səhənd dağının da vaxtilə vulkandan əmələ gəlməsi haqqında məlumat vardır.

Səhəndin çəmənliklərində külli miqdarda mal-qara bəslənilir. Xüsusən onun Urmu gölünə yaxın ətəklərində vaxtilə dünyada məşhur olan Midiya atlarının ilxıları bəslənilirdi. Bu ilxı atlarından orduların süvari bölmələrində istifadə edilir, həm də qonşu ölkələrə ixrac edilirdi. Təbriz şəhəri bu dağın ətəyində yerləşir. Səhənd dağının sərt keçidləri mühüm strateji əhəmiyyətə malik olmuşdur. Yadelli işğalçılar dəfələrlə bu keçidlərdə məğlub edilib, tar-mar olmuşlar. Bu dağda da faydalı filiz mədənləri mövcuddur.

Bağro dağlarına gəldikdə isə bu dağ silsiləsi Savalan dağına paralel şəkildə davam edir. Bağro dağı keçmişdə Amard adlanırdı. Amard dağı kadus, gil, galış və nəhayət, Talış tayfalarının təsərrüfat həyatında, xüsusən orada maldarlığın inkişafına mühüm təsir göstərmişdir. Amard çayı Zaqros dağlarından mənbə alsa da bu ərazidən axır. Bu dağda Novur və Qaragöz adlı kiçik həcmli göllər vardır. Bağro dağı Xəzər dənizinin cənubunda olub, Ərdəbil ovlağını həmin dənizdən ayırır. Bu dağda mühüm strateji əhəmiyyətə malik olan keçidlər vardır. Bu dağın şimal yamaclarını qalın meşəliklər örtmüşdür. Meşələrdə qiymətli ağac növləri, o cümlədən palıd, dəmir ağac, qoz, qızılgöz və s. olduqca çoxdur. Nadir vəhşi heyvan növlərinə də bu meşələrdə təsadüf edilir: şir, pələng, bəbir və s. Xəzər sahilinin keçmiş sakinləri kaduslar (müasir talışların və galışların əcdadı) öz mal-qaralarını bu dağın geniş çəmənliklərində otarırdılar. Bu dağda saxlanılan qoyunların yunu keçmişdə dünya bazarlarında şöhrət tapmışdı. Xüsusən burada hazırlanmış xalça, kilim, palaz, xurcun, corab, kişi paltarlarında istifadə edilən rəngarəng şal (yundan toxunmuş parça növü) keyfiyyətinə və davamlılığına görə misilsiz idi. Meşə ağaclarından tabax, tikinti materialları, qaşıq, alaçıq çubuqları və s. hazırlanırdı. Qaradağ silsiləsini Araz çayı kiçik Qafqaz dağlarından ayırır. Qaradağ mahalı təbii zənginliyi və faydalı qazıntıları ilə fərqlənir. Qaradağ silsiləsi Ağrı dağ, Savalan və Talış (Bağro) dağları ilə birləşir. Orada çoxlu dəmir, mis, qurğuşun, neft, mərmər, tikinti daş mədənləri vardır. Onun çəmənliklərində Qaradağ və qonşu mahalların maldarları yaylayır. Tarixən Qaradağ mahalının yağı, yunu, yun məmulatı dünya şöhrəti qazanmışdır. Qaradağın ətəklərində dənli bitkilər, o cümlədən buğda, arpa, xüsusən yazlıq bitkilərdən mərci, noxud, lərgə, paxla olduqca çox məhsul verir. Bəzz qalası bu mahalda yerləşir. Babəkin ərəb işğalçılarına qarşı mübarizəsində bu qala mühüm rol oynamışdır. Qarasu (ona Dərəvurt da deyilir) çayı Qaradağ silsiləsini Muğan düzündən ayırır.

Atropatena ərazisində olan dağlardan biri də Büzgüşdür. Bu dağın adının etimologiyası çox güman ki, orada dağ keçisinin çox olması ilə əlaqədardır. Büzgüş dağ silsiləsi qərbdən Bağro dağı, şərqdən isə Savalan dağı ilə birləşir. Bu dağın da geniş çəmənlikləri, güvara suya malik çeşmələri və faydalı mədənləri olduqca çoxdur. Gərməri (Gərmrud), Həştəri, qismən də Yurdçu və Sarab mahalının maldarları bu ərazidə olan geniş otlaqlardan istifadə edirlər. Vaxtilə Urartu çarları Argişti və Menua bu ərazini ələ keçirmək üçün dəfələrlə buraya hərbi yürüşlər təşkil etmişlər. Büzgüş dağının Sarab mahalına yaxın olan ərazisində Urartu çarlarının kitabələri aşkar edilmişdir. Həmin kitabələrdə hərbi yürüşlər haqqında ətraflı məlumatla yanaşı, orada olan yaşayış məskənləri və çayları haqqında da məlumat verilir. Məhəmməd Həsənxan (XIX əsr) Əbu ishaq ibn Əliyə və İbn Müqəffaya əsaslanaraq, Azərbaycanın keçmiş sərhədlərini belə müəyyən etmişdir: “Azərbaycanın sərhəddi şərqdə Bərdə və qərbdə Zəncandır”[7]. Lakin M.

[7] M. Həsənxan. Mürat əl-buldan, Tehran, 1876, s.22.

Həsənxan Azərbaycanın sərhədlərini düzgün göstərməmişdir. Hətta, o, Azərbaycan dedikdə Atropatenanı nəzərdə tutsa da, Bərdə onun şərqində deyil, şimalında yerləşmiş olur. Eynilə Zəncan da Azərbaycanın qərbində yox, şərqində yerləşmişdir. M. Həsənxan qədim müəlliflərə istinad edərək yazır ki, Atropatena şimaldan Tarum dağı və Deyləm ölkəsi ilə həmsərhəddir. O, geniş bir ölkədir. Onun məşhur şəhərlərindən biri Təbrizdir. Bu, əzəmətli bir məmləkətdir. Atropatenanın çox hissəsi dağlıqdır. Bu məmləkətdə mühüm və faydalı olan çoxlu qala vardır. Onun meyvəsi boldur. Bu qədər bağlı-bağatlı, axar sularından daha çox bulaqları olan başqa bir yer görməmişəm[8]. Azərbaycanda elə bir çeşmə vardır ki, oradan çıxan su bərkiyir və daşa çevrilir. Əhali kərpic qəlibini həmin su ilə doldurur, az bir vaxt keçdikdən sonra onun suyu çöküb daş kərpic əmələ gəlir[9].

M. Həsənxana görə yunan və Roma tarixlərində qeyd edilən Midiya indiki Azərbaycandır.

Yaqut Həməvinin yazdığına görə Makedoniyalı İskəndərin dövründə Mazandaran dənizi Hirkan adı ilə məşhur idi[10]. Bəndhoşda "Zare" şorsu, dəniz mənasındadır. Zare fəraxrud "böyük dəniz" deməkdir. Avestada Xəzər dənizi "Zare ocistan" adlanmaqla Dird çayının da bu dənizə töküldüyü qeyd edilmişdir. Həmzə İsfahaniyə görə Sasanilərin dövründə Bakı dənizi "Akfuda dəryah" və yaxud "Dra Akfudə" adlandırılmışdır[11]. Dra və yaxud dəryah, hər ikisi dəniz deməkdir. M. Həsənxana görə Akfudə Badkubədir. M. Həsənxanın bu fikri inandırıcı deyildir. Ona görə ki, Badkubə termini tədqiqatçılar tərəfindən qəbul edilməmişdir. Bakı adı ehtimal ki, Baqavan – Baquan formasından əmələ gəlmişdir. Azərbaycan İranın tərkibində olan zaman onun paytaxt şəhəri ölkənin ikinci şahnişini sayılırdı. İstər əzəmətinə və iqtisadiyyatına, istərsə də əhalisinin sayına görə də Azərbaycanın paytaxtı olan Təbriz II şəhər idi. Atropatenanın ən böyük göllərindən biri Çiçəstdir. Antik mənbələrdə bu göl Kapudan adlanır. (Strabon, XI. 13) Kapud – müasir fars dilində olan Kəbudla eyni mənşəlidir. Dilçilik qanununa görə "P" hərfi tələffüzdə "B" ilə əvəz oluna bilər. Güman etmək olar ki, gölün suyunun rəngi həddən artıq göy olduğuna görə belə adlandırılmışdır. Ona görə ki, kəbud müasir fars dilində "göy" deməkdir. Bu gölə sonralar Urmu və Şah gölü deyilmişdir. Firdovsinin "Şahnamə" əsərində bu gölün adı "Xuncəst" formasında verilir. Halbuki, bu etimologiya düz deyildir. Ərəb və (İbn Hövqəl) fars mənbələrində (hüdud əl-aləm) bu gölü "Kəbuzan" formasında göstərmişlər. Əbul-Fida və Yaqut Həməvi bu gölü "Tila" adlandırır. Onun adlarından birində "Tila" qalasının olduğunu qeyd edirlər. Həmdullah Qəzvini isə bu gölə "Şor" dərya deyir. Avestada bu göl "Çiçəsta", mənası isə parıldayan, işıq saçan, işıldayan deməkdir (Aban yəşt 49 - 50). Suyunun tərkibində duz həddən artıq çox olduğundan, günəşin

---

[8] M. Həsənxan. Mürat əl-buldan, Tehran, 1876, s.22.
[9] Yenə orada
[10] Yenə orada
[11] Yenə orada

şüaları gölə düşdükdə onu parıltılı göstərir. Aban yəştin 49 - 50-ci fərqordunda (bölməsində) deyilir: qurusu möhkəm iradəli Siyavuşun oğlu Xosrovun hökmranlığı dövründə İran pəhləvanları (sərkərdələr) vüsətli və dərin Çiçəst gölünün sahillərində Anahitə 100 at, min öküz və 1000 qoyun gətirərək ondan şahın qüvvətli olub divlərə, pis niyyətli şəxslərə, müharibə meydanlarında düşmənlərə qalib gəlməsini diləmişlər. O, Turanlı Əfrasiyaba bu gölün sahilində qalib gəlməsini arzulamışdır. Bəndhüşün XVII fərqordun 7-ci paraqrafında deyilir: Azərgəşəsp Keyxosrovun şahlığına qədər daim dünyanın pənahgahı idi. Bu vaxt Keyxosrov üzdespar bütgədəsini Çiçəst gölündə viran etdi, müqəddəs od onun atının yalında aşkar olub qaranlığa qalib gəldikdə dünyanı işıq bürüdü. Müqəddəs od Asnavant dağında, Azərgəşəsp atəşgədəsində də şölə çəkib yanmağa başladı. XXII fərqordun birinci paraqrafında Çiçəst gölü Xarəzmdə olan Sovbar, Asvast, Satavis və Ürvis gölləri ilə müqayisə edildikdən sonra orada deyilir: mən təkrarən deyirəm ki, Çiçəst gölü Atropatkandadır. "Şatristanhaye İran" əsərində deyilir: "Atrupatkan patkustında olan Gəncək şəhərini Frasyak Turkert bina etmişdir. ("Şatristane Atrupatkan", İran guşnəspe Aturpatkan Spahpüt kərd").

"Aturpatkan padkustında olan paytaxt şəhəri Gəncəki Frasyak Turkert, Aturpatkanın spahbudu İran guşnəsp bina etmişdir". Həmdullah Qəzvini "Nüzhət əl-qülub" əsərində bir neçə dəfə bu gölün adını çəkmiş və onu Çiçəst adlandırmışdır. Təsuc, Salmas, Urmu, Marağa, Tufarqan, Sarab şəhərlərindən danışan müəllif onlardan axan çayların Çiçəst gölünə axmasından, dadlı və bol olan meyvələrindən, iqlim şəraitindən ətraflı bəhs etmişdir. Çiçəst elə bir göldür ki, onun suyu həddən artıq şor olmaqla suyunun tərkibində kükürd, zırnıx o qədərdir ki, onda üzmək mümkün deyildir. Bu göl okean səviyyəsindən 1294 metr, Urmu şəhərindən isə 1339 metr hündürlükdə yerləşir. Şimaldan cənuba gölün uzunluğu 140 kilometr, şərqdən qərbə eni 55 kilometr, səthi isə 5775 kvadrat kilometrdir. Sofi, Acı, Mordi, Cğatu, Qadır çay bu gölə axır. Bundan başqa gölün suyuna onun təkindən də qaynar bulaqların suyu qarışır.

Azərbaycanın qərbində Zaqraos dağları şimaldan cənuba uzanaraq cənub-şərqdə Omman dənizinə çatır. Mənbələrdə olan məlumata görə Urmu gölü hövzəsi, xüsusən Təxt-e Süleyman ərazisi (müasir Əfşar mahalı) qədim dövrlərdə faydalı qazıntıların ən bol olan yeri idi. Bu ərazidə mis, qalay, qurğuşun, civə, neft, qızıl və gümüş mədənləri də mövcud idi. Orta Asiyalı X əsrin ərəb səyyahı, qiymətli qaş-daş və habelə faydalı qazıntılar axtaran Əbu Dülaf kimi tanınan Məsər ibn əl-Mühəlhil məhz bu məqsədlə gəlib Azərbaycan ərazisinə çıxmış, oranın faydalı qazıntıları haqqında ətraflı məlumat vermişdir[12]. Urmu gölü ətrafında mərmər və bir növ tikintidə istifadə edilən "xara" daşı mövcuddur. Urmu gölünün suyu həddən artıq şor olduğundan burada canlılar yaşaya bilmir. Lakin gölün ətrafının

---

[12] Крачковский И. Шахразур в географическом словаре. Ялута и в записке Абу Дулафа. Изв. АН. Азерб. ССР 1950. № 5; Səfərnameye əbu dülaf dər İran ba təliqate V. V. Minorski, tərcümeyi Əbilfəz Tabatabai, tehran, 1342.

sakinləri hələ antik dövrlərdən burada külli miqdarda duz əldə edir və qonşu ölkələrə ixrac edirdilər. Zaqrosdan başqa Atropatena ərazisində vulkan nəticəsində əmələ gəlmiş Savalan və Səhənd dağlarını göstərmək olar.

Savalan dağının ətəklərində tapılan geoloji suxurlar sübut edir ki, bu suxurlar yerin dərin qatlarından bayıra çıxmışdır. Bundan başqa Savalan dağının ətəklərində mövcud olan külli miqdarda isti mədən sularının olması bu dağın qədimdə vulkan püskürməsi nəticəsində əmələ gəlməsinə sübutdur.

Atropatenanın çaylarına gəldikdə Araz, Qızılüzən (Amard) çaylarını göstərmək olar. Latın, Roma, pəhləvi və ərəb dilində bu çay haqqında məlumatlara təsadüf edilir. Araz və Qızılüzən çayları Xəzər dənizinə tökülür. Makedoniyalı İskəndərin dövründən hələ çox əvvəl Amu-Dərya Kaspi dənizinə axdığı üçün ticarət gəmiləri bu çay vasitəsi ilə Kaspi dənizinə, oradan isə Kür çayı vasitəsi ilə qərbə doğru gedirdi. Bu ticarət yolu Atropatena və Albaniyanı Uzaq Şərq, habelə əks istiqamətdə Qərb ölkələri ilə birləşdirirdi.

Urmu gölünün mərkəzində olan ada Tila və yaxud Şahi adası adlanır. Elxani hökmdarı Hülakünün (XIII əsr) məqbərəsi də bu adada yerləşirdi. Bir sıra İran hökmdarları tarixən öz xəzinələrini bu adada yerləşdirirdilər. Atropatenanın ən böyük dənizi Xəzər dənizi olmuşdur. Bu dəniz mənbələrdə müxtəlif formalarda öz əksini tapmışdır. Məsələn, yunan mənbələrində Kaspi və yaxud Hirkan, ərəblərdə Təbəristan, Qulzum, Xəzər, fars mənbələrində isə Mazandaran, Gilan dənizi formasında verilmişdir. Herodota görə qapalı olan bu su hövzəsinin okeanla heç əlaqəsi yoxdur. Avarlı qayıqla onun uzununu 15 günə, enini isə 8 günə qət etmək olar. Qədim müəlliflərdən Pomponi Mela (eramızdan əvvəl I əsrin 40-cı illəri) özünün “Yerin təsviri” əsərində Atropatena və Qafqaz Albaniyasını iqliminə görə beş zonaya bölür. O, bu ərazinin sakinləri və heyvanat aləmi haqqında məlumat verir. Onun əsərində Atropatena və Qafqaz Albaniyasında yaşamış tayfalardan, o ərazinin çayları, dağları haqqında məlumata təsadüf edilir. Əsərdə Kaspilərdən, kaduslardan, midiyalılardan və albanlardan danışılır. Bundan başqa o, dəfələrlə, yeri gəldikcə Kaspi dənizinin adını çəkir. Kaspi, yaxud Hirkan dənizi haqqında Qay Yuli Salin də məlumat vermişdir. Klavdi Eliana kaspilərin heyvanlar aləmi haqqında məlumat verir. Ona görə bu ərazidə öküz sürüləri və at ilxıları vardır. Bu ərazidən dəvələrlə Həmədana qurudulmuş balıq aparılmasını məhz Klavdi Elian xəbər vermişdir. Kaspilər həmin balıqları dənizdən və Kür-Araz çaylarından tuturdular. Kaspi dənizi istər Atropatena, istərsə də Albaniyanın iqtisadiyyatında mühüm əhəmiyyətə malik olmuşdur. Vaxtilə Kaspi tayfaları bu dənizdən, habelə ona tökülən Araz və Kür çaylarından külli miqdarda müxtəlif növlü balıq növləri (uzunburun, ağbalıq, qızılbalıq, kütüm, çəki və s.) ovlayırdılar. Bu balıqların bir hissəsini duzlayıb qurutduqdan sonra dəvələrə yükləyib Həmədan və digər şəhərlərə aparırdılar. Kaspilər balıqdan müxtəlif növlü, keyfiyyətli yapışqan hazırlayıb ölkədən ixrac edirdilər. Kaspilərin adlı-sanlı şəxsləri, ruhaniləri (muqlar) dəvə yunundan hazırlanmış paltar geyirdi. Zərifliyinə və keyfiyyətinə

görə burada olan dəvə yunu Milet yunundan geri qalmırdı. Kaspi dənizi sahilində olan digər xalq və tayfalar da bu dənizin təbii sərvətlərindən istifadə edirdilər. Kaspi dənizinin Makedoniyalı İskəndər dövründə hazırkı səviyyəsindən 150 ayaq yuxarı olduğunu qeyd edirlər. Atropatenanın Ermənistana yaxın olan hissəsi dağlıq və soyuqdur. Münbit torpağı, geniş düzənlikləri buğda, arpa tarlaları ilə örtülü, bəzi hallarda isə bir dəfə əkilib, iki dəfə məhsul verən Atropatena ərazisi olduqca bərəkətli idi. Xüsusilə Kaspi dənizinin dərinliklərindən qalxan rütubətli və yağmurlu buludlar bu ərazinin iqlim şəraitinə güclü təsir göstərən amillərdəndir. Digər tərəfdən zirvələri daima qarla örtülmüş Savalan, Səhənd, Ağrı və digər dağlardan başlanğıc alan bol sulu çaylar da öz növbəsində Atropatena ərazisinin istər məhsuldarlığına, istərsə də onun iqlim şəraitinə müsbət təsir edirdi.

Antik və ərəb tarixçilərinin verdikləri məlumata əsasən demək olar ki, Albaniya (ARRAN) əsasən müasir Şimali Azərbaycanın ərazisini təşkil edirdi. Antik tarixçilər bu ərazini Albaniya, ərəb müəllifləri isə Aran adlandırmışlar. Əvvəllər (Arran), sonralar Aran ərazisini şimal-şərqdən Dərbəndə, qərbdən isə Tiflisə, cənub və cənub-qərbdən Kür çayına qovuşan bir vilayət kimi tanıyırdılar. Sonrakı dövrlərdə Aranı Şirvan ilə Cənubi Azərbaycan, yəni Kür ilə Araz çayları arasında yerləşən bir əyalət kimi qeyd edirdilər. Bu ölkənin paytaxtı ərəblərdən əvvəl Qəbələ, sonralar isə Bərdə olmuşdur.

Məsud Keyhan Midiyanın sərhədləri haqqında deyir: Midiya "Avesta"da Raqa (yaxud Rey) şimaldan Xəzər dənizi, qərbdən Ermənistan, cənubdan Suz, şərqdən isə Ariya (Harayu) ilə sərhəd olmaqla, onun mərkəzi Ekbatan və yaxud Hənkmətan (müasir Həmədan) şahın yay düşərgəsi idi. Atropatena və yaxud Azərbaycan çəmənliklərində çox gözəl at ilxıları bəslənir ki, hər il qatır və qoyundan başqa onlardan külli miqdarda xərac əvəzinə İran şahlarının xəzinəsinə təqdim edilirdi[13].

İranın tarixçiləri, o cümlədən Ə. Kəsrəvi, Cəmaləddin Fəqih, C. Məşkur, R. İnayət və başqaları Azərbaycanın (Atropatenanın) hətta tarixi sərhədlərini belə düzgün göstərmirlər. Onlar mənsub olduqları sinfin ideologiyasına qulluq etmək xatirinə tarixi həqiqətlərə göz yumaraq onu saxtalaşdırırlar. Onlar ancaq Araz çayından cənubda yerləşən ərazini Azərbaycan (Atropatena) adlandırırlar. Halbuki qədim yunan və Roma tarixçilərinin verdikləri məlumata görə Atropatenanın şimal sərhəddi eramızdan əvvəl II əsrdən etibarən Kür çayı sahillərinə kimi uzanmışdır. VII əsrin erməni mənbələri həmin faktı təsdiq edir. Belə ki, onlar Kaspiananı (Paytakaran) inzibati nöqteyi-nəzərdən Atropatena ərazisinin tərkibinə daxil edir.

Pəhləvi dilli mənbələrdən biri olan "Rəftarname-ye Ənu-şirəvan be xameye xude u" adlı əsərdə I Xosrov (Ənuşirəvan 531 - 578) deyir: "Ölkənin şimalında olan əyalətləri və onların sakinlərini yaxından görüb tanış olmaq və şimaldan gözlənilən hücumların qarşısını almaq məqsədilə tikilmiş istehkamları

---

[13] Məsud Keyhan. Göstərilən əsəri, s. 13.

yoxlamaq üçün səfərə çıxdıq. Nəhayət, Həmədan və Azərbaycana tərəf hərəkət edib, Çul, Dərbənd və Firuz Xosrov şəhərinə çatdım. Köhnə şəhərləri abad edib, sərhədləri möhkəmləndirmək məqsədilə yeni-yeni qalaların tikilməsi əmrini verdim. Xəzər xaqanı mənim bu əraziyə gəlməyimi eşidib qorxuya düşdü[14]. Bu fakt göstərir ki, Həmədan şəhərilə Dərbənd arasında olan ərazi Azərbaycan adlanırmış. Atropatenanın şimal hissəsinin iqlimi mülayim və soyuğa meyllidir. Xüsusilə qışda hündür yerlərdə çox soyuq olur; onun ərazisi, ümumiyyətlə, məhsuldar və çiçəkli yaşıl otlaqlardan ibarətdir. Arran Atropatena daxilində bir ölkədir, orada qızıl və gümüş mədənləri vardır. Deyildiyinə görə, Qubad və Ənuşirəvan Arran və Ermənistanda 30-dan artıq şəhər tikdirmişdir. Onu bina edən isə Arran ibn Kəşlu Cim ibn Liti olmuşdur. Arran ölkəsi Atropatenanın bir hissəsidir. Bərdə şəhəri isə onun qəsəbəsidir. Kiçik şəhər olan Beyləqan, Bajgah, Gəncə, Şəmkur, Xunan nahiyəsi, Vərduqiyyə şəhəri, Tiflis, Qala, Şəki və Mübarəkə kəndi, Soğul Cəbəl və Sum batman, Sənar nahiyəsi, Bərdic şəhəri Şirvan nahiyəsi, Dərbənd, Lizan və Kərdvan şəhərciyi, Şirvan və Xəzər Dərbəndi bu nahiyədəndir[15].

Atropatena axar suları bol olan ölkədir. Gözəl və dadlı meyvələri, qırmızı boyağı, şalvar bağı, sumax, zili və xalçaları, ipəyi, tutu, bitkidən hazırlanmış rəngi, şabalıdı, qiymətli xəzi, zirəsi, yun paltarları və neft mədənləri vardır.

Atropatena ərazisində suyu bol olan çaylardan Türkiyənin Ərzrum dağlarından başlanğıc alan Araz çayını göstərmək olar. Antik mənbələrdə bu çayın adının müxtəlif formalarına rast gəlmək olur. Herodot göstərir ki, Matien dağından başlanğıc alan Araks çayı düzənlikdən keçərək Kaspi dənizinə tökülür[16]. Çayın adı yunan və latın mənbələrində Araks, ərəb mənbələrində isə əl-Ras formasında verilmişdir. Kür çayı da öz növbəsində Türkiyədən başlanğıc alır. Kurqis (İberiya) ərazisini keçdikdən sonra Arran ərazisinə daxil olur. Bu çayın da adının müxtəlif formalarına təsadüf edilir. Yunan mənbələrində Kiruc (Kura), İrandilli kitablarda Kuruş, ərəblərdə isə əl-Kur göstərilir. Bir sıra İran tarixçiləri bu çayın adını Əhəməni şahı Kirin adı ilə əlaqələndirirlər. Onların bu ehtimalı səhvdir. Deyildiyinə görə, Kür çayı əvvəllər ayrılıqda Xəzər dənizinə tökülürmüş. Sonrakı dövrlərdə isə çay öz mənsəbini dəyişib, indi Qalaqayın adlanan yerdə Araz ilə birləşmişdir.

Araz çayı ilə müqayisədə Kür çayı olduqca lal, sakit axır; ona görə də burada çay nəqliyyatından istifadə etmək mümkündür. Araz çayına gəldikdə isə, onun olduqca iti, sürətlə axması çay nəqliyyatının yaranıb inkişaf etməsinə mane olmuşdur. Lakin hər iki çay birləşdikdən sonra orada hər cür nəqliyyat vasitəsindən istifadə etmək mümkündür. İstər Araz və istərsə də Kür çayında müxtəlif balıq

---

[14] Rəftarname-ye Ənuşirəvan be xameye xude u. Tərcümə M. Şüştəri, jurnal “Bərrəsihaye tarixi”, № 5 – 6, Tehran, 1348, s. 86.
[15] Dehxuda. Lüğətnamə, s. 161.
[16] Herodot. Tarix, 202.

növləri mövcud olmuşdur. Antik müəlliflərin verdikləri məlumatda hər iki çay sahilinin sakinləri balıqçılıqla məşğul olub öz ehtiyaclarını ödədikdən sonra artıq məhsullarını qonşu ölkələrə ixrac etmişlər. Təsadüfi deyildir ki, dünyada qızılbalığın əsas məskəni Kür çayı sayılır. Bundan başqa, bu çaylarda ağ balıq, çəki, kütüm, azad, sif və digər balıq növləri yaşayır. Bir sıra tədqiqatçılar Kür məfhumunu "şıltaq", "nadinc" və s. kimi izah edirlər. Xalq arasında "kür" müəyyən ölçüdən çox olan suya da deyilir. Misal üçün, deyirlər ki, "bu su kürdür. Onda çimmək və ondan istifadə etmək olar".

Ümumiyyətlə, Kür çayından Atropatena ərazisinin bir hissəsi su ilə təmin edilirdi. Atropatena ərazisindən axan bol sulu çaylardan biri də Amard çayı idi. Bu çay öz adını vaxtilə sahilində yaşamış amard tayfasının adından götürmüşdür. Çay Zaqros dağlarından başlayıb Atropatena ərazisinin mərkəzi hissəsindən keçərək onun düzənliklərini su ilə təmin edirdi. Amard çayı da müxtəlif adlar daşıyır. Atropatenanın qərbində, Zaqros dağlarının ətəklərində Amard, ölkənin cənub-şərqində Qızılüzən, Xəzər dənizinə tökülən yerdə (gillərin yaşadığı ərazidə) isə Səfidrud adlanır. Bunlardan başqa Atropatena ərazisində indi Acı çay, Cığatu (Zərinərud) (Urmu gölünə tökülürlər), Maku çayı, Ağçay, Qoturçay, Mərənd çayı, Ərdəbil ərazisində Balıqlı çay, Ərşə mahalında Qarasu və Əhər çayı adlanan çaylar var idi. Ümumiyyətlə, Atropatena ərazisindəki dağlıqlar, gur və bol sulu çaylar, habelə yerin daim rütubətli olması bu ölkəyə münbitlik və bol məhsuldarlıq vermişdir ki, digər ölkələrlə müqayisə edilməzdir. Atropatenada məhsuldarlığın və meyvələrin çox olması burada torpağın çox münbit və bərəkətliliyini sübut edir. Ərazinin məhsuldarlığı, eləcə də ərazinin iqtisadi və ticarət nöqteyi-nəzərdən çox əhəmiyyətli strateji mövqedə yerləşməsi onu bir çox ərazilərdən fərqləndirirdi. Polibinin yazdığına görə atropatenalıların və onlarla qonşu olan xalqların ən qüdrətli, ən müdrik hökmdarı Artabazan olmuşdur. Midiya ilə yaxınlığında yerləşən Artabazanın ölkəsini ondan dağlar ayırır. Fasiddən yuxarı yerləşən onun bəzi hissələri Pont üzərində hökmranlıq edir. Bu ərazi Hirkan dənizinədək uzanır. Polibi Artabazanın dövründə demək olar ki, Atropatenanın təqribi olsa da sərhədlərini verə bilmişdir. Strabon isə Atropatenanın sərhədləri haqqında yazır ki, bu ölkə Ermənistan və Matianadan şərqdə, böyük Midiyadan qərb tərəfə və hər iki ölkədən şimala tərəf yerləşmişdir. Cənubdan o, Hirkan dənizinin çökəkliyinə yaxın əyalətlərlə və Matiana ilə həmsərhəddir[17].

Strabondan çox sonralar yaşamış ərəb coğrafiyaşünası İstəxriyə görə, Azərbaycan şərqdən Guhistan və Xəzər dənizi qərbdən Ermənistan, şimaldan Allan, Qabk dağları (Qafqaz - A. F.) İraq Cəzirəsi ilə həmsərhəddir[18]. Buradan məlum olur ki, Azərbaycanın şimal sərhəddi Qafqaz dağlarına qədər uzanırmış.

---

[17] Strabon. XI, 13, 2

[18] Əbu İshaq İbrahim əl-İstəxri, əl-Məsalik və əl-Məmalik. Tərcümə: İ. Əfşar. Tehran, 1240, s. 24-25.

# II FƏSİL

## ATROPATENANIN TƏSƏRRÜFAT HƏYATI

Yer kürəsinin gözəl təbii-coğrafi sahələrindən biri də Azərbaycandır. Bu ölkə tarix boyunca öz sərvətinin bolluğu və füsunkar təbiətinə görə başqa ölkələrdən fərqlənmişdir. Azərbaycan məhsuldar əkin sahələrinə, ucsuz-bucaqsız münbit çöllərə, yüksək zirvələri daima qarla örtülmüş dağlara, göz yaşı kimi duru, soyuq güvara suyu olan çeşmələrə, coşğun çaylara, habelə müxtəlif bitki növlərinə malikdir. Azərbaycan həm də bir sıra mədəni bitkilərin ilk məskəni olmuşdur. Bizim bu müddəamızı, ilk mənbələrlə birlikdə arxeoloji tapıntılar da təsdiq edir.

Azərbaycanlılar qədim dövrlərdən etibarən əkinçiliklə məşğul olan bir xalq olmuşdur.

Azərbaycanda zərdüşt dininin geniş surətdə yayılması və onun ehkamlarında əkinçilik və maldarlığın mədh edilməsi də həmin ərazidə əkinçiliyin və maldarlığın inkişaf səviyyəsinə təsir göstərən amillərdən biri olmuşdur. Bu səbəbə görə də təsadüfi deyildir ki, vaxtilə Zərdüştün özü əkinçilər peyğəmbəri adlandırılmışdır.

Avestanın hissələrindən biri olan "Vəndidat"da göstərildiyinə görə Zərdüşt Ahuraməzdaya müraciətlə belə bir sual verir: "Ey maddi dünyanın xəllağı (yaradıcısı) və ey yeganə olan pak allah. Torpağı şövqə gətirib münbitləşdirən dördüncü şəxs kimdir?" Çox güman ki, Zərdüştün dördüncü şəxsi göstərməkdə məqsədi IV təbəqə, yaxud sinif olan əkinçini xatırlatmaqdan ibarət imiş. Bu müraciətə Ahuraməzda belə cavab vermişdir: "Ən çox buğda-arpa, göy-göyərti istehsal edib ağac əkən, yanmaqda olan əkin sahələrini becərən, bataqlıqları qurudub əkinçilik üçün yararlı hala salan IV şəxs sayıla bilər" (Vəndidad, fəqərə 1)

Zərdüşt göstərmişdir ki, torpağın uzun müddət istifadə edilməyib dincə qoyulması, istedadlı əkinçini gözləməsi ona oxşayır ki, gözəl bir qız uzun müddət ərsiz qalıb, özü kimi gözəl həyat yoldaşı tapmaq xəyalında olmuşa bənzəyir. Zərdüşt sonra soruşur: "Ey Ahuraməzda, ən gözəl torpaq hara sayıla bilər?" Ahuraməzda cavab verir: "Ən məhsuldar torpaq...; (Vəndidad, fəqərə 4)

"Vəndidad"da sonra göstərilir: "O şəxs ki, torpağın özünün sağ əlilə, sol əlilə əkə (şumlaya), bu şəxsi o aşiqə oxşatmaq olar ki, aşiq öz məşuqəsi ilə görüşdükdən sonra oğlu olsun; torpaq da bu məşuqəyə oxşayır" (Vəndidad, fəqərə 2, 25, 20).

Zərdüştün torpağın sağ əli ilə, sol əli ilə becərilməsini (şumlanması) və əksinə göstərməsində əsas məqsədi şübhəsiz, əkinçinin cüt sürməsindən ibarət olmuşdur. Ona görə ki, əkinçi cüt sürüb torpağı şumlayan zaman "xışın" tutağını əvvəl sağ əlilə, qoşqu heyvanlarını vurmaq üçün çubuğu (cüt çubuğu adlanır) isə sol əlilə tutur. Sağ əlin vasitəsi ilə cüt sürən öz ağırlığını xışın üzərinə salır, bundan məqsəd xışın torpağı üzdən deyil, əksinə, dərindən şumlanılmasından ibarətdir.

Lakin bu əməliyyat zəhmətli olduğuna görə tez-tez dəyişir və cüt sürən dincəlməkdən ötrü tutacağı bəzi hallarda sol əlilə də tutur. Bu hərəkət işin sonuna qədər davam edir. Həmin faktın ikinci bir nəticəsi ondan ibarətdir ki, Zərdüştün dövründə torpağı xışla, daha doğrusu, cüt vasitəsilə şumlayırmışlar.

Azərbaycan Respublikası EA-nın müxbir üzvü, prof. T. Bünyadovun göstərdiyinə görə Azərbaycan və eləcə də ona qonşu olan ölkələrin ərazisində dəmir və ilk orta əsrlər dövründə cüt əkinçilik forması geniş şəkildə inkişaf edir.

T. Bünyadov B. B. Piotrovskiyə istinad edərək yazır: "Ən qədim əkinçilik alətlərindən olan "cüt" çoxdan məlumdur. Müəyyən hissələri metaldan düzəldilən cüt hələ eramızdan əvvəl III minillikdən qədim şərqdə işlədilmişdir".

Azərbaycan ərazisində yaşayan tayfalar hələ qədim dövrdən etibarən əkinçiliklə məşğul olur, su kanalları çəkir və bataqlıqları qurudurdular.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində əkinçilik və maldarlığın inkişafında Zərdüşt dininin rolunu əsas, həlledici amil kimi qəbul etmək olmaz. F. Engels "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərində göstərdiyi kimi, "Materialist anlayışa görə, tarixdə müəyyənedici amil nəticə etibarı ilə həyatın özünün istehsalı və təkrar istehsalıdır. Lakin bu, özü də yenə iki cür olur. Bir tərəfdən - yaşayış vasitələri, yemək şeyləri, paltar, mənzil istehsalı, digər tərəfdən - insanın özünün istehsalı nəslin davam etdirilməsi..."[19] Azərbaycanın münbit əkin sahələrinə malik olmasını, zəhmətkeş xalqın tarix boyunca əkinçilik və maldarlığa meyl göstərməsini həmin ərazidə təsərrüfatın inkişafına təsir göstərən həlledici amil kimi qeyd etmək olar. Atropatena tarixinin məşğul olduğumuz bu dövrünün xüsusiyyəti ondan ibarətdir ki, bu ərazinin iqtisadi-ictimai həyatında mühüm irəliləmələr baş vermişdir.

Beş əsrə yaxın hökmranlıq edib öz vaxtlarını daima müharibələrdə keçirmiş olan parfiyalıların hakimiyyəti 224-cü ildə devrilib, onların yerini yeni dövlət quruluşuna malik olan Sasanilər tuturlar. Sasanilər Parfiya dövründə mövcud olan "tayfalar hökmranlığına son qoyub, əvəzində isə mərzbanlıqlar yaratdılar.

Digər tərəfdən Atropatenanın daxili inkişaf qanunları əsasında köhnə istehsal münasibətləri məhsuldar qüvvələrin yeni inkişaf səviyyəsinə artıq uyğun gəlməyib, yeni istehsal münasibətlərinin meydana gəlməsi zəruriyyətini qarşıya qoymuşdur. Beləliklə, Atropatena və Albaniyada yeni istehsal üsulu olan feodalizm istehsal münasibətləri yaranmağa başlayır. K. Marksa görə, hər bir iqtisadi forma özündən əvvəlkinə nisbətən proqressiv rol oynayır və insan cəmiyyətinin irəliləməsi üçün bir addım atmış olur"[20].

Maddi nemətlər istehsalının səviyyəsindən asılı olaraq ictimai qaydalarda ona uyğun surətdə inkişaf edir. Əmək nə qədər çox inkişaf edərsə, əmək məhsuldarlığının miqdarı - daha doğrusu, cəmiyyətin sərvəti də bir o qədər artıq və

---

[19] K. Marks, F. Engels. Seçilmiş əsərləri, II cild, Bakı, 1953, s. 168
[20] K. Marks. Kapital, I cild, Bakı, 1955, s. 517

bol olar. F. Engelsin göstərdiyinə görə,... Əmək məhsuldarlığı və bununla da birlikdə - xüsusi mülkiyyət və mübadilə sərvətə sahib olmaq fərqləri, özgəsinin iş qüvvəsindən istifadə etmək imkanı və beləliklə də sinfi ziddiyyətləri əsas: nəsillər boyu köhnə ictimai quruluşu yeni şəraitə uyğunlaşdırmağa çalışan yeni ictimai quruluşu yeni şəraitə uyğunlaşdırmağa çalışan yeni ictimai ünsürlər getdikcə daha artıq inkişaf edir, nəhayət, bunların hər ikisinin bir araya sığa bilməməsi tam çevrilişə səbəb olur"[21].

Burjua tarixçiləri bəşər cəmiyyətinin əsas iqtisadi-ictimai inkişaf qanunlarını nəzərdən qaçırıb onu təhrif edir və öz sinfinin mənafeyinə uyğun surətdə (tabelik) izah edirlər. Onlar tarixin yaradıcısı və hərəkətverici qüvvəsi olan geniş xalq kütlələrinin rolunu inkar edirlər.

Atropatenanın təsərrüfat həyatı məsələlərini öyrənmək üçün ilk növbədə həmin ölkənin təbii-coğrafi şəraitini araşdırmaq lazım gəlir. Bu məqsədlə də biz ilk növbədə Atropatenanın təbii-coğrafi şəraitinin öyrənilməsini məqsədəuyğun hesab edirik.

Azərbaycan dağlıq diyardır. Ən yüksək zirvələri Səhənd, Savalan, Ağrı dağ ərazisidir. Ən alçaq sayılan ərazisi Urmu gölüdür. Aran (Araz sahili) və yaylaqlara (Savalan və Səhənd ətrafı) malik olan Atropatena əkinçilik baxımından Yaxın Şərqin ən mühüm zonalarından biri olmaqla bərabər heyvandarlıq üçün də əlverişlidir. Mahabad, Muğan və Maku Azərbaycanın heyvandarlıq (xüsusən qoyunçuluq) mərkəzidir.

Atropatena dağları, xüsusən Qaradağ silsiləsi külli miqdarda mədənlərə malikdir. Atropatena dağlarının əksəriyyəti vulkan mənşəli olub, ətəkləri isə heyvandarların yaylağı olmuşdur. Dəniz səthindən 3700 metr hündürlüyü olan Səhənd dağı (Təbriz şəhəri bu dağın ətəyindədir) və qolları olan Qaflantı (Qaflankuh) şibli, onun qərbində isə Liqvan yüksəkliyidir. Qaranqu çayı öz mənbəyini Səhənddən aldığı kimi Qızılüzən də bu dağdan başlanğıc alır. Dəniz səviyyəsindən 4840 metr hündürlüyə malik olub, zirvəsi qarla örtülmüş Savalan dağının ətəyində Ərdəbil, Sarab və Meşkin mahalları yerləşir.

Savalan dağı haqqında M. P. Petrov yazır: "Qaradağ silsiləsinə paralel olub, vaxtilə qülləsindən od püskürən Savalan dağı Bazalt (Bazalt), Andezit (Andezit), Trakit (Trakit) və başqa vulkanik suxurlardan, xüsusən vulkanik torflardan əmələ gəlmişdir[22]. Bu dağ şimalda Araza, cənubda isə Urmu gölünə qədər olan ərazini su ehtiyatı ilə təmin edir. Bu silsilə qərbdə 20, şərqdə isə 40 kilometr enə malikdir. Bu dağın ətəkləri sərt, sıldırımlı olduğuna görə burada get-gəl çox çətindir. Lakin onun qərb ətəklərində olan bəzi keçidlər (gədiklər) gediş-gəliş üçün əlverişlidir. İstər Savalan, istərsə də Səhənd dağları qədim vulkanlardandır. Onlarda mövcud olan isti su mədənləri həmin dağların vaxtilə

---

[21] K. Marks, F. Engels. Seçilmiş əsərləri, II cild, Bakı, 1953, s. 168
[22] M. P. Petrov. İranın təbii coğrafiyası. Tehran, 1339, s. 145.

vulkan mənşəli olduqlarını sübut edən yeganə amildir[23]. Maku, Urmu və Mahabadda Ağdağ, Qotur, Mökri, Alan və başqa dağlar vardır. Qaradağ silsiləsi Ağrı ilə Talış dağları arasında yerləşməklə, həmin dağ silsilələrini birləşdirir. Lakin Araz çayı Qaradağ silsiləsini Kiçik Qafqaz dağlarından ayırır. Qaradağ silsiləsinin çox hissəsi meşə zolaqları ilə örtülüdür.

M. P. Petrovun göstərdiyinə görə, dəniz səviyyəsindən 3660 metr hündürlüyə malik olan Qaradağ silsiləsi 220 kilometr uzunluğa və 30 - 65 kilometr enə malikdir[24]. Qaradağ qədim palezonka və əlvan metallar mədənlərinə də malikdir[25].

Atropatena dağları ölkəni su ehtiyatı ilə də az-çox təmin edirdi. Araz çayı haqqında qədim mənbələrdə çoxlu məlumat vardır. Araz çayının qollarından olan "Zəngibar" Maku ərazisini su ilə təmin edir. Qotur və Mərənd qollarına malik olan Ağçay Qaradağ silsiləsindən başlanğıc alıb Xoy - Mərəndə vadisindən axıb Arazla birləşir. Göy Günbəz, Əndərab, Qarasu çayları da Ərdəbil və Meşkin çöllərini su ilə təmin edib Arazla birləşirlər. Talış dağlarından mənbə alan Balharı (Balharud və Bolğar çay da adlanır) Muğan ərazisinin bir hissəsini suvarıb Biləsuvar yaxınlığında Mahmudçala gölünə tökülür. Qeyd etmək lazımdır ki, həmin çay ilin müəyyən fəsillərində quruyur. Qırxbulaq dağlarından başlanğıc alıb ilk mənbələrdə Amard, sonralar isə Qızılözən (Qızılüzən) adlanan çay Kürdistan, Miyana (Gərməri, Həştəri) rayonlarını su ehtiyatı ilə təmin etdikdən sonra Gilan əyalətinə daxil olur. Qızılüzən Azərbaycan sərhəddini keçdikdən sonra "Səfidrud" adlanır və Xəzər dənizinə tökülür.

Yunan mənbələrində "Amard" və yaxud "mard" sözünə tez-tez rast gəlmək olur. Başlanğıcını Zaqros dağlarından alan Amard çayı çox əyri-üyrü axını ilə Atropatenanın başqa çaylarından fərqlənir. Öz mənbələrini Səhənd və Qaflantı dağlarından alan bir sıra kiçik çaylar da Amard çayı ilə birləşir. Zikirtu, Qızılbund əyalətləri və Andiya tarixi əyalətlərindən keçərək gillərin yaşadıqları əraziyə daxil olub Kaspi (Xəzər) dənizinə tökülür. Qədim dövrlərdə Amard çayının nisbətən şimal, habelə orta axarında yarımköçəri həyat sürən amard və yaxud mard tayfası yaşayırdı. Onun aşağı axarında isə gil, kadus, habelə Kaspi tayfaları yaşayırdılar. Ktesi və Strabon dəfələrlə həmin tayfaların adlarını çəkir. Mənbələrin göstərdiyinə görə amard tayfaları azad yaşadıqlarına görə olduqca cəsur və döyüşkən olmuşlar. Çox güman ki, Amard çayı həmin bu tayfanın adı ilə əlaqədar olaraq meydana çıxmışdır. Amard çayı istər Manna, istərsə də sonrakı dövrlərdə mühüm iqtisadi və habelə strateji əhəmiyyətə malik olmuşdur. Amard çayının adı sonralar da

---

[23] Hazırda Savalan dağının ətəklərində istənilən qədər isti su mənbələri mövcuddur. Bunlardan Ərdəbil şəhərinə yaxın (18-26 kilometr) məsafədə yerləşən "Səreyin", "Sərdava" və "Qotur" suyunu göstərmək olar. Qeyd etmək lazımdır ki, göstərdiyimiz suların ətrafında onlarca başqa mədən suları vardır ki, onlardan da xalq təbiətində istifadə edilir. Hər il dünyanın bir sıra ölkələrindən müalicə məqsədilə buraya çoxlu adamlar gəlir.

[24] M. P. Petrov. Göstərilən əsəri, s. 141.

[25] Yenə orada

dəyişmişdir. Belə ki, qədimdə Kaspi və yaxud Mazd, müasir dövrdə isə Əlburz dağ silsiləsinin davamı olan Ağdağ, habelə Ağgədiyə qədər olan Azərbaycan ərazisində bu çay Qızılüzən, Gilan torpağında Şahrud çayı ona qarışdıqdan sonra, Mənсil körpüsü yaxınlığında "Səfidrud" (Ağ çay) adlanır. Qızılüzən sözünün etimologiyasına gəldikdə, istər çayın suyunun qırmızı rəngə malik olması və istərsə də suyun tərkibində qızıl zərrələri göründüyünə görə belə adlanmışdır. Qızılüzən çayına Miyana yaxınlığında Sarıqamış, sonra isə Zəncan çayında birləşir. Bu çayın ilin bütün fəsillərində suyunun bol olmasına baxmayaraq sahillərinin və yatağının girintili və çıxıntılı, habelə dağ çayı olduğuna görə çay nəqliyyatı hərəkəti üçün əlverişli deyildir. Çaydan bir sıra suvarma kanalları ayırmışlar; onlardan biri müasir Rəşt şəhərindən keçir. Bu çay külli miqdarda gil gətirdiyinə görə onun deltası daima dənizin içərilərinə doğru irəliləyir. Ona görə də onun deltası 3600 kvadratmetr, eni isə 110 kilometrə bərabərdir. Səhənd, Büzgüş (Büzguh-kıçı dağı) dağlarından başlanğıc alan bir sıra çaylar da Qızılüzənlə birləşir. Bunlardan başqa Zəncan çayı İraq-Sultanabaddan mənbə alıb Qızılüzənlə birləşir. Azərbaycanın Urmu gölünə tökülən çaylardan isə Cığatı (Simin rud), Acıçay, Tufarqan, Sofi, Mordi, Qadır, Nazlı və Zəli çaylarını da göstərmək olar[26].

Urmu gölünün şərq sahili olan Tufarqan (indiki Azərşəhr) yaxınlığındakı bulaqlardan mərmər hasil olunur. Bulaqların suyunun tərkibində mərmər olduğuna görə su axan zaman mərmər çöküntüləri əmələ gəlir. Müəyyən müddət keçdikdən sonra həmin çöküntülər daşa (mərmərə) çevrilir. Hətta Əmir Teymur vaxtilə külli miqdarda Azərbaycanda olan bu mərmərləri Səmərqəndə aparmışdır. Hətta Səmərqənddə yerləşən Teymurun qəbir abidəsi həmin mərmərlərdən tikilmişdir[27].

Ərəb mənbələrinin göstərdiyinə görə Azərbaycan ərazisinin bir sıra yerlərində yuxarıda göstərilən yolla (bulaqlar vasitəsi ilə) külli miqdarda mərmər hasil olurmuş[28]. Ərəb tarixçisi Məsudi və orta əsr mənbəyi sayılan "Əcaib əd-dünya" əsərində də bu barədə məlumat verilir.

Urmudan Salmasa gedən yolda, Urmu gölünün şimal-şərqində olan dağlarda Sasani dövrünə aid Ərdəşirin, I Şahpurun təsvirləri və habelə ermənilər üzərində çalmış olduqları qələbə simvolu daş üzərində görünməkdədir[29].

Azərbaycanda olan torpaqların xüsusiyyətindən danışan İran tədqiqatçıcı T. Bəhrami göstərir ki, geniş əraziyə malik olan Azərbaycan müxtəlif torpaq növlərinə malikdir. Onun əkinçilikdə istifadə olunan torpaqları Səhənd, Savalan və Ağrı dağlarının vulkan püskürdüyü daşların təcziyəsindən əmələ gəlmişdir. Lakin hər bir yerin spesifik və təbii xüsusiyyətlərindən asılı olaraq həmin tərkibə xüsusi

---

[26] T. Bəhrami. Göstərilən əsəri, s. 159-160

[27] Yenə orada, s. 161.

[28] Əl-Məsudi. Müruc əl-zəhəb və əl-məadin əl-cövhər. Paris, 1981, s. 177. M. Həsənxan. Mürat əl-buldan.

[29] Zəkəriyyə Məhəmməd əl-Qəzvini. "Asar əl-bilad və əxbar əl-İbad", Leninqrad, Kataloq Xanikova, s. 107.

maddələr əlavə edilib və yaxud əksinə, onda olan bir sıra maddələr aradan getmişdir[30].

T. Bəhrami Azərbaycanda olan torpaq növlərini aşağıdakı qruplara bölür: qumsal-gilli, gilli-qumsal, qara və çöküntülü torpaqlar.

Səhənd yaxınlığında olan ərazi, habelə Təbriz ətrafı qumsal, Marağa zonası gilli-qumsal, Miyandab gilli, Urmiya gilli-qumsal, Qaradağ, Mahabad gilli-qumsal və qara, Miyandabın bir hissəsi isə laylı torpağa malikdir.

İranın təbii-coğrafi xüsusiyyətlərini tədqiq etmiş M. P. Petrov Azərbaycanda olan torpaqları kül rənkli və rütubətli qara torpaq növlərinə bölür[31]

T. Bəhrami Azərbaycanı iqliminə görə üç zonaya bölür: soyuq, isti və mülayim. Soyuq zonaya Savalan və Səhənd ətrafı, isti zonaya Araz sahili - Muğan, mülayim zonaya isə Miyandab və Sulduz rayonları daxildir. Səhənd dağına yaxın olan Təbrizdə bəzən qışda havanın soyuqluğu mənfi 30°-yə qədər aşağı enir. Belə hallar meyvə ağacları üçün xətərli olub, onların kökünü don vurur[32]. Savalan dağının şərq ətəyində yerləşən Ərdəbil şəhərindən isə bəzi vaxtlar qışda mənfi 33° soyuq olur[33].

Təbriz, eləcə də Ərdəbil zonasında yayda havanın hərarəti bəzi hallarda 35° - 40°-yə qədər yüksəlməsinə baxmayaraq, ümumiyyətlə, hər iki ərazinin qışı çox soyuq, yayı isə mülayimdir. Azərbaycanın iqlimi, xüsusilə Xəzər dənizinə yaxın olub, dəniz səviyyəsindən hündür olmayan yerlər şimaldan əsən soyuq küləklərin tam təsiri altındadır. Hətta Sibir tundralarında əsən küləklər Xəzər dənizini maneəsiz keçərək özü ilə Araz sahili, Muğan və Astara zonasına rütubətli buludlar gətirir. Bu səbəbə görə də həmin ərazidə ardı-arası kəsilməyən yağıntılar olur. Azərbaycan ərazisinin başqa yerlərində mövcud olan hündür dağlar şimal küləklərinin qarşısını ala bildiyi üçün həmin küləklər bir o qədər də təsiredici deyildir. Burada Bağro, Büzgüş, Savalan və Səhənd dağları nəzərdə tutulur. Beləliklə, Azərbaycanın şimal-şərq rayonlar səthinin alçaqlığı və dənizə yaxınlığı ilə əlaqədar iqliminin rütubətli, çox yağmurlu olması ilə qalan yerlərdən fərqlənir. Bu göstərdiyimiz zonada payız mövsümündə yağıntılar daha tez başlayır. Aqrotexniki qaydalara görə belə şərait payız əkinçiliyi üçün daha əlverişlidir. Ona görə də həmin ərazi tarixən özünün payız bitkiləri ilə məşhurdur[34].

Azərbaycanın göstərdiyimiz ərazisində qədim dövrlərdən etibarən torpağa səpilmiş arpa, buğda və sairə dənli bitkilər payız yağmurluğunun tez başlanması ilə əlaqədar iki, bəzi hallarda isə üç dəfə məhsul verir. Bu müddəanı qədim mənbələrlə yanaşı etnoqrafik müşahidələr də bir daha təsdiq edir. Məlumdur

---

[30] T. Bəhrami. Göstərilən əsəri, s. 161.
[31] M. P. Petrov. Göstərilən əsəri, s. 142.
[32] T. Bəhrami. Göstərilən əsəri, s. 161.
[33] İsmail Dibac. Asar-e tarixi Azərbaycan-e şərqi, Təbriz, 1334.
[34] Arpa, buğda adətən payızda, daha doğrusu, payızın ilk aylarında əkildikdən sonra suvarılır, yaxud yağmurluq nəticəsində tarlaya səpilən toxum tam bitdikdə məhsul vaxtı gözlənilən bəhrəni verə bilər.

ki, arpa, buğda və başqa dənli bitkilər yığılan zaman (biçildikdə) məhsulun müəyyən hissəsi istər istəməz tarlaya tökülür. Payız yağmurluqları tez başlandığına görə həmin bitkilər yenidən göyərir. Bu isə xalq arasında "xora" adlanır. Əkinçi həmin tarlanı yazda şumlayıb yaz bitkiləri üçün (paxlalı bitkilər və habelə bostan əkini nəzərdə tutulur) istifadə etmədikdə "xora" ikinci dəfə məhsul verir. Strabon Atropatena və Albaniya ərazisində müşahidə edilmiş bu faktı öz coğrafi əsərində də göstərmişdir[35]

T. Bəhraminin yazdığına görə "Araz sahili, Muğan və Astara zonasında illik yağmurluğun miqdarı təqribən 1,5 kubmetrə bərabərdir"[36]. Muğan səhrasında isə ardıcıl olaraq üç ay yağıntının olmaması, daima göy-göyərti və rəngarəng güllərlə örtülmüş bu səhranı quru vadiyə çevirir[37]. Bu səbəbə görə də Muğanda Araz sahili çıxıldıqda meşə və ağaclara rast gəlmək olmur. Muğan səhrasında Azərbaycanın qərbinə (Makuya) tərəf getdikcə rütubət tədricən azalmaqla payız yağıntılar da gec başlayır. Bu səbəbə görə də istər Qaradağ, istərsə də Maku zonalarında pambıq qozalarının açılmasına təbiət özü şərait yaradır.

T. Bəhrami yazır ki, Qızılüzən zonası dəniz səviyyəsindən 500 - 2500 metr hündürlükdə yerləşdiyi üçün onun iqlimi istər az və istərsə də Xəzər dənizi sahilində olan sahələrdən nisbətən az rütubətə malikdir. Lakin həmin ərazidə olan yüksək dağlara qışda həddən ziyadə qarın, yazda isə çoxlu yağışın yağmasına görə bu ərazi də su ehtiyatı ilə təmin edilmiş olur[38].

Müəllif Qızılüzən vadisini iqlim şəraiti və məhsuldarlığına görə də iki hissəyə bölür: hündürlüyü min metrdən aşağı olub və pambıq əkini üçün əlverişli şəraitə malik olan alçaq dərələr (hal-hazırda da bu sahədə pambıq əkini geniş yayılmışdır) və Qızılüzənin hündür olub, soyuq və sərt iqlim şəraitinə malik olan vadiləri. Burada pambıq əkilməsi əlverişli deyildir. Lakin taxıl, yonca və başqa yem bitkiləri, belə baramaçılıq və tut ağaclarının əkilməsi üçün olduqca yararlıdır[39].

Təbriz və Sofiyan zonası hündür olduğuna görə sağlam iqlim şəraitinə malikdir. Burada müxtəlif meyvə, xüsusilə müxtəlif üzüm növləri yetişdirilir. Təbrizin iqlim şəraiti baramaçılığa çox əlverişli olduğu üçün barama toxumunun Təbriz və onun ətraf rayonlarında becərilməsi daha münasibdir.

---

[35] Strabon. Göstərilən əsəri, XI, 13

[36] T. Bəhrami. Göstərilən əsəri, s. 162.

[37] Muğan haqqında Tağı Bəhraminin verdiyi məlumat təqribən 50-60 il əvvələ, daha dəqiq demiş olsaq, Riza şahın hakimiyyəti dövrünə aiddir.
Son illər, xüsusən İranda İslam Cümhurisi yarandıqdan sonra Muğan səhrası öz simasını tamamilə dəyişmişdir. Bu məhsuldar bərəkətli torpaqda yeni-yeni şəhərlər və kəndlər bina edilmiş, ucsuz-bucaqsız meyvə bağları salınmış, habelə əkin sahələri abadlaşdırılmışdır. Araz çayından yeni su kanalları çəkilməyə başlamışdır. Beləliklə, Çuğan səhrası keçmiş əzəmətini qaytarmaqdadır.

[38] Bax: T. Bəhrami. Göstərilən əsəri, s. 163.

[39] Yenə orada.

Dəniz səviyyəsindən 1200-dən 3500 metrə qədər hündürlüyə malik olan Təbriz, Urmu və onların ətrafına şimal küləklərinin çatmaması bu zonanın təbii şəraitinə, o cümlədən iqliminin quru olub və yağmurluğun az olmasına təsir edir. Bu səbəbə gerə də həmin ərazidə payız və qış aylarında yağmurluq olur. Bu zonanın qışı sərt, baharı isə mülayim keçir. Burada qış tez başlayır.

M. Petrov göstərir ki, Azərbaycanın iqlim şəraiti Lorustandan quru olub illik yağmurluğu 300 mm-ə bərabərdir. M. Petrovun Azərbaycanın iqlimini quru - dağ, çöl iqlimi adlandırması həqiqətə daha uyğundur. Oranın qışının sərt və soyuq olması dağlarda enli yarpaqlı ağacların inkişafına maneçilik törədir. Orada ancaq kiçik ağaclar və müxtəlif otlar bitir. Dağarası dərələrində iqlimi qışda soyuq olur. Bu səbəbə görə də burada subtropik bitkilər əmələ gəlib inkişaf etmir. Xəzər dənizi sahil rayonlarının illik yağmurluq miqdarı 1500 mm-dən artıqdır. Bunun əsas səbəbi şimalın soyuq hava dalğalarının Xəzər dənizi üzərindən keçib oranın rütubətini sahildə olan əraziyə çatdırmasıdır. Xəzərin cənub-qərb rayonlarında rütubətin miqdarı onun cənub-şərq rayonlarından daha artıqdır. Belə ki, Ənzəlidə yağmurluğun miqdarı 1543 mm olduğu halda, Gürkanda 691 mm-ə qədər azalır[40].

Ümumiyyətlə, hər bir ölkənin təsərrüfat həyatı məsələləri tədqiq edilərkən, həmin ölkənin təbii-coğrafi şəraitinin, torpaq növlərinin, yeraltı və yerüstü sərvətlərinin ilk növbədə öyrənilməsi daha məqsədəuyğundur. Bu səbəbə görə də biz ilk növbədə həmin məsələnin araşdırılması ilə əsas mövzunun tədqiq edilməsinə başlayırıq.

Azərbaycanın təsərrüfat həyatı məsələləri indiyə qədər tarixçilərimiz tərəfindən nisbətən az tədqiq edilmişdir. Məhz həmin səbəbə görə də bu dövrün işıqlandırılması ən ağır və çətin bir problem olmaqla bərabər, həm də məsuliyyətli bir işdir. Bu dövrün əsas təsərrüfat məsələləri az-çox sovet tarixçiləri tərəfindən tədqiq edilmişdir. Burjua tarixçiləri Atropatenanın təsərrüfat həyatı məsələlərini kifayətləndirici surətdə tədqiq etməmişlər. Bu dövrün özünəməxsus spesifik xüsusiyyətləri vardır. Həmin xüsusiyyətlərdən biri Atropatena və ona qonşu olan ölkələrdə yeni istehsal funksiyası olan feodalizmin meydana çıxması və məhsuldar qüvvələrin özündən əvvəlki dövrə nisbətən inkişaf edərək xalqın təsərrüfat həyatı məsələlərinin yüksəldilməsinə bilavasitə şərait yaranmasıdır. Quldarlıq quruluşuna nisbətən feodal istehsal üsulu cəmiyyətin inkişafında yeni, daha yüksək pillə idi. Atropatenanın ictimai quruluşunun əsasını kənd icmalarında çalışan kəndlilər təşkil edirdi. Lakin uzaq keçmişdə olduğu kimi, ibtidai icma həyatının qalıqları yeni istehsal ukladı, dövlət icmaları ilə yanaşı yaşayırdı.

Torpaqların böyuk əksəriyyəti bəzi əyalətlərdə isə bütövlükdə zadəgan ailələrə məxsus idi. Belə ki, Karenlər ailəsi Midiyada, Suren ailəsi Soistan və Nişapurda, Sipahbudlar Dehistan, Mehranlar isə Tehran vadisi və Fars əyalətində

---

[40] M. Petrov. Göstərilən əsəri, s. 55.

geniş torpaq sahibləri idilər. Bu torpaqlar irsi olaraq şah nəslinin adlı-sanlı şəxslərinin xüsusi mülkiyyəti hesab olunurdu[41].

Məlumdur ki, Sasanilər imperiyası yarandıqdan sonra Atropatena onun tərkibinə daxil edildi. Bu səbəbə görə də biz onun iqtisadi və təsərrüfat həyatı məsələlərini tədqiq etdikdə siyasi cəhətdən mərkəzi hakimiyyətə tabe olduğu kimi, iqtisadi nöqteyi-nəzərdən də ondan asılı olan bir əyalət kimi nəzərdə tutacağıq. Əlbəttə, belə olduqda, o dövrdə İranda olan bir sıra islahat və başqa qayda-qanunları Atropatena ərazisinə də şamil etmək məqsədəuyğundur.

Hər hansı bir ölkənin təsərrüfat həyatı məsələləri, xüsusilə onun əkinçilik və maldarlığının tarixi öyrənilən zaman qismən olsa da oranın suvarma sistemindən də bəhs etmək vacib və zəruridir. III—VII əsrlərdə Azərbaycanda mövcud olmuş suvarma sistemi haqqında yazılı məlumatın olduqca az olması həmin məsələnin istənilən dərəcədə işıqlandırılmasını çətinləşdirir.

Biz Azərbaycanın təbii-coğrafi şəraitini izah etdiyimiz bölmədə yalnız həmin ölkənin su ehtiyatı mənbəyi olan çayların adını çəkməklə kifayətləndik. Qeyd etmək lazımdır ki, Azərbaycanda əkin sahələri yalnız çaylar vasitəsi ilə deyil, həm də süni kanallar, habelə kəhrizlər vasitəsi ilə də suvarılırdı. Ümumiyyətlə, bütün Şərq ölkələrində, o cümlədən Azərbaycanda əkinçiliyin inkişafı tarixi onun suvarma sisteminin inkişaf səviyyəsi ilə əlaqədardır. Süni suvarma sistemi, onun Şərq ölkələrindəki əhəmiyyəti haqqında K. Marks yazmışdır: "Xüsusən böyük səhradan başlanıb Ərəbistan, İran, Hindistan və Tatarıstandan keçərək Asiya yaylasının ən yüksək vilayətlərinə qədər uzanan geniş çılpaq səhralarda iqlim şəraiti və torpağın spesifikliyi, kanallar və irriqasiya qurğuları vasitəsi ilə süni suvarma sistemini Şərq əkinçiliyinin əsasına çevirmişdir"[42].

"Matikan hazar-Dadistan" kitabının XXII fəslində də suvarma kanalları və onların xüsusiyyətlərindən bəhs edilir. Məlum olduğu kimi, bu kitab Sasanilər dövrünün hüquqi qanun məcmuəsidir. Ona görə də həmin qanun məcəlləsində yeri gəldikcə kanalların çəkilməsi, ondan istifadə hüquqları və s. dən bəhs olunur[43].

Məlumdur ki, quru və isti iqlim şəraitinə malik olan ölkələrdə yer səthində olan sular həmin ölkənin təsərrüfatını su ehtiyatı ilə kifayət qədər təmin edə bilmir. Azərbaycanın da bir sıra rayonları belə quru iqlimə malikdir. Ona görə də Şərqin başqa ölkələrində olduğu kimi burada da süni suvarma sistemi qədim tarixə malikdir. Təsərrüfatda kəhrizlərdən də lazımınca istifadə olunurdu.

Süni suvarma sistemi haqqında T. Bəhrami Arriana istinad edərək yazır: "İskəndərin canişinləri su bəndləri və bu bəndlərin nə məqsədlə tikilməsi ilə tanış olmadıqlarına görə belə fərz edirdilər ki, iranlılar həmin su bəndlərini özlərini

---

[41] Н. Б. Пигулевская. Города Ирана в раннем средневековье. М.-Л., 1966, с. 174
[42] K. Marks, F. Engels. Seçilmiş əsərləri, I cild, Bakı, 1958, s. 328.
[43] Matikan... 1 - 9

düşməndən müdafiə etmək məqsədilə tikib lazım gəldikdə isə bəndləri açıb düşmən ordularını məhv edirmişlər[44].

Əl-Şüştərinin yazdığına görə "Hələ İskəndərin Şərqə olan yürüşündən əvvəl, Şüştərdə şəhərdən kənarda olan "Dariyan" adlı su kanalının çəkilməsinə "Böyük Dara" (birinci Dara) tərəfindən başlanmışdır". Lakin işin qurtarması Dara ibn Daranın dövrünə təsadüf edir. Həqiqətən də su yaşayış, həyat, bol məhsul deməkdir. Su olmayan yerdə kənd təsərrüfatı nemətlərinin bol olması mümkün deyildir.

Dini kitab olan Avestada suyun müqəddəs sayılmasından, onun əhəmiyyətindən, təmiz saxlanılmasından, əkinçilikdə necə istifadə edilməsindən dəfələrlə söz açmışdır[45]. Həmin kitabın hissələrindən olan istər "Qatlarda"[46], eləcə də "Vəndidad"da[47] süni surətdə suvarma sistemi haqqında məlumat verilir.

Lakin Avesta məşğul olduğumuz dövrdən daha qədim olduğu üçün biz burada pəhləvi kitablarına istinad etməyi daha məqsədəuyğun hesab edirik.

Pəhləvi dilində yazılmış "Matikan hazar-Dadistan" [48] İranda mövcud olmuş süni suvarma sistemi haqqında ətraflı məlumat verən ilk mənbələrdən biridir. Həmin kitabda əkinçiliyin inkişafında süni suvarma sisteminin mühüm əhəmiyyətə malik olmasından danışılır. Şübhəsiz ki, süni suvarma sisteminin mövcud olması, xüsusən mülkiyyət formasının nə dərəcədə yayılmasını göstərən amillərdən biridir. Süni suvarma sisteminin geniş surətdə inkişaf etməsi xüsusi mülkiyyət formasının mövcud olduğuna əsas dəlildir. Həmin kitabın məzmunundan aydın olur ki, bu sistem V—VI əsrlərə aiddir[49]. Dara ibn Dara tərəfindən çəkilən kanala Parfiya dövründə əhəmiyyət verilmədiyinə görə kanalın suyu qurumuşdur. Bu səbəbə görə də şəhərin ətrafında salınmış bağlar və bostanlar az müddət ərzində qurumaqla həmin ərazi xarabazarlığa çevrilmiş, şəhər və onun ətrafında yaşayan əhali oradan köçüb getmişdir. Sasanilər hakimiyyət başına gəldikdən sonra Babəkan oğlu Ərdəşir yenidən həmin kanalı təmir etdirib və şəhərin abadlaşdırılmasına başlamışdır[50]. Lakin Ərdəşir vəfat etdikdən sonra iş yarımçıq qalmışdır. Həmin işi onun nəvəsi olan Şahpurun oğlu Hörmüz davam etdirmişdir. İranın başqa vilayətlərindən bu şəhərə çoxlu işçi qüvvəsi köçürülmüşdür[51]. Bu faktı qeyd etməkdə məqsədimiz Parfiya dövründən fərqli

---

[44] Tağı Bəhrami. Tarix-e Kəşavərdzi İran, Tehran, 1330, s. 23; Appian Makedoniyalı İskəndərin səyahətinin tarixi, London, 1818.

[45] Avesta, Kopenhagen, 1910, Vəndidad, XXII.

[46] İbrahim Purdavud. Qatha, Bombey, 1927, s. 57

[47] Matikan hazar-Dadistan, Bombey, 1940

[48] Yenə orada, XXII,, 1-9, s. 238 – 243. Əl-Şüştəri 1344-cü ildə Kəlküttədə nəşr etmiş "Təzkireyi-Şüştər" əsərində su kanalları haqqında məlumat vermişdir.

[49] Matikan, XXII, 1 – 9, s. 238 – 243.

[50] Əl-Şüştəri. Göstərilən əsəri, s. 4 – 5.

[51] Yenə orada.

olan bu dövrdə istər süni su kanallarının çəkilməsinə, istərsə də əkin sahələrinin artırılmasına ciddi fikir verilməsini göstərməkdən ibarətdir.

T. Bəhrami Azərbaycanda olan suvarma sistemi haqqında yazır ki, Azərbaycan dağlıq ölkə olduğuna görə, onun əsas su ehtiyatını orada olan çaylar təmin edir. Bu səbəbə görə də həmin ərazidə su kanallarının çəkilməsinə o qədər də ehtiyac hiss olunmur. Burada Tehran ətrafında olan səliqəli kəhriz sisteminə, habelə təcrübəli kankanlara təsadüf edilmir. Azərbaycan kankanları saxsı su tinglərinin hazırlanmasına və onların düzəldilməsi texnikasına bələd deyillər. Onlar suyu bataqlıqlardan keçirmək üçün daşları sıra ilə düzmək texnikasından istifadə edirlər. Müəllif əsərinin başqa bir yerində yuxarıda dediyi fikrinin əleyhinə çıxaraq göstərir ki, Marağa ətrafında olan kəhrizlərin qazılması və yoxlanılması zamanı bir nəfər kankan oradan keçmişə aid saxsı su tinglərinə təsadüf etmişdir. Bu fakt bizə imkan verir ki, keçmiş dövrlərdə Azərbaycanda saxsı su tinglərinin hazırlanması və onun geniş yayılması müddəasını irəli sürək[52].

Azərbaycanın istər şimal və istərsə cənub rayonlarında kəhriz suvarma sistemi hələ qədim dövrlərdən etibarən geniş surətdə yayılmışdır. Bu faktı arxeoloji qazıntılar zamanı saxsı su tinglərinin əldə edilməsi ilə birlikdə yazılı mənbələrdə olan məlumatlarda bir daha təsdiq edir.

Y. İ. Hummel Şamxor ətrafında aparmış olduğu qazıntı zamanı qədim dövrlərdə qazılmış kəhriz nişanələrinə təsadüf edib onu eramızdan əvvəl I əsrə aid etmişdir[53]. Bu faktın olması bizə Azərbaycanın şimal rayonlarında kəhriz suvarma sistemindən istifadə edilməsi fikrini irəli sürməyə imkan verir. Cənubi Azərbaycanın Təxt-e Süleyman, Ərdəbil, Marağa, Təbriz, Mərənd və Urmu ətrafında arxeoloji tədqiqatlar aparılarkən kəhriz suvarma sisteminin həmin ərazidə qədim dövrlərdən mövcud olması faktını sübut edən bir sıra nişanələr aşkara çıxarılmışdır. Orta əsr müəlliflərindən biri olan Həmdullah Qəzvini yaşadığı dövrdə Təbrizin ətrafında olan tarlaların (bağ, bostan nəzərdə tutulur - A.F.) suvarılmasında 900 kəhrizdən istifadə edilməsini göstərir[54].

Kəhrizlər haqqında çox səthi məlumatın olmasına baxmayaraq Azərbaycanda kəhriz vurulması dövrü hələ eramızdan əvvəl olmuşdur [55]. Ümumiyyətlə, kəhriz suvarma sistemindən Azərbaycanın dağətəyi və düzən rayonlarında geniş surətdə istifadə edilmişdir.

Kəhriz suvarma sistemi Yaxın Şərq və Orta Asiya rayonlarında yayılmış suvarma növüdür[56]. Ümumiyyətlə, kəhrizlər öz başlanğıcını dağ ətəklərindən alır. Belə ki, birinci quyunun dərinliyi sonrakılara nisbətən daha çox olur. Bəzi

---

[52] T. Bünyadov. Göstərilən əsəri, s. 25.
[53] Я. И. Гуммель. Отчет о раскопках около Кировабада в 1938 г.
[54] Həmdullah Qəzvini. Nüzhət əl-qülüb, be kuşeşe Dəbir Səyaqi, Tehran, 1336, s. 77
[55] T. Bünyadov. Göstərilən əsəri, s. 25.
[56] M. P. Petrov. Göstərilən əsəri, s. 88.

quyuların dərinliyi 15 - 200 metrə çatır[57]. Quyuların diametrləri adətən bir metrdən iki metrə qədər ölçüyə, birinin digərindən olan məsafəsinə gəldikdə iki kilometr aralıda qazılır. Azərbaycan ərazisində tarlaların suvarılmasında adi quyulardan da istifadə edilmişdir. Bu quyulardan Muğan vadisində müxtəlif sahələrində olan "Çalma", "Üç quyu", "Yüz quyu" və s. göstərmək olar.

Xalq çayın suyunu onun səthindən hündür olan əraziyə aparmaq üçün müxtəlif bəndlər çəkirdilər. Bu səbəbə görə də Azərbaycanda çay və arxların əhəmiyyəti kəhriz sistemindən dəfələrlə artıq olmuşdur. O göstərir: "Azərbaycanın məhsuldar sahələrindən biri də Muğan vadisidir.

Nadir şahın dövrünə qədər abad olub, hazırda isə istifadə edilməyən bu vadi Sasanilərin son dövrünə qədər olduqca məhsuldar olmuşdur. Lakin Sasanilərin süqutundan sonra İranın başqa əyalətləri ilə birlikdə bura da xarabazarlığa çevrilmişdir. Halbuki, bu vadi keyfiyyətli, məhsuldar, geniş torpağa malik olmaqla bərabər bol su ehtiyatına da malikdir[58].

Həqiqətən də T. Bəhraminin mülahizələri və göstərdiyi o faktlar inandırıcıdır. Bəhramtəpə, Ultan qalası və Şəhriyar kimi tarixi yerlərin həmin ərazidə qalmaqda olan nişanələri müəllifin Muğan vadisi haqqında göstərdikləri fikri bir daha təsdiq edir.

Yerli tədqiqatlara əsasən keçmişdə Sarıqamışda olan İncillidə yaşayış yerləri və külli miqdarda bağlar mövcud olmuşdur. Həmin abadlıqlar və bağlar hal-hazırda tamamilə aradan getmişdir. Lakin burada olan hündür təpədə, əhəng və daşla tikilmiş əzəmətli bir divarın qalıqları hələ də qalmaqdadır. Bu divar qədim dövrdə tikilmiş böyük bir qalaya aiddir. Deyildiyinə görə, buranın hakimi qız olduğu üçün bura Qızqalası adlandırılmışdır. Bu da hal-hazırda da qalmaqdadır[59].

Müəllif öz tədqiqatında belə bir fikrə gəlir ki, Dəmirçili qışlağında geniş su quyusu qalmaqdadır. Həmin quyunun yanında bir arx və göl tikilmişdir. Keçmişdə burada suyun çox olması ilə əlaqədar olaraq dəyirman işləyirmiş. Biləsuvardan tapılmış iri və qalın kərpiclər qədim binaların yadigarıdır[60].

Muğan vadisində, xüsusən onun mərkəz və cənubunda külli miqdarda quyulara, süni göllərin yerinə və şəhər qala divar qalıqlarına çox tez-tez təsadüf edilir[61]. Göründüyü kimi keçmişdə (Sasanilər dövrü nəzərdə tutulur - A. F.) Muğan vadisi Azərbaycanın ən abad və məhsuldar sahələrindən biri olmuşdur.

---

57 Yenə orada.
58 T. Bəhrami. Göstərilən əsəri, s. 202.
59 T. Bəhrami. Göstərilən əsəri, s. 202.
60 Yenə orada.
61 Yenə orada, s. 205.

T. Bəhrami göstərir ki, "Ortası çökək olub, dövrəsi isə qalaya oxşayan Ultan təpəsi Araz çayına bitişikdir. Burada olan qala hal-hazırda bütünlüklə aradan çıxıb, bütünlüklə təpəyə çevrilmişdir. Nadir şah həmin qalada tac qoymuşdur[62].

Çox ehtimal ki, Ultan qalası da Bəhramtəpə kimi Sasanilərin dövründə tikilmiş qalalardan biri olmuşdur. Göründüyü kimi həmin qala Nadir şahın (1736 - 1747) dövrünə qədər qorunub saxlanmış, ondan sonra isə İranda olmuş mərkəzi hakimiyyətin (Qacarların dövru nəzərdə tutulur) zəiflədiyi zaman xarabazarlığa çevrilmişdir.

T. Bəhrami "Əkinçilik mədəniyyəti" adlı bir əsərində yazır: "Muğanda görünməkdə olan bir arx Gavurarx adı ilə məşhurdur. Daha doğrusu, Gavurların arxı. Bu arx qədimdə Muğan atəşpərəstləri tərəfindən çəkilmişdir. Muğanı Araz çayından bu arx vasitəsi ilə suvarırmışlar. Gavurarxın hal-hazırda dolmasına baxmayaraq onun nişanaləri hələ də qalmaqdadır. Bu arx İran Muğanını keçdikdən sonra rus Muğanına (Şimali Azərbaycana - A. F.) daxil olur. İranda həmin arxın uzunluğu 100 kilometrə bərabərdir. Vaxtilə Nadir şah Muğanda arx qazdırıb suvarma işlərinə nəzarət etmişdir. Ultan qalasının yaxınlığında olan arx Nadir arxı adlanır[63].

Gavurarx haqqında məlumata bir sıra mənbə və ədəbiyatlarda da rast gəlmək olar[64].

Tədqiq etdiyimiz mövzu ilə əlaqədar olaraq bir neçə müəllifin adını çəkməyi lazım bilirəm. Onlardan Mirzə Camal, T. S. Passek, İ. İ. Meşşaninov, Q. Əhmədov, Qarabaği, Səidəli Kazımbəyov oğlu, T. Bünyadov və başqalarını göstərmək olar. Gavurarxın çəkilmə dövrünün tədqiq edilib aşkar çıxarılmasında, həmin göstərilən müəlliflərin zəhmətləri təqdirəlayiqdir. Gavurarx haqqında T. Bünyadov yazır ki, Gavurarx adı ona hər halda Azərbaycanda İslam dini qəbul ediləndən sonra verilmişdir[65]. Məlum olduğu kimi "gavur" sözü xalq arasında gəlmə, düşmən, yadelli, çox pis insan və s. mənalar daşıyır. Formal cəhətdən bu fikirlə də razılaşmaq olar. Ona görə ki, ola bilsin bir dinə inam bəsləyənlər, onlarla həm əqidə (dini nöqteyi-nəzərdən) olmayanlara, nifrət edib, onlara gəlmə, düşmən, yadelli, pis insan adı vermiş olsunlar. Belə ki, İslam dininə inanıb, lakin onun ayrı-ayrı təriqətlərinə mənsub olanlar da bir-birinə nifrət edib və bəzi təriqətlərə inananlara xoşagəlməyən adlar verirdilər. Gavur sözünün mənası tamamilə başqadır. Şəmsəddin Saminin nəzərincə "gavur" əslində "gəbr" sözündən törəmədir. "Govur" atəşpərəst deməkdir.

T. Bünyadova görə "Ola bilər ki, bu arxın çəkilməsi işinin təşkilində farsların müəyyən rolu olmuş və onu da yerli əhali gəlmələrin, yəni govurların adı

---

62 Yenə orada.

63 Tağı Bəhrami. Fərhənge rustai ya dairət əl-məarif-e fəllahi. Tehran, 1316, s. 46

64 T. Bünyadov. Göstərilən əsəri, s. 21.

65 Yenə orada.

ilə bağlamışdır[66]. T. Bünyadovun irəli sürdüyü bu fikirlər ehtimaldır. Lakin müxtəlif mənbələr bu ehtimalı təsdiq edir.

Muğan ərazisində qədim dövrlərdən etibarən atəşpərəstlər yaşamışlar. Həmdullah Qəzvini bu haqda yazır: Muğan şəhərlərinin adları atəşpərəstlərin (zərdüştlərin) ay adlarından götürülmüşdür[67]. Belə ki, hal-hazırda da qalmaqda olan Aslandüzün 30 kilometrliyində Bəhmən, Maralan körpüsünün yaxınlığında Şəhrivər və başqalarını göstərmək olar[68].

"Muğan" sözünün özünün də etimoloji mənası – "muğlar yaşayan yer" bir daha sübut edir ki, həmin ərazidə atəşpərəstlər yaşamışlar[69]. T. Bünyadovun göstərmiş olduğu yerli əhalinin gəlmələrin (farsların) adı ilə bu arxı Gavurarx adlandırması ehtimalı inandırıcı olmayıb, əksinə, gəlmələr (ərəblər nəzərdə tutulur - L. F.) həmin arxı yerli əhalinin adı ilə əlaqədar olaraq Govurarx adlandırmışlar.

Qeyd etmək lazımdır ki, biz Azərbaycanın təsərrüfat həyatı məsələləri dedikdə həmin ərazidə əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət yolları və şəhərlərin inkişaf tarixinin öyrənilməsini nəzərdə tuturuq. Ona görə də Azərbaycanın əkinçilik üçün əlverişli olan təbii-coğrafi şəraiti və habelə suvarma sistemi öyrənildikdən sonra bilavasitə həmin ərazidə vaxtı ilə yetişdirilmiş taxıl növlərinə və yerli şəraitə uyğun olaraq onların becərilməsinə xüsusi diqqət verməliyik.

## Əkinçilik

Əkinçilik Azərbaycanın təsərrüfat həyatı məsələlərinin əsas sahələrindən birini, daha doğrusu, onun özəyini təşkil edir. Lakin tədqiqatçılar belə bir aktual məsələ ilə nisbətən az məşğul olmuşlar. Qeyd etmək lazımdır ki, son illərdə T. Bünyadovun Azərbaycanda əkinçiliyin inkişafına dair nəşr edilmiş monoqrafiyasını bu barədə yazılmış yeganə əsər hesab etmək olar.

Biz Azərbaycan dedikdə, təqribi olaraq Zaqros dağlarından Xəzər dənizinə, Qafqaz sıra dağlarının cənub ətəklərindən müasir Xəmsə mahalı daxil olmaqla Qəzvin və Həmədan əyalətinə qədər uzanan geniş bir ərazini nəzərdə tuturuq.

Məlumdur ki, qədimdə Azərbaycanın şimal hissəsi antik mənbələrdə Albaniya[70], ərəblərdə Alran[71], xalq arasında Aran, cənubu isə Atropatena adlanırdı. Lakin həmin ərazidə tarix boyunca yaşamış tayfa və qəbilələr iqtisadi-ictimai

---

[66] Şəmsəddin Sami. Qamuse türki, İstanbul, 1799, s. 141.
[67] H. Qəzvini. Göstərilən əsəri, s. 89 – 90.
[68] Yenə orada.
[69] Məhmmədəli. Müxbir Mərzha-e İran, Tehran, 1334, s. 91.
[70] Strabon, Plutarx, Dion Kassi, Ptolomey və başqalarının əsərləri.
[71] Yaqut Həməvi, Təbəri, Məsudi, İstəxri, İbn əl-Əsir, İbn əl-Fəqih və başqalarının əsərləri.

inkişaf nöqteyi-nəzərindən eyni səviyyədə olmasalar da, çox ehtimal ki, biri digərinə nisbətən oxşar və yaxın olmuşlar.

Bunu qeyd etmək lazımdır ki, ümumiyyətlə, tarixçilər, xüsusilə əkinçiliyə dair əsər yazmış olan müəlliflər öz əsərlərində torpaq mülkiyyətinin formaları, sinfi mübarizə, istehsal üsulu və istehsal münasibətlərinə toxunmadan, ölkənin əkinçilik üçün əlverişli olan təbii-coğrafi şəraitini, orada yetişdirilən məhsul növlərinin sadəcə olaraq adlarını sadalamaqla kifayətlənirlər. Lakin F. Engelsin göstərdiyi kimi, "Bütün tarix indi də siniflərin antaqonizmi və mübarizəsi yolu ilə davam edir. Həmişə hakim və tabe siniflər istismarçı və istismar olunan siniflər mövcud olmuş, bəşəriyyətin böyuk bir əksəriyyəti həmişə ağır zəhmətə qatlaşıb acınacaqlı həyat sürməyə məcbur olmuşdur"[72]. Demək biz tarixi dövrlərdə cəmiyyətin müxtəlif silklərə parçalanıb, insanların isə ictimai mövqelərinə görə bir-birindən fərqlənməsini aydın-aşkar görürük. Lakin burjua tarixçilərinin sinfi mövqeyi onlara imkan verir ki, belə bir həqiqəti aşkara çıxarmış olsunlar.

Bütun Şərq ölkələrində olduğu kimi Atropatenada da köhnə istehsal münasibətləri məhsuldar qüvvələrin yeni inkişaf səviyyəsinə uyğun gəlmirdi. Ona görə də köhnə istehsal münasibətlərin nisbətən proqressiv və qabaqcıl münasibətlərlə qanunauyğun şəkildə əvəz edilməsi zəruriyyəti qarşıya çıxırdı.

Mənbələrdə Misir və yaxud Assuriyada olmuş quldarlıq sisteminə Atropatenada təsadüf edilmir. Bu ərazidə olmuş quldarlıq sistemi haqqında məlumat verən ilk mənbə "Matikan hazar-Dadistan"dır. Orada qul termini əvəzinə "bəndək" və "ənşəhrik" sözləri işlədilmişdir[73]. III əsrdə Aralıq dənizi hövzəsinin bütün sahəsini bürümuş quldarlıq sisteminin böhranı İrana da toxundu[74]. Sasanilər dövründə dövlət, özünə qüvvətli ictimai dayaq yaratmaq məqsədilə dövlət idarələrində, orduda xidmət edən şəxslərə və habelə ruhanilərə ehtiyaclarını ödəmək məqsədi ilə torpaq ayırırdı.

Torpaq sahibləri əsas etibarı ilə qul əməyindən istifadə edirdilər[75]. Lakin artıq III əsrdən etibarən quldarlıq sistemi get-gedə zəifləyib dağılmağa başlayır.

Torpaq üzərində şərti mülkiyyət formasının aşkara çıxması, uzunmüddətli icarədarlıq bilavasitə istehsalçıları işlədikləri torpaq parçasına bağlayırdı. İranda feodalizmin yaranmasına qulların bir hissəsinin azad edilməsinin də təsiri az olmamışdır. Bir sıra mənbələrdə İranda, feodallaşma elementlərinin və feodal münasibətlərinin aşkara çıxması V - VI əsrlərə aid edilir.

N.V. Piqulevskayanın göstərdiyinə görə feodalizmin möhkəmlənməsi V əsrdən sonrakı dövrlərə aiddir. O, öz fikrini əsaslandırmaq üçün həmin əsrdə Məzdəkin başçılığı ilə kənd icmalarında yaşayanların feodallara qarşı aparmış

---

[72] K. Marks, F. Engels. Seçilmiş əsərləri, II cild, Bakı, 1953, s. 251

[73] Матикан, с. 243. А. Периханян. К вопросу о рабовладении и землевладении в Иране Парфиянского времени В. Д. № 4, 1952, с, 14 – 20.

[74] N. V. Piqulevskaya. Göstərilən əsəri, s. 177.

[75] Yenə orada.

olduqları sinfi mübarizəni misal gətirir[76]. Məzdəkin rəhbərliyi ilə olan bu hərəkat bütün istismar edilənləri birləşdirə bilmişdi. III əsrdən etibarən feodalizmin elementləri istər İran və istərsə Azərbaycan ərazisində yaranmağa başlayır. Lakin köhnə istehsal münasibəti olan quldarlıq hələ bu zaman tamamilə ləğv edilməyib istehsalda özünü göstərməkdə idi.

V. İ. Leninin göstərdiyi kimi "İki min il bundan əvvəl köləlik tamamilə hökmran idi. Dünyanın qalan qitələrindəki xalqların böyük çoxluğu bu dövrdən keçmişdir. Ən az inkişaf etmiş xalqlarda köləliyin izləri hələ indi də qalmışdır..."

Tarixdə bu formanın ardınca başqa bir forma - təhkimçilik hüququ gəlmişdir. Ölkələrin böyük çoxluğunda kölәlik inkişaf edib təhkimçilik hüququna çevrilmişdir. Cəmiyyətin əsas bölgüsü - təhkimçi mülkədarlar və təhkimli kəndlilərdir"[77].

Feodalizmə keçid dövründə İran və habelə Azərbaycanın iqtisadi-ictimai quruluşunda iki növ istehsal münasibəti qalığı: quldarlıq və icma özünü göstərməkdə idi. Qeyd etmək lazımdır ki, hər iki qalıq yeni yaranmaqda olan feodalizm istehsal üsulunun hərəkətverici qüvvəsi idi.

Atropatenada hakim olan Sasanilər sülaləsi şahlarından biri öz yaxın adamlarına, həmçinin ixtiyarında olan xidmətçilərə və tərəfdarlarına malikanə paylamışdır. Orta əsr alban tarixçisi Musa Kalankaytuklu öz salnaməsində qeyd edir ki, V əsrdə Albaniyada ayrı-ayrı feodalların ixtiyarında olan torpaqlarda mindən artıq kəndli işləyirdi[78] .

Qədim dövrdən etibarən İran yaylasının qərbində və Beynəlnəhreyində torpaq sahələri əldə etmək üçün xidmət göstərmək adi bir hala çevrilmişdir. Hər bir hökmdar ordusunu idarə edib, iqtisadi cəhətdən onları təmin etmək məqsədilə öz qoşun başçılarına torpaq sahələri bağışlayır və ondan istifadə edilmə hüququ da verirdi. Belə torpaqlara "ilku" deyilirdi. Bu torpaqların sahibi hökmdara xidmət göstərib qulluq etməyə borclu idi[79].

"İlku" torpaqlarını satmaq, habelə onu girov qoymaq qadağan edilmişdi[80]. Yuxarıda göstərdiyimiz kimi İranda yararlı torpaq sahələri ən qüdrətli feodal olan 7 ailənin ixtiyarında idi. Həmin ailələr istədikləri vaxt şahın əleyhinə çıxır, yaxud da əksinə, onu müdafiə edirdilər. Böyük feodallarla kəndlilər arasında vasitəçi rol oynayan orta təbəqə, kiçik torpaq sahələrinə malik "qul" sahibləri idi. Bunların arasında olan əlaqə şah ilə iri feodallar arasında olan əlaqədən daha güclü idi[81]. Ümumiyyətlə, Sasanilərin hakimiyyəti dövründə verilmiş qanunların hamısı torpaq mülkiyyətinin, siniflərin toxunulmazlığına və müqəddəsliyinə xidmət edirdi.

---

[76] N. V. Piqulevskaya. Göstərilən əsəri, s. 178; Маздакидское движение. Изв. АН СССР, серия Истории и философии, 1944, № 4, с. 171 – 181.
[77] V. İ. Lenin. Əsərləri, 29-cu cild, Bakı, 1935, s. 484.
[78] Моисей Каланкатуйский. История Албан, кн. I, гл. 26, СПб., 1861
[79] Ləmbton. Malik və zare dər İran, Tehran, 1339.
[80] Ləmbton. Göstərilən əsəri, s. 30.
[81] Yenə orada, s. 51.

Sasanilərin dövründə olan feodalizmin xüsusiyyətləri haqqında məlumatın az olmasına baxmayaraq iri feodallar istər yerli, istərsə də mərkəzi hakimiyyətə tabe olmaqla bərabər, həm də hər ikisinə vergi toplamalı və habelə hərbi xidmət göstərməli idilər[82].

Nizamülmülk torpaq mülkiyyətinin qorunub saxlanması və müqəddəsliyi haqqında "Ənuşirəvan və Azərbaycanın hakimi" adlı hekayətində yazır ki, "...hakim özündən ötəri imarət tikdirib və bağ saldırmaq istəyirdi. Lakin qarının daxması və həyətyanı torpağı bu işin icra edilməsinə mane olurdu. Qarının öz mülkünü satmaq istəməməsinə baxmayaraq, hakim həmin daxma və torpağı zorla ondan aldı. Qarı Ənuşirəvanın yanına gedib şikayət etdi. Ənuşirəvan bir nəfəri işlə tanış olmaq üçün oraya göndərdi.

Nəticədə məlum oldu ki, hakim Xorasan, Fars, İraq və Azərbaycanda xeyli karvansaraya, yaşayış binasına və malikanəyə sahibdir. Qarının şikayəti qəbul edilib daxması və həyətyanı sahəsi özünə qaytarılmışdır[83].

A. Kristensen göstərir ki, əyalətlərdə olan hakimlərin "tiyul" və "iqta"lara olan münasibətləri lazımi qədər məlum deyildir. Lakin ehtimal etmək olar ki, əksər vaxt böyük "tiyul" sahiblərinə əyalətlərin hakimliyini tapşırırdılar. Ona görə ki, həmin şəxslər öz əyalətlərində geniş torpaq sahələrinə və həm də su təsərrüfatına malik idilər[84].

Sasanilər dövrünün ictimai təbəqələri haqqında məlumat verən Səid Nəfisi yazır: "Sasanilərin dövründə İran əhalisi dörd təbəqəyə bölünürdü. Ruhanilər, hərbçilər, idarə işçiləri (maliyyə və mülki işlərlə məşğul olanlar), əkinçi və sənətkarlar"[85].

Müəllif bu dörd qrupun hər birinin öz növbəsində çoxlu dəstələrə böləndüyünü qeyd edir və göstərir ki, hər bir dəstə bir ictimai peşənin nümayəndəsi sayılırdı. Belə ki, ruhanilər qazilərə və məbədlərin başqa təbəqələrinə bölünürdü. İdarə işçiləri dəbir, hakim, münəccim və habelə şairlərə, tacirlər, dükançılar isə dördüncü qrupa şamil edilirdi. Hər bir dəstənin özünün rəisi olmaqla bərabər onun əlaltısı olan müfəttişlər (müavini) işləri yerinə yetirir, təhsildar xərac (vergi) toplayır. Usta isə şagirdliyə nəzarət edirdi[86]. Tanserin məktubunda Sasanilərə tabe olan əyalətlərin əhalisi ictimai nöqteyi-nəzərdən dörd silkə bölünür: kahinlər, hərbçilər, dəbirlər və digər peşə sahibləri daxildir[87].

Pəhləvi dilində yazılmış "Hacıabad" kitabəsində I Şahpur ölkənin yuxarı təbəqələri qarşısında ox atır. Burada göstərilmiş təbəqələr bunlardır: hakimlər (şəhrdarlar, pəhləvi dilində "şatre daran"), daha doğrusu, İran şahzadələri,

---

[82] Yenə orada, s. 54 – 55.
[83] Nizamülmülk. Siyasətnamə.
[84] A. Kristensen. Göstərilən əsəri, s. 32 – 33.
[85] S. Nəfisi. Təməddün-e İran-e Sasani, Tehran, 1331. Müqəddimə.
[86] S. Nəfisi. Göstərilən əsəri. Göstərilən əsəri, s. 2
[87] Name-i Tanser, Tərcümei, M. Minəvi, Tehran, 1333, I

Vispuran (Vispəhran) əsilzadələr (vəzərgan) və azatlar[88] (azadlar). Ərəblər "azat" sözünü "əhrar"la əvəz etmişlər. "Əhrar" sözünün mənasına gəldikdə "azad" deməkdir.

Şahpurun kitabəsi Sasani dövlətinin tabeliyində olan əyalətlərin fəhristi ilə başlayır. Orada göstərilir ki, qərbdə Ermənistan, Gürcüstan, Kür vadisi bütünlüklə Qafqazda olan Allan keçidinə qədərki yerlər Şahpura tabe idilər[89]. İran arxeoloqu Əli Sami yuxarıda göstərdiyimiz Allan torpağını Aran və yaxud Albaniya ilə eyni yer olduğunu iddia edir. Halbuki, Allan müasir Daryal keçidi ətrafına deyilir və allanlar həmin ərazidə yaşayırdılar. Alban torpaqlarına gəldikdə, Qafqaz dağı, Xəzər dənizi və Kür vadisini əhatə edirdi.

Sasanilər dövrünün vergiləri haqqında məlumat verən Əli Sami göstərir ki, dövlətin gəlirinin ən mühüm hissəsini "xərac" və "kizit" vergisi təşkil edirdi. Torpaq və can vergiləri aşağıdakı qayda üzrə təyin olunurdu. Belə ki, hər mahalın əkin sahəsinin məhsuldarlığından və habelə onun mövqeyindən (şəhərə yaxın və əksinə, uzaq olması ilə əlaqədar) asılı olaraq məhsulun $^1/_3$ -dən $^1/_6$ həcmində toplanırdı[90].

Vergilərin bu qayda ilə toplanması bir sıra çətinliklər törətdiyinə görə əkinçiləri narazı salırdı. Belə ki, dövlət məmurları öz vəzifələrindən istifadə edib, məhsulun vaxtında yoxlanılıb və vergi miqdarının təyin edilməsini ləngidirdilər. Bu səbəbə görə də məhsulun xeyli hissəsi tələf olurdu. Ona görə də Qubad vergi sistemini dəyişdirmək qərarına gəldi. Lakin həmin qərar Xosrov Ənuşirəvanın dövründə həyata keçirildi. Əkin sahələrinin miqdarından asılı olaraq aşağıdakı qaydaya görə vergi təyin edildi. 2400 kvadratmetr (bir "cərib") əkin sahəsindən ildə bir dirhəm, həmin miqdarda olan üzümlüklərdən 8 dirhəm, yoncalıqlardan 7 dirhəm, çəltiklik (beş dankdan) bir dirhəm, farsda olan hər dörd xurma ağacından bir dirhəm, hər 6 assuri xurmasından bir dirhəm, habelə hər 6 zeytun ağacından ildə bir dirhəm toplanılması təyin edildi[91]. Həmin qanundan sonra natural şəklində toplanan məhsulun bir hissəsi pul vergisi ilə əvəz edildi. İkinci bir tərəfdən vergi məhsulun həcminə görə deyil, torpaq sahələrinə görə təyin edilməyə başladı. Məhsulları təbii xəstəliklərə məruz qalmış şəxslərə güzəştlər edilirdi[92]. Qeyd etmək lazımdır ki, atların bəslənilməsində istifadə edilən arpanın vergi miqdarı buğda ilə bərabər idi. Həmin vergilərin ən yüksək miqdarını eynilə Azərbaycan ərazisinə də tətbiq etmək olar. "Gizit" və yaxud "gəzid" arami mənşəli söz olub, sonralar fars dilinə keçmişdir. Firdovsi "gizit" haqqında öz

[88] S. Nəfisi. Göstərilən əsəri, s. 2.
[89] Yenə orada.
[90] Ə.Sami. Təməddün-e-Sasaniyan, I cild, Tehran, 1942, s. 209 - 220
[91] Yenə orada, s. 209.
[92] Yenə orada.

fikrini belə ifadə etmişdir: "gizit"in miqdarını bir dirhəm təyin etdilər. Ona görə ki, dehqan (kəndli) inciməsin, narazı olmasın"[93].

Sənətkarlardan ildə bir dəfə can vergisi tonlanırdı. "Gizit" Sasani imperiyasının ərazisində yaşayan xristianlardan alınırdı[94].

Torpaq, can və "gizit" vergilərindən başqa "fərvərdigan", habelə "mehrigan" şənliklərində də hədiyyələr qəbul edilirdi ki, bunlar da öz növbəsində şahənşahın xəzinə gəlirinə aid idi. Səltənətə məxsus olan malikanələrdən və xalisə torpaqlarından, xüsusilə Ermənistan, İran qızıl mədənlərindən, habelə müharibələrdə əldə edilmiş qarətdən (qənimətdən), gömrüklərdən və başqa mənbələrdən də külli miqdarda gəlir əldə edilirdi[95]. Xosrov Ənuşirəvan peşə sahibləri və sənətkarların da can vergisini nizama saldı. Peşə sahibləri və sənətkarlar 20 yaşından 50 yaşına qədər vergi verməli idilər. Onlar varlarına görə bir neçə təbəqəyə bölündü. Ən varlı olan sənətkar 12, ondan aşağı olan 8, daha aşağı dəstə 6, rəiyyət isə ildə dörd dirhəm verməli idi[96]. Vergini daha müntəzəm toplamaq məqsədi ilə ölkə bir neçə zonaya bölündü. Zonalar isə "ustan", yaxud "kur" adlandırıldı. Hər "kur" da öz növbəsində bir neçə rayona bölündü. "Kur"un vergi toplayanlarına "gəbə" deyilirdi. Torpaq və can vergilərini nizama salan şəxsə "vastruyuşansalar" və yaxud "vastruyuşbəz" adlanırdı. Həmin şəxslər tacir və sənətkarların can vergilərini topladıqlarına görə "hütuxşbaz" (peşə və sənət sahiblərinin rəisi) ləqəbi də daşıyırdılar[97].

Əli Sami öz əsərində həmin məsələni araşdıraraq qeyd edir ki, "hütuxşbazlar" əsl mənada maliyyə, kənd təsərrüfatı ticarət və peşə-sənət naziri vəzifəsini ifa edirmişlər. Xəzinədarlar isə "gəncur" adlanırdı[98]. Müəllif sözünə davam edərək göstərir ki, dövlət müfəttişləri yoxsul kəndlilərə kömək edib onlarda əkinçiliyi inkişaf etdirməyə maraq yaratmaq məqsədilə şəhər, qəsəbə və kəndləri gəzir və qarşıda olan çətinlikləri aradan qaldırırdılar. Onlar əkin sahələri təbii fəlakətlərə və müəyyən xəstəliklərə məruz qalmış kəndliləri həmin il torpaq vergisindən azad edirdilər[99].

Səid Nəfisi, Əli Sami və İranın başqa tarixçiləri yuxarıda göstərdiyimiz vergi sistemində olan dəyişikliyi proqressiv və zəhmətkeşlərin mənafeyinə uyğun bir hadisə kimi təhlil etməyə səy göstərir. Halbuki, yeni vergi sistemi istər əkinçilərin, istərsə də sənətkarların iqtisadi vəziyyətini nəinki yaxşılaşdırmırdı, bəlkə əksinə, onların onsuz da qənaətbəxş olmayan iqtisadi şəraitini çətinləşdirir və amansız istismar edilmələrini daha da artırırdı. Yeni vergi qanunu formal olsa da bir tərəfdən əkinçiliyi inkişaf etdirir, digər tərəfdən isə tarlalardan səmərəli

---

93 Fordovsi. Göstərilən əsəri, s. 209.
94 Əli Sami. Göstərilən əsəri, s. 209.
95 Əli Sami. Göstərilən əsəri, s. 210.
96 Yenə orada, s. 211.
97 Yenə orada, s. 211 – 212.
98 Yenə orada.
99 Yenə orada, s. 212.

surətdə istifadə edilməsinə imkan yaradırdı. Lakin əvvəlki sistemdən fərqli olaraq əkinçinin ixtiyarında olan torpaq sahəsinin istifadə edilməsindən asılı olmayaraq həmin il kəndli dincə qoyulmuş torpağa da müəyyən edilmiş vergini verməli idi.

Bütün bunlar getdikcə xalq kütlələrinin narazılığına səbəb olurdu. Bu zaman İran hakimiyyətinə tabe olan ölkə və vilayətlərdə olduğu kimi, Azərbaycanda da feodal münasibətlərinin möhkəmlənməsi ilə əlaqədar olaraq kəndlilərin vəziyyəti gündən-günə ağırlaşırdı. Yuxarıda göstərdiyimiz kimi, torpaqdan istifadə edilib-edilməməsindən asılı olmayaraq kəndli hər il məhsulun bir hissəsi əvəzinə nəğd pul verməli idi. Digər tərəfdən əyanlar, ruhanilər və qoşun başçıları (hərbçilər) nəyin bahasına olursa-olsun məhsuldar torpaqları öz əllərinə keçirməyə cəhd göstərirdilər. Azad icmalar dövlət tərəfindən də sıxışdırılıb amansızcasına istismar edilirdi. Bir sıra icmalar üzərlərinə qoyulmuş yüksək vergi və mükəlləfiyyətlərin öhdəsindən gələ bilmədikləri üçün istər-istəməz iflasa uğrayırdı.

M. Ravəndi Sasanilər hakimiyyəti dövründə dörd silkin (təbəqənin) mövcud olduğunu göstərir. Onlardan birinci-silkə şahzadələr, əmirlər, iri feodallar və ruhanilər, ikinci silkə hərbçilər, üçüncü silkə dəbirlər, dördüncü silkə isə xalq kütləsini təşkil edən kənd və şəhər əhalisi daxil idi. Bu silklərin hər biri də özlüyündə bir neçə qrupa bölünməklə ictimai təbəqənin bir peşə nümayəndəliyini təşkil edirdi. Hər silkin daxilində işləri idarə etmək üçün başçılar təyin edilirdi. Ruhanilər silkini "möbədlər möbədi", hərbçiləri "spahbəz", dəbirləri isə "dəbirbəz" idarə edirdi.

Şahzadələr, habelə tiyul və iqta torpaq sahələrinə malik olan kiçik əmirlər ölkənin müxtəlif əyalətlərini idarə edirdi. Lakin bu hakimlər bilavasitə şahənşaha tabe idilər. Bu kiçik şahlıqların hökmranlığı irsi mahiyyət daşıyırdı. Lakin onlar daxilən müstəqil olsalar da öz ordularını daima şahənşahın ixtiyarına verməli, könüllü olaraq vergi ödəməli idilər[100].

Sasanilər dövründə İran bir növ konfederasiya və yaxud müxtəlif dövlətlərdən ibarət olmuşdur. Bunlara Farsların doğma yurdları olan İran (İran şəhr), digəri isə Sasanilər tərəfindən işğal edilib öz ölkələrinə birləşdirilmiş qeyri-İran (Əniran) ərazisi daxil idi[101]. Həmin dövrdə Azərbaycan ərazisi də Sasanilər tərəfindən işğal edilib İran ərazisinə birləşdirilmişdir.

""Tiyul" və "iqta" sahiblərinin imtiyazları haqqında" məlumatımız yoxdur. Misal üçün, şahın əyalətlərə təyin etdiyi hakimlərinin ixtiyarında olan iqtalara olan münasibətləri məlum deyildir[102].

Sasanilərin dövründə bəzi mənsəb və peşələr yenidən keçmişdə olduğu kimi irsi olaraq yeddi ailənin ixtiyarına keçir[103]. Bu ailələrdən birinci şahın başına

---

[100] M. Ravəndi. Göstərilən əsəri, s. 457.
[101] M. Ravəndi. Göstərilən əsəri, s. 456 - 457.
[102] A. Kristensen. Göstərilən əsəri, s. 133 – 140.
[103] M. Ravəndi. Göstərilən əsəri, s. 453.

tac qoymağı öhdəsinə alıb, digəri hərbi işlərə nəzarət edir, başqa ailə isə ölkənin idarə işlərinə baxır. Nəhayət, ailələrdən biri xalqın ərizə və şikayətlərini hökmdara yetirirdi[104].

Sasanilər tayfa hökmranlığının kökünü kəsmək əvəzinə onun qüdrət və nüfuzunu azaltmağa səy göstərirdilər. Belə ki, II Şahpurun ölümünə qədər qədim ailələrdən heç biri cürət edib səltənəti ələ keçirmək əzmində olmamışdır. Lakin II Şahpurun ölümündən I Xosrovun hakimiyyət başına gəldiyi vaxta qədər olan 125 il ərzində feodallar yenidən qüvvətlənib keçmiş imtiyazlarını geri qaytarmağa səy göstərmişlər[105].

I Xosrov Məzdək hərəkatından istifadə etməklə onları, müvəqqəti olaraq geri çəkilməyə məcbur etdisə də bu hal nəticəsiz qaldı. Məlum olduğu kimi, Sasanilər dövlətinin məğlubiyyət səbəblərindən biri də ölkə daxilində baş vermiş feodal çəkişmələri olmuşdur[106].

Sasanilərin əsas dayağı əyanlar və özləri tərəfindən təşkil edilmiş ordu dəstələri idi. Sasanilər yuxarı silkə və habelə orduya arxalanmaqla elə bir qüdrətli və mərkəzləşmiş dövlət təşkil etdilər ki, elə dövlət quruluşuna özlərindən əvvəl olmuş Parfiya dövründə belə təsadüf edilmir[107]. Əyan və böyüklərdən sonra həmin dövrdə sayı çox olub torpaq mülkiyyətinə sahib olan mülkədar və kənd başçıları, başqa sözlə desək, II dərəcəli əyanlar və yaxud azadlar dururlar. Bunlara kəndxuda (kəzək xoza) və yaxud dehqan da deyilirdi[108].

S. Nəfisi "azad" məfhumunu belə izah edir: arilər İran ərazisinə gəldikdən sonra yerli əhalidən fərqlənmək üçün özlərini "azad" adlandırmışlar. Sonralar "azad" məfhumu "nəcib", "alicənab" mənasında işlənmişdir. Sasanilər dövründə mövcud olan süvari (cəvari) və yaxud əsvaran silkində hökmən onlardan törəmişdir[109]. Pəhləvi dilində olan "əsvari" sözündən müasir "səvar" termini əmələ gəlmişdir. Ərəblər isə bu sözü cəm halında olan "əsavirə" ilə əvəz etmişlər. Bu təbəqə (süvarilər) əsas etibarı ilə əkinçiliklə məşğul olurdu. Lakin bu işi onların ixtiyarında olan kəndlilər icra edirdi. Süvarilərin bir qismi sarayda yüksək vəzifə sahibləri idi. Belə ki, II Xosrovun oğlanlarının tərbiyəçisi həmin silkdən olmuşdur[110].

Bu silkə irsi olaraq kəndlilərin idarə edilməsi tapşırılmamışdı. Həqiqətdə isə bu təbəqə kəndlilərlə mərkəzi hakimiyyət arasında rabitə idi. Tanserin məktubunda göstərildiyinə görə əyanların (yuxarı silkin) hökmranlıq hüququ irsi olmuşdur. Lakin M. Ravəndi bu fikrin əleyhinə çıxaraq yazır ki, Tanserin məktubunda olan yuxarıdakı fikir inandırıcı deyildir. Çünki bir sıra mənbələrin

---

[104] Yenə orada.
[105] Yenə orada.
[106] Yenə orada.
[107] Girşman. İran əzağaz ta İslam, Tehran, 1336, s. 250.
[108] A. Kristensen. Göstərilən əsəri, s. 132 – 135.
[109] S. Nəfisi. Göstərilən əsəri, s. 8 – 9.
[110] Yenə orada.

göstərdiyindən məlum olur ki, şah məsləhət və məşvərət etmədən, öz meylinə müvafiq surətdə yeni hakimlər təyin edir və istədiyi şəxsləri, hətta onlar əyan ailəsindən olmuş olsalar da işdən kənar edirdi. M. Ravəndi Tanserin məktubunu tənqid etsə də, öz fikrini sübut etmək üçün mənbə göstərmir. Digər tərəfdən şahın bir hökmdarı işdən götürməsi və yaxud məsləhətsiz, digərinə rütbə verməsi hakimlərin, habelə əyanların irsi olması faktını inkar etmir. Tanserin məktubuna gəldikdə o, həqiqətən tarixi bir mənbə kimi tanımaqdadır. M. Ravəndi əsası olmadan Tanserin məktubunu tənqid edir. Bundan başqa o, ictimai siniflərin də tarixdəki ruhunu izah etmir. Məlum olduğu kimi, III - VII əsrlərdə iki sinif - istismar olunan və istismar edən sinif mövcud olmuşdur. Lakin M. Ravəndi iki sinif əvəzinə dörd silk və yaxud təbəqənin mövcud olduğunu göstərir.

M. Ravəndi yazır: Sasani dövlətinin arxalandığı əsas təbəqə sayca çox olan və geniş əkinçi silkini (təbəqəsini) istismar edən "azad" mülkədarlar idi. Miqdarı ən çox olan əkinçilər azadlar və onların əlaltıları tərəfindən istismar edilirdi[111]. Bu dövrdə azadlar (torpaq sahibləri) İran ordusunun əsas özəyini təşkil edirdi. Bu silk Məzdək hərəkatından sonra daha artıq sarayın nəzər-diqqətini özünə cəlb etmiş oldu. Bundan sonra onlara öz əvvəlki mövqelərini bərpa etmək üçün müstəqil olaraq silah almaq hüququ verildi[112]. Digər tərəfdən onların bir çoxu əsilzadə hüququna da malik oldu.

"Dehqan" sözünün mənasının müxtəlifliyi haqqında bir sıra mülahizələr irəli sürmüşlər. M. Ravəndi yazır ki, əyanların ən aşağı pilləsini təşkil edən dehqanlar öz malikanələrində yaşayırdılar. Onlar, ancaq tərbiyə və geyim nöqteyi-nəzərindən əkinçilərdən fərqlənirdilər[113].

Hertsfeldə görə, II dərəcəli əyanlara "gəzək – xozay" deyilirdi[114].

Bartolemeyə görə isə, kənd başçıları "kəndxuda", "dehkan" və yaxud "dehqan" adlanırdı[115].

Dehqan termini Sasanilərin son dövründə daha geniş yayılaraq, ərəblərin də dövründə işlənirmiş. M. Ravəndiyə görə "dehqan" titulu ərəb işğallarından sonra da ölkənin müxtəlif yerlərində qalmaqla İranın mülkədar təbəqəsini bildirirdi. Bir sıra İran əyalətlərinin əyanları və siyasi xadimləri dehqan nəslindən olduqlarına görə fəxr edirdilər. Digər tərəfdən isə həmin termini ərəblərdən fərqlənmək və əsilzadə simvolu kimi qoruyub saxlayırdılar. "Şəhr" adlanan mahal hakimləri dehqanlardan təyin edilir və "şəhrik" adlanırdı[116]. Onların əsas işi vergi toplamaqdan ibarət idi. Onlar təqribən müasir İran və Azərbaycanda mövcud olan "koxa"ların (kəndxuda) vəzifəsini ifa edirdilər.

---

[111] M. Ravəndi. Göstərilən əsəri, s. 459.
[112] Yenə orada.
[113] Yenə orada.
[114] Hertsfeld. Paykuli lüğate şümarə 567 – 570.
[115] Bartolemey. Dərbabe zəbanha-e İrane-e miyane, 3-cü cild, s. 34.
[116] M. Ravəndi. Göstərilən əsəri, s. 261.

Ərəb işğalları dövründə incidilməyən yeganə silk dehqanlar idi. Ərablər "xərac"ın toplanmasında onların gücündən istifadə etdikləri üçün verginin miqdarını Sasanilər dövründə toplanılmış verginin miqdarına bərabərləşdirdilər[117].

Dehqanların qara camaatdan fərqləndiyini göstərən M. Ravəndi yazır ki, onlar gözəl paltar geyir, silah bağlayır və ata minirdilər. Dehqanların qadınlarına gəldikdə onlar ipək paltar geyir və üzlərini örtürdülər. Onlar şikara çıxır, ox atır və qılınc vurmaq öyrənirdilər[118].

Bu termin əvvəllər "kəzək xoza" formasında işlənmiş, sonra isə "dehqan" şəklini almışdır[119]. Söz "deh" (kənd) və "kan", yaxud "qan" (başçı) sözlərindən ibarət olub, kənd başçısı deməkdir. Kəndin başçısı, rəisi kəndi idarə edirdi. Dehqanlar tərəfindən kəndin idarəsi irsi xarakter daşıyırdı. Belə ki, dehqan öldükdə kəndi onun oğlu idarə edirdi[120].

Dehqanlar mövcud dövlət quruluşunun zəruri özəyini təşkil edirdi. Dövlət daxilində baş vermiş mühüm hadisələrdə dehqanların fəaliyyət göstərməsinə baxmayaraq onlar ölkənin əsas ictimai həlqələrini təşkil edirdilər. Bu səbəbə görə də dehqanların rolunu nəzərə almamaq olmaz. Məsudinin yazdığına görə dehqanlar beş təbəqəyə bölünməklə, hər təbəqənin özünəməxsus geyim forması olmuşdur. "Məcməlüt-təvarix"də yazdığına görə, dehqan torpaq sahibi və kənd başçısına dövlət tərəfindən verilmiş titul olmuşdur[121]. Lakin dehqanlara irsən çatmış ərazi sahəsi o qədər də böyük olmamışdır. Bu səbəbə görə də bəzi yerlərdə dehqanlar torpaq sahəsinə görə kənddə yaşayan başqa əkinçilərdən fərqlənmirdilər.

Buna görə də həmin ərazidə dehqan birinci dərəcəli əkinçi hesab edilirdi. Deməl, dehqan əkinçilər üzərində mülkədar dərəcədə hüquqa malik olmamışdır. Başqa cəhətə gəldikdə dehqan kənddə dövlət nümayəndəliyini əvəz edirdi. Vəzifələrinə gəldikdə vergi toplamaq və dövlət qərarını kəndlərdə həyata keçirməkdən ibarət idi. Dövlət istifadəsiz qalmış torpaqları onların vasitəsi ilə əkdirir və yararlı vəziyyətə salırdı. Ərəblər də dehqanlarsız vergi toplaya bilmirdilər. S. Nəfisiyə görə, iranlılar dehqan nəslindən olduqlarına görə fəxr edirdilər.

Ərəblər bu təbəqənin nüfuzundan istifadə etməklə bütün vergiləri toplayırdı[122]. A. Kristensenə görə, dehqan təbəqəsini əfsanəvi şah olan Huşəngin qardaşı Viqharda nisbət verirlər. Mahalların idarə olunması irsən onlara tapşırılırdı[123].

---

[117] Yenə orada.
[118] M. Ravəndi. Göstərilən əsəri, s. 262
[119] A. Kristensen. İran dər zəman-e Sasaniyan, tərcümə R. Yasiminin, Tehran, 1345, s. 132.
[120] Yenə orada.
[121] Yenə orada.
[122] S. Nəfisi. Göstərilən əsəri, s. 9.
[123] Əl-Məsudi. Müruc əl-zəhəb və vəl-mədain əl-cövhər, 1-ci cild, Müqəddimə.

“Mücməl üt-təvarix”də deyilir ki, dehqanlar torpaq sahibi və kənd başçıları idilər[124]. Təbərinin yazdığına görə, dehqanlara irsən çatmış olan torpaq sahələrinin miqdarı az olduğuna görə, onlar adi kəndlilərdən bir o qədər fərqlənmirdi. Buna baxmayaraq dehqan öz kəndinin birinci dərəcəli əkinçisi hesab edilir[125]. Deməli, dehqanlar əkinçilərin qarşısında iri torpaq sahibləri qədər nüfuza malik olmamışlar. Dehqanların vasitəsi ilə bir çox yararsız olan sahələr abadlaşdırılır.

Ölkə əhalisinin əksəriyyətini təşkil edən əkinçilərin iqtisadi-ictimai vəziyyəti haqqında əldə kifayət qədər məlumat yoxdur. Lakin əkinçilər torpaq sahələrinə xas olan mülkün cüzindən idilər. Onlar məcburi halda işləməklə bərabər ordunun da piyada hissəsində qulluq edirdilər[126].

Bu barədə Ammian Marselli yazır: “Əkinçilər muzd almır və başqa imtiyazlara da malik deyildilər. Bundan başqa ölkə əhalisi də əkinçilərdən üstün mövqeyə malik idi. Ona görə ki, əkinçilər can vergisi verdikləri halda orduda da qulluq etməli idilər. Lakin başqaları can vergisi verdikdə, orduda qulluq etməkdən azad edilirdilər[127].

Ölkədə əhalinin əksəriyyətini təşkil edən əkinçilərin vəziyyəti haqqında Girişman yazır ki, əkinçilər formal olaraq azad olsalar da, əslində qullar kimi torpağa bağlı olub, mülklə birlikdə alınıb satılırdılar. Ümumiyyətlə, əkinçi, dülgər, dəmirçi, toxucu, çörəkçi, yağtutan, dəyirmançı kimi də fəaliyyət göstərirdi. Dəyirman IV əsrin ixtiralarından sayılır[128].

İpəkçiliyin inkişafı ilə əlaqədar olaraq tut ağaclarının becərilməsinə ciddi fikir verilirdi. Dövlət, eləcə də əyanların geniş torpaq sahələri qədim üsulla becərilirdi. Əkinçilikdə baş vermiş yeniliklər ancaq dövlət mülklərində tətbiq edilirdi. Ona görə kiçik təsərrüfatlar bir sıra yenilikləri öz sahələrinə tətbiq etmək iqtidarına malik deyildi. İkinci bir tərəfdən əkinçilik inkişaf etdikcə kəndlilərin istismar dərəcəsi artırdı. Əkinçilər dövlət, əyan və atəşgədə torpaqlarına bağlı idilər. İri torpaq sahiblərinin mülkiyyəti artdıqca, kiçik mülkədarlar iqtisadi böhran və çapqınlardan yaxa qurtarmaq məqsədilə onların hakimliyini qəbul edirdilər[129].

İri torpaq sahiblərinin nəzarət dairəsi günü-gündən genişlənir və ixtiyarında olan sahələrdən vergi də toplamalı idilər. Bu səbəbə görə dövlət özü də müəyyən dərəcədə vergilərin toplanmasında feodallardan asılı vəziyyətə düşürdü. Dövlətin isə feodalların nüfuzunu aradan qaldırmaq cəhdi çox vaxt müvəffəqiyyətsizliklə nəticələnirdi. Feodalların vəziyyəti elə bir dərəcəyə gəlib çatdı ki, şah maliyyə və ordu cəhətdən onlardan asılı vəziyyətə düşdü[130].

---

[124] Tərcümeyi Şahnamə. 1-ci cild, Müqəddimə.
[125] M. Ravəndi. Göstərilən əsəri, s. 461 – 462.
[126] Ammian Marselli. Göstərilən əsəri, s. 15.
[127] Girişman. Göstərilən əsəri, s. 251 – 300.
[128] Yenə orada, s. 300.
[129] M. Ravəndi. Göstərilən əsəri, s. 462.
[130] M. Ravəndi. Göstərilən əsəri, s. 462.

Böyük torpaq sahələri məhdud müəssisə şəklini almaqla onların əksər hissəsi icarəyə verilirdi. Bu qəbil mülklərdə kəndli dəstələri fəaliyyət göstərir, feodal və əyanların buğda, yağ, çaxır, ət və meyvəyə olan tələblərini ödəyirdilər. Kəndlilərə natural formasında əmək haqqı verilirdi; vergilər də natural halında toplanılırdı. Mülkədarlar şəhərlərdə deyil, kəndlərdə öz malikanələrində möhkəmləndirilmiş yerlərdə yaşayırdılar. Kənd yerlərində sikkə tədavülü olduqca azalmışdı[131]. Bu zaman imperiyada sabit bir iqtisadi formasiya yaranmış oldu[132]. M. Ravəndinin nəzərdə tutduğu sabit iqtisadi formasiya şübhəsiz ki, feodalizm quruluşu olmuşdur. Onun nəzərincə aşağı təbəqələr hər cür zəhmətə dözməli və özünü dolandırmalı idi. Zəhmətkeşlər şah qəsrlərinin tikintisində çalışmaqla yanaşı, ərzaq malları istehsal edir, əmək alətləri və ləvazimatı hazırlayırdılar. Bundan başqa çaparxanaların qorunması, şahın ilxı və mal-qarasının saxlanılması, habelə digər ağır zəhmət tələb edən iş sahələri aşağı təbəqəyə məxsus idi[133]. Fərdi azadlıq dövlətin iradəsindən asılı idi. Lakin İranda min il ərzində fərdi azadlıqdan əsər belə yox idi. I Xosrov tərəfindən verilmiş islahat nəinki zəhmətkeşlərin vəziyyətini yüngülləşdirdi, əksinə, onu daha da çətinləşdirdi. Bu islahat başdan-başa dövlət və əyanların mənafeyini müdafiə edirdi. M. Ravəndiyə görə zülm və cəhalət əhalini yuxarı təbəqə əleyhinə üsyan qaldırmağa sövq edirdi. Buna Məzdək hərəkatını misal göstərmək olar. M. Ravəndiyə görə Məzdək hərəkatının iqtisadi və ictimai kökə malik olması onu kommunizm hərəkatı adlandırmağa imkan verir[134]. Onun bu fikri ilə razılaşmaq olmaz. Ona görə ki, yuxarı təbəqə əleyhinə baş vermiş bütün üsyanlar iqtisadi-ictimai kökə malik olmuşdur. O cümlədən Məzdəki rəhbərliyi ilə baş vermiş hərəkatın da ictimai-iqtisadi kökləri olmuşdur. Lakin V əsrdə baş vermiş bu hərəkatı kommunizm adlandırmaq düzgün deyildir. Məzdək hərəkatı mövcud dövlət və feodal, əyanlara qarşı baş vermişdir. Lakin hərəkat iştirakçılarının vahid bir qüvvə kimi birləşə bilməmələri, qalib gəldikdə zəhmətkeşlərin xeyrinə hansı işləri görəcəkləri məlum deyildir. Bununla bərabər Sasani zülmünə və feodal istismarına qarşı baş vermiş Məzdək hərəkatı (496 - 531) ən böyük və qüdrətli xalq üsyanı idi. Bu hərəkat ölkənin iqtisadi-ictimai, habelə siyasi vəziyyəti ilə sıx əlaqədar idi. Bir çox mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edilən kəndlilərin vəziyyəti həddindən artıq ağır idi. Bu dövrün vergiləri içərisindən dözülməz vergi can vergisindən ibarət idi. I Xosrova qədər verginin həddi-hüdudu olmadığına görə, vergi toplayanlar kəndlilərlə öz istədikləri kimi rəftar edirdilər. Mənbədə göstərildiyinə görə vergini ödəməyən kəndlilər öz məhsullarını toplamaq və bazara çıxarıb satmaq hüququna malik deyildilər[135]. 4 dirhəmdən 12 dirhəmə qədər olan can vergisini ödəməyənlərin əmlakı dövlət

---

131 Yenə orada.
132 Yenə orada.
133 Yenə orada.
134 Yenə orada, s. 463.
135 Babilistan Telmudu, 55.

tərəfindən müsadirə edilirdi. I Xosrovun islahatından sonra isə uşaqlar, qadınlar və 60 yaşına çatmış kişilər can vergisindən azad edilirdi[136]. Ammian Marselli yazır ki, mülkədarlar və ruhanilər kəndlilərin torpaq sahələrini əllərindən almaqla bərabər, həm də onlarla istədiyi kimi rəftar edirdilər[137].

Sasanilər sülaləsi II Şahpurun ölümünə qədər olduqca qüvvətli idi. Lakin onun ölümündən sonra iri feodallar yenidən əvvəlki nüfuzlarını geri qaytarıb 125 il müddətinə Ərdəşirin səyi ilə bünövrəsi qoyulmuş mərkəzi hakimiyyəti zəiflətdilər[138]. Ümumiyyətlə, Sasanilərin qüdrətli şahları ölkənin bütün inzibati təşkilatlarına, o cümlədən ordu və məhkəmələrə hakim olmaqla bərabər, eyni zamanda onlar tərəfindən verilmiş bütün sərəncamlar qeyd-şərtsiz icra edilirdi. Şah özünü xalqa göstərmirdi. Ölkənin görkəmli şəxsiyyətləri də şahı görmək hüququna malik deyildi. Şahla yaxın adamları arasında pərdə asılır və həmin pərdənin qorunması "xürrəm baş" adlanan əsilzadəyə tapşırılırdı. Dinkord şahın hüquq və vəzifələri haqqında deyilir ki, "Şah dini qayda-qanunlara riayət etməli, əxlaqlı və pak olmalı, bağışlamalı, qisas almamalı, tabelərə qarşı məhəbbət göstərməli, kəndlilərlə gözəl rəftar etməli, səxavətli, ədalətli olmalı"[139].

Şahlar bu göstərilən qayda-qanunlara riayət etməyib xalq kütləsi ilə öz istədikləri kimi rəftar edirdilər. İlk dövrlərdə canişinləri şahlar özləri təyin edirdi. Lakin sonralar hakimiyyət zəiflədikdə hərbçilər, ruhanilər və dəbirlər bu işə dəxalət edirdi. Əslində isə məbədlər məbədinin rəyi qəti olmalı idi.

Müşavirlərin mövqeyini təyin edən yeganə şəxs Ərdəşir olmuşdur. Ona görə də hərbçilər, şahzadələr birinci sırada, şahdan təqribən 5 metr aralı, bunlardan 10 metr aralıda şahın ətrafında olan münəccimlər, dəbirlər və alimlər, bunlardan da 5 metr aralı isə təlxəklər, habelə məzhəkəli söhbət edənlər olmalı idi[140]. Cahiz Sasanilər dövründə olan 4 silki belə izah edir:

Şah nəslindən olan ordu başçıları, möbədlər və hırbodlar, həkimlər, dəbirlər, habelə astronomlar I - III silkə, əkinçilər, sənətkarlar və başqaları isə IV silkə daxil idi. M. Məhəmmədi "Divan" terminini izah edərək göstərmişdir ki, pəhləvi dilində olan "divan" idarə deməkdir[141]. Sasani dövründə dövlətin işlərini idarə edən təşkilat, o cümlədən xərac, ordu və çaparxanalar "divan" adlandırılmışdır. Mərkəzi divanlar o zamanlar nazirlikləri əvəz edirdi. M. Məhəmmədi İbn Xəlduna istinad edərək yazır: Xilafət dövründə mədaxil-məxaric dəftənində "divan" məfhumunu saxlamalı oldular[142].

Xərac divanı istər Sasani və istərsə Xilafət dövründə dövlətin ən mühum idarəsi sayılırdı.

---

136 N. V. Piqulevskaya. Göstərilən əsəri, s. 257.
137 Ammian Marselli. XXIII, 6, 57.
138 M. Ravəndi. Göstərilən əsəri, s. 464.
139 Dinkord, V.
140 Cahiz. Göstərilən əsəri, s. 6.
141 M. Məhəmmədi. Fərhəng-e İran və təsir-e an dər təməddün-e İslam və ərəb, Tehran, 1323, s. 49.
142 Yenə orada.

M. Məhəmmədi İbn əl-Əsirə istinad edib göstərir ki, müsəlman ərəblər İran ölkəsinə yiyələndikdə oranın maliyyə quruluşunu olduğu kimi saxlamağa məcbur oldular. Ərəblər Sasani şahlarının, xüsusən Firuz və Ənuşirəvanın vergi toplanılmasında icad etmiş olduqları "divan" formasını olduğu kimi İran, o cümlədən işğal etdikləri başqa ölkələrdə saxlamalı oldular. Bu səbəbə görə də Sasanilər dövründə olmuş xərac divanları Xilafət zamanında öz qüvvəsini qoruyub saxlamış oldu[143].

M. Məhəmmədiyə görə Sasanilərdən əvvəl İran ictimaiyyəti üç təbəqəyə: din başçıları, ordu, əkinçilər və sənətkarlara bölünürdü. Sasanilər dövründə isə dəbirlər silki bunlara əlavə edildi və həmin dörd təbəqə də özlüyündə bir neçə dəstəyə bölünürdü[144].

Ümumiyyətlə, dəbirlər öhdələrində olan işlərə görə bir neçə dəstəyə bölünürdü[145].

Xarəzmi isə Sasani dövlətinin dəbirlərini 7 dəstəyə bölür: hüquqi, mali, gəlir, xəzinə, şahın tövləsi, atəşgədə, vəqf, habelə xeyriyyə işlərinə baxanlar.

Sasani dövründə dəbirlər təbəqəsi imtiyazlı silklərdən biri olmaqla, həm də dövlətin özəyini təşkil edir. Bu səbəbə görə də dəbirlik rütbəsi zadəgan nəslindən olanlara məxsus idi[146]. S. Nəfisinin yazdığına görə, İranda olan idarəçilik üsulu qədim dövrlərdən qalmışdır. Nazirliklər və müxtəlif idarələrin hüquq və vəzifələrini işıqlandırmaq üçün əlimizdə məlumat yox dərəcəsindədir. Lakin ərəb xəlifələri tərəfindən həmin üsulun qorunub saxlandığını nəzərə alsaq, biz Sasanilər dövrünün hakimiyyət tərzini aydınlaşdıra bilərik. Sasani şahları bir neçə müxtəlif möhrə malik olmuşdur. O cümlədən gizli yazışmaları, adi məktubları göndərən divana aid olan möhürü, habelə cəza hökmlərini, mükafat və hədiyyələri, rütbə, vəzifələri təsdiqləyən, verginin toplanılması üçün mövcud olmuş möhürləri göstərmək olar. Ehtimal ki, yuxarıda göstərilən beş idarədən başqa ordu, poçt, zərbxana, çəki ölçüsü və dövlətin xalisə torpaqlarına baxan idarə də mövcud olmuşdur[147]. Bəlazurinin yazdığına görə hər il vergi babətindən yığılmış pulların siyahısı şahın hüzurunda uca səslə oxunurmuş.

Sənətkarlıqdan əldə edilmiş gəlirin hesabı və habelə xəzinədə mövcud olan pulun surəti şaha təqdim edilir, şah isə həmin siyahını təsdiq edirdi[148]. II Xosrovun dövründən etibarən dəri pul əvəzinə kağız işlənməyə başladı.

S. Nəfisi göstərir ki, Sasanilər dövründə çaparxanalar (bərid) ancaq dövlət işlərini nizama salmaq üçün təşkil edilmişdir. Hər mənzildə atlar saxlanılır,

---

[143] Yenə orada.
[144] M. Məhəmmədi. Fərhəng-e İran və təsir-e an dər təməddün-e İslam və ərəb, Tehran, 1323, s. 74.
[145] Tanserin məktubu, s. 12.
[146] M. Məhəmmədi. Göstərilən əsəri, s. 82.
[147] Əbül Abbas Əhməd ibn Yəhya Cabir əl-Bəlazuri. Kitab-e Fütuh əl-buldan, IV cild. Beyrut, 1951, s. 382 – 460; S. Nəfisi. Göstərilən əsəri, s. 26 – 27.
[148] İbn əl-Əsir. Əl-Kamil fi-t tarix, Beyrut, 1966, s. 388 – 389.

gözətçilər isə yolların təmir edilməsinə və qorunmasına nəzarət edirdilər[149]. S. Nəfisiyə görə Sasanilər dövründə əsas gəliri torpaq vergisi babətindən toplanılırdı. Bu vergi isə "xərac" adlanırdı.

"Gizit" və yaxud "sərgzit" (can vergisi) ərəblərdə "Cizyə" termini ilə əvəz edilir. Bu vergi ildə bir dəfə əhalidən toplanılırdı. Lakin torpaq vergisinə gəldikdə isə o, məhsulun miqdarından asılı olaraq, onun üçdə bir və yaxud altıda birini təşkil edirdi.

Bəzi hallarda isə torpaq vergisi məhsulun ondan birindən yarısına qədər ödənirdi. Əkin sahəsinin şəhərə yaxın olub-olmaması da verginin miqdarına təsir edirdi. Qocalar, qadınlar, habelə uşaqlar torpaq vergisindən azad idilər. Gizit vergisi əsas etibarı ilə başqa dinə (xristian, yəhudi və s.) inananlardan toplanılırdı. Qubadın dövründən, 607-ci ildə dövlətin vergi və başqa gəlir fondunun miqdarı altı milyon dirhəmə bərabər olmuşdur[150].

Ümumiyyətlə, verginin dəqiq miqdarı müəyyənləşdirilmədiyinə görə məmurlar əhalidən istədikləri miqdarda vergi toplayırdılar.

## MALDARLIQ

Atropatena tarixinin ən aktual məsələlərindən biri bu ərazidə əkinçilik və maldarlığın öyrənilməsidir. Təəssüflə demək olar ki, bu problemin həllinə tədqiqatçılar öz əsərlərində olduqca az toxunmuşlar. Atropatenada, xüsusilə Təxt-e Süleyman, habelə başqa rayonlarda aparılmış arxeoloji qazıntıların nəticəsi bir daha sübut etdi ki, bu ərazidə vaxtilə əkinçilik, xüsusən maldarlıq yüksək dərəcədə inkişaf etmişdir. Qazakanın mərkəzində yerləşən göldən ətraf torpaqları sulamaq məqsədilə 7 süni suvarma kanalı çəkilmişdi. Bu kanalların izi hal-hazırda qalmaqdadır. İlk mənbələr bu ərazidə atçılığın yüksək dərəcədə inkişaf etdiyini sübut edir. Midiya – Atropatenada vaxtilə bəslənilən atlar dünya şöhrəti qazanmışdı. Polibinin göstərdiyinə görə, çarın at ilxıları bütövlükdə midiyalıların əlində idi. Onlar olduqca çox taxıl və mal-qaraya malikdirlər. Onların ərazisində olan geniş otlaqlar atların bəslənilməsində mühüm rol oynayır[151]. Bu atlardan yük, qoşqu və minik vasitəsi kimi istifadə edilirdi. Mənbələrin göstərdiyinə görə "Nisa" atları məhz bu ərazidə bəslənilirdi. Əhəməni, Atropaten, Parfiya, sonralar isə Sasani və ərəb xilafəti dövründə burada bəslənilən atlar dünya bazarında özünəməxsus yer tuturdu. Urmu gölünün ətrafı böyük çəmənliklərə malik olmuşdur. Xüsusilə Medikado "Əspəst" yonca otunun Atropaten ərazisində bitməsi atçılıq və maldarlıq üçün əlverişli şərait yaratmışdır. Hələ vaxtilə Makedoniyalı İskəndər burada olan at ilxılarını nəzərdən keçirmiş və öz süvari dəstələrini həmin "Nisa" atları ilə təmin etmişdir. Təsadüfi deyildir ki, müharibələrdə Atropatena və

---

[149] S. Nəfisi. Göstərilən əsəri, s. 27.
[150] Yenə orada, s. 27 – 28.
[151] Polibi. V. 44.

Albaniya süvari dəstələri məşhur olmuşdur. Strabonun göstərdiyinə görə, Kür - Araz ovalığında yalnız bağ-bağça, bostan-meyvə bitkiləri deyil, orada bütün bitkilərin becərilməsinə şərait vardır. Bu ərazini görənlərin dediyinə görə bir dəfə əkilən sahədən 2 - 3 dəfə məhsul əldə etmək olur[152]. Atropatena ərazisində arpa, buğda, darı, mərci, lərgə, yonca, paxla və bostan bitkilərinin olması mənbələrdə öz əksini tapmışdır. Qazıntılar zamanı Barucdan, Gənctəpədən, Təxt-e Süleymandan, Ərdəbildən, Makudan, Yanıqtəpədən və başqa yerlərdən buğda, arpa qalıqları, habelə əkinçilik alətləri tapılmışdır. Germi rayonundan əldə edilmiş əkinçilik alətləri xüsusilə maraqlıdır. Oradan "xış" gavahan, vəl, giv və başqa alətlərin qalıqları əldə edilmişdir. Buğda - arpa və başqa növ taxılın mühafizə edilməsi üçün istifadə edilmiş quyular, habelə böyük küplər olduqca maraqlıdır. Saxsı qablar üzərində əkinçilik alətlərinin, mal-qaranın, xüsusən qoyun-keçi rəsmləri bizə imkan verir ki, bu ərazidə əkinçilik və maldarlığın yüksək dərəcədə inkişaf etməsi haqqında fikir irəli sürək.

Əkinçilik, maldarlıq, sənətkarlıq, şəhər həyatı və ticarət yolları haqqında antik dövrün mənbələrində nisbətən az məlumata təsadüf edilsə də Atropatena ərazisində aparılan arxeoloji qazıntıların nəticələri, bu ərazidə hələ qədim dövrdən etibarən əkinçilik, maldarlıq, habelə təsərrüfat həyatının digər sahələrinin yüksək səviyyədə olduğunu göstərir. Buna nümunə olaraq Yanıxtəpə, Həsənlu, Gənctəpə, Germi, Muğan, Ərşə, Təxt-e Süleyman və sairə qazıntıların nəticələrini misal göstərmək olar. Atropatena ərazisinin təbii zənginliyi, münbit torpağa malik olması geniş və düzən əkin sahələrinin yamyaşıl çəmənliklərin mövcudiyyəti, habelə suyu bol olan çayların buradan axması təsərrüfat həyatının inkişafına şərait yaratmışdır. Savalan, Zaqros, Səhənd, Amard (Bağro), Büzgüş, Qaflantı, Qaradağ kimi zirvələri daima qarla örtülmüş yüksək dağ silsilələri suyu bol olan çayların mənbəyinə çevrilmişdir. Bu dağlardan axan Kərxə, Diyalə, Amard (Qızılüzən), Mordi, Cğatu, Acıçay, Qarasu, Nəştəri, Dəravürd və başqa çayları göstərmək olar.

Yüksək dağ silsilələri Atropatenanın iqlim şəraitinə də öz təsirini göstərmişdir. Antik müəlliflər, o cümlədən Strabonun göstərdiyinə görə şimal əyalətlərindən Matiana və Ermənistana qədər uzanan dağlar çox olmaqla bərabər, həm də oranın iqlim şəraitinə böyük təsir göstərir. Ona görə də müəllif oranı soyuq ölkə adlandırır (XI, 13, 7). Atropatena ərazisinin digər hissələri isə olduqca məhsuldardır. Məhz dağ və dağətəyi sahələr geniş otlaqlara malik olduğundan orada maldarlıq, xüsusən atçılıq inkişaf etmişdir. Ammian Marsellinin göstərdiyinə görə, bu ərazinin sakinləri Zaqros, Orant və İason dağlarının əhatəsində olan ucsuz-bucaqsız geniş düzən torpaqlardan istifadə edirlər. Həqiqətən də düzənlik və dağətəyi rayonlarda tarixən oturaq əhali əkinçiliklə məşğul olmuşlar. Atropatenada gellər, kaduslar, amardlar, anariaklar və başqa tayfalar məskun idi. Kaduslar (müasir galışlar) amardlar ölkənin dağlıq zonasında yaşayırdılar. Bu sahə,

[152] Strabon. XI. 1 – 6.

Atropaten ərazisinin digər düzən və dağətəyi zonası ilə müqayisədə məhsuldar deyildir. Lakin bu ərazinin əkinçiliyə yararsız olmasına baxmayaraq kaduslar, gellər və amardlar əsasən maldarlıqla məşğul olurdular. Bu, göstərdiyimiz tayfalar yaşadıqları yamaclarda, dəniz sahili və göllərin ətrafında az olsa da əkinçiliklə məşğul olurdular.

Ammian Marsellinin göstərdiyi kimi, Atropatena ərazisi əkinçilik üçün yararlı olan düzənliklərə, çoxlu suyu bol olan çaylara və bulaqlara, təbii və süni suvarma sisteminə, bir sözlə, məhsuldar və bərəkətli torpaqlara malikdir. Müəllifə görə Atropatena ərazisinin digər sahəsi dağlıq, rütubətli, soyuq və məhsuldar olmayan sahələrdir. Strabonun göstərdiyinə görə Atropatena ərazisində mədəni bitkilər əkilirdi. Hirkaniyadada bir üzüm tənəyindən bir metrat şərab, əncir isə 60 medim (XI, 7, 2) əldə edilirdi. Araksena, Sakasena, Midiya və Matianada buğda, arpa və s. əkilirdi. Atropatendə arıçılıq da inkişaf etmişdi. Qalın meşə zonalarında ilk növbədə irigövdəli ağacların oğuşlarında, sonralar isə ağac budaqlarından toxunmuş səbətlərdə arı saxlanılırdı. Savalan, Səhənd, Büzgüş və Bağro dağında əldə edilən bal keyfiyyətinə görə Yaxın Şərqdə məşhur idi. Bal arıları ağaclarda məskən saldığına görə yarpaqlardan bal damırdı (XI, 7, 2). Qeyd etmək lazımdır ki, hal-hazırda “Savalan balı” dadına, ətrinə və keyfiyyətinə görə dünya şöhrəti qazanmışdır. Atropatena ərazisində Ammian Marsellinin göstərdiyinə görə, hündür dağ olan Koronun qərb yamacının sakinləri geniş miqdarda buğda sahələrinə və üzümlüklərə malikdirlər. Məhz torpaqları haqqında olan məlumat da olduqca maraqlıdır. Qədim mənbələrdə Atropatenada mağların istifadəsindən ötrü geniş və məhsuldar torpaqlar ayrılmışdı. Bu torpaqlarda qul əməyindən istifadə edilir və yaxud kəndlilər əvəzsiz bu torpaqları becərirdilər. (XXIII, 6, 32).

Ümumiyyətlə, tədqiq etdiyimiz dövrdə Atropatena ərazisində mədəni bitkilərin əkilməsi, habelə bağçılığın, arıçılığın nə vəziyyətdə olması haqqında antik müəlliflərin əsərlərində az da olsa məlumata təsadüf edilir. Strabon öz əsərində Hirkaniyada üzüm tənəklərindən və məhsulun miqdarından ətraflı surətdə bəhs edir. O, Hirkaniyada taxıl əkinindən, buğdanın küləşdən təmizlənməsindən, habelə çörəyin buğdadan bişirilməsindən də danışır.

Matiana Atropatenanın tərkibində olduğu zaman bu ərazinin məhsuldar olması haqqında Strabonun verdiyi məlumatı Atropatenaya da tətbiq etmək olar. Bundan başqa Atropatenaya ən yaxın olan ölkələrin məhsuldarlığı, əkilən mədəni bitki növlərinin, eləcə də üzüm və digər meyvə növlərini təbii yayılma coğrafiyası, habelə eyni iqlim şəraitinə malik olan ölkəyə də tətbiq etmək düzgündür. Lakin ola bilsin ki, yaxın ərazilərin birində çox məhsul verən bitki, digər ərazidə az məhsuldar olsun. Beləliklə, Strabonun Hirkaniyada bitki və meyvələr haqqında verdiyi məlumatı Atropatenaya da tətbiq etmək olar. O, Hirkaniya, Matiana, Sakasenada küləşdən ayrılmış buğdadan çörəyin bişirilməsini göstərirsə, demək olar ki, həqiqətən də Atropatenada da buğda əkilirmiş (XI, 7, 2). Atropatenada şərab da istehsal edilirdi. Orijinal üsulda Midiyada şərab hazırlanması maraqlıdır.

Strabonun göstərdiyinə görə yerli əhali bəzi köklərdən şərab istehsal edirdilər (XI, 13, 11). Midiya sakinləri müxtəlif meyvələrlə qidalanırdılar. Onlar alma qurusunu üyüdüb, ondan lavaş və badamı qovurub üyütdükdə isə çörək bişirirdilər (XI, 13, 11). Beləliklə, Midiya ərazisində çoxlu meyvə bağları olmuş, yerli əhali müxtəlif meyvələr, o cümlədən alma, badam əkirmişlər. Onların məhsulu yığılıb qurudulduqdan sonra üyüdülürmüş. Bundan başqa bu ərazidə külli miqdarda zeytun ağacları becərilir, ondan ən qiymətli yağ əldə edilirdi (XI, 13, 11). Strabon göstərir ki, burada külli miqdarda at ilxılarını bəsləmək üçün ən yaxşı ot növü olan bitkini (biz "Midiya otu" adlandırırıq) (XI, 13, 7).

Xəzər dənizinin cənub-qərbində (Gilan əyalətinin Rudsər mahalında) Atronatena ərazisinə yaxın olan ərazidə Tunc dövrünə (e.ə. IX-VIII əsrlər) aid yaşayış yeri aşkar edilmişdir. 1958 - 59-cu illərdə aparılan tədqiqatlar zamanı çoxlu saxsı qab gildən düzəldilmiş heyvan (əsasən zebu) və insan fiqurları (bəziləri tuncdandır) və s. maddi-mədəniyyət nümunələri tapılmışdır. Orijinal boyalı qablar, zərif düzəldilmiş fiqurlar, Əmliş əhalisinin hələ e. ə. I minilliyin əvvəllərində yüksək mədəniyyətə malik olduğunu göstərir. Tuncdan insan fiqurları Qafqazdan tapılmış fiqurlarla oxşardır. Tədqiqatçıların fikrincə, Əmlişin sakinləri əkinçilik və maldarlıqla məşğul olmuşlar. Maraqlı budur ki, hal-hazırda da bu əyalətdə (Gilanda) iribuynuzlu heyvanların əksəriyyətini zebu cinsi təşkil edir. Maddi-mədəniyyət nümunələri həmin ərazidə əkinçilik, maldarlıq və sənətkarlığın yüksək səviyyədə olduğunu sübut edir. Atropatena ərazisinin cənub sərhəddinə yaxın olan Gənctəpədən əldə edilmiş saxsı qablar, dəmir alətlər (əkinçiliyə aid), gil, habelə dəmirdən hazırlanmış insan və heyvan fiqurları burada da vaxtilə əkinçilik və maldarlığın inkişaf səviyyəsini əks etdirir. Bu mədəniyyətlər ərazi baxımından, habelə dövr etibarı ilə tədqiq etdiyimiz dövrə yaxındır.

Atropatenanın cənub-şərq əyalətləri təbii-coğrafi şəraitinə, iqlim – fauna, torpaq növü və s. baxımından istər Əmliş, istərsə də Gənctəpəyə yaxındır. Elə bir nəticəyə gəlmək olar ki, həmin dövrdə (e. ə. IV – eramızın VIII əsrləri) Atropatena ərazisində də qonşu əyalətlərdə olduğu kimi təsərrüfat, o cümlədən əkinçilik, maldarlıq və sənətkarlıq inkişaf etmişdir (İsa Behnam, Aşenai baqome Manna, "hünər və mərdüm", Süxən jurnalı, Tarix-e honəre İran, Bəhmən İsfənd, № 11 – 12, Tehran, 1340).

Antik müəlliflərin verdiyi məlumata görə Atropatenada əkinçiliyin inkişafı ilə əlaqədar maldarlıq da mövcud olmuşdur. Dağ və dağətəyi rayonlarda, xüsusən Verra, Qazaka, Aqanzana, Ordvil ətrafında müxtəlif şirəli, habelə qüvvətli yem otlaqlarına malik olan geniş otlaq və çəmənliklərdə külli miqdarda davar, iribuynuzlu mal-qara sürülərinə rast gəlmək olardı. Polibinin göstərdiyinə görə "Midiya sahəsinin genişliyi, çox sakinliliyi və əla keyfiyyətli atlara malik olmasına görə Asiyada görkəmli dövlət sayılır. Midiya bütün Asiyanı atla təmin etməklə, orada olan otlaqların bolluğuna görə çar öz at ilxılarını midiyalılara etibar edirdi" (Polibi, V, 27). Atropatenanın əyalətlərindən olan Kaspianada maldarlıq, o

cümlədən dəvəçilik və atçılıq xüsusilə geniş yayılmışdı. Kaspiananın vilayətlərindən olan Mil-Muğan düzləri tarixən maldarlığın inkişafında mühüm rol oynamışdır.

Maraqlıdır ki, müasir dövrdə də, istər Mil və istərsə Muğan düzündə saxlanılan qoyun-keçi, at, dəvə və digər ev heyvanlarının artıb inkişaf etməsi səviyyəsinə qonşu ərazidə təsadüf edilmir. Strabonun məlumatına görə hündür dağlara malik olan Midiya ölkəsində atçılığa böyük yer verilir və ən məşhur atlar bu ərazidə bəslənilir. Burada ən çox at bəslənilən çəmənlik Babilistanla fars və habelə Kaspi darvazası arasında olan ərazidə yerləşir. 50 minə yaxın olan şah ilxısının madyanları burada bəslənilir (XI, 13, 7). Məlum olduğuna görə dövrünə görə dünya şöhrəti qazanmış "Nisa" cinsli atlar burada bəslənirmiş. Strabonun dediyinə görə "Nisa" cinsindən olan atlar farsların, parfiyanların atlarından fərqli idi (XI, 13, 7). Ümumiyyətlə, antik dövrdə midiyalıların və parfiyalıların atlarını "Nis" cinsli hesab edirlər. Qeyd etmək lazımdır ki, "Nisa" cinsli atların əsas vətəni və bəslənilən yeri Səhənd dağının qərb yamacları və Urmu gölünün ətraf rayonları olmuşdur. Ola bilsin parfiyanlar, farslar və digər qonşu ölkələr "Nisa" cinsli damazlıq atları Atropatenadan öz ölkələrinə aparmışlar. Strabon Apollonidə istinad edərək göstərir: "Atropatenalılar 10000 süvari dəstəyə malik idi" (XI, 13, 2). Deməli, atropatenalılar at ilxılarından seçmə, cavan, gözəl əndamlı çevik atlarla öz süvari dəstələrini təmin edirdilər. Məlumdur ki, hərbi dəstələrə seçilən atlar ancaq ayğır olmalıdır. Ona görə ki, cəldliyinə, sürətinə və müharibə meydanında manevr etməyə görə bu cins əlverişlidir. Digər tərəfdən midiyalılara at nəslini artırmaq olduqca lazım idi.

Ammian Marsellinin göstərdiyinə görə, Atropatenanın yaşıl çəmənliklərində cins atlar bəslənilir. Əyanlar, sərkərdələr qürurla bu atlara minib müharibələrə gedirdilər (XXIII, 6, 30). Müəllif bu atları "Nisa" cnsli atlar adlandırır.

Mənbələrin verdiyi məlumatdan aydın olur ki, Atropatenada atçılığın inkişafı ilə əlaqədar sayca çox olan at ilxıları mövcud olmuş və yerli əhali həvəslə təsərrüfatın bu növünü inkişaf etdirmişlər. Ammian Marselliyə görə Midiyada atların bəslənilməsi və yemlə təmin edilməsi üçün olduqca əla çəmənliklər vardır. At ilxıları, bu çəmənlərdə otlayır. "Nisa" cinsli atların müharibələrdə istifadə edilməsini mən özüm gözümlə görmüşəm (XXIII, 6, 30). Atropatenalılar atlardan ancaq müharibələrdə deyil, gündəlik məişətdə də, o cümlədən yük daşımaqda, qoşquda, əkində, döyümdə atdan istifadə edirdilər. Çox güman ki, atın ətindən və südündən də istifadə edirmişlər. Digər tərəfdən gəlir əldə etmək üçün bəslədikləri qüvvətli, çevik, cins atları həm də qonşu ölkələrə catmaqla bərabər, eyni zamanda ehtiyaclarını ödəmək üçün lazım olan mal-qara ilə dəyişmişlər.

İstər müasir Muğan əyalətində və istərsə Urmu gölü ətrafında olan rayonlar, habelə Kürdüstanın şərqində indi də, cins atların bəslənməsinə təsadüf

edilir. Gözəlliyi, davamlılığı və cəldliyinə görə burada bəslənilən at cinsləri hal-hazırda da keçmiş şöhrətini qoruyub saxlamışdır.

Əsədulla xan Xonsari tərəfindən Tehran şəhərində (1279-cu şəmsi-qəməri ilində) çap edilmiş "Fərəsnamə" əsərində deyilir:

"Ənuşirəvana görə (Sasani şahı I Xosrov - A. F.) ən yaxşı cins atlar aşağıdakı əlamətlərə malik olmalı imiş: atın əzalarından 3-ü uzun, 3-ü gödək, 3-ü enli, 3-ü kobud, 3-ü geniş, 3-ü saf və 3-ü qara olmalıdır. Uzun əzalar: Qulaq, boyun, ayaq (bud)

Gödək əzalar: sümük, quyruq və bel

Enli əzalar: alın, döş, boyun

Kobud əzalar: tük, yelkə, əl-ayaq və qollarda olan tüklər

Geniş əzalar: burun deşiyi, boyunun alt hissəsi və qarın

Saf əzalar: yelkədə olan tüklər, sağrının dərisi və dırnağın mayası

Qara əzalar: atın gözü, dodağı və dırnağı.

Bu əlamətlərə malik olan atlar ən qiymətli, dözümlü və qıvraq olmuşlar (Tağı Bəhrami. Tarix-e Kəşavərzi İran, Tehran, 1330, s. 31).

Görünür, "Nisa" atları bu göstərilən əlamətlərə malik olmuşlar. Hal-hazırda da yuxarıda göstərdiyimiz əlamətlərə görə at cinsləri növlərə bölünür.

Alanların Midiyaya basqını ilə əlaqədar İosif Flavi göstərir ki, çox əhaliyə malik olan Midiya ev heyvanları ilə də zəngindir (VII, 7, 4). Klavdi Elianın yazdığına görə, Kaspianada ağ rəngli kola, yastıburun, kiçikboylu keçilər olmuşdur.

Klavdi Elian Makedoniyalı İskəndərə yaxın olan Amində istinad edərək yazır: "Kaspi ölkəsində öküz naxırı, at ilxıları mövcuddur ki, onların sayı-hesabı yoxdur (XVII, 17). K. Əliyevin göstərdiyinə görə Kaspiana təqribən iki əsrə yaxın Albaniyanın təsiri altında olmuşdur. Lakin əsas etibarı ilə bu ərazidə Atropatena at cinsi bəslənməyə və artmağa başlamışdır (К. Алиев. Кавказская Албания, Баку, Elm, 1974, s. 119). Kaspianada iribuynuzlu heyvanların ətindən və gönündən istifadə etməklə bərabər, öküz, inək və kəllərdən qoşquda, əkinçilikdə, yaylaq və qışlağa köç zamanı yük daşımaqda da geniş istifadə edilirdi. İndi də bu ərazinin sakinləri öküz, kəl və digər heyvanlardan yük daşımaqda istifadə edirlər. Atropatena suyu bol olan dağ çaylarına, irili-xırdalı dağ göllərinə malik olan ölkədir. Onun sakinləri çay və göllərdə əmələ gələn balıqları ovlayırdılar. Həmin çaylardan Araz, Qızılüzən (Amard), Acıçay, Mordi, Cığatu, Sofi, Dərəvürd, Balıxlı, Nəştərni, göllərdən isə Novur, Təxt-e Süleyman, Qaragöl və başqalarını göstərmək olar. Atropatenanın çaylarında və göllərində forel, qızıl balıq, sif, kütüm və digər balıq növləri olmuşdur. Antik müəlliflərin göstərdiyinə görə Kaspianaya yaxın olan göldə həddən artıq itiburun (uzunburun) balıqlar mövcuddur. Bu balıqlar olduqca dadlıdır. Kaspilər külli miqdarda bu balıqları ovlayır, xüsusi üsulla onları duzlayıb qurudurdular. Sonra isə qurudulmuş şor

balıqları dəvələrə yükləyib Ekbatana aparırdılar (Elian, 17, 32). Kaspilər balıq yağı, xüsusilə olduqca möhkəm yapışqan hazırlayırdılar.

Atropatena ərazisində payızlıq və yazlıq əkini inkişaf etmişdi. Maraqlıdır ki, qədimdə əkilən bitki növləri, o cümlədən dənli bitkilər bu ərazidə indi də qonşu ölkələrdən məhsulunun bolluğuna görə fərqlənir. Məsələn, hazırda Cənubi Azərbaycanda əkilən ağ noxud, qara noxud, mərci, paxla, lərgə, kürüşnə, darı və s. qonşu ölkələrin heç birində bu qədər məhsul vermir. Demək, Atropatena qədimdən əkinçilik, maldarlıq və habelə sənətkarlıq ölkəsi olmuşdur.

## ŞƏHƏR HƏYATI

Atropatena şəhərlərinin tarixinə dair tarixçilər tərəfindən son illərdə nəşr edilmiş[153] bir sıra əsərləri nəzərə almasaq şəhər və şəhər həyatı haqqında tədqiqata təsadüf edilmir. Bu baxımdan da, Atropatena şəhərləri haqqında tədqiqat aparmaq çətin olsa da olduqca maraqlıdır.

Atropatena ərazisində aparılan arxeoloji qazıntıların nəticələri vaxtilə həmin ərazidə mövcud olmuş şəhərlərin tarixinin öyrənilməsində mühüm elmi əhəmiyyətə malikdir. Lakin təəssüflə demək olar ki, bir neçə şəhər ərazisi, o cümlədən Təzəkənd, Həsənlu, Təxt-e Süleyman və Germidən başqa Atropatena ərazisinin digər sahələrində planlı şəkildə ardıcıl arxeoloji qazıntı işləri aparılmamışdır. Bu səbəbə görə də tədqiqatçılar bir sıra şəhərlərin bina edilməsi tarixinin dəqiq verilməsində çətinlik çəkirlər. Şəhər tarixi və şəhər həyatının öyrənilməsində yazılı mənbələrin də böyük rolu vardır. Atropatena şəhərlərinin qədim tarixi haqqında yunan və Roma mənbələrində olan məlumat sonrakı dövrün ərəbdilli mənbələrdəki məlumatlarına nisbətən olduqca səthidir.

Bununla yanaşı antik, habelə pəhləvi, ərəb və erməni mənbələrində olan məlumatlar Atropatena şəhərlərinin bina edilməsi tarixinin qismən də olsa müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

Atropatena ərazisinin bir sıra sahələrində arxeoloji qazıntılar aparılmışdır. Bu qazıntıların nəticələri Qazaka, Vera, Aqanzana və digər şəhərlərin qədim tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Ərdəbil, Maku, Urmu, Mərənddə tapılmış maddi-mədəniyyət nümunələri də həmin şəhərlərin tarixinin öyrənilməsində müəyyən rol oynayır.

Həsənlu abidələri dairəvi mərkəz şəklində düzülmüş bir böyük və ətrafda olan bir neçə kiçik təpələrdən ibarətdir. Bu təpələr keçmişdə bu ərazidə mövcud olmuş şəhərin qalıqlarıdır. Təpələr vaxtilə biri-birinə bitişik olmuşdur. Lakin müəyyən təbii-tarixi səbəblərə görə bu təpələr parçalanmış, bəziləri isə həmin ərazidə əkinçiliklə məşğul olan şəxslər tərəfindən hamarlaşdırılıb istifadə edilmişdir. Qazıntıların nəticəsi sübut edir ki, mərkəzi təpə vaxtı ilə müdafiə

---

[153] S. M. Onullahi. Təbriz şəhərinin tarixi. Bakı, Elm, 1982.

əhəmiyyətinə malik olan qaladan, ətrafında olan kiçik təpələr isə əhalinin ümumi yaşayış məskəni olmuşdur[154].

Arxeoloqların fikrinə görə mərkəzi təpə keçmişə (e. ə. IX əsrdə) öz dövrünə görə çox mühüm strateji, hərbi və iqtisadi əhəmiyyətə malik möhtəşəm bir qala olmuşdur.

Həsənlu təpəsi Manna ərazisinin mərkəzi hissəsində yerdəşdiyinə görə dağıdıcı hücumların əsas hədəfini təşkil edirdi. İkinci bir tərəfdən Urmu gölü hövzəsində olan rayonlar iqtisadi inkişaf səviyyəsinə görə qonşu rayonlara nisbətən çox irəlidə gedirdi. Xüsusilə bu rayonda hərbi əhəmiyyətə malik olan atçılıq başqa təsərrüfat sahələrinə görə artıq dərəcədə inkişaf etmişdi[155].

Atropatenin bir sıra rayonları, o cümlədən müasir Təbriz, Marağa, Sarab, Ərdəbil, Xoy, Maku, Mərənd və s. əkinçilik, bağçılıq və maldarlıq üçün olduqca əlverişli idi. Assur çarı II Sarqon Mannaya olan hücumu zamanı Tarmakis qalasını işğal etdikdən sonra (714 e. ə.), orada öz ordularını at, habelə un, çaxır və digər ərzaq malları ilə təmin etmişdir. Urmu gölünün cənub-şərq rayonları sənətkarlıq nöqteyi-nəzərdən də inkişaf etmişdir. Belə ki, Urartu çarı Muzazir (Musasır) məbədinin tayını tikdirdikdə Manna sənətkarlarından istifadə etmişdir[156].

Yuxarıda göstərilən faktlardan məlum olur ki, eramızdan əvvəl I minilliyin başlanğıcından etibarən Urmu gölü ətrafında olan ərazidə şəhər və şəhər həyatı yaranmağa başlamışdır.

Demək olar ki, qədim Atropatena ərazisində şəhər həyatı eramızdan əvvəl I minilliyin əvvəllərindən etibarən Manna dövlətinin ərazisində əmələ gəlmişdir. Qədim Azərbaycan tayfalarının birləşməsində, habelə bu tayfaların iqtisadi, ictimai, mədəni və şəhər həyatının yaranıb inkişaf etməsində Maina dövlətinin böyük rolu olmuşdur[157].

Manna dövlətinin ərazisində İzirtu, Tarmakis[158], Tabarmeys, Urmayid, Qazaka, Verra, Aqanzana, Artabed və s. şəhərlər meydana gəlib inkişaf etməyə başlamışlar. Manna dövlətinin mərkəzi hissəsini təşkil edən müasir Həsənlu kəndində, Təbriz yaxınlığındakı Təzəkənddə, Əfşar mahalında, Təxt-e Süleyman və Mərənd ətrafında Baruc qalasından əldə edilmiş arxeoloji tapıntılar Atropatena ərazisində qədim şəhərlərin mövcudiyyəti haqqında olan müddəamızı bir daha təsdiq edir[159].

Atropatena ərazisində olan qədim şəhərlərdən biri Təbrizdir. Acıçay sahilində yaranmış bu şəhərin ətrafı qonşu rayonlara nisbətən əkinçilik, bağçılıq, maldarlıq, xüsusilə atçılıq üçün daha əlverişli idi.

---

[154] Ə. Hakimi, M. Rad. Şərh və nəticey-e Kavuşha-e elmi Həsənlu (Sulduz) Güzareşhay-e bastanşünasi, 1-ci cild, Tehran, 1329, s. 24 – 25.
[155] И. Алиев. История Мидии, Баку, 1960, с. 168 - 183
[156] Ə. Hakimi. M. Rad. Göstərilən əsəri, s. 20 – 30.
[157] И. Алиев. История Мидии, Баку, 1960, с. 168
[158] И. М. Дьяконов. История Мидии. М.-Л. 1956, с. 216.
[159] Ə. Hakimi, M. Rad. Gəzarəşha-e bostanşünasi...., 3-cü cild (Kavuşhay-e Həsənlu), Tehran, 1329.

Təbriz şəhəri hələ qədim dövrlərdən beynəlxalq ticarət karvan yollarının düyün nöqtəsini təşkil edirdi.

Beləliklə, iqtisadi inkişaf baxımından belə bir əlverişli ərazidə şəhər həyatının yaranıb inkişaf etməsi təsadüfi deyildir.

Təbriz şəhərinin qədim tarixinin öyrənilməsinə dair ən qiymətli tarixi sənəd II Sarqonun assur dilində yazılmış kitabəsidir.

II Sarqon indiki Süleymaniyyə məntəqəsindən Mokri Kürdüstanına daxid olur. II Sarqon Urmu gölünün cənubunda olan nahiyələri, o cümlədən Parsua əyalətini işğal edib gölün şərqi ilə irəliləyərək Tarmakis və yaxud Tarui qalasına gəlib çatır. Ümumiyyətlə, Sarqon Manna ərazisinə hücum edən zaman burada olan 21 qala - şəhərin adını çəkir.

Divarları 120 sıra kərpiclə hörülmüş bu dövrün şəhərləri darvaza, bürc, bağ və üzümlüklərlə örtülmüş gözəl yaşayış evlərinə də malik idi; həmin tikintilər misli görünməmiş sütunlar və taxta tavanlarla bəzədilmiş idi. II Sarqon Sobi qalasına yaxınlaşır. Uşkaya divarlarının qalınlığı 8 ərşə bərabər idi. Bütün Urartu süvari ordu hissəsinin minik atlarının bəslənilməsində bu mahal şöhrət qazanmışdı. Bu peşə ilə yalnız qullar deyil, azad şəxslər də məşğul olurdular. Buraya Urartu ordusundan ötəri əhalidən vergi kimi yığılmış və sınaqdan keçirilmiş atlar gətirilirdi. II Sarqon Uşkayanı işğal etdikdən sonra həmin dövrdə Urartu çarı Rusanın ilxı mərkəzi olan Aniaştaniyanı zəbt etməyə başlayır. Uşkayada olduğu kimi burada da atçılıq təsərrüfatı əsas rol oynayırdı. Yuxarıda qeyd etdiyimiz kimi həmin təsərrüfatda olan atlar çar təsərrüfatında deyil, ancaq əhalidən yığılmış vergilər nəticəsində toplanır və çar alayları üçün sınaqdan çıxarılıb bəslənilirdi. Aniaştaniyada atçılıq təsərrüfatı ilə bilavasitə əlaqədar olaraq çoxlu arpa və saman anbarları var idi. Həmin anbarlar əhalidən natural formada zorla yığılmış məhsulla doldurulurdu. II Sarqon Uşkaya və Aniaştaniya qalalarını işğal etdikdən sonra Tarmakis istehkamını almağa cəhd göstərir. O (Sarqon) yazır:

“Tarmakis qalalarının divarları ikilaylı idi, burada Fərat çayı kimi geniş xəndəklər qazılmış və onun ətrafı isə qalın meşəliklərlə örtülmüşdür. Buranın binalarının tavanları sidr ağaclarından tikilmişdir. Tarmakisdə müdafiə əhəmiyyətli istehkamlar vardır. Xüsusilə burada yaradılan sədlər daha möhkəmdir. Dövlət qoşunlarının ehtiyat hissəsi də burada yerləşir, eyni zamanda onların atları da burada bəslənir. Ətraf rayonların sakinləri mənim qorxumdan buraya toplanmışdılar. Mən Tarmakis istehkamına hücum edən zaman əhali buranı da tərk etməyə məcbur olub, susuz çöllərə qaçmaqla canlarını qurtarmağa səy göstərirdi (Çox güman ki, Sarqon susuz olan çöllər dedikdə Muğan səhrasını nəzərdə tuturmuş - A. F.). Mən bu mahalı ələ keçirdim və müdafiə əhəmiyyətli istehkam halına salınmış yaşayış yerləri arasında döyüşə başladım. Həmin qalaların möhkəm divarlarını bünövrəsinə qədər uçurub yerlə yeksan etdim, qala daxilində olan yaşayış yerlərinə od vurdum, eyni zamanda sakinlərin külli miqdarda mövcud olan azuqələrini də yandırdım. Arpa ilə ağzına qədər doldurulmuş anbarları açıb saysız-

hesabsız qoşunumu azuqə ilə təmin etdim, bundan başqa həmin qalanın ətrafında olan 30 kəndi də yandırdım və bu kəndlərin tüstüsü göylərə qalxdı[160]. İ. M. Dyakonov qyyd edir ki, II Sarqon Tarui və yaxud Tarmakis (Təbriz) qalasını da işğal etmişdir. Bu qala Russanın arpa anbarları yaxınlığında bina edilmişdi. Göründüyü kimi bu qala dövlətin (Urartu dövlətinin) azuqə anbarlarının müdafiəsi üçün təşkil edilmişdir.

Bundan başqa burada ordunun at ehtiyatı bazası da mövcud olmuşdur.

Təbriz şəhərinin qədim tarixinin öyrənilməsində II Sarqonun kitabəsi yeganə və ilk mənbədir.

Bu mənbədə göstərilən "Tarui" və yaxud "Tarmakis" müasir Təbriz şəhərinin keçmiş adıdır [161]. Uşkayaya gəldikdə bu qala müasir Təbrizin yaxınlığında olan Üsküyədir. (Üskü)[162]. Üçüncü qala - Aniaştaniya isə hələlik müəyyənləşdirilməmişdir.

Beləliklə, məlum olur ki, Təbriz şəhəri Atropatena ərazisinin ən qədim şəhərlərindən biridir. Atropatena ərazisində olan qədim şəhərlərdən, Assuri mənbələrində gələcək Mannanın paytaxtı İzirtu ilə birlikdə Zibiya və Urmu (Urmayit) şəhərində adı çəkilir[163]. Bu şəhərin də adı ilk dəfə II Sarqon tərəfindən çəkilmişdir.

Demək olar ki, Təbriz Atropaten ərazisində yaranmış ilkin şəhərlərdən biridir. Bir sıra orta əsr müəllifləri, o cümlədən Həmdullah Qəzvini və başqaları Təbriz şəhərinin bina edilmə tarixini Xəlifə Harun-ər-Rəşidin (IX əsr) arvadı Zübeydə xatunla əlaqələndirirlər. Doğrudur, Abbasilərin Hakimiyyəti dövründə Arazkənarı rayonlar Zübeydə xatuna iqta kimi çatmışdı. Onun bu şəhərdə apardığı tikinti-abadlıq işlərini tarixçilər "şəhərin salınması" kimi qələmə almışlar[164]. İran tarixçilərindən Məhəmmədhəsən xan, Səid Nəfisi, Cavad Məşkur və başqaları bir sıra erməni mənbələrinə arxalanaraq Təbriz şəhərinin bina edilməsi tarixini Sasanilərlə əlaqələndirirlər; lakin onların Təbriz şəhərinin bina edilmə tarixi haqqında olan müddəaları yanlışdır.

V. F. Minorskiyə görə də Təbriz haqqında ən qədim məlumat Assur çarı II Sarqonun kitabəsidir[165].

Bu kitabəyə görə e. ə. 714-cü ildə II Sarqonun işğal etdiyi qalalar içərisində Tarui və Tarmakisin də (Tarvakis) adı çəkilir. V. F. Minorskiyə görə Uşkaya müasir Uskuyə, Tarmakis isə müasir Təbrizdir[166].

---

[160] И. М. Дьяконов. Ассиро-Вавилонские источники по истории Урарту, ВДИ. № 2, 1951, ы. 96 – 97.
[161] Е. А. Грантовский. Ранная история Иранских племен передней Азии. М., 1970, с. 96 – 97.
[162] V. F. Minorski. Tarix-e Təbriz (tərcümə Ə.Karəng). Təbriz, 1937.
[163] İ. M. Dyakonov. Göstərilən əsəri, s. 207: С. М. Кашкай. Из истории Маннейского царства. Баку, 1977, с. 51.
[164] Həmdullah Qəzvini, C. Məşkur, C. Fəqih və başqaları.
[165] V. F. Minorski. Göstərilən əsəri, s. 16.
[166] Yenə orada, s. 20.

İ. M. Dyakonov da bu fikri təsdiq edir. O yazır: "Sarqon çevik yürüşlə Urmiyanın şərq sahili boyunca şimala irəlilədi. Onlar tərəfindən... həmçinin ikiqat qala Tarui-Tarmakis (müasir Təbriz) dağıdıldı"[167]. Sarqon Durşarrukin sarayı salonlarından birində yazdırdığı kitabədə deyir: "Bit Sanqbitu vilayəti sərhəddində Aniaştaniya şəhərini, dalilər ölkəsində Tarui və Tarmakis şəhərini mən fəth etdim və odda yandırdım". Bizə gəlib çatmış bu məlumat bir daha sübut edir ki, Təbriz Şərqin qədim şəhərlərindən biridir.

Eramızın V əsrində yaşamış erməni tarixçisi Favstos Buzand Təbrizdən yazmış, onun deyilişini Tavrez, Tavreş kimi vermişdir. Bu müəllif II Şahpurla (309—379) erməni sərkərdəsi Vasaq arasında Tavrejdə gedən vuruşmanı təsvir etmişdir. Demək, IV əsrdə də keçmişdə olduğu kimi, Təbrizin strateji mövqeyindən istifada edirdilər. İndiyə qədər Təbriz şəhərinin tarixini dərindən tədqiq etmək məqsədilə burada arxeoloji qazıntılar aparılmamışdır. Lakin təsadüfi hallarda şəhərin qədim tarixə malik olduğunu təsdiq edən bir sıra əşyalar, o cümlədən möhürlər və sikkələr əldə edilmişdir. Görünür, IV əsrdən sonra Təbriz şəhəri tənəzzülə uğramışdır. Ona görə ki, ərəb işğallarına qədər olan dövrdə biz mənbələrdə Təbriz sözünə təsadüf etmirik. Sonralar, tədricən Abbasilər, Səlcuqlar, Azərbaycan, Atabəylər çağlarında əhəmiyyəti getdikcə artan və Elxanilər dövründə böyük bir ulusun (dördüncü ulusun) paytaxtına çevrilən Təbriz şəhəri haqqında yazılı məlumatlar getdikcə çoxalmışdır.

Tarixi mənbələrdə Tavri, Tarui, Tarmakis, Tavrez kimi təkamül yolu keçən qədim Atropatena şəhərlərindən birinin adı belə dəyişmə prosesindən sonra "Təbriz" formasına düşmüşdür.

Şəhərin adının müxtəlif şəkillərə düşməsi qaynaqların yazıldığı dillər tərəfindən təhrifin nəticəsidir. Ümumiyyətlə, toponimlər çox vaxt mənbənin yazıldığı dilin tələffüzünə uyğunlaşdırılır. Bunun üçün məşhur səyyah Marko Polonun "Səyahətnamə"sində Şərq şəhər adlarının avropalı müəllif tərəfindən necə dəyişildiyinə baxmaq kifayətdir: "Bağdad—Borak, Kirman—Kreman, Təbriz—Toris və sair. Cəmi bir neçə yüz il bundan əvvəl yazılmış həmin əsərdə bəzi yer adları elə şəklə düşmüşdür ki, tədqiqatçılar indi də onların hansı şəhərlər olduqlarını aydınlaşdıra bilmirlər. Təbriz toponiminin Asur, Bizans, erməni, İran, ərəb və başqa mənbələrdəki biçimləri də sözsüz ki, bu sayaq "uyğunlaşmaya" uğramışdır. Lakin Tarui, Tarmakis, Tavriş, Tavriz, nəhayət, Təbriz adının keçid variantlarının hamısı bir kökdəndir. Bizanslı Favstın məlumatına əsaslanan "İranabad" jurnalı yazır: "...dördüncü əsrdə adına Tavreş deyilən şəhər get-gedə farscaya dəyişilərək, Təbriz halına düşmüşdür"[168].

S. Onullahi Ceksona istinad edərək yazır ki, Təbrizin salınma tarixi məlum deyildir. O, Zübeydə xatun tərəfindən tikilməmişdir... bu bir həqiqətdir ki, şəhər Sasani dövründə mövcud olmuşdur... Parfiya və Sasani dövrünə aid olan

---

[167] İ. M. Dyakonov. Göstərilən əsəri, s. 216.
[168] Фавстос Бузанд. История Армении, пер. М. Георгян. Ереван, 1953, с. 474.

sikkələri və bir möhürü Cekson görüb, onu Əhəməni dövrünə aid olduğunu söyləyir[169].

V. F. Minorskinin yazdığına görə zəlzələnin çoxluğu Təbrizin xüsusiyyətlərindən biridir. Təbrizdə yüngül titrəyişlər və hərəkətlər demək olar ki, hər gün baş verir. Təbrizdə baş vermiş güclü zəlzələlərdən bir çoxunun tarixi məlumdur. Şəhərdə 858, 1042, 1641, 1728, 1780, 1854, 1956-cı illərdə zəlzələ baş vermişdir. Hər zəlzələdən, hər dağıntıdan sonra Təbriz yenidən abadlaşdırılmışdır. Ərazinin əlverişli təbii-coğrafi üstünlükləri insanları bu titrəyən, tərpəşən torpaqdan uzaqlaşmağa qoymamışdır. Əksinə, əcdadlarımız bu hərəkətli torpaqa daha ürəkdən bağlanmış, karvan ticarət yolları üçün əvəzsiz qovşaq olan bu yerdə Şərqin ən gözəl və məşhur şəhərlərindən birini salmışlar. Təbrizdə yer titrəyişlərini çoxları Səhənd dağının vulkanik fəaliyyəti ilə bağlayırlar. N. V. Xakıkov isə hərəkətin səbəbini təbəqələrin öz-özünə müxtəlif yer dəyişmələrində görür.

Görkəmli gürcü tarixçisi Q. A. Melikeşviliyə görə, Tauri-Tarmakis möhkəmləndirilmiş (qala divarları və xəndəklərlə əhatə edilmiş) şəhər olmuşdur[170].

Beləliklə, e. ə. VIII əsrdə Təbriz abad bir şəhər olmuş, II Sarqonun oraya hücumu nəticəsində tamamilə dağılmış, sonralar yenidən bərpa olunaraq eramızın II—IV əsrlərində böyuk şəhərə çevrilmişdir. Maraqlıdır ki, həmin tarixdən etibarən III—IV əsrlərə, sonra isə VII əsrin əvvəllərinə qədər Təbriz adına məxəzlərdə təsadüf edilmir[171].

Təbriz adının Səhənd dağının vulkanik püskürməsi ilə bağlı olduğu ehtimalını ilk dəfə Övliya Çələbi irəli sürmüş, ancaq onu vulkanın istilik tökmək xüsusiyyəti ilə əlaqələndirmişdir. Rus alimi İ. N. Berezin mənanın düzgün açılışına daha yaxın olmuşdur. İ. N. Berezin göstərmişdir ki, farslara görə "qızdırma tökən" mənasını verən Təbriz sözünün yozumu səhvdir, bu izahların heç birinin filoloji əsası yoxdur. Alimin fikrinə görə, əgər hər bir şəhərin adını aydınlaşdırmaq gərəkdirsə, onda Təbriz fars sözləri olan "təb"—"riz" (qızdırma tökən) deməkdir. Əlbəttə, belə nəticələr orta əsr müəlliflərinin əsərlərində olduqca çoxdur. Hər halda hələlik toponimin etimoloji izahı haqqında son söz deyilməmişdir.

Atropatenin qədim şəhərlərindən biri də Marağadır. Bu şəhər gözəl iqlimi və əlverişli təbii-coğrafi şəraiti ilə məşhurdur. Şəhərin şimalında, dəniz səviyyəsindən 3547 metr hundürlüyə malik olan əzəmətli Səhənd dağı ucalır. Bu dağ Marağanı Təbrizdən ayırır. Dəniz səviyyəsindən 1400 metr yükssəkdə yerləşən Marağa şəhəri Təbrizdən müstəqil dağ yolu ilə 76 km, şosse yolu vasitəsilə 130 km məsafəyə malikdir[172]. Səhənd dağından mənbə alan bir sıra dağ çayları Marağa və onun ətrafını su ehtiyatı ilə təmin etdikdən sonra onun 29 kilometrliyindəki Urmu

---

[169] S. Onullahi. Göstərilən əsəri, s. 33 – 34.

[170] Г. А. Меликишвили. Некоторые вопросы…, с. 23.

[171] S. Onullahi. Göstərilən əsəri, s. 37 – 38.

[172] V. F. Minorski. Şəhr-e Mərağe, tərcümə Ə. Karəngindir. Məcəlle yəğma sale XVIII, № 3, Tehran, 1965, s. 151.

gölünə tökülür. Marağa şəhəri Şərqin başqa şəhərləri kimi çay sahilində, Sofi çayının sol sahilində salınmışdır. Sofi çayı Marağa şəhərinə gözəl bir mənzərə verməklə bərabər, həm də onun ətrafında olan meyvə bağlarını və əkin sahələrini suvarır. Mordi çayı isə Sofi çayına paralel axaraq “Bayandur” məntəqəsini su ehtiyatı ilə təmin edir. Marağa şəhərinin belə gözəl təbii şəraitə malik olması, habelə bir sıra ticarət yollarının vaxtilə həmin şəhərdən keçməsi, onun qədim dövrlərdən etibarən Şərqdə şöhrətlənməsinə, bilavasitə şərait yaratmışdır.

1852-ci ildə məşhur rus alimi N. V. Xanıkov Mordi çayı dərəsindən hal-hazırda nəsli kəsilmiş hipparion və gərgədan sümükləri tapmışdır[173]. Bundan sonra Kebel, Strauss, Dodler, Morqan və başqaları həmin tədqiqatı davam etdirərək belə bir nəticəyə gəlmişdilər ki, sümükləri bu ərazidən tapılmış heyvanlar Səhənd dağının od püskürməsindən əvvəl burada yaşamışlar[174]. Marağa şəhərində indiyə qədər arxeoloji qazıntı işlərinin aparılmamasına baxmayaraq bir sıra qədim mənbələrdə onun adına təsadüf edilir. Strabonun yazdığına görə Atropatena şahlarının Qazaka (yay iqamətgahı) və Vera (qış iqamətgahı) adlı iki paytaxt şəhəri olmuşdur[175]. Strabona görə Araz çayından bu şəhərə qədər olan məsafə 2400 stadi olmuşdur. Hər stadi 184, 72 metrə bərabərdir. Plutarxa görə Fraata Dion Kassidə Praspa və yaxud Fraaspa, Ptolemeydə isə Fraspa formasında verilir[176].

Toponimik baxımdan Fraaspa, Praaspa eyni mənşəli adlardır. Veraya gəldikdə o, yerləşdiyi ərazi nöqteyi-nəzərdən Fraata, yaxud Fraaspa ilə eyni sahədə yerləşirdi. Lakin formal olsa da yuxarıdakı şəhər adları ilə eyni deyildir.

Marağanın qədim adını öz əsərində saxlayan Bəlazuri ona Əfrah Rud, İbn Fəqih və Yaqut Həməviyə görə də bu şəhər Əfrahrud kimi qeyd edilmişdir. Yaqut Həməvi qətiyyətlə Əfrah Rudı Marağadan axan Sofi çayı ilə eyniləşdirir. Məşhur şərqşünas Minorski Plutarxın Fraatasını ərəb müəlliflərinin qeyd etmiş olduqları Əfrahrudun müasir Marağa ilə bir olduğunu iddia edir. O öz fikrini sübut etmək üçün Marağanın şimaldan müdafiə olunmasına şərait yaradan Səhənd dağının strateji əhəmiyyətini, Sofi çayının hal-hazırda da bu şəhərdən axmasını və habelə VII—XIII əsrlərdə ərəb, habelə monqolların dövründə də Marağanın paytaxt şəhər olması faktını misal çəkir [177]. Digər tərəfdən müasir Marağanın keçmişdə Atropatena şahları tərəfindən paytaxt seçilməsi təsadüfi hal olmayıb, bəlkə həmin şəhərin iqtisadi, strateji, təbii-coğrafi şəraiti ilə bilavasitə əlaqədar olmuşdur. Eyni zamanda Marağa şəhərinin şimalında, təqribən 16 km aralıda yerləşən möhkəm Ruindej qalasının mövcudluğu bu şəhərin qədim tarixə malik olmasını bir daha sübut edir. Eramızdan əvvəl 36-cı ildə Roma sərkərdəsi Antoni 100 min nəfərlik ordu ilə Atropatenaya hücum edən zaman bu şəhəri mühasirə edib, təslim etsə də

[173] V. F. Minorski. Göstərilən əsəri, s. 151.
[174] Yenə orada.
[175] Strabon. Göstərilən əsəri, XI – 13.
[176] Plutarx, Antoni, Dion Kassi ( 49 – 25)
[177] V. F. Minorski. Göstərilən əsəri, s. 152.

lakin çox keçmədən Qazaka qalası ətrafında məğlubiyyətə uğradılır: ağır tələfat verən düşmən qüvvələri Marağanı da boşaltmağa məcbur oldular. Qədim dövrdə Fraata adlanan bu şəhər ərəb işğalları dövründən etibarən Marağa adlandırılmışdır. Marağa sözünün mənasına gəldikdə ərəb dilində olan bu söz "Mərəğə" sözündən əmələ gəlib otlaq, at qoruqları, daha sonra at bəslənilən yer mənasındadır. Mərəğə felindən olan bu sözün başqa mənası "diyirlənmək" və yaxud "ağnamaq" deməkdir[178].

Ptolomey Urmu gölünün adını Markian, Markvart isə Marqiana formasında vermişlər. Bəzi alimlər Marağa sözünün həmin adla əlaqədar olaraq meydana çıxması iddia edirlər. Bu mülahizə öz növbəsində ağlasığandır. Hər halda, istər "Fraata", istərsə "Markiana" və "Marağa" bu şəhərin qədim tarixə malik olmasını göstərən amildir.

Marağa şəhəri 641 – 643-cü illərdə Azərbaycanda olan ərəb sərkərdəsi Müqeyrə ibn Şüeybə tərəfindən alınmışdır[179]. Ərəb sərkərdəsi Mərvan ibn Məhəmməd Muğan və Gilan müharibələrindən qayıdan zaman bu abadlıqda düşərgə salmışdı. Ərəb müəlliflərinin göstərdiynə görə burada kərmənin bol olması ilə əlaqədar olaraq, bu yer Marağa adlandırılmışdır[180]. Qeyd etmək lazımdır ki, Marağa şəhərinin etimologiyası haqqında irəli sürülmüş bu fikir inandırıcı deyildir. Mərvan burada bir sıra binalar tikdirib, abadlıq işləri aparmışdır. Abbasilər dövründə şəhərin malikiyyəti Harun ər-Rəşidin qızlarına çatmışdır. Xəzimət ibn Xazim Azərbaycan və Ermənistanın hakimi olan zaman Təbriz hakimi Vəcna ibn Rəvzad ərəblərə qarşı üsyan edən zaman Marağa şəhəri ətrafına hasar çəkməklə həm də oranı qərargah etmişdi.

Qazaka (Kanzak) Atropatenanın qədim şəhərlərindən biridir. Bu şəhər ərəb işğalları dövründən etibarən "Cənzə" və yaxud "Şiz" adlanmışdır. Strabonun göstərdiyinə görə Atropatena şahlarının yay iqamətgahı olan Qazaka düzənlikdə yerləşirdi[181]. Ptolomey Qazakanın coğrafi mövqeyini 83° 40 - 39° göstərmişdir. Plini Midiya şəhərləri haqqında məlumat verdikdə Şizqanzakın da adını çəkir. Şiz və yaxud Şicikan sözünə pəhləvi (orta fars dili) dilində olan ədəbiyyatda tez-tez rast gəlmək olur[182]. Pəhləvi dilində olan bu söz xəzinə və yaxud ləl-cəvahirat saxlanılan ev mənasında işlənir ("Gənc-i Şicikan", yaxud "Şizikan"). Erməni mənbələrində Qanzak və ya Kənzək formasında verilmiş[183] bu söz ərəblərdə Cənzə[184], farslarda isə Gəncək kimi göstərilmişdir. Məsudinin yazdığına görə Arşakilər qışı İraqda, yayı isə Azərbaycanda olan Şizdə keçirirdilər. Şəhər istər Atropatena, istərsə Sasani hakimiyyəti dövründə Orta və Yaxın Şərqdə iqtisadi-

---

178 A. H. Fazili. Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında. Bakı. Elm. 1970. S. 62 – 70.
179 Yenə orada, s. 67 - 70
180 Yenə orada.
181 Strabon. Göstərilən əsəri. XI – 13.
182 Şəhristanha-ye İran. Tərcümə Hidayətindir. Tehran, məcəlle-mehr sale həştom.
183 Фавстос Бузанд. История Армении, пер. М. Георгян. Ереван, 1962.
184 Əl-Məsudi, ibn Xordadbeh, Yaqut Həməvi

ictimai nöqteyi-nəzərdən ən qabaqcıl şəhərlərdən biri idi. Ticarət yollarının bu şəhərdən keçib, Azərbaycan şəhərlərini İran, İraq və başqa ölkələrlə birləşdirməsi, xüsusi ilə qeyd etmiş olsaq şahlara məxsus olan "Azərgəşəsp" atəşgədəsinin burada yerləşməsi və habelə şəhərin füsunkar təbii-coğrafi şəraitə malik olması tarixən onun iqtisadi-siyasi cəhətdən inkişaf etməsinə bilavasitə şərait yaratmışdır. Son tədqiqatlara görə Cənzə şəhəri müasir Təxt-e Süleymanın olduğu yerdə olmuşdur. Təxt-e Süleymanın coğrafi mövqeyinə gəldikdə, bu ərazi İran Azərbaycanın Əfşar mahalının qərbində, Təkabın isə şimal-şərqində yerləşir. Təxt-e Süleyman şimal-qərbdən Marağa, cənub-şərqdən Zəngan, qərbdən isə Kürdüstanın Sənəndən və Bicar şəhərləri ilə həmsərhəddir. Bu ərazinin rütubətli iqlim şəraiti, habelə Təxt-e Süleymanda olan gölün suyunda müxtəlif mineral maddələrin mövcud olması tarixən burada yaşayış məntəqəsinin salınmasına şərait yaratmışdır. İkinci bir tərəfdən həmin ərazinin qərbində olan keçilməz dağ silsiləsinin də, öz növbəsində yaşayış məntəqəsinin təhlükədən qorunmasında mühüm strateji əhəmiyyəti olmuşdur.

İbn Xordadbeh Şiz şəhərini Azərbaycanın ən görkəmli şəhərlərindən biri hesab edib, bu şəhəri Xosrov Pərvizin, Urmunu isə Zərdüştün şəhəri adlandırır.

Cənzə şəhərindən danışan İbn Fəqih Azərgəşəsp atəşgədəsinin burada olduğunu qeyd edir. Məsudi və İbn Fəqih də Azərgəşəsp atəşgədəsinin bu şəhərdə olmasını göstərirlər. Ümumiyyətlə, Cənzə şəhərinin iqtisadi-ictimai mahiyyətindən danışan bir sıra ərəb tarixçi və coğrafiyaşünaslarının əsərlərində Sasani şahlarının tac qoyduqları zaman Mədaindən buraya piyada gəlib, atəşgədəni ziyarət etmələri faktına təsadüf edilir. Yaqut Həməviyə görə müasir Marağa ilə Zəngan arasında yerləşən bu şəhər Zur və Dinəvər çəhərləri yaxınlığında olmuşdur. Şəhər haqqında Məsudi yazır: "Gözəl və heyrətamiz binaların qalıqlarında çox müxtəlif nəqqaşlıq nümunələri görünməkdədir. Bu nümunələrdə göyün, ulduzların, qitənin, dənizlərin, abad yerlərin, bitki və heyvanat aləminin şəkilləri aydıncasına görünməkdədir". Firdovsinin göstərdiyinə görə Xosrov Pərviz Bəhram Çubinlə etdiyi müharibədə Cəzada olan Azərgəşəsp məbədinə gəlmiş və orada olan oda yalvarmışdır. Ümumiyyətlə, Sasani şahları çətinliyə düşdükdə burada olan atəşgədəyə gəlib oda yalvarmaqla ondan "köməklik" diləyirdilər. Belə ki, V Bəhram (420 – 439) türk xaqanı ilə vuruşmazdan əvvəl buraya gəlib müqəddəs oda sitayiş etmiş və qələbə arzulamışdır. Müharibədə qalib gələn I Bəhram xaqanın qiymətli daş-qaşlarını, mirvari ilə bəzədilmiş tacını və habelə əsir alınmış ailəsini atəşgədəyə göndərmişdir. M. Təbərinin göstərdiyinə görə Cənzə şəhərinin də qiymətli və nadir şeylərin toplanması ilə əlaqədar olaraq buraya Gəncək adı ("gənc" sözü fars dilində "xəzinə" deməkdir) verilmişdir. X əsrin səyyahı Məsər ibn Mühəlhil (Əbu Düləf) cəvahirat və qiymətli metallar əldə etmək üçün Şizə gəlmişdi. Məsərə görə dağda yerləşən bu şəhər Zur və Dinəvər şəhərlərinin yaxınlığında, Marağa ilə Zəncan arasında olmuşdur. Müəllifə görə bu dağda qızıl, gümüş, civə, qurğuşun, zərnıx və cəməsb mədənləri mövcuddur. Məsər burada olan başqa mədənlərdən və habelə

mövcud olan qızılın kəmiyyət və keyfiyyəti haqqında məlumat verdikdən sonra yazır ki, şəhər divarları dərin bir gölü əhatə etmişdir. Şizdə olan atəşgədə əhali arasında müqəddəs olmaqla bərabər Şərq və Qərbdə olan atəşpərəstlər öz odlarını buranın odundan alışdırırdılar. Atəşgədənin günbəzinə gümüş "hilal (ay) yapışdırılmışdır. Bir neçə hakimin həmin hilalı qoparması cəhdi baş tutmamışdır. Güman edildiyinə görə bu tilsimdir. Müəllifə görə burada ən heyrətamiz və cəlbedici mənzərə atəşgədənin odunun 700 il müddətində şölə çəkib yanıb, sönməməsi və habelə onun külünün qalmamasıdır. Deyildiyinə görə bu şəhəri Hörmüz şah daş və kərpicdən tikmişdir. Bu atəşgədənin və onun ətrafındakı əzəmətli uca imarəti bina etmişdir. Bu şəhər Roma imperatoru İraklinin soyğunçu müharibəsinə (623 – 624-cü illərdə) qədər öz əzəməti ilə məşhur şəhərlərdən biri olmuşdur. İrakli göstərdiyimiz ildə bu şəhəri talayıb, onun sərvətini qarət etmişdir. O, Şizdə olan Azərgəşəsp atəşgədəsini və əzəmətli binaları yerlə-yeksan etdikdən sonra şəhər öz əvvəlki şöhrətini itirmişdir. Erməni tarixçisi Sebeosun yazdığına görə İrakli Naxçıvanı tutduqdan sonra Kanzak şəhərinə gəlib orada olan "Vəşnəsp" məbədini dağıtmışdır. Bizans tarixçisi Mitilenli Feofana görə (750 – 817) Kiçik Asiyada Midiya şahı Gerzosun xəzinəsinə oxşayan bu məbədin (Azərgəşəspin – A. F.) külli miqdarda olan var-dövləti romalılar tərəfindən qarət edilmişdir. Həmdullah Qəzviniyə görə monqolların dövründə Abaqa xan orada olan sarayın təmiri əmrini vermiş və atəşgədənin yerində məscid tikdirmişdir. Arxeoloji qazıntılar zamanı məscidin tililməsində istifadə edilmiş kaşıların tapılması bu faktı bir daha sübut edir. Məşhur rus alimi V. Bartolda görə Atropatena şahlarının paytaxtı olan Qazaka erməni mənbələrində "Qandzak", "Gəndzək", farslarda "Gəncək", ərəblərdə isə "Cənzək", şəhərətrafı "əş-Şiz" adlanmış və öz dövrünün ən mühüm dini mərkəzi olmuşdur[185].

Hal-hazırda Təxt-e Süleymanda əzəmətli binaların xarabalarından başqa heç bir şey qalmamışdır. Lakin uzun illərin keçməsinə baxmayaraq, arxeoloji qazıntılar zamanı əzəmətli binaların və habelə şöhrətli Azərgəşəsp atəşgədəsinin nişanələri aşkar edilir. 1937-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş divar qalıqları mütəxəssislərə görə, Parfiya və hətta ondan əvvəlki dövrə aiddir. Son illərdə aparılan arxeoloji qazıntılar zamanı vaxtilə Təxt-e Süleymanda tikilmiş möhtəşəm qala qalığı aşkar edilmişdir. Bu qala 12.400 km əraziyə malikdir. Qalanın şimaldan cənuba uzunluğu 400 m, eni şərqdən qərbə 300 metrə bərabərdir. Qala dəniz səviyyəsindən 2450 m, ətrafında olan sahələrdən isə 18 – 20 metr yüksəkdə yerləşir. Qala divarları daş və əhəng ilə tikilmişdir. Qala 36 bürcə malikdir. Yarımdairvə formada olan bürclər biri digərindən 22 – 26 metr aralıda yerləşir; hər biri isə 10 metr enə malikdir. Qalanın şimal qapısı 5 metr hündürlüyə, 4,5 metr enə, cənub qapısı isə 3 metr hündürlüyə və 3,4 metr enə malikdir. Ümumiyyətlə, qala divarı 6,30 – 8,30 metr və 3,90 metr enə malikdir[186].

[185] V. V. Bartold. Tarix-e coğrafiya-e, İran, s. 266 – 267.
[186] Ələkbər Sərfəraz. Təxt-e Süleyman, Təbriz, 1347, s. 10 – 30.

Mütəxəssislərə görə buradan Sasani və monqol dövrünə aid maddi abidələr tapılmışdır.

Atropatenanın qədim tarixə malik olan şəhərlərindən biri də Ərdəbil şəhəridir. Bu şəhər 48° - 17° coğrafi şərq uzunluğu və 38° - 15° şimal en dairəsində, dəniz səviyyəsindən 1100 metr hündürlükdə yerləşir. Ərdəbil şəhərinin məhsuldar torpağa malik olan düzənlikdə yerləşməsinə baxmayaraq, onu ətrafında olan hündür dağlar üzük qaşı kimi əhatə etmişdir. Şəhər ətrafı qərbdən Savalan, şərqdən Baqrə (Mazd), cənubdan Buzgüş, şimaldan isə talış dağları ilə həmsərhəddir. Ərdəbil şəhəri əlverişli təbii-coğrafi şəraitə malikdir. Dəniz səviyyəsindən 4820 metr hündürlüyə malik olan Savalan dağı keçmişdə fəaliyyət göstərən vulkan mənşəli dağdır. Bu dağ Ərdəbil şəhərinin iqlim şəraitinə olduqca faydalı təsir edir. Həmin dağın ətəyində, Ərdəbil şəhərindən yaxın bir məsafədə yerləşən "Səreyin", "Sarı dava" və "Qotur" suyu adlı mədən suları tarixən bu şəhərin möhkəmlənməsinə şərait yaratmışdır. Şəhər ətrafında indiyə qədər arxeoloji qazıntı işlərinin aparılmaması onun nə vaxt bina edildiyinin dəqiq müəyyənləşdirilməsini çətinləşdirir. Lakin təsadüfi hallarda Ərdəbil şəhəri və onun ətrafında tapılmış bir sıra maddi-mədəniyyət nümunələri və bəzi abidələr bizi eramızdan əvvəl bu ərazidə yaşayanların mədəniyyəti ilə tanış edir. Mütəxəssislərin göstərdiyinə görə, bu ərazidən tapılmış tunc alətlət Luristanda əldə edilən əşyalardan sadə olduqlarına görə onların daha ilkin olması ehtimal edilir. Belə ki, Luristan ərazisindən tapılmış tunc balta eramızdan əvvəl II minilliyə aid edildiyi halda, Ərdəbildən əldə edilmiş balta ondan daha əvvəlki dövrə aid edilir. Ərdəbil şəhəri və onun ətrafından bir sıra maddi-mədəniyyət nümunələri, o cümlədən bir uzunluğunda ağır dəstəli mis qılınclar, müxtəlif xəncərlər, baltalar, nizə və ox ucları, həlqələr, ox qablarının metal hissələri, sırğalar, habelə gərdənbəndlər də tapılmışdır. Həmin əşyalar xalq ustaları tərəfindən hazırlanmış gözəl sənətkarlıq nümunələridir. Ərdəbil ətrafından tapılmış maddi-mədəniyyət nümunələri hazırda Tehran şəhərində "İran-e Bastan" muzeyində "Ərdəbil tapıntıları" adı ilə xüsusi bölmədə qorunub saxlanılır.

Qədim müəlliflərin əsərlərində Ərdəbil şəhərinin tarixi haqqında məlumata təsadüf edilmir. Orta əsr mənbələrində isə şəhər haqqında külli miqdarda maraqlı materiallara rast gəlmək olur. Çox güman ki, Ərdəbil şəhəri qədimdə başqa adlarla adlanırmış. Yuxarıda göstərdiyimiz bir sıra faktlar bizə hələ tunc dövründən etibarən Ərdəbil şəhəri və onun ətrafında ilk insan məskənlərinin və mədəni həyatın olması barədə ehtimal etməyə imkan verir. Firdovsi "Şahnamə" əsərində "Dej-e Bəhmən" qalasının Keyxosrov tərəfindən ataşgədəyə çevrilməsindən və bu qalanın isə Ərdəbil şəhərində yerləşməsindən xəbər verir. Tədqiqatçı Baba Səfərinin göstərdiyinə görə "Ərdəbil Firuz Sasaninin dövründən xeyli əvvəl mövcud olmuşdur". O, Movses Xorenatsiyə istinad edib Ərdəbilin eramızın IV əsrində Azərbaycanın paytaxt şəhəri olduğunu iddia edir. Həmin əsərdə hunların Dərbənddən keçib bu şəhəri talayıb viran etdiklərini qeyd edir. O, 425-ci ildə V

Bəhramın Ərdəbildən, Amol, Mazandaran, Gürgan və nəhayət, Xorasana gedib orada hunları məğlub edib, onların xaqanını öldürdüyünü göstərir[187]. "Hüdud əl-aləm minəl məşriq iləəl-məğrib" əsərinin müəllifinin göstərdiyinə görə "Ordbil böyük bir şəhərdir. Olduqca bolluq və möhkəm olan bu şəhərin dövrəsi hasarlıdır" [188] . Həmdullah Qəzviniyə görə Ərdəbil şəhəri Siyavuşun oğlu Keyxosrov tərəfindən bina edilmişdir. Tarixdə əfsanəvi şah olmuş Keyxosrov tərəfindən bu şəhərin salınması öz-özlüyündə onun qədim tarixə malik olmasına sübutdur. İkinci bir tərəfdən Firdovsinin "Dej-e Bəhmən" və yaxud "Ruin Dej" adlandırmış olduğu toponimikaya hal-hazırda Ərdəbil ətrafında, xüsusən onun qərbində və Savalan dağının ətəyində təsadüf edilir. O cümlədən "Ruin Dizəq" və "Dij vicini" göstərmək olar. Bundan başqa şəhər ətrafında atəşpərəstliklə bilavasitə əlaqədar olan bir sıra ay adlarına, o cümlədən "Şəhrivər" və "Əmərdad" toponimik adlarına da rast gəlmək olur. Elə bu səbəbə görə də bir sıra mütəxəssislər şəhərin Zərdüşt dövründə bina edilməsi fikrini irəli sürürlər. Ərdəbil şəhəri ətrafında mis, qızıl, qalay, kükürd və neft yatağının olması, habelə Yaxın və Orta Şərqi şimal ölkələri ilə qovuşduran strateji və ticarət əhəmiyyətinə malik olan yolların bu şəhərdə birləşməsi, qədim dövrlərdən etibarən onun iqtisadiyyatına mühüm təsir göstərmişdir. Həmin yollar haqqında məlumat verən ərəb coğrafiyaşünası İstəxri yazır: "Bərdədən Yunana 7 ağac (ağac təqribən 6 kilometrə bərabərdir – A. F), oradan Beyləqana 7 ağac, Beyləqandan Vərsana 7 ağac, buradan Bəlxaba 7 ağac, Bərzənddən isə Ərdəbilə 15 ağac məsafə vardır". Həmin müəllif Ərdəbildən Zəncana 6 mərhələ və habelə Ərdəbildən Marağa şəhərinə gedən yolun 48 ağacdan ibarət olduğunu təyin edir[189]. Şəxsən Ərdəbil şəhərində qalmış Yaqut Həməvi öz əsərində bu şəhərin abadlığından, sıx əhaliyə malik olmasından, həmin dövrdə sənətkarlıq və habelə ticarət mərkəzi olmasından dəfələrlə danışmışdır. O, şəhərin adını "Bavan Firuz" adlandıraraq onun Sasani sülaləsindən olan Qubadın oğlu Firuz tərəfindən bina olunduğunu iddia edir. Yaqut Həməvi davam edərək göstərir ki, Ərdəbil şəhəri Azərbaycanın ən görkəmli şəhərlərindən biri olmaqla bərabər İslam dövründən əvvəl də paytaxt şəhər olmuşdur[190]. Məlum olduğuna görə, Ərdəbil Azərbaycanın ən qədim şəhərlərindəndir. "Xudaynamak"a əsasən əsər yazan Firdovsi Kəyan şahları dövründə Ərdəbil şəhərinin yerində "Bəhmən dej" (Bəhmən qalası) adlı alınmaz möhkəm qala olduğunu göstərir. Həmin sülalədən Fəriburz və Keyxosrov Bəhmən qalasına hücum etmişdir. Fəriburz qalanı ala bilməmiş, Keyxosrov isə qalanı fəth edib, Ərdəbili bina etmişdir. Ərdəbilin bina edilməsinə dair mənbələrdə digər rəvayətlər də mövcuddur. Şəhərin ayrı-ayrı dövrlərdə müxtəlif adlarına da təsadüf edilir: "Ərtəfit", "Ərdəvil", "Ordvil", "Firuzabad", "Bazan-e Firuz", "Piruzram" və s. Məlumdur ki, Ord adlı Parfiya

---

[187] Baba Səfari. Ərdəbil dər gözərgahe tarix. II cild, Tehran, 1353, s. 306.
[188] Hüdud əl-aləm minəl məşriq iləl-məşğrib. Azərb. EA. Tarix institunun arxivi № 257.
[189] Əl-İstəxri. Göstərilən əsəri, s. 20 – 30.
[190] Yaqut Həməvi. Göstərilən əsəri, s. 85.

hökmdarı olmuşdur. “Vil” isə şəhər mənasını daşıyır. Güman etmək olar ki, şəhəri Parfiya şahı Ord bina etmişdir. Ərdəbil Sasanilər dövründə mərzbanlıq mərkəzi olmuşdur. VII əsrdə ərəblər şəhəri işğal etdilər. Ərdəbil əvvəl mahal, sonralar isə canişinlik mərkəzinə çevrildi. 808-ci ildə Ərdəbil mahalında xürrəmilər hərəkatı başlanmışdı. X əsrdə Saci hökmdarı Yusif ibn Divdad Azərbaycanın paytaxtını Marağadan Ərdəbilə köçürmüşdü. 1220-ci illərdə monqol hücumları dövründə Ərdəbil əhalisi öz doğma şəhərlərini inadla müdafiə etməyə başlamışdır. Bu səbəbə görə düşmən qüvvələri qalib gəldikdə şəhər əhalisinə amansız divan tutmuş, şəhəri qarət edib uçurmağa başlamışlar. Tarixi şəhər olan Ərdəbil və onun ətrafında qədim abidələr hələ də qalmaqdadır. Atəşgah (Ağ İmam) adlanan kənd şəhərin 11 kilometrliyində yerləşir. Burada Sasani dövründən mövcud olan atəşgədə hələ də qalmaqdadır. Ərəb istilasından sonra islamiyyətlə əlaqədar kəndə Ağ İmam adı verilmişdir. Lakin mənbə və ədəbiyyatda kənd Atəşgah olaraq qalmaqdadır. Şübhəsiz ki, bu ərazinin sakinləri islam dinini qəbul etməzdən əvvəl atəşpərəst olmuşlar.

Orta əsrlərdə ən məşhur şəhərlərdən biri olan Ərdəbil Azərbaycanın paytaxtı olmuşdur. Mənbələrə görə əsası Firuz tərəfindən qoyulan bu şəhərə Bazan-e Firuz adı verilmişdir [191]. Şəhərin adı “Hüdud-ül-aləmdə” “Ordvil” göstərilmişdir. Həmin coğrafi kitabda da Ərdəbilin bolluq və habelə ətrafının əzəmətli möhkəm hasara malik olmasından danışılır. “Bürhan-e qate” də Ərdəbil “Firuz gerd”, Süruriyə görə “Bazan piruz” və yaxud “Firuz abad” göstərilmişdir. Bəzi tədqiqatçılara görə Ərdəbil toponimi “arta” (azəri dilində “müqədəs”) və “vil” (“şəhər”) sözlərindən ibarət olub “Müqəddəs şəhər” deməkdir. Yuxarıda göstərilən kimi, Ərdəbilin “Müqəddəs şəhər” adlandırılması atəşpərəstlik ilə bilavasitə əlaqədar olmuşdur. İndi də şəhər ətrafında bir sıra atəşgədənin izləri qalmaqdadır. Şəhərin adını “Ard” (arxa) və “Vil” sözləri ilə bağlayıb “Arxada olan şəhər” kimi izah edənlər də var. Guya Ərdəbil Savalan dağının arxasında olduğuna görə belə adlanmışdır. Hər halda şəhərin adı haqqında birinci etimologiya, yəni “Müqəddəs şəhər” izahı daha inandırıcıdır. Ərdəbil şəhərinin bina edilməsi haqqında xalq dastanlarından olan “Savalan” əfsanəsi də çox maraqlıdır. Həmin əfsanədə deyilir ki, ərdə və bil adlı qoçaq tayfa Muğan və Ərdəbil ətrafında yaşayırdı. Bu tayfalar tadelli düşmənlə vuruşa-vuruşa zirvəsi qarla örtülmüş əzəmətli bir dağa gəlib çatmışlar. Onlar xançobanın dağa döndüyünü görüb onu Savalan adlandırmışlar. Şair Balaş Azəroğlu bu haqda deyir:

Elə o vaxtdan dağın
Adı Savalan oldu.
Bütün elin-obanın
Sevdiyi məkan oldu.

---

[191] Əl-Müqəddəsi. Əhsən ət təqasim fi mərifət ül-əqalim, s. 377 – 378. Yaqut Həməvi. I, 197; IV, 288 – 289.

Əfsanədə deyildiyinə görə hər iki tayfa orada şəhər bina edib və adını da Ərdəbil qoymuşlar. Balaş Azəroğlu bu haqda yazır:

O döyüş meydanında
Əhd etdi qardaş kimi
İki tayfa Ərdə-Bil,
Yurd saldılar o yurdun
Adı qaldı Ərdəbil.

Əfsanəvi olsa da bu məlumat Ərdəbil şəhərinin qədim tarixi haqqında dəyərli məlumatlardır. 1221-ci ildə Ərdəbil şəhərində olmuş Əbuon şəhərin abadlığı, bolluğu haqqında yazır ki, səfalı və ürəkaçan yerdə bina edilmiş bu böyük şəhərin bol suyu və ətrafından gətirilmiş meyvə, habelə ərzaq malları olduqca boldur. Xəzər dənizi bu şəhərdən ikigünlük yoldur. Şəhərdən birgünlük məsafədə yerləşən meşələr olduqca əzəmətlidir. Şəhərə düşmən hücum etdikdə əhali həmin meşələrə qaçıb və orada özlərini gizlətməklə canlarını qoruya bilirlər. Ərdəbil sənətkarları həmin meşənin ağaclarından ox, tabax, qaşıq, çömçə, ağac sini, kasa, cəhrə və başqa məişət şeyləri hazırlayır. Əbuon davam edərək yazır: "Mən Ərdəbili tərk etdikdən sonra monqollar bu şəhərə hücum etdilər, lakin əhalinin inadlı müqavimətinə rast gəldilər; ona görə də onlar bu şəhəri birinci və ikinci hücumda ala bilməyib, geri çəkilməyə məcbur olmuşlar. Monqollar şəhəri almaq məqsədilə üçüncü hücum təşkil edib, nəhayət, şiddətli və qanlı vuruşmalardan sonra oranı alıb əhalisini qılıncdan keçirib, şəhəri viran etdilər. Lakin sonralar şəhər yenə də əvvəlki vəziyyətinə qayıtmış və hələ də monqolların əlindədir. Həmdullah Qəzvini yazır: "Ərdəbil şəhəri soyuq iqlim şəraitinə malikdir. Belə ki, bəzi hallarda biçilib yığılan məhsulun bir hissəsi sonrakı ildə döyülüb hasil edilir. Ərdəbil mahalının yüz para soyuq iqlim şəraitinə malik olan kəndi vardır. Savalanın zirvəsində olan möhkəm qala "Dej Bəhmən" və yaxud "Ruin Dej" adlanır[192]. Burada Babəkin "Bəz", habelə Şidan (Şindan) Ərdəbilə yaxındır, Savalan dağının zirvəsində mövcud olan qəbir rəvayətə görə guya Zərdüştün qəbridir. Əhali arasında müqəddəs sayılan bu qəbri ziyarət etmək üçün hər il buraya çoxlu zəvvar gəlir. Oda sitayiş dövründən qalmaqda olan bu abidələr islamiyyət dövründə də xalq tərəfindən hörmət və ehtiramla qorunub saxlanmışdır. Həmdullah Qəzvinin yazdığına görə Ərdəbilin divan vergisi (hüquqi divani) səksən beş min dinar olmuşdur. Ərdəbil şəhəri Elxanilər, eləcə də Teymurilər dövründə iqtisadi və siyasi cəhətdən yenidən inkişaf etməyə başlayır. Ərdəbil şəhərinin Səfəvilərin hakimiyyəti zamanı iqtisadi-ictimai inkişaf nöqteyi-nəzərində özünün yüksək səviyyəsinə qalxaraq Şərq və Qərbdə şöhrət qazandığını xüsusilə qeyd etmək

[192] Həmdullah Qəzvini. Göstərilən əsəri, s. 81 – 83.

lazımdır. Azərbaycan və İranı gəzmiş Fransa səyyahı Taverne Ərdəbil şəhərində olan ipək ticarətinin əhəmiyyətini dəfələrlə qeyd etmişdir. Ərdəbl şəhəri Səfəvilər dövründə Azərbaycanın iri ticarət mərkəzlərindən biri idi. Cənub və mərkəzdən uzanıb gələn ticarət yolları bu şəhərdə birləşirdi. Həmin dövrdə Ərdəbildən Astara, Lənkəran, Bakı, Gəncə, Tiflis və Şamaxı, Dərbənd vasitəsi ilə şimal şəhərlərinə ticarət malları daşınırdı. 1746-cı ildə Nadir şah Muğan səhrasında tac qoyduqdan sonra həmin mərasimi Ərdəbil şəhərində təntənəli qeyd etmişdir. Qacarların hakimiyyəti dövründə Azərbaycanın başqa şəhərləri kimi Ərdəbildə tədricən öz əvvəlki iqtisadi əhəmiyyətini itirməyə başladı. XIX əsrin əvvəllərində Abbas Mirzənin göstərişi ilə Fransa generalı Qardan Ərdəbil şəhərində müdafiə əhəmiyyətli qala tikdi. Bu qala xalq tərəfindən "Narınqala" adlanır.

"Narınqala" son dövrlərə qədər qalmaqda idi. Lakin Rza şahın dövründə həmin qala söküldü; yerində isə yeni binalar, o cümlədən poçt – teleqraf və bir neçə başqa inzibati obyektlər tikilmişdir. Son hesablamalara görə hal-hazırda Ərdəbil şəhərində 3 yüz mindən artıq əhali yaşayır.

Ərdəbil şəhərinin qərbində (11 km) yerləşən Ağ İmam (Atəşgah) kəndində Sasanilər dövründə tikilmiş atəşgədənin qalıqları hal-hazırda qalmaqdadır. Bu atəşgədə Savalan dağında olan "Ruin Dej" qalasından sonra Ərdəbil ətrafında olan ən qədim abidələrdən biridir. Ərdəbil şəhərində mövcud olan Cümə məscidi Səlcuqların dövründə təpə üzərində tikilmişdir. Mütəxəssislərin dediyinə görə Cümə məscidi ərəb işğalçılarından sonra şəhərdə yaradılmış yeganə tarixi abidədir. Elxanilər dövründə bərpa olunmuş məscidin divarında olan kitabədə deyilir: Şahi-Sahibqran və dünya fatehinin xilafəti (hökmranlığı) zamanında, Əbu Nəsr Sultan Hüseyn Əli oğlu Bayandur xanın zamanında, onun xilafətini və məmləkətini Allah əbədi etsin, qırx Təbriz tüməni məbləğində hörmətə layiq Ərdəbil qəsəbəsinin mal və mütəvəccihatını daimi və həmişəlik olaraq müəyyən buyurub dünya itaətinin möhürü ilə təsdiq edildi. İlan ili 874 h. (1473 – 1474) məscidin uca minarəsinin uçmasına baxmayaraq o, yenə də öz əzəmətini saxlaya bilmişdir. Ərdəbil ətrafında yerlə-yeksan olmuş iki böyük qalanın qalıqları mövcuddur. Onlardan biri Ərdəbil ilə Astara, digəri isə Ərdəbil ilə Meşkin arasındadır[193]. Şəhərdə Səfəvilər dövründə yaradılmış memarlıq abidələri diqqəti özünə xüsusilə cəlb edir. Buradakı Şeyx Səfiəddinin türbə kompleksi gözəl memarlıq abidəsidir. Həmin məqbərəni dünyada məşhurlaşdıran, Azərbaycan incəsənətinin qiymətli nümunəsi sayılan əzəmətli sandıq Seyid Sədrəddin oğlunun qəbri, onun yanında isə Xacə Əli Siyahpuşun məzarı yerləşir. Sultan Heydər və Azərbaycan xalqının böyük oğlu Şah İsmayılın məqbərələri Şeyx Səfi türbəsinin kompleksi tamamlamaqla bərabər, ona bir daha gözəllik verir. Həlimə Xatun və Fatma Xatun məqbərələri də buradadır. Seyid Əminəddin Cəbrayılın məqbərəsinə gəldikdə o, Kəhrəlan kəndində səfalı bir bağ içərisində yerləşir. Şeyx Səfi

---

[193] Məmmədəli Yengicəli. Ərdəbil abidələri, Qobustan incəsənət toplusu, №1, 1974, s. 20.

məqbərəsində bina edilmiş çinixana dünyanın ən gözəl memarlıq nümunələrindən biridir. Buraya çinixana adı ona görə verilmişdir ki, binanın divarlarında hər çini qabın özünəməxsus sənətkarın istedad və zövqünə uyğun olaraq yeri hazırlanmışdır. Azərbaycan ustaları tərəfindən hazırlanıb burada toplanan çini qablar və onların divarlardakı yerləri dünyanın bir sıra səyyah və sənətkarlarını heyrətdə qoymuşdur.

Vaxtilə Ərdəbil xalçaçıları tərəfindən toxunulmuş dünyada ən böyük "Şeyx Səfi" xalçası hal-hazırda İngiltərənin "Viktoriya Albert" incəsənət muzeyində saxlanılmaqdadır. Bu xalça Azərbaycanın ən gözəl və qiymətli sənət nümunələrindəndir. Ərdəbil şəhərindəki İmamzadə Saleh abidələri, Yəqubiyyə, İbrahimabad, Daşkəsən, Təpə, Almas və Asəf tacir körpüləri də tarixi abidələrdəndir. Bu şəhərin orta əsrlərdə yaşamış görkəmli şəxsiyyətlərindən tarixçi İbn Bəzzaz Ərdəbilli, şair Arif Ərdəbilini və başqalarını göstərmək olar.

Bir sıra tarixçiyə görə, Ərdəbil şəhərinin Sasani şahı Firuz tərəfindən bina edilməsi fikri irəli sürülür. Lakin Moisey Xorenatsinin yazdığına görə, Ərdəbil şəhəri eramızın IV əsrində Azərbaycanın paytaxt şəhəri olmuşdur. Digər erməni tarixçisi Levonda görə IV əsrdə hun tayfaları Ərdəbil şəhərini çapıb talamışdır.

Ümumiyyətlə, əlimizdə olan faktlar Ərdəbil şəhərinin ən qədim tarixə malik olmasını göstərir.

## ATROPATENADA TİCARƏT VƏ TİCARƏT YOLLARI

Hər bir ölkənin qədim dövrlərdəki iqtisadi-ictimai inkişafını, həmin ölkədə tarixən mövcud olmuş ticarət və ticarət yollarının nə səviyyədə olması ilə izah etmək mümkündür. Atropatena ərazisinin coğrafi mövqeyi, onun Şərq ilə Qərb, habelə Şimalla cənub ölkələri arasında yerləşməsi, bu ölkənin Şərqin ticarət yolları qovşağında olması, digər ölkələrdə olduğu kimi oranın da iqtisadi inkişağına təkan verən əsas amil olmuşdur. Şəhər həyatının yaranıb inkişaf etməsində də ticarət yollarının böyük təsiri olmuşdur. Bu səbəbə görə də Atropatenanın bir sıra böyük şəhərləri məhz ticarət yolları üzərində yaranıb inkişaf etmişdir. Qazaka, Aqanzana, Fraaspa, Tarmakis, Artabed, Urmayid və başqalarını misal göstərmək olar.

Atropatenada olan bu şəhərlər ticarət yolları vasitəsi ilə Orta Asiya, Yaxın və Orta Şərq, habelə Albaniya, İberiya və Ermənistan şəhərləri ilə daimi əlaqə saxlamışlar.

Çox güman ki, müasir ticarət yolları bir az dəyişikliklə qədimdə mövcud olmuş yoların keçdiyi ərazilərdə yaranmışdır. Əlimizdə olan bir sıra faktlar da bu fikri təsdiq edir. Ərəb müəlliflərinin əksəriyyəti, xüsusən səyyah və coğrafiyaşünasları qədim Azərbaycanış şəhərləri, habelə həmin şəhərlər arasında gedən ticarət və ticarət yollarının məsafəsi haqqında dəqiq məlumat vermişlər.

Böyük Midiyanın paytaxt şəhəri olan Ekbatanda bir neçə ticarət və hərbi yol qovuşurdu. Onlardan biri Ekbatan – Suz – Babil, digər yol isə Ekbatan – Rey olmuşdur. Üçüncü yol isə Ekbatanla Kiçik Midiyanın (Atropaten Midiyasının) paytaxtı Qazaka şəhərini birləşdirirdi. Qazakadan bir yol Əfrahruda (Fraataya), digəri isə Tabarmeysə, oradan da Urmayidə uzanaraq Atropatenanın qərbində olan şəhərləri birləşdiridi. Fraatadan Tarmakis vasitəsi ilə şimal istiqamətinə uzanıb gedən yol Atropatenanı Albaniya, İberiya, Ermənistan və Şimali Qafqazın şəhərləri ilə birləşdirirdi. Qazakadan Ekbatana, Suza və Babilə gedən yol Atropatena ölkəsini İranın cənub əyalətləri və Mesopotamiyanın ticarət mərkəzləri ilə qovuşdurudu. Suz vasitəsi ilə Persepolisə (Təxt-e Cəmşidə), Partagenə, Kirmana İran körfəzi sahilində olan Dilman və Hormoza gedən yol vasitəsi ilə Atropatena İranın cənub əyalətləri ilə əlaqə saxlayırdı. Bu yolun bir şaxəsi İsfahana gedirdi. Qazakadan digər bir yol Ekbatandan keçərək Reyə, oradan Damğana və parfiyalıların ilk paytaxt şəhəri olan Səd darvazaya (Nisa) gedirdi. Atropatena şəhərləri bu yol vasitəsi ilə dövrün ən mühüm ticarət yolu olub, şərq ilə qərbi (Çin ilə Romanı) qovuşduran məşhur "İpək yolu" cəlb edilmişdi. "İpək yolu" vasitəsi ilə Çin, hind və Orta Asiyanın əksər şəhərləri İran, Bizans, habelə Roma şəhərləri ilə ticarət edirdilər. Məşhur "İpək yolu"nun çaparxanaları da olmuşdur. Hadi Hidayətinin göstərdiyinə görə ən böyük hərbi yol Babildən başlayıb Diyalə çayına keçdikdən sonra Zaqros dağlarını aşıb məhsuldar Kərxə dərəsinə, oradan Kombadenə (Bisütun qayasında olan yazılar buradadır), oradan da Midiyanın paytaxtı olan Ekbatana uzanırdı. Ekbatandan bir yol Xuzistana, onun bir şaxəsi isə Rey vasitəsi ilə Xəzər dənizi sahilinə, oradan da Atropatenanın paytaxtı Qazakaya gedirdi. Bu yol dövrünə görə ən böyük iqtisadi-hərbi əhəmiyyətə malik olmuşdur[194].

Şimala doğru uzanan yol Ekbatana şəhərindən keçərək Atropatenaya gedirdi. Digər bir yol Ninevadan Beyruta, oradan isə Sur limanına uzanırdı. Bu yolun bir qolu Nineva vasitəsi ilə Atropatena şəhərlərini qovuşdururdu[195]. Zuaspadan Rey və Xəzər dənizi rayonlarını birləşdirirdi.

Qazakadan Ekbatana, Ninevaya, Babilə, Reyə, Xəzər dənizi sahilinə və Zuaspaya gedən yolun mühüm iqtisadi əhəmiyyəti olmuşdur. Bundan başqa Trabzona, Kolxidiyaya uzanıb gedən yolun da böyük strateji və iqtisadi əhəmiyyəti var idi[196]. Bu dövrün nəqliyyat vasitələri at, qatır, uzunqulaq, öküz, dəvə və qoşqu alətləri, təxte-rəvan və müxtəlif arabalar olmuşdur[197]. O dövrdə at, qatır, uzunqulaq, dəvə, öküz və s. ticarət mallarını bir şəhərdən digərinə daşınılmasında mühüm rol oynamışdır.

---

[194] Hadi Hidayəti. Kuruş Kəbir, Tehran, 1335, s. 27 – 28.
[195] Yenə orada, s. 49.
[196] Rəhimzadə. Göstərilən əsəri, s. 49.
[197] Yenə orada, s. 50.

Sərnişinlərin daşınmasında üstüörtülü və açıq arabalar, qazalaklar, təxtərəvanlar əsas minik vasitəsi olmuşdur. Atropatena ərazisi at miniyi daha geniş yayılmış yerlərdən biri idi.

Hələ əhəmənilərin hakimiyyəti dövründə İranda qadınlara məxsus olan fayton tipli arabaları olduqca gözəl və zərif hazırlayırmışlar[198]. Belə ki, həmin faytonları qızıl və gümüşlə bəzəyirdilər.

Tarixi mənbələrə görə Atropatena qədimdə qonşu ölkələrə nisbətən iqtisadi-ictimai cəhətdən daha sürətlə inkişaf etmişdi. Burada olan sənətkarlıq nümunələri, xüsusən məharətli ustalar tərəfindən hazırlanıb məişətdə istifadə edilən məlumatlar ticarət yollarının və habelə qonşu ölkələrlə iqtisadi əlaqələrin yaranıb inkişaf etməsinə mühüm təsir göstərmişdir. Atropatena ərazisinin fiziki-coğrafi baxımdan müxtəlifliyi, dağ keçidlərinin sərt olması burada olan ticarət yollarının iqtisadi və strateji əhəmiyyətini daha da artırmışdır. Pompeyin Albaniyaya, Antoninin isə Atropatenaya, sonrakı dövrlərdə İraklinin hərbi yürüşlərini öz əsərlərində təsvir edən müəlliflər Atropatenanın ticarət yolları haqqında da qiymətli məlumat vermişlər.

Strabona görə Ekbatanaya getmək üçün Tavr dağını aşmaq lazımdır[199]. Bundan başqa Zaqros və ondan ayrılan Nifatesdəndə yollar keçir. Araz şərqdə, Fərat isə qərbdə axır. Fərat çayının qolu olan Sarısu, Muradsu və digər çaylar mənbəyini göstərdiyimiz dağlardan axır. Zaqros dağından aşıb keçən yol Avaçıq vasitəsi ilə Xoya, oradan isə Urmu gölünün şimal sahilinə uzanır.

Plutarxa görə, Antoni Atropatenaya hücum edən zaman o Midiya şahının arvad-uşağı yaşayan ən böyük şəhər olan Fraataya gəlmişdi. V. F. Minorskiyə gəldikdə o, şəhərlərin iqlim şəraitini nəzərə alıb Fraatanın Verra olduğunu rədd edir [200]. Markvart isə Verranın Kanzak olduğunu irəli sürür. Ptolemey isə Atropatenada Qazaka, Fraaspa və Aqanzana şəhərlərinin olması haqqında məlumat verir.

Minorski ərəb müəlliflərinə istinad edib göstərir ki, Bərzənddən Marağaya gedən yol olduqca əhəmiyyətli olmuşdur[201]. Bu yol Urmiyaya gedib çatırdı. Dinəvər, Bərzə, Marağa, sonra Bərzə, Urmu, Saqqız, Sovucbulaq yolları da mühüm əhəmiyyətə malik olmuşdur.

İran və digər ölkələrin ticarət malları Atropatena vasitəsi ilə Kiçik Asiya, Zaqafqaziya və Şimali Qafqaza daşınırdı. Reydən Zəngan, Miyana, Sarab, Ərdəbil, oradan da Qafqaza gedən yol qərbdə olan ən böyük və geniş yollardan biri sayılırdı[202].

---

[198] Yenə orada, s. 52.
[199] Strabon. Göstərilən əsəri, XI, 4 – 13.
[200] V. F. Minorski. Göstərilən əsəri, s. 36.
[201] V. F. Minorski. Göstərilən əsəri, s. 36.
[202] R. Səfəvi. Göstərilən əsəri, s. 20 – 30.

Reydən Kazaka, Şəhrizur, Ktesifona (Mədain) gedən yol da mühüm ticarət yollarından idi. Şizdən Mədainə gedən yol Şəhrizurda yarı olduğu üçün qədimdə buraya "Nimrah" (yolun yarısı) deyirdilər[203]. Şəhrizurdan Dinəvərə gedən yolu 4 günə getmək olurdu[204]. Reydən Zəngan, Təbriz, oradan da Kiçik Asiyaya gedən yol Şərqi Qərblə birləşdirən ən geniş və ən mühüm yollardan biri olmuşdur[205]. Minorskiyə görə, İran yaylasının mərkəzi hissəsini Urmu gölünün cənubu ilə (Kazaka və Verra ilə), oranı isə Beynəlnəhreynlə birləşdirən yol böyük əhəmiyyətə malik olmuşdur[206].

Ərdəbil şəhərindən bir yol əvvəllərdə Kadusi, sonralar isə gil (indiki Gilan) adlanan ərazidən keçərək Amard ölkəsinə, oradan isə Hirkaniyaya gedirdi. Bu yolun davamı Orta Asiya vasitəsi ilə Hindistan və Çinə qədər uzanırdı.

Bu dövrdə gillərin ticarət mərkəzi Dolab şəhəri olmuşdur. Bu şəhər Gilan əyalətinin qərbində, Kaspi dənizinin yaxınlığında yerləşirdi. Bu şəhərdən Atropatenanın Muğan əyalətinə 5 günlük, Şaluz şəhərinə isə 11 günlük yol olmuşdur[207]. Məşhur coğrafiyaşünas Ptolemey gillərin yaşadığı Dəlumays, sonralar Deyləm adlanan ərazinin şərqində, Kaspi dənizinin sahilində yaşayan tayfalardan ancaq tapurların adını qeyd etmişdir. Ərən coğrafiyaşünasları sonralar tapurların yaşadıqları ərazini Təbəristan adlandırmışlar.

V. V. Bartolda görə Ərdəbildən Marağaya gedən yol Zəngan yaxınlığında ayrılırdı. Müəllifə görə, Ərdəbildən Miyanaya və Miyanadan Marağaya olan məsafə bərabərdir. Miyana Atropatena ərazisində olan şəhərlərin yol qovşağında, daha dəqiq demiş olsaq ölkənin mərkəzində yerləşir. Orta əsr müəllifləri bu şəhərə Miyanc və ya Məyanic ("ara", "yarı", "ortalıq") demişlər. Bu şəhər Ərdəbil ilə dövrün paytaxt şəhəri olan Marağadan eyni məsafədə yerləşdiyinə görə belə adlandırılmışdır.

Dərbənd keçidi vasitəsilə cənuba Beynəlnəhreyndən Zaqros və Bisütun dağını keçib şimala, eləcə də şərqdən Hirkaniya, qərbdən isə Kiçik Asiyadan Hindistan və Çinə gedən yollar da Atropatena şəhərlərindən keçirdi. Digər bir yol Atropatenadan Orta Asiya vasitəsi ilə Hindistan və Çinə gedirdi. Bu dövrdə Orta Asiyanın ən görkəmli ticarət mərkəzlərindən biri olan Baxtər (müasir Bəlx) Çin və Hindistanı qərb ölkələrilə qovuşduran ticarət yolu üzərində yerləşirdi.

Orta Asiyada Xarəzm, Marakanda (Səmərqənd) və iqtisadi nöqteyi-nəzərdən mühüm əhəmiyyətə malik şəhərlər olmuşlar. Bu şəhərlərdən göndərilən ticarət mallarının bir hissəsi Atropatena vasitəsilə qərb ölkələrinə, o cümlədən

---

[203] V. V. Bartold. Göstərilən əsəri, s. 268.
[204] И. Крачевский. Шахразур в географическом словаре Якута и записи Абу Дулафа. Azərb. SSR EA Xəbərləri, № 5, 1950-ci il.
[205] V. V. Bartold. Göstərilən əsəri, s. 368.
[206] Yenə orada, s. 283.
[207] Yenə orada.

Kiçik Asiya və Romaya aparılırdı. Digər bir yol isə Orta Asiyadan qərbə doğru uzanıb Xəzər dənizinə gəlib çatırdı.

Z. İ. Yampolski özünün " Kaspi dənizi ilə Kür çayına və oradan Gürcüstan vasitəsi ilə Qara dənizə gedən yollar" adlı məqaləsində Bartoldun, Manandyanın, Tompson və Parnın göstərmiş olduqları Kaspi dənizi, Kür və Rioni çayları vasitəsilə Qara dənizə gedən ticarət yollarına əlavə olaraq, Qafqazda olan su və quru ticarət yollarını da göstərmişdir. Müəllifə görə ehtimal ki, bu yol nəinki daxili əhəmiyyətə malik idi, o, habelə Qafqazdan kənarda olan su yolları ilə də əlaqədə olmuşdur...[208].

Beləliklə, Albaniya ərazisində olan su və quruda olan ticarət yolları Atropatenadan keçərək İranın yolları ilə qovuşurdu. Bu yollar vasitəsi ilə Zaqafqaziyadan Beynəlnəhreynə, Elama, İraqa və digər ölkələrə metal, dəvəgözü daşı və s. aparılırdı. Zaqafqaziya ölkələrində metallurgiya, metal istehsalı, Atropatenada isə toxuculuğun (yun parça), duluçuluğun, habelə zəngin xammal mənbəyinin olması, ticarət yollarının inkişağına bilavasitə şərait yaradır və qonşu ölkələrin xalqları ilə atropatenalıların daima iqtisadi əlaqə saxlamasına kömək göstərirdi. Bu səbəbə görə də istər Albaniya, istərsə Atropatena şəhərləri, xüsusilə Qazaka, Fraata, Tarmakis, Aqanzana, Artabed, Partav, Qəbələ, Şəki, Şamaxı, Dərbənd, Enian (Yunan), Paytakaran (Örənqala) və Xəzər sahilində olmuş Getara (Qanqara) şəhərlərinin böyüyüb inkişaf etməsi təsadüfi olmamışdır. Belə bir nəticəyə gəlmək olar ki, Midiya və Atropatena Yunanıstan və Romadan Baktriya, Hindistan və Çinə gedən əsas karvan yolu üzərində yerləşmişdi. Bu yolun əsas düyün nöqtəsi Ekbatan şəhəri olmaqla, ticarət yolları buradan Zaqros vasitəsi ilə Selevkiyə, Atropatena vasitəsi ilə Zaqafqaziyaya, habelə Qara dənizə doğru uzanırdı.

Eramızdan əvvəl II əsrə qədər Qara dənizə doğru uzanıb gedən yollar üzərində hakimiyyət Atropatena və qismən də Ermənistan hakimlərinə məxsus olmuşdur. Atropatenada Tranzit üçün əsas yol cənuba doğru: Qazakadan Ekbatana, oradan Suza, Babilistana; şərqə doğru: Qazakadan, Aqanzana (Zəngana), Rey, Damğan, Bəlx, Hindistan, Çin; şimala doğru: Marağa, Tarmakis, Artaşat, İberiya, Qara dənizə gedən yol; Qazaka, Aqanzana, Miyana, Ərdəbil, Muğan vasitəsi ilə Albaniya şəhərlərinə gedən yol olmuşdur.

Atropatena hökmdarları dövründə ticarət ümumdünya əhəmiyyəti kəsb etdiyi üçün, bu ölkədə Şərq ilə Qərb arasında aparılan ticarətdə böyük rol oynamış, istər-istəməz dünya ticarətinə cəlb edilmişdir. Bu dövrdə dövlətlər tərəfindən külli miqdarda sikkənin zərb edilməsi də öz növbəsində dünya ticarətinin inkişaf etməsinə misilsiz təsir göstərə bilmişdir. Demək, bu dövrdə Şərq ölkələrində sikkə mübadiləsində (özündən əvvəlki dövrə nisbətən) ciddi bir dönüş əmələ gəlmiş, pul

---

[208] З. И. Ямпольский. К изучении древнего пути из Каспийского моря по реке Куре через Грузии к Черному морю. Тр. И.-та истории АН Груз. ССР, 1956, № 11, с. 161 – 180.

mübadiləsi Atropatena və Albaniyada da yayılmaqda idi[209]. Bunu sübut etmək üçün Azərbaycanın müxtəlif rayonlarında arxeoloji qazıntılar zamanı, o cümlədən Naxçıvan, Qəbələ, Şamaxıdan əldə edilmiş Makedoniyalı İskəndərin draxmaları və tetradraxmalarını göstərmək olar [210]. Makedoniyalı İskəndərin monarxiyası dağıldıqdan sonra, bir sıra Şərq ölkərində, o cümlədən Atropatena və Albaniyada Selevki tetradraxmaları işlədilirdi. Bunun da öz növbəsində göstərdiyimiz dövrdə istər Atropatena, istərsə də Albaniyada ticarətin inkişaf etməsinə əhəmiyyəyli təsiri olmuşdur[211].

Azərbaycan və ona qonşu olan ölkələrin ərazisindən Atropatena hökmdarları adına zərb edilmiş sikkələrin tapılması e. ə. III – eramızın II əsrlərində sikkə zərbinin burada çox az inkişaf etdiyini göstərir. Görünür ki, ticarət Makedoniyalı İskəndər və onun canişinləri tərəfindən zərb edilmiş draxma və tetradraxmalar vasitəsilə aparılırmış. Bu dövrdə Atropatena yun parça istehsalında görkəmli yer tuturdu[212].

Atropaten hökmdarının, Parfiyan şahları, Romanın görkəmli dövlət xadimləri Ermənistan hökmdarları ilə qohumluq və dostluq etmələrinin də öz növbəsində bu ərazidə ticarətin inkişafı üçün az təsiri olmamışdır.

Bu fikri sübut etmək üçün Strabon özünün Coğrafiya kitabında qeyd etmişdir: "Atropatena hökmdarı Roma imperatoru və Parfiya dövlətinin hüsn-rəğbətini qazandığı üçün, Ermənistan romalılar tərəfindən məğlub edildikdən sonra Sünbakini Atropatenə geri qaytarmağa məcbur olmuşlar"[213].

Strabon göstərir ki, midiyalılar (Böyük Midiya – A.F) farsların müəllimi olduqları kimi, bəzilərinin dediyinə görə ermənilərin də müəllimi olmuşlar. Ona görə ki, midiyalıların bir sıra adət-ənənələri və onların oxşarlığı ermənilər içərisində görünməkdədir[214].

Karvanlar İran yaylasını Hindistandan ayıran Süleyman dağlarını keçmək üçün Kabul çayının yataq dərəsindən istifadə edirdilər. Ona görə ki, Kabuldan Pişavər və Hind çayı vasitəsilə cənuba uzanan bu yol qısa və rahat yollardan biri olduğu üçün gediş-gəlişi çox idi. Çünki Xeybər keçidi bu yolu çox qısaldırdı.

Atropatenanın şimal vilayətləri və Dağıstanın xeyli hissəsi qədimdə Albaniya adlanırdı. Onun ərazisi Kiçik Qafqazdan və Kür ilə Arazın aşağı axarından Böyük Qafqaz sıra dağlarının şimal-şərq qurtaracağına qədər uzanırdı.

Albaniya dəniz sahilində əhalisi çox olan zəngin ölkələrdən biri idi. Lakin antik müəlliflərin verdikləri məlumata görə Albaniya ərazisində ticarət çox az inkişaf edə bilmişdi. Görünür, burada pulun az işlədilməsi və mübadilənin natural

---

[209] Е. А. Похомов. Манеты Азерб. М. К. А. том II. 1951. с. 141-166
[210] Е. А. Похомов. Бардинский клад 1940 г. Изв. Азерб. ФАН СССР, № 8.
[211] Yenə orada.
[212] Rəhimzadə Səfəvi. Göstərilən əsəri, s. 38.
[213] Strabon. XI, 13.
[214] Yenə orada.

xarakter daşıması ticarətin inkişafının qarşısını almaqla pul dövriyyəsinin genişlənməsinə mane olan əsas amillərdən biri olmuşdur. Lakin göstərdiyimiz səbəblərə baxmayaraq, bu dövrdə Albaniyanın cənub qonşusu olan Atropatenanın iqtisadi və ictimai cəhətdən inkişaf etməsi, bu əraziyə də öz təsirini göstərməyə bilməzdi. Xüsusilə də qeyd etmək lazımdır ki, Atropatenadan bu əraziyə və buradan keçib başqa ölkələrə gedən ticarət yollarında bura da pul dövriyyəsinə və ticarətin inkişafına az təsiri olmamışdır. İkinci bir tərəfdən bu dövrdə Albaniyanın Ellin aləmilə də müəyyən əlaqəsi olmuşdur. Bunu sübut etmək üçün eramızdan əvvəl ikinci əsrə aid olub, Bərdə rayonunda Makedoniyalı İskəndər və onun canişinləri olan Selevki dəfinəsinin tapılması faktı kifayətdir.

Bərdə, Xanıslı, Naxçıvanda tapılmış Selevki sikkələri bir daha sübut edir ki, Albaniyada eramızdan əvvəl II əsrdən ticarət getdikcə inkişaf etməyə başlamışdır.

1976-cı ildə arxeoloq A. Nuriyev Şamaxının Göylər kəndində qazıntı işləri apardığı zaman külli miqdarda Sasani şahları tərəfindən zərb edilmiş sikkələr aşkar edilmişdir. Bu dəfinənin məhz Şamaxı şəhəri yaxınlığında aşkar edilməsi, Albaniya şəhərlərinin Şərq ticarətinə cəlb edildiyini göstərən faktorlardan biridir.

Müasir İran tarixçiləri, o cümlədən qədim dövrün iqtisadiyyatını araşdırmış Rəhimzadə Səfəvi öz əsərində iqtisadiyyatın əsasını təşkil edən istehsal üsulu, habelə məhsuldar qüvvələrin və o dövrdə olan istehsal münasibətlərinin tarixi rolunu nəzərə almamışdır. F. Engels göstərir ki, “Materialist anlayışa görə tarixdə müəyyənedici amil nəticə etibarilə özünün istehsalı və təkrar istehsaldır. Lakin bu özü də yenə iki cür olur.

Bir tərəfədn yaşayış vasitələri, yemək şeyləri, paltar, mənzil istehsalı və bundan ötəri lazım olan alətlərin istehsalı. Digər tərəfdən insanın özünün istehsalı, nəslin davam etdirilməsi; demək, maddi istehsal üsulu cəmiyyətin və ictimai qaydaların inkişafı üçün şərt olan başlıca amildir”[215].

Bir sıra tarixçilər dar çərçivədə o dövrdə İran iqtisadiyyatının, ancaq bir xalqın, nisbətən çoxluq təşkil edən xalqın iqtisadiyyatı hesab etməsi, ikinci bir tərəfdən bu iqtisadiyyatın yüksəlib inkişaf etməsində istər Əhəməni, Parfiya və istərsə də Sasani imperiyası dövründə tək-tək görkəmli şahların, məğlubedilməz sərkərdələrin başlıca rol oynadıqlarını göstərməsi təsadüfi olmayıb, onların dövrün iqtisadi-ictimai səviyyəsini əks etdirmiş bir sıra qədim qaynaqlardan xəbərsiz olduqları ilə izah edilə bilər.

Bu dövr İran iqtisadiyyatı dedikdə, gərək Hindistandan Egey dənizi hövzəsinə qədər uzanan ölkələrin və əyalətlərin iqtisadiyyatından ibarət olduğunu başa düşək.

Lakin İran tarixçiləri qeyd etdiyimiz kimi, o dövrdə İrana tabe olan ölkə və əyalətlərin iqtisadiyyatından bəhs edərək, onların iqtisadiyyatını İran

---

[215] F. Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Bakı, Azərnəşr, 1958, s. 168.

iqtisadiyyatı hesab etmişlər. Onlar əsərlərində əkinçilikdən, torpağı becərmə üsulundan, torpağın kimlərin əlində toplanmasından, o dövrün vergilərindən bir kəlmə də olsun danışmamışlar.

Eramızdan əvvəl və eramızın ərəfəsində sap və kələf halında alınıb əyalətlərə gətirilən xam ipək Bəlx, Həmədan, Suz və başqa şəhərlərə, o cümlədən Qazakaya gətirilib bu şəhərlərdə toxunduqdan sonra, hazır ipək parçalar Yunanıstan və Romaya göndərilirdi. Qeyd etmək lazımdır ki, istər Midiya və istərsə də Atropatenadan rəngli yun, pambıq parçalar, məxmərlər, kətan parçalar, qızıl və gümüşdən hazırlanmış saplarla toxunmuş zərli parçalar şöhrət qazanmışdı.

Bu dövrdə Həmədan şəhərində güləbatin toxumaq həddindən artıq inkişaf edib, dünyada şöhrət qazana bilmişdi[216].

Herodotun qeyd etdiyinə görə, Əhəməni imperiyası dövründə İran əyalətlərində toxunan xalçalar, ipək, pambıq və yun parçalar rənglərinə, davamlı olmalarına, zərif toxunmalarına görə dünyada şöhrət qazanmışdı.

Kolxida və Qafqaz Albaniyasından yun, habelə metal, Qafqaz dağlarından müxtəlif bitki boyaqları gətirilirdi. Midiya əyalətlərindən müxtəlif xalçalar, toxuma parçalar, qızıl və gümüş zirəli parçalar, kətan, məxmər, misilsiz hərbi atlar, Xuzistandan isə neft gətirilirdi[217].

Rəhimzadə Səfəvi Əhəməni dövrünün sikkələri haqqında qeyd etmişdir ki, qədim tarixçilərin göstərdiklərinə görə, Şərq aləmində I Daraya qədər heç bir şah sikkə zərb etdirməmişdi; O, öz adına Kiçik Asiyada birinci dəfə sikkə vurdurmağa başlamışdır[218].

Oturaq əhali ilə köçəri tayfalar arasında aparılan alver zamanı köçəri həyat sürən tayfalar öz istehsal etdikləri məhsulların və yaxud bəslədikləri minik, ətlik və damazlıq heyvanlarını şəhərə gətirir və bazarda olan qiymətə əsasən istədikləri mallarla mübadilə edirdilər. Bəzi hallarda mübadilə baş tutmadıqda öz mallarını qiymətli metal əşyaları və ya qızıl, gümüş, mis pul ilə əvəz edirdilər.

İkinci növ ticarət iki əyalətin və yaxud iki uzaq ölkənin arasında olan ticarətdən ibarət idi. Bu işlə tacirlər və alverçilər məşğul olurdular. Bu növ alverdə qızıl, gümüş külçə halında işlənirdi. Cins mal mübadiləsi də yayılmış alver formalarından biri idi.

Makedoniyalı İskəndərin yürüşündən sonra Atropatenada göstərdiyimiz alver növlərindən ancaq kənd sakinləri və köçəri həyat sürənlər istifadə edirdi. Şəhər əhalisi o dövrdə inkişaf etmiş ticarət növü, nəğd qızıl və gümüş pul ilə alver edirdilər. III Daranın mğlubiyyətindən sonra Orta Asiya və İran əyalətlərinin məhsuldarlığı yunanların nəzər-diqqətini cəlb etdiyinə görə onlar dəstə-dəstə bu əraziyə gəlib məskunlaşmağa başladılar. Onlar pəhləvi mətinlərində və Təbərinin tarixində adı çəkilən Suristan və yaxud Asuristan Beynəlnəhreynə, Böyük

---

[216] Rəhimzadə Səfəvi. Göstərilən əsəri, s. 58.
[217] Yenə orada.
[218] Yenə orada.

Midiyaya, Xorasana və Baktriyaya gəlib məskən salmağa başladılar. Ammian Marselli, İsidor və b. İranda məskən salmış yunanlardan idilər. Raulinsonun göstərdiyinə görə, ancaq Beynəlnəhreyndə olan yunan şəhərlərinin sayı 35-ə çatırdı[219]. Bu şəhərlər İskəndərin canişinləri dövründə müstəqil olmuşlar. Həmin dövrdə bu şəhərlərdə sənətkarlıq və ticarət sürətlə inkişaf etməyə başladı. O cümlədən Böyük Midiyada, müasir İraqi-Əcəmdə olan yunan şəhərləri, habelə Xorasanda və Orta Asiyada olan yunanlar istər ticarət, istərsə sənətkarlıqda əvvəllər yeli sənətkarların və tacirlərin təsiri altında, sonralar isə müstəqil olaraq o dövrün iqtisadiyyatında görkəmli rol oynamağa başladılar[220].

Suriya, Beynəlnəhreyn, Midiya (Böyük Midiya, yaxud müasir İraqi-Əcəm), Xorasan, Baktriyada iki əsrə qədər yunanların ticarət karvanları şərqdən qərbə qədər uzanan yollarda mühüm yer tutmuş, o dövrdə iqtisadiyyatın və ticarətin inkişafına güclü təsir göstərmişlər.

Yunan tacir və sənətkarları Kiçik Midiya ərazisinə kütləvi halda gəlməsələr də çox güman ki, yunan tacirləri istədikləri vaxt ticarət məqsədilə Atropatenanın əsas şəhəri olan Verra və Qazakaya gəlmiş və öz növbəsində Atropatenanın tacirləri və ticarət karvanları da qonşu ölkə və vilayətlərə gedə bilmişlər. Beləliklə, Əhəməni imperiyası yıxıldıqdan sonra başlanan yeni dövrü (Ellin dövrünü) istər sənətkarlığın və istərsə ticarətin və habelə iqtisadiyyatın çiçəklənməyə başladığı bir dövr kimi qeyd etmək olar. Atropatenalılar Roma tacirlərindən müxtəlif parçalar; bəzək şeyləri alır, müqabilində isə xalça, ədviyyat, müalicə dərmanlarını "mən"[221] hesabı ilə romalılara və başqa tacirlərə satırdılar[222].

Bu dövrdə Atropatenadan Romaya və başqa ölkələrə xalça, yun parça, məharətli zərgərlərin hazırladıqları bəzək şeyləri göndərilirdi. Romalılar parfiyalılardan daha çox Atropatena tacirlərinə və onların nümayəndələrinə hörmət edib, onları öz tərəflərinə cəlb etməyə çalışırlar. Atropatena şahları da romalılarla parfiyalılar arasında baş verən siyasi-hərbi toqquşmalardan öz xeyirlərinə istifadə etməyə çalışırdılar.

Atropatenada güldən çəkilmiş ətrə gül mürəbbəsi və zəfəran qatıldıqdan sonra xuruş və yaxud xurşidmanənd adlandırılan bir məhlul-məlhəm hazırlayırdılar. Bəzi hallarda bunu bədənə sürtdükdə bədəni ətirli etməklə, həm də bədənin dərisini yumşaq saxlayıb, onu inkişaf etdirirdi[223].

Bundan başqa "Ekshebenus" adlanıb, zərgərlik üçün faydalı olan məhək daşı ilə (zərgərlər qızılı buna sürtür, parıldadır) onun qızıl olub-olmamasını təyin

---

[219] Raulinson. Atropatena Həmədanın yerləşməsinə dair məqaqləsi. Coğrafiya cəmiyyətinin jurnalı, X cild, 1841.

[220] Rəhimzadə Səfəvi. Göstərilən əsəri, s. 58.

[221] "Mən" sözü hind – İran qrupu və simit dillərində eyni məna daşıyır. "Mənə" Babilcə çəki daşı, qədim yunan dilində isə bu söz mana və ya manas kimi göstərdiyimiz mənada işlədilirdi. Qədim İran və hind dillərində "man" ölçü vahidi deməkdir.

[222] Mən 6 kiloqrama bərabərdir.

[223] Abbas Purməhəmmədi. Göstərilən əsəri, s. 196.

edirdilər. "Ulduz" daşından da bəzi xəstəlikləri sağaltmaq üçün istifadə edilirdi. Yuxarıda göstərdiyimiz əmtəələr xaricə də göndərilirdi.

Atropatenada sənətkarlara, tacirlərə xüsusi hörmət bəslənilir və böyük vəzifəli şəxslər onların işlərinə yaxından köməklik göstərirdilər[224].

Rəhimzadə Səfəvi özünün "İran-e iqtisadi" əsərində parfiyalıların dövründə İran dövlətinin başqa dövlətlərlə aparmış olduğu ticarətdən bəhs edərkən Parfiya dövlətinin sərhədlərində gömrükxanaların olmasını, ölkənin daxilindən xaricə göndərilən mallardan istər ticarəti inkişaf etdirmək və istərsə tacirləri təşviq etmək məqsədilə onlardan gömrük haqqı alınmadığını qeyd edir[225]. Müəllifə görə bu iş öz növbəsində Parfiya dövlətinin müsbət işi kimi qələmə verilməlidir. Rəhimzadə Səfəvi, Plutarx və Strabona istinad edərək, Parfiya dövlətinin tabeliyində olan tacirlər Roma imperiyası ilə aparmış olduqları geniş ticarətə bəhs edərək bir faktı da qeyd etmişdir. Parfiya şahı V Ərdəvanın qızının elçiliyi ilə əlaqədar olaraq, Roma nümayəndəliyi bu iş baş tutduqdan sonra istər İrandan Romaya qaçaq yolu ilə gələn əmtəələr, o cümlədən qumaş mallar, ədviyyat və istər Romadan İrana gizli yolla aparılan qiymətli metalların aparılmasına mane olmaq və ticarət əlaqələrinin möhkəmlənməsini vəd etmişlər[226].

Yuxarıdakı faktlardan məlum olur ki, parfiyalılar bu dövrdə nəyin bahasına olursa-olsun ticarətin inkişafı üçün səy göstərmişlər.

1946 - 1949-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən Azərbaycanın şimal-qərb rayonu olan Mingəçevirdə aparılmış arxeoloji qazıntılar zamanı bu ərazidə müxtəlif dövrlərdə yaşamış tayfaların həyat tərzi, məşğuliyyət sahəsi və s. haqqında külli miqdarda material əldə edilmişdir. Arxeoloq S. Qazıyevin sözü ilə demiş olsaq, Mingəçevir arxeoloji qazıntıları Azərbaycanın eramızdan əvvəl I - III əsrlər tarixini öyrənmək üçün külli miqdarda material verə bilmişdir[227]. Burada qəbirlərdən tapılmış dəmir bıçaq, xəncər, gödək şəmşir, üçpərli (üç uclu ox ucları) ox ucları, qara və torpaq rəngli yüksək keyfiyyətli şirli və şirsiz saxsı qabların və s. əldə edilməsi bir daha burada yaşamış tayfaların iqtisadi-ictimai quruluşunu öyrənmək üçün qiymətli maddi-mədəniyyət nümunələri kimi əvəzsizdir. İkinci bir tərəfdən Mingəçevirdə əldə edilmiş materiallar bu ərazidə yaşamış tayfaların həyat şəraitini də öyrənməyə imkan verir. Buradan əldə edilmiş maddi-mədəniyyət nümunələrinin Azərbaycanın cənub rayonu olan Urmu gölü ətrafında (Həsənluda), Germi mahalında əldə edilmiş maddi-mədəniyyət abidələri ilə oxşar olması Azərbaycanın müxtəlif ərazilərində yaşamış tayfaların tarix boyunca iqtisadi əlaqələrinin olmasını bir daha təsdiq etmiş oldu.

---

[224] Rəhimzadə Səfəvi. Göstərilən əsəri, s. 58.
[225] Yenə orada, s. 59.
[226] Yenə orada.
[227] С. М. Газыйев. Об археологических раскопках в Мингечауре. Доклады АН Азерб. ССР, 1946, № 10.

Mingəçevir arxeoloji qazıntıları nəticəsində əldə edilmiş heyvan fiqurlarının bu ərazidə yaşayan tayfaların əsas məşğuliyyətinin maldarlıqdan ibarət olmasını təsdiq etməklə yanaşı, əkinçiliyin də qismən yayılmasını göstərmişdir. Buna oxşar heyvan fiqurlarına Həsənlu, Germi, Ərşədən əldə edilmiş materiallarda da rast gəlmək olur.

Azərbaycanın şimal rayonlarında istehsal qüvvələrinin inkişafı və insanların sayca çox olması onların yaşayış və təsərrüfat sahələrinin genişlənməsinə səbəb olmuşdur. Bu tələbatın ödənilməsinə hər şeydən əvvəl onların texniki cəhətdən yaxşı silahlanmaları kömək edirdi.

Təbii zənginliyə, əkinçiliyin, maldarlığın və xüsusən metallurgiyanın inkişafı üçün misilsiz xammal mənbələrinə malik olması Azərbaycanın şimal rayonlarının (xüsusilə şimal-qərb rayonları)[228] qeyd etdiyimiz dövrdə başqa qonşu ölkələrlə sıx iqtisadi-siyasi əlaqələrə girdiklərini söyləmək olar.

Z. İ. Yampolski özünün doktorluq dissertasiyasını Atropaten və Qafqaz Albaniyasının istər iqtisadi-ictimai və istərsə də bu ərazidə yaşamış xalqın mənşəyi, dini, dili və daxili siyasəti məsələlərinə toxunmuşdur[229].

Müəllif bu ərazidə quldarlıq dövründə olan ibadətgahların Azərbaycan xalqının mənşəyi kimi aktual problemlərin öyrənilməsində zəruri olan məsələnin həll edilməsi üçün müəyyən rolu olduğunu qeyd edir və çox qədim dövrlərdən Azəybaycanın iki əsas vilayətə: Midiya Atropateni və Qafqaz Albaniyasına bölünməsini göstərmişdir. Belə bir nəticəyə gəlmək olur ki, Atropatena təbiətinin zənginliyi orada mövcud olan təsərrüfatın bütün sahələrinə olduqca müsbət təsir göstərmişdir. Ölkənin iqtisadi-ictimai və siyasi inkişafı ilə əlaqədar orada böyük şəhərlər meydana gəlmiş və həmin şəhərlər təkcə ölkə daxilindəki sənətkarlıq və ticarət mərkəzlərilə deyil, bütün dünyanın böyük şəhərləri ilə iqtisadi əlaqə yarada bilmişlər. Ticarət yollarına gəldikdə bu yollar Atropatenanın bütün şəhərlərini dövrün ən inkişaf etmiş qabaqcıl şəhərləri ilə qovuşdura bilmişdi.

# III FƏSİL

## ƏHƏMƏNİ İMPERİYASININ SÜQUTU. ATROPATENA DÖVLƏTİNİN YARANMASI

III Ərdəşir (Artakserkis) öldükdən sonra onun qohumlarından olan III Dara Kodoman hakimiyyət başına gəldi. III Daranın hakimiyyət başına keçməsi Filippin başçılığı ilə yunan əyalətlərinin Makedoniya ətrafında birləşdirilməsi dövrünə təsadüf etmiş və beləliklə, Makedoniya İranın güclü rəqibinə çevrilmişdir.

[228] C. Ə. Xəlilov. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abudələri. Bakı, 1969, s. 191.

[229] З. И. Ямпольский. Атропатена и Кавказская Албания в III - I вв. до н. ер.

III Dara hakimiyyət başına gəldiyi dövrdə Əhəməni imperiyasının istər daxili, istərsə də xarici siyasəti bərbad halda idi. Təqribən 32-yə yaxın olan satraplıqlarda mərkəzi hakimiyyətə qarşı narazılıq get-gedə artırdı. Kəndlilərin vəziyyətinə gəldikdə isə ardı-arası kəsilməyən daxili çəkişmələrin və xarici müharibələrin ağırlığı onların üzərinə düşürdü. Bu səbəbə görə də əkin sahələri qul əməyindən istifadənin ağır şəraiti nəticəsində bərbad hala düşmüş və istənilən məhsulu əldə etmək qeyri-mümkün olmuşdu. E. ə. IV əsrin sonuncu rübündə iqtisadi və siyasi böhran nəticəsində Əhəməni imperiyasının süqutuna bilavasitə şərait yaranmışdı.

İmperiyanın süqutunun daxili və xarici amillərini nəzərə almayan burjua tarixçiləri, o cümlədən H. Pirniya, Şuştəri və başqaları subyektiv amillərə əsaslanaraq imperiyanın dağılmasını öz sinfi mənafeyini qoruyub saxlamaq nöqteyi-nəzərindən təhlil etməyə cəhd göstərirlər [230]. Halbuki, Əhəməni imperiyası yunanlara qarşı apardıqları müharibələrdə inkişaf etmiş quldarlıq cəmiyyəti ilə qarşı-qarşıya durmuşdu. E. ə. VII – VI əsrlərdən başlayaraq Yunanıstan quldarlıq istehsal üsulunun yüksək inkişaf mərhələsinə çataraq ictimai və iqtisadi nöqteyi-nəzərdən qabaqcıl ölkələrdən birinə çevrilmişdi [231]. Digər tərəfdən iqtisadi inkişafın təsiri nəticəsində Yunanıstan dövləti siyasi nöqteyi-nəzərdən də quldarlıq demokratiyasına nail olub ölkənin iqtisadi və siyasi həyatında aktiv iştirak edən şüurlu vətəndaşlar da yetişdirə bilmişdi. Əhəməni satraplığında əhalinin ağır vəziyyəti, ordu daxilində yunanlı muzdlu dəstələrin çoxluğu, qoşunda nizam-intizamın pozulması, habelə kəmiyyət və keyfiyyət nöqteyi-nəzərdən sayının və döyüşkənlik məharətinin zəifliyi və s. amillə Əhəməni imperiyasının dağılmasını sürətləndirmişdi.

İran tarixçisi H. Pirniya yazır ki, Filipp öldükdən sonra onun yerinə oğlu İskəndərin keçməsi xəbərini eşidən Dara onun gənc olub siyasətdə az təcrübəyə malik olmasını və Makedoniya tərəfindən İran dövlətinə qarşı təhlükənin aradan getdiyini güman edib arxayınçılığa yol verdi. Digər tərəfdən də baş vermiş üç ağır vuruşmada İran sərkərdələri yunan muzdlu dəstələrinə inanmayıb, onları həlledici vuruşmalara buraxmırdılar. Digər tərəfdən İran orduları qəti hücuma keçə bilməyib məğlubiyyətə uğramışlar[232].

Əksinə, yuxarıda göstərdiyimiz amillər İran ordularının ardı-arası kəsilməyən məğlubiyyətinə əsas səbəb kimi deyil, ona şərait yaradan və məğlubiyyəti sürətləndirən amil kimi qəbul etmək olar.

İran süvari dəstələri hərb meydanına çıxanda piyada dəstələri ehtiyatda saxlanılmış və döyüşdə iştirak etməmişdi. Halbuki, piyada dəstəsində olan döyüşçülərin əksəriyyəti təcrübəli və döyüşkən yunan muzdurlarından ibarət idi.

---

[230] H. Pirniya. İran-e bastan, III cild, s. 1560; A. Şuştəri. İrannamə, I cild, s. 125.
[231] И. М. Дяконов. История Мидии. М.-Л, 1956, ы. 442 – 443.
[232] H. Pirniya. Göstərilən əsəri, s. 265.

Onlar süvari hissələrlə birgə vuruşmalarda iştirak etmiş olsaydılar, bəlkə də İran orduları məğlubiyyətə uğramazdı.

Makedoniyalı İskəndərin güzəştə getməməsi, ölüm-dirim müharibəsində inad göstərməsi, Makedoniya əsgərlərinin məqsədyonlü, nəyin uğrunda vuruşmalara girişməsi və digər amillər onların qalib gəlmələrinin rəhni olmuşdu. Əhəməni imperiyasının bir sıra ucqar rayonları hələ də quldarlıq quruluşunun inkişafına görə aşağı səviyyədə idi.

Qərbi Midiya satraplığı müharibə ərəfəsində iqtisadi-sosial cəhətdən inkişaf etmiş olan əyalətlərdən biri idi. Bu satraplığa görkəmli dövlət xadimi Atropat başçılıq edirdi.

Əhəmənilərin sonuncu hökmdarı III Daranın hakimiyyəti dövründə Atropat Midiya satrapı idi. Mənbələrdən bu ada ilk dəfə e. ə. 331-ci ildə təsadüf edilir. İskəndər İss vuruşmasından (e. ə. 332) sonra Kiçik Asiya, Suriya, Finikiya, Fələstin və s. əraziləri işğal etdi. Bu məğlubiyyətdən sonra III Dara yenidən ordu toplayaraq İskəndərin qarşısını almağa səy göstərdi. Lakin İskəndər Dəclə və Fərat çaylarından keçərək e. ə. 331-ci il oktyabr ayının birində qədim Assur (Aşşur) şəhəri Ərbilin yaxınlığında olan Qavqamel kəndi ətrafında III Daranın ordularına sonuncu və həlledici zərbə endirib onu məğlub etdi. İskəndər ilə III Dara arasında olan İss müharibəsində Atropatın Midiya ordularına başçılıq etməsi haqqında mənbələrdə məlumat yoxdur. Lakin güman etmək olar ki, ən qüdrətli satraplığın hakimi kimi Midiya satrapı Atropat İskəndərlə Dara arasında baş vermiş hər üç müharibədə iştirak etmişdir. Mənbələrdə Atropatın Midiya ordusuna, ancaq Qavqamel vuruşmalarında (e. ə. 331) başçılıq etməsi haqqında məlumata təsadüf edilir.

Makedoniyalı İskəndərin zəfər yürüşlərini qələmə alan Arrianın yazdığına görə, Qavqamel döyüşündə III Daranın süvari kəşfiyyat dəstəsinə başçılıq edən Atropatın bölməsində yarım müstəqil kadusilər, albanlar və sakasenlər də iştirak edirdi[233].

Arrian maraqlı bir məlumatla da bizi tanış edir. Ölkədə baş vermiş qarma-qarışıqlıqdan istifadə edən Bariaks adlı birisi hakimiyyətə keçə bilir. Arrianın göstərdiyinə görə Bariaks e. ə. 324-cü ildə özünü Parsua və Midiya çarı elan etmişdi. Atropat isə onu tutub İskəndərə vermişdi[234]. Bu fakt Atropatın uzaqgörən bir siyasətçi olduğunu göstərir. Atropat yaxşı başa düşürdü ki, artıq Əhəməni imperiyasını dirçəltmək mümgün deyil. Ona görə də o, İskəndərlə loyal mövqedə dayandı. Atropatın loyal münasibətini görüb ona rəğbət bəsləyən İskəndər bir müddət onu öz yanından buraxmadı. Məşhur Suz təntənəsində iştirak edən Atropat öz qızının makedoniyalıların süvari dəstələrinin başçısı Perdikkiyə ərə verərək onunla qohum oldu. Dövrün siyasi nəbzini tuta bilən Atropat görkəmli diplomat

---

[233] Arrian. Anabazis, III, 84.

[234] Yenə orada.

olduğuna görə qarşıya çıxmış ağır şəraitdən bacarıqla istifadə etdi və tədricən düşmən satrapdan etibarlı müttəfiqə çevrildi.

İskəndər Midiyaya gələrkən Atropat indi onun yaxın adamları ilə birlikdə qalibin şərəfinə təşkil edilmiş şənliklərdə iştirak edirdi.

İskəndər Midiyada olarkən orada bəslənilən Nisa atlarına baxdı. O. 50000 atı hökmdar ordularına göndərdi. İskəndərin bir sıra siyasi tədbirlərində Atropat şəxsən iştirak edirdi. Arrianın yazdığına görə Atropat İskəndərə 100 nəfərdən ibarət atlı cəsur döyüşçü qadın dəstəsi bağışlamışdı. O yazır: "Midiya satrapı Atropat İskəndərə 100 nəfər Amazonka bağışlamışdı. Onlar kişi geyimi geymiş, yüngül silahlarla yaraqlanmışlar"[235]

Atropat yeganə Əhəməni satrapı idi ki, İskəndər onu vəzifədən kənar etmədi; əksinə, bəzi qonşu ərazilərin idarəsini də ona həvalə etdi.

Yuxarıda göstərdiyimiz tarixi şəraitdə Midiya-Atropatena dövlətinin əsası belə qoyuldu. İskəndərin ölümündən sonra isə bu dövlət qurumu tam, müstəqil siyasət yürüdən güclü bir dövlətə çevrildi. Bu dövlətin ərazisi indiki Cənubi Azərbaycan vilayətlərini, İran Kürdüstanının bir hissəsini, Sovet Azərbaycanının isə bəzi əyalətlərini əhatə edirdi.

Strabonun göstərdiyinə görə Atropatenanın (Kiçik Midiya) sərhədləri belə olmuşdur.

Bu ölkə Ermənistan və Matianadan şərqdə, Böyük Midiyadan qərbə tərəf, hər iki ölkədən şimalda yerləşmişdir. Cənubdan o, Hirkan dənizinin çökəkliyinə yaxın əyalətlərlə və Matiana ilə həmsərhəddir[236].

Ərəb coğrafiyaşünası İstəxriyə görə, Azərbaycan şərq dən Kuhistan və Xəzər dənizi, qərbdən Ermənistan və şimaldan Allan, Qıbq dağları, cənubdan İraq və Cəzirə ilə həmsərhəddir[237]. Atropatenanın qədim sərhədləri haqqında hər iki müəllifin məlumatları təqribən eyniyyət təşkil edir. Deməki, Atropatena ərazisinə Kürdüstanın bir hissəsi, Gilanın cənub-qərbi və nəhayət, Albaniya əyalətlərinin bir hissəsi daxil olmuşdur.

Yeni yaranmış dövlət antik müəlliflərin göstərdiyi kimi, öz banisinin adı ilə adlanmağa başlandı. Mənbələrdə Atropatenanın iqtisadi-ictimai və mədəni həyatı haqqında məlumat olduqca azdır. Arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri, bu ölkədə vaxtilə kənd təsərrüfatının, o cümlədən əkinçiliyin, maldarlığın, bağçılığın inkişaf etdiyini sübut edir. Digər tərəfdən arxeoloji qazıntıların nəticəsi ölkədə sənətkarlığın və şəhər həyatının yüksək səviyyədə olduğunu göstərir.

Bu ərazidə iqtisadi və mədəni cəhətdən geridə qalmış tayfalarla yanaşı yüksək sənətkarlıq mədəniyyətinə, şəhərlərə, ticarət mərkəzlərinə, maarif ocaqlarına malik olan tayfalar da yaşamışdır. İstər Əhəmənilərin hakimiyyəti

---

[235] Arrian. Anabazis, III, 84.
[236] Strabon. XI, 13.
[237] İstəxri. Məsalik vəl-məmalik. Tehran, 1340, s. 25 – 34.

dövründə, istərsə də Atropat sülaləsinin fəaliyyəti zamanı bu ərazi iqtisadi-ictimai və mədəni həyatın inkişafı nöqteyi-nəzərdən qonşu ölkələrdən xeyli öndə idi. Bu göstərdiyimiz iqtisadi-ictimai inkişafı yazılı mənbələr, habelə Ərdəbil, Maku, Təxt-e Süleyman və Xəzər dənizinin cənub və qərb rayonlarında aparılmış arxeoloji qazıntıların nəticələri də təsdiq edir.

Atropatena ərazisi hələ qədimdən faydalı metalların bolluğu ilə şöhrət tapmışdı. Bu ərazidə qızıl, gümüş, mis və dəmir mədənləri mövcud olmuşdur. Urmu gölündən əldə edilmiş duz qonşu ölkələrə də ixrac edilirdi. Atropatena ərazisində zeytundan hazırlanmış məhsul, ipək və yun parçalar, xüsusən atçılıq olduqca inkişaf etmişdir.

Atropatenada müstəqil dövlətin yaranması ölkənin təsərrüfatının canlanmasına, məhsuldar qüvvələrin, həmçinin ticarət və sənətkarlığın inkişafına olduqca müsbət təsir göstərmişdir. Bir sıra mənbələrdə göstərildiyi kimi qədim dövrlərdə bu ərazidə məbəd təsərrüfatı inkişaf etmişdi. Ən məhsuldar torpaqlar Zərdüşti kahinlərin əlində idi. Atropatena ərazisində quldarlıq quruluşu inkişaf səviyyəsinə görə hələ Atropatena dövlətinin təşkilindən əvvəl qonşu əyalətlərdən irəlidə idi. Ölkənin iqtisadi-ictimai inkişafı ilə bilavasitə əlaqədar olaraq orada yeni-yeni şəhərlər salınırdı.

Strabonun göstərdiyinə görə, Atropatena hakimlərinin Qazaka və Verra adlı iki paytaxt şəhəri olmuşdur[238]. Qazakada bu sülalənin yay, Verrada isə qış iqamətgahı yerləşirdi. Qazaka şəhərində hələ Midiya dövləti dövründən daha əvvəl müqəddəs sayılan Şərqin ən mühüm atəşpərəstlik məbədlərindən biri mövcud idi.

Atropatena qonşu Zaqafqaziya xalqları, Şimali Qafqaz, Volqa boyu xalqları, Qara dəniz sahili, Kiçik Asiya ölkələri, Mesopotamiya, İran, Hindistan və s. yerlərdə ticarət əlaqələri saxlayırdı. Atropatena dövlətinin möhkəmlənməsi və inkişafı ellinizm dövrünə aiddir. Bu dövrdə ayrı-ayrı ölkələr arasında iqtisadi və ticarət əlaqələri daha da canlanırdı.

Şərq ölkələrində müxtəlif yunan təsisatları, yunan dili, elmi, təhsili, ədəbiyyat və incəsənəti geniş yayılmışdı. Bunu, Avromanda (İran-Kürdüstanı) aşkar edilmiş yunan dilindəki sənədlər də sübut edir. Bu sənədlər yunan hüquq normalarının Atropatenada da işlədildiyini göstərir. Buna baxmayaraq Selevkilərin hökmranlıq etdiyi Böyük Midiyaya nisbətən Atropatenada ellinizmin rolu və əhəmiyyəti xeyli az idi.

Ehtimal ki, e. ə. IV əsrin sonuncu onilliklərində müstəqilliyini saxlamağa çalışan Atropat və onun yaxın varisləri keçmiş İranın bütün satraplıqlarını ələ keçirərək "mərkəzləşdirmə" siyasəti yürüdən Selevkilərlə kəskin mübarizə aparmalı olmuşdur. E. ə. III əsrin ikinci yarısında Atropatenanın sərhədləri xeyli genişləndirilirdi. Bununla belə e. ə. III əsrin 20-ci illərinin sonunda görkəmli sərkərdə və dövlət xadimi, Atropatena hökmdarı olan Artabaz Selevki hökmdarı III

---

[238] Strabon. Göstərilən əsəri, XI, 13.

Antioxun hakimiyyətini tanımağa məcbur olmuşdu. Lakin bu hadisə uzun sürmədi. Artıq e. ə. II əsrin 60-cı illərində Atropatena yenidən müstəqil siyasət yürütməyə başladı. E. ə. II əsrin təqribən ikinci yarısında Atropatenada parfiyalıların nüfuzu gücləndi. Atropatena hökmdarları keçmişdə olan diplomatik siyasətlərini davam etdirərək parfiyalılarla qohumluq əlaqəsi yaradır, onların rəğbətini qazanır, bu və ya digər ölkə ilə parfiyalıların aparmış olduqları müharibələrdə onlara iqtisadi və hərbi cəhətdən kömək edirdilər. Bəzi hallarda Atropatena hökmdarları parfiyalılara qarşı mübarizədə romalılarla müttəfiq olurdu. Atropatena hökmdarları öz müstəqilliyini qoruyub saxlamaq məqsədi ilə qonşu ölkələrdə baş vermiş bütün siyasi hadisələrdən bacarıqla istifadə edirdilər. Buna görə də onlar parfiyalıların süqutu və Sasanilər hakimiyyətinin yarandığına kimi öz müstəqilliyini qoruyub saxlaya bilmişlər.

Parfiyalıların az bir müddət ərzində böyük bir qüvvəyə çevrilməsinin obyektiv səbəbi vardı. Parfiyalıların Şərq xalqlarının Selevki hakimiyyətindən və istismarından qurtarmağa çalışan xilaskar rolunda çıxış etmələri, yunanlar, sonra isə romalılar əleyhinə mübarizə aparmaları onların Atropatenada və eləcə də digər qonşu əyalətlərdə müvəffəqiyyətləri üçün əlverişli şərair yaratdı.

Atropatenanın qonşu ölkələrlə iqtisadi-ictimai və siyasi əlaqəsi onun beynəlxalq nüfuzunun artmasına kömək etmidi. Lakin bu əlaqələr qonşu ölkələrlə bir səviyyədə aparılmayıb, bəziləri ilə dəyişən xarakter daşımışdır. Misal üçün, Atropatena ilə Ermənistan arasında olmuş əlaqələr dəyişkən xarakter daşımışdır. Ermənistanın tarixində Atropatenanın rolu, ümumiyyətlə, böyükdür. Əsrlərlə qonşu yaşamış xalqlar arasında geniş mədəni və ticarət əlaqələri mövcud idi. Yadelli işğalçılara qarşı bir sıra müharibələrdə də Atropatenanın Ermənistanla birgə hərəkət edib və müttəfiq olduqları gözə çarpır. Digər tərəfdən mənşə etibarı ilə atropatenalı olan bir sıra şahzadələr müəyyən vaxtlarda Ermənistanın hakimi olmuşdur. Lakin bir sıra hallarda iqtisadi, mədəni və qohumluq münasibətləri pozulurdu. Atropatenalıların Ermənistan taxt-tacına yiyələnmək planları, hətta qonşu ölkə ərazisini tutmaları faktları ilə yanaşı, öz növbəsində erməni çarlarının da Atropatena torpaqlarına hücumu məlumdur.

Strabonun göstərdiyinə görə, e. ə. I əsrdə Ermənistan çarı II Tiqran öz yeznəsi olan Mitridatın (Mehrdadın) torpaqlarına hücum edib, Sumbaki adlanan yeri tutub öz ölkəsinə qatmışdı. Lakin bu hadisə uzun müddət davam etməyib, II Tiqran tərəfindən işğal edilmiş ərazini yenidən Atropatenaya birləşdirmişdir[239].

Bundan başqa e. ə. I əsrin axırlarında Atropatena hakimləri Ermənistan taxtında möhkəmlənmək üçün səy göstərirdilər.

Selevkilərin parfiyalılar tərəfindən Şərq ölkələrindən qovulmasından sonra yeni və güclü olan romalılar parfiyalıların ən qorxulu rəqibi kimi səhnəyə çıxdılar. Romalılar Ermənistanı və ona qonşu olan digər ölkələri, eyni zamanda

---

[239] Strabon. Göstərilən əsəri, XI, 13.

şərq ilə qərbi birləşdirən ən mühüm ticarət yolunu ələ keçirməyə səy göstərirdilər. E. ə. 69-cu ildə romalıların Ermənistanı tutmaq istədikləri vaxt Atropatena hökmdarı romalılara qarşı ermənilərin müttəfiqi kimi çıxış etdi və Tiqranakert döyüşlərində onların birləşmiş olduqları romalılara güclü zərbə endirirdilər. Atropatenalılar romalılara qarşı parfiyalılarla da ittifaq bağladılar.

Strabonun göstərdiyinə görə, bu dövrdə Atropatena qüdrətli hərbi qüvvəyə malik idi. Onun məlumatına görə Atropatena 10.000 süvari və 40.000 piyada orduya malik olmuşdur. E. ə. 36-cı ildə böyük bir qüvvə ilə Şərqə hücum edən görkəmli sərkərdə Antoni Ermənistanı işğal etdi. Ermənistan çarı Artavazd 16.000-lik öz silahlı qüvvəsini məcburiyyət qarşısında Antoninin ixtiyarına verdi. Antoni Atropatenanı tutmağa tələsirdi. Ermənistan çarı Artavazd ona yaz başladıqda hücum etməyi məsləhət gördü. Lakin Antoni onun məsləhəti ilə razılaşmayıb e. ə. 36-cı ilin payız fəslində 100.000 ordu ilə tələsik Araz çayını keçərək Atropatenaya hücuma keçdi. O, atropatenalıların qış iqamətgahı yerləşən Verra şəhərini tutdu, onların yay iqamətgahı olan Fraaspaya tərəf hərəkət etdi. Fraaspa atropatenalılar tərəfində mərdliklə müdafiə edilirdi. Atropatena hökmdarı, ləyaqətli sərkərdə olan II Artavazd şəhərin müdafiəsinə rəhbərlik edirdi. Antoni tələsdiyindən 10.000 nəfərlik ağır silahlarla və qala uçuran alətlərlə silahlanmış Tatyanusun dəstəsindən ayrılmışdı. Bu vəziyyəti müşahidə edən parfiyalılar romalılara hücum edib Tatyanusun başçılıq etdiyi ordunu darmadağın edib, özünü isə öldürdülər. Bu hadisəni eşidən Antoni qəzəblənmiş, tez bir müddətdə Fraaspanın tutulması əmrini vermişdi. Vəziyyətin ağırlığını dərk edən Ermənistan çarı Artavazd öz orduları ilə geri dönərək ölkəsinə qayıtmışdı.

Fraaspanın qəhrəmancasına müdafiəsi, atropatenalıların güclü müqaviməti, işğalçılara qarşı partizan müharibəsinin aparılması, parfiyalılar tərəfindən Tatyanusun öldürülüb, ordusunun darmadağın edilməsi romalıların əzmini qırıb onları geri çəkilməyə məcbur etdi.

Beləliklə, Fraaspa ətrafında məğlub olan Antoninin Atropatenanı tutmaq cəhdi puça çıxdı. Atropatena hökmdarı romalılardan külli miqdarda qənimət və hərbi əsir ələ keçirdi. Antoni Atropatena ərazisini tərk etdikdən sonra əldə edilmiş qəniməti bölüşdürmək üstündə parfiyalı IV Fraat ilə Artavazd arasında ziddiyyət yarandı. E ə. I əsrin son illərində bu ziddiyyətdən istifadə edən Artavazd romalılarla dostluq əlaqəsi yaratmağa başladı. Artavazd Antoni ilə qohum oldu. Üzərində Avqustun təsviri və "Böyük hökmdar Artavazda" sözləri həkk olunmuş gümüş sikkə də bu dostluq əlaqələrini təsdiq edir. Yeni müttəfiqlərə arxalanan Artavazd Atropatenadan qərbdəki vilayətlərdə fəal siyasət yürüdürdü.

E. ə. I əsrin sonu eramızın I əsrin əvvəllərində Atropatenanı romalılarla dostluq münasibəti saxlayan Artabarzan idarə edirdi. O, bir müddət Ermənistan taxtında da möhkəmlənə bilmişdi.

Eramızın 2 - 11-ci illərində Artabarzanın oğlu V Artavazd Atropatena və eyni zamanda Ermənistanın da şahı olmuşdur. Atropatenanın sonuncu atropatenalı

hökmdarı V Artavazd idi. Onun dövrundə Atropatenada Arşakilər sülaləsinin kiçik qolunun əsasını qoymuş III Artaban hakimiyyət başına keçdi. III Artaban romalıların ən qəddar düşməni idi. III Artabanın anası parfiyalı, atası isə Atropat nəslindən idi. Beləliklə, III Artabanın hakimiyyətindən etibarən Atropatın nəsli Atropatena, Ermənistan hökmdarı olmuşdur. III Artaban Parfiya taxt-tacını ələ keçirdikdən sonra Atropatenaya öz qardaşı Pakoru hökmdar təyin etmişdi. Arşakilər Kiçik Midiyanı III əsrin əvvəllərinə kimi idarə etmişlər. Atropatenanın I - II əsrin siyasi həyatında ən əhəmiyyətli hadisələr alanarın ölkəyə hücumları idi.

Strabonun yazdığına görə Atropatena hökmdarı Parfiya şahları, Ermənistan hökmdarı və Suriya hakimləri ilə də qohumluq edirdilər[240].

III əsrin əvvəllərində İranda hakimiyyəti Sasanilər ələ keçirdilər. Sasanilərin dövründə Atropatena siyasi müstəqilliyini tamamilə itirib İran şahənşahının dastakertinə çevrildi. Lakin Sasanilər dövründə Atropatenanın mədəni və dini mərkəz kimi rolu daha da gücləndi.

Eramızın ilk əsrləri Atropatenada feodal münasibətlərinin yaranması və möhkəmlənməsi dövrü idi. V əsrin son rübündə başlanmış Məzdəkilər hərəkatı Atropatenanın, eləcə də bütün İranın daxili həyatında ən mühüm hadisə oldu. IV - VI əsrlərdə Atropatena ərazisi dəfələrlə köçərilərin basqınlarına məruz qaldı və müharibə meydanına çevrildi. VII əsrdə Atropatena ərəblər tərəfindən işğal edildi.

Atropatenada müstəqil dövlətin meydana gəlməsi və onunla bağlı olan hadisələrin həmin ərazinin tarixi taleyində böyük rolu olmuşdur. Təkcə Azərbaycanın deyil, hətta Asiyanın xeyli hissəsinin qədim dövr və erkən orta əsrlər tarixinə Atropatenanın təsiri şəksizdir. Məhz Atropatena dövründə “Azərbaycan” məfhumunun formalaşmasının, habelə onunla əlaqədar olan digər hadisələrin başlanğıcı qoyulmuşdur. Burada ilk dəfə xalq təşəkkül tapmışdır.

Atropatenada dövrün ən görkəmli atəşgədələrindən niri olan Azərgəşəsp atəşgədəsinin mövcud olması və Sasani şahlarının Mədaindən buraya piyada gəlib müqəddəs odu ziyarət etmələri, sonra tac qoymaları bu diyarın hörmət və nüfuzunu bir daha artırmışdı.

Digər tərəfdən müqəddəs dini külliyyat olan Avestanın Atropatena kahinləri tərəfindən toplanıb külliyyat halına salınması təkcə Atropatena deyil, bütün İranda bu ərazinin mənəvi mərkəz olmasına canlı sübutdur. Bu ərazi hələ parfiyalılardan əvvəl və onların dövründə dini və mədəni mərkəz olmuşdur.

Sasanilərin hakimiyyəti dövrünə gəldikdə, bu dini mərkəz Zərdüştiliyin ibadətgahına çevrilmişdir. Ərəb işğallarından sonra Zərdüştilər “gəbr” adlandırılaraq təqib edilmiş, atəşgədələr isə məscidə çevrilmişdir.

---

240 Strabon. Göstərilən əsəri, XI, 13.

## ATROPATENANIN QONŞULARI

Makedoniyalı İskəndər ilə III Dara arasında baş vermiş 3 böyük vuruşmada e. ə. 334-cü ildə Pranik, e. ə. 333-cü ildə İss (e. ə. 332) və e. ə. 331-ci ildə Qavqameldə (Arrian. I, IV) 4; Diodor. XVII, 69—7; Plutarx. 51) İran orduları məğlub olmuşlar. Plutarxın yazdığına görə Makedoniyalı İskəndər Daraya Qavqameldə Gavgamel "dəvə evi", "dəvə saxlanılan yerə" deyilir. Gəməl və yaxud cəməl dəvə mənasındadır. Arrianın yazdığına görə bu müharibədə iranlılar bir milyon piyada və 400 min nəfər süvariyə malik idi. Plutarx hər birini bir milyon, Diodor isə 800 min piyada, 200 min nəfər süvari göstərir. Bu rəqəmlərin hamısı şişirdilmişdir. İran ordusunun say etibarı ilə çox olmasına baxmayar Əhəməni imperiyasına Makedoniyalı İskəndər son qoymuş oldu. Satraplıqlarda Əhəmənilərin ağır vergi və mükəlləfiyyətlərindən cana gələn geniş xalq kütlələri imperiyanın qalıqlarına qarşı amansız mübarizəyə başladılar. Antik mənbələrin göstərdiyinə görə hələ İskəndərin hücumundan əvvəl III Artakserkisin dövründə Əhəməni imperiyasının daxilində bir sıra satraplıqlarda mərkəzi hökümətə qarşı çıxışlar baş vermişdi. Buna Midiya və kadusların satraplıqlarını misal göstərmək olar. III Artakserkisin cəhdlərinə baxmayaraq kaduslar, amardlar və gellər tabe olmamış və dağlıq rayonlarda mübarizəni davam etdirmişlər. III Dara Kodumanın dövrünə gəldikdə isə bu zaman ölkənin vəziyyəti nəinki sabitləşməmiş, əksinə, satraplıqlarda narazılıq daha da artmışdı.

Ardı-arası kəsilməyən daxili və xarici müharibələrin ağırlığı kəndlilərin üzərinə düşürdü. Bu səbəbə görə də bir sıra əkin sahələri qul əməyinin törətdiyi ağır şərait nəticəsində bərbad hala düşmüş və istənilən məhsulu əldə etməyi qeyri-mümgün etmişdi. E.ə. IV əsrin sonuncu rübündə imperiyanı bürümüş siyasi, iqtisadi böhran onun süqutuna bilavasitə şərait yaratmışdır.

Mənbələrdə Midiya satrapı Atropatın Qranik və İss müharibələrində iştirakı haqqında məlumata təsadüf edilmir. Atropatın ancaq Qavqamel döyüşlərində iştirakı haqqında xəbər vardır. Çox güman ki, Atropat hər üç döyüşdə iştirak etmişdir.

Arrianın göstərdiyinə görə, Qavqamel döyüşündə Daranın süvari kəşfiyyat dəstəsinə başçılıq edən Atropatın bölməsində yarımmüstəqil kaduslar, albanlar və sakasenlər də iştirak edirdi (Arrian. Anabazis. III, 4, 8).

Məlum olduğuna görə kaduslar, albanlar, sakasenlər, karduxlar, amardlar, kassitlər və Luristanın dağ sakinləri atropatenlərlə möhkəm əlaqədə olmuşlar.

Atropat İskəndərlə qarşılaşmamışdır. Midiya satrapı Oksidat özünü doğrultmadığına görə İskəndər onun yerinə Atropatı satrap təyin etmişdi.

Beləliklə, o, Kiçik Midiya, Atropat Midiyası ilə birlikdə qonşu satraplıqların da hökmdarı olmuşdur. Atropat istedadlı sərkərdə, böyük dövlət xadimi və uzaqgörən olduğuna görə Oksidatdan fərqlənməklə, İskəndərin dərin etimadını qazana bilmişdi.

Belə bir tarixi prosesin nəticəsində Midiya Atropaten dövləti yaranmış oldu (e. ə. 328). Bu dövlətin ərazisinə indiki Cənubi Azərbaycan, Kürdüstanın bir hissəsi və Şimali Azərbaycanın iki tarixi əyaləti (Kaspi və Bosoroped) daxil idi.

Strabonun göstərdiyinə görə Atropatenanın (Kiçik Midiyanın) sərhədləri belə olmuşdur: "Bu ölkə Ermənistan və Matianadan şərqə, Böyük Midiyadan qərbə tərəf, habelə hər iki ölkədən şimala tərəf yerləşmişdir. Cənubdan isə o, Hirkan dənizinin çökəkliyinə yaxın əyalətlər və Matiana ilə həmsərhəddir" (Strabon. XI, 13). Orta əsr ərəb coğrafiyaşünası İbn Havqəlin yazdığına görə: "Bu ölkələri şərqdən Cibal və Deyləm, həmçinin Xəzər dənizinin qərb hissəsi, qərbdən Ermənistan və Cəzirənin (Mesopotamiya ərazisi) bir hissəsi, şimaldan allanlar və Qafqaz dağları, cənubdan İraq hüdudları və Cəzirənin şərq hissəsi əhatə edirdi" (İbn Havqəl. Surət əl-ərz. Tərcümə Cəfərşüar, Tehran, 1345, s. 18). Bundan başqa, İbn Havqəl Ərməniyyə, Arran və Azərbaycanı bir iqlim hesab edir (yenə orada).

Ərəb coğrafiyaşünası İstəxriyə görə: "Azərbaycan şərqdən Kuhistan və Xəzər dənizi, qərbdən Ermənistan və şimaldan Alan, Qıbq dağları, cənubdan İraq və Cəzirə ilə həmsərhəddir" (Əbu İbrahim İstəxri. Məsalik vəl-məmalik. Tərcümə İ. Əfşar. Tehran, 1340, s. 24 - 25).

Mənbələrin dövr fərqini nəzərə almasaq demək olar ki, hər üç məxəzin məzmunu təqribən eynidir.

Atropatenada müstəqil dövlətin yaranması ilə əlaqədar ölkə daxilində hərc-mərcliyə, ağır müharibə xərclərinə və insan itkisinə son qoymaqla bərabər nəticə təsərrüfat həyatının canlanması, məhsuldar qüvvələrin, həmçinin sənətkarlıq, habelə ticarətin inkişafına olduqca müsbət təsir göstərdi.

Atropatena dövləti öz qonşuları olan İberiya, Ermənistan, Şimali Qafqaz, Volqaboyu, Qara dəniz sahili, Kiçik Asiya, Mesopotamiya, İran, Hindistan və s. xalqlarla mədəni və ticarət əlaqələri saxlayırdı.

Ellinizm dövrundə Atropatena, xüsusilə Roma və Yunanıstanla geniş iqtisadi əlaqələr yaradır. Bu zaman Şərq ölkələrində olduğu kimi, burada da yunan dili, elm, təhsil, ədəbiyyat, insəsənət və digər təsisatlar yaranır. Avromanda (İran Kürdüstanı) aşkar edilmiş yunan dilindəki sənədlər, Təxt-e Süleyman, Ərşəq (Germi) və digər qazıntılardan əldə edilmiş müxtəlif tapıntılar bu əlaqənin nə səviyyədə olduduğunu göstərir. Tapıntılarda, yunan normalarının Atropatendə həyata keçirilməsi göstərilir. Bundan başqa şüşə məmulatı, bəzək şeyləri, silahlar və ellin dövrünün sikkələrinin Atropatena, habelə Albaniya ərazisindən tapılması Roma, Yunanıstan, Makedoniya, Kiçik Asiya xalqları ilə Atropatena xalqının iqtisadi və mədəni əlaqəsinin yüksək səviyyədə olduğunu təsdiq edir.

Atropatenanın qonşu ölkələrlə iqtisadi-ictimai və siyasi əlaqələri onun beynəlxalq nüfuzunun artmasına kömək etmişdir.

Ermənistanın tarixində Atropatenanın rolu, ümumiyyətlə, böyükdür. Yuxarıda qeyd etdiyimiz kimi, əsrlər boyu qonşuluqda yaşayan xalqlar arasında geniş mədəni və ticarət əlaqələri mövcud olmuş, yadelli işğalçılara qarşı iki xalqın

birləşmiş orduları müttəfiq kimi vuruşmuşlar. Digər tərəfdən mənşə etibarilə atropatenalı olan bir neçə şahzadə Ermənistanda hakimlik etmişlər. Strabonun göstərdiyinə görə atropatenalıların parfiyalılar, ermənilər və suriyalılar kimi qonşuları olmuşdur. Atropatena çarları yeri gəldikdə onlarla qohumluq əlaqəsi yaradırdılar (Strabon. XI, 13). Lakin bir sıra hallarda atropatenalıların ermənilərlə əlaqəsi zəifləyir, biri digərinin ərazisinə hücum edir, müvəqqəti olsa da torpaq sahələrini zəbt edirdilər. Ermənistan uğrunda istər Parfiya və istərsə də Sasanilərin dövründə Roma ilə İran arasında qanlı döyüşlər baş verir. Bu ölkə uzun illər hər iki istilaçının işğallarına məruz qalır. Ermənistanı işğal edən romalılar Atropatena ilə də maraqlanır. Belə ki, e. ə. 36-cı ildə Antoni 100 min nəfərlik ordu ilə Araz çayını keçib Atropatenə hücum edir; lakin məğlub edilib, geri çəkilməyə məcbur olur. Bu zaman Ermənistan çarı II Artavazd idi, o, özunun 16 min suvari ordusunu Antoninin ixtiyarına verdi. Lakin onlar atropatenalılarla üz-üzə gəlməzdən əvvəl yolun yarısından qayıdıb ölkələrinə gəlmişlər.

Antoni məğlub edilib geri çəkildikdə II Artavazdı tutub Romaya göndərmiş və onun yerinə oğlunu Ermənistanın hakimi təyin etmişdi. Atropatenalılar romalılara qarşı parfiyalılarla da ittifaq bağladılar. Məlumdur ki, parfiyalılar Selevkiləri Şərq ölkələrindən qovduqdan sonra böyük bir qüvvəyə çevrilib 500 ilə yaxın hökmranlıq etmişlər. Lakin onlar mərkəzləşmiş dövlət deyil, tayfalar hökmranlığı formasında böyük ərazini idarə edirlor. E. ə. 36-cı ildə Antoninin hücumu zamanı Parfiya çarı IV Fraat idi; o, bu müharibədə Atropatena şahı II Artavazdın müttəfiqi kimi çıxış edirdi. Romalıların ağır silahlarla yaraqlanan və qala uçuran alətlərlə silahlanmış 10000 nəfərlik dəstələrinə IV Fraatın süvari dəstələri qəflətən hucum edib onları darmadağın etdilər. Antoni məğlub edilib geri çəkildikdə, IV Fraat ilə II Artavazd arasında əldə etmiş olduqları qənimətin bölüşdürülməsində bərk narazılıq yaranmışdı. Bu zaman II Artavazd romalıların yanına elçi göndərib parfiyalılara qarşı onlarla müttəfiq olduğunu bildirməklə, qohumluq əlaqəsi, yaratmağı təklif etdi. II Artavazdın bu təklifi romalılar tərəfindən hərarətlə qarşılanmışdır. Beləliklə, atropatenalılar parfiyalılara qarşı romalılarla müttəfiq, həm də qohumluq əlaqəsi yaratdılar. Atropatena şahları ölkənin müstəqilliyini qoruyub saxlamaq məqsədilə yeri gəldikdə bu və ya digər ölkə ilə siyasi və diplomatik əlaqələr yaradırdılar.

E. ə. I əsrin sonu eramızın I əsrinin əvvəllərində Atropatenanı romalılarla dostluq və diplomatik əlaqələri qoruyub saxlayan Aryabarzan idarə edirdi. O, bir müddət Ermənistanın da hökmdarı olmuşdur. Eramızın 2 - 11-ci illərində Aryabarzanın oğlu V Artavazd Atropaten və eyni zamanda Ermənistanın da şahı olmuşdur.

Xarakeli İsidor əsas şahlıq yolunda kənarda yerləşən Atropaten ərazisinin adını çəkir. O, Midiya, Kombaden, Yuxarı Midiya və Rakiana (müasir Rey) Midiyasına toxunmuşdur.

Lakin Strabon inzibati nöqteyi-nəzərdən deyil, etnik və mədəniyyət baxımından Midiyanı iki hissəyə bölür. O cümlədən Böyük Midiya və Atropaten Midiyası (Kiçik Midiya) (Strabon. XI, 13, 1).

## ATROPATENA ERAMIZIN ƏRƏFƏSİNDƏ

Herodotun məlumatına görə Əhəməni dövləti I Daranın hakimiyyəti dövründə inzibati nöqteyi-nəzərdən 20 satraplığa bölünsə də, lakin bu bölgü sabit olmamışdır[241]. Bu satraplıqlar içərisində istər iqtisadi və istərsə strateji cəhətdən Midiya (Kiçik Midiya-Atropatena) digərlərindən fərqlənirdi. Satraplıqlar mərkəzi hakimiyyət tərəfindən təyin edilmiş canişinlər tərəfindən idarə edilirdi. Hərbi sərkərdə də hakimlərə tabe idi. Satraplar vergi toplamalı, hüquqi-inzibati işlərə nəzarət etməli və hərbi qoşun dəstələri təşkil edib hazır vəziyyətdə saxlamalı idi. İqtisadi cəhətdən zəngin olan Midiya satrapı mərkəzi hakimiyyətə hər il 45 talant vergi verməli idi[242]. Əhəməni dövlətinin son dövründə Kiçik Midiya (Atropatena) satraplığına Atropat adlı sərkərdə rəhbərlik edirdi.

Dara ilə İskəndər arasında gedən müharibədən sonra Böyük Midiyadan ayrılmış Atropatena satraplığı müstəqil olmasına görə digər əyalətlərdən fərqlənirdi. İsidor Atropatena ərazisinin əsas şahlıq yolundan kənarda yerləşdiyinə görə onun adını çəkmir. O, Midiya, Kombaden, Yuxarı Midiya və Raqa (müasir Rey) Midiyasına toxunur[243]. Lakin Strabon inzibati nöqteyi-nəzərdən deyil, etnik və mədəniyyət baxımından Midiyanı iki hissəyə bölur: Böyük Midiya və Atropat Midiyası (Kiçik Midiya)[244].

Strabonun göstərdiyinə görə bu ərazi olduqca məhsuldar və təbii-coğrafi zənginliyə malik olmuşdur[245].

Əhəməni dövlətinin süqutu yaxınlaşdıqca satraplar mərkəzi hakimiyyətdən üz döndərib onlara tabe olmamağa çalışırdılar. Onlar müxtəlif etnik tərkibə malik olan xalqların mərkəzi hakimiyyət ətrafında monolit birliyini təşkil etmək iqtidarına malik ola bilmədilər. Mərkəzi hakimiyyətin böhran keçirdiyi zaman ondan üz döndərən satraplardan biri də Qərbi Midiya olmuşdur. Bu satraplığın hakimi görkəmli sərkərdə olan Atropat idi. O, Əhəmənilərin son şahı olan III Dara Kodomanın dövrundə Kiçik Midiyanın hakimi idi. III Daranın hakimiyyət başına keçməsi Filippin başçılığı ilə yunan əyalətlərinin Makedoniya ətrafında birləşdirilməsi dövrünə təsaduf etmiş və beləliklə, Makedoniya İranın ən güclü rəqibi olmuşdu. Diodorun göstərdiyinə görə III Dara Filipp ilə müharibə

---

[241] Herodot. III, 89, 98.
[242] Yenə orada, 92.
[243] İsidor Xaraksi. 4 – 7.
[244] Strabon. XI, 13, 1.
[245] Yenə orada.

etməyə hazırlaşırdı. Bu mənada ki, o, müharibəni Makedoniya ərazisində aparmaq istəyirdi. Lakin III Dara Filippin ölməsinin və onun oğlu İskəndərin taxta çıxmasını eşitdikdə, Makedoniya tərəfdən rahat oldu. Çünki III Dara heç güman etmirdi ki, İskəndər İrana təhlükə törədə bilsin[246]. Arrian, Diodor, Yustin, Polibi və Plutarx Makedoniya ilə İranın 3 böyük müharibəsini qeyd etmişlər: Qranik (e. ə. 334-cü ildə), İss (e. ə. 333-cü ildə) və nəhayət, Qavqamel (e. ə. 331-ci ildə).

Makedoniyalılar hər 3 müharibədə Daranın ordusunu məğlubiyyətə uğratmışlar. Onlar ilk dəfə Kiçik Asiya, Suriya, Finikiya, Fələstin və Misiri işğal etdilər. Sonuncu vuruşma isə e. ə. 331-ci il oktyabr ayının birində Qavqameldə (müasir Erbil yaxınlığında) baş vermişdir. Bu vuruşmada Atropat midiyalılara rəhbərlik edirdi. Arrianın verdiyi məlumata görə, midiyalılarla birlikdə döyüşlərdə kaduslar, albanlar və sakasenlər də iştirak edirdi[247]. Məlum olduğuna görə kaduslar, albanlar və sakasenlər farsların deyil, əslində midiyalıların müttəfiqi olmuşlar. Qavqamel döyüşündən əvvəl Midiya atlılarından təşkil olunmuş böyük bir dəstə Atropatın komandanlığı altında olmuşdur. Atropat İran ordusunda süvari kəşfiyyat dəstəsinə başçılıq etmişdi[248]. İskəndər Orta Asiyaya yürüş təşkil etdikdə Atropatı Midiya satrapı təyin edir[249] (e. ə. 328-ci ildə). Atropat digər satraplardan fərqli olaraq İskəndərin hörmətini qazana bilir. Eyni zamanda, İskəndər ona inanırdı. İskəndər Hindistan səfərindən qayıtdıqdan sonra (e. ə. 324-cü ildə) Atropata olan hörmət və inamı bir daha artdı. Ona görə də Atropatı o, bir müddət öz yanında saxladı[250]. Atropat məşhur Suz təntənəsində iştirak etmişdi[251]. Uzaqgörən siyasətçi olan Atropat, hətta öz ölkəsinin müstəqilliyini qoruyub saxlamaq naminə makedoniyalılarla qohumluq əlaqəsi yaratmışdı. Belə ki, o, Suz təntənəsi zamanı öz qızını İskəndərin görkəmli sərkərdəsi Perdikkaya ərə vermişdi. Atropat İskəndərin həyata keçirdiyi bir sıra tədbirlərində də iştirak etmişdi.

Arrianın yazdığına görə Midiya satrapı Atropat İskəndərə kişi paltarı geymiş, silahlı 100 nəfər atlı qadın bağışlamışdı. Onlar amazonka adlanırdı[252]. Bu qadınlar hərbi yaraq olan nizə, yüngül qalxan və ox-kamanla silahlanmışdılar.

İskəndərin vəfatından sonra Atropatena tam müstəqil bir dövlətə çevrildi[253]. Atropatena şahlarının nizam-inzitamlı orduları olmuşdur, xüsusilə onların süvari dəstələri şöhrət qazanmışdı. Qədim müəlliflərin verdiyi məlumata görə Atropatena şahları parfiyalılarla qohumluq edirdilər. Atropat e. ə 328-ci ildən başlamış 320-ci ilə kimi öz ölkəsini müstəqil idarə etmişdir. Atropatdan sonra hakimiyyətə keçən Artabaz Selevki şahı böyük III Antioxun müasiri olmuşdur. III

---

[246] Diodor. IV, 7.
[247] Arrian. Anabazis, 8, 4.
[248] Yenə orada, IV. 18, 3
[249] Yenə orada, VII, 4, 1.
[250] Yenə orada, VII, 4, 1.
[251] Yenə orada, VII, 13, 2.
[252] Polibi. V, 55.
[253] Girşman. İran Əzağaz ta islam, s. 224.

Antioxun Atropatenaya olan hücumu zamanı Artabaz onunla sülh müqaviləsi bağlamışdır[254].

III Antiox hakimiyyətə keçdiyi dövrə qədər parfiyalılar Midiyanın şərqində olan əyalətləri işğal etmişdilər. Polibinin göstərdiyinə görə Antioxun parfiyalılara qarşı olan hərbi əməliyyatı Hirkaniya ilə Midiya sərhəddində baş vermişdir[255].

Antioxun hakimiyyətinin başlanğıcında Midiya satrapı olan Molon və onun qardaşı, fars əyalətinin satrapı İskəndər Selevkilərin əlində olan torpaqların şərq hissəsində, o cümlədən Babil və Mesopotamiyanı tamamilə işğal etmişdilər[256]. Antiox həmin torpaqları yenidən almaq məqsədi ilə Molonun ordusu ilə vuruşmuş və onun ordularını məğlub etmişdi. Bu hadisədən sonra Molon özünü öldürmüşdür.

Polibinin göstərdiyinə görə Antiox şərqə olan yürüşünü, məhz Midiya ərazisindən başlamışdır. Antioxun bu taktikadan əsas məqsədi ordusunu Ekbatan məbədində mövcud olan ləvazimatla təmin etmək idi[257]. Antiox çoxlu qənimət, o cümlədən sikkə zərbi üçün lazım olan dörd min talant qiymətli metal ələ keçirmişdi[258]. Parfiya ərazisində hakimiyyət başına gələn Arşakilər (müəssisi Arşak olduğuna görə, bu sülalə Arşakilər adlanır) Selevkilərə qarşı ardı-arası kəsilməyən müharibə aparırdılar. Onlar Şərq xalqlarını Makedoniya-yunan zülmündən xilas etmək bayrağı altında Selevkilər əleyhinə mübarizə aparırdılar.

Antioxun hərbi yürüşünün nəticəsində Midiyanın şərq rayonları yenidən Selevki dövlətinin tərkibinə daxil oldu. Atropat Midiyasına gəldikdə, o, özünün vassal olmasını təsdiq etdi. Lakin bu vəziyyət çox da davam etmədi. Belə ki, Selevki hakimiyyəti sürətlə zəifləməyə başladıqda Atropatena dərhal yenidən öz əvvəlki müstəqilliyini bərpa etdi[259]. IV Antioxun vəfatından sonra Midiya satrapı Timarx da özünün müstəqilliyini bərpa edib xüsusi sikkə zərb etməyə başladı[260]. Lakin Midiyanın yaşayış məskənlərində və habelə Selevkilərə qarşı ordu düşərgələrində baş verən üsyanlar nəticəsində uzun müddət davam edən muharibədən sonra (e. ə. 161 - 155) Midiya parfiyalılar tərəfindən işğal edildi[261]. Mənbələrin verdiyi məlumata görə Midiyanın həm strateji mövqeyi, həm də onun iqtisadi üstünlüyü Selevkilərlə parfiyalıların apardıqları müharibədə mühüm əhəmiyyət kəsb etmişdir. Bu ərazi Selevkilərin ordusunun məhv edilməsində mühüm rol oynamışdır[262].

---

[254] Polibi. IX, 27, 34.
[255] Yenə orada, X, 27, 34.
[256] Yenə orada, X, 40, 54.
[257] Yenə orada, X, 27.
[258] Yenə orada.
[259] Girşman. Göstərilən əsəri, s. 245.
[260] М. М. Дьяконов. Очерк истории древнего Ирана. Москва, 1961, с. 183.
[261] Yusti. Göstərilən əsəri.
[262] Yenə orada, XXX, VIII, 10.

Bu zaman Midiya ilə əlaqədar olan digər bir tarixi hadisə nəzəri cəlb edir. O da II Tiqranın hakimiyyəti dövründə Ermənistanın güclənməsindən ibarətdir (e. ə. 93). Tiqran Parfiyanın müvəqqəti zəifləməsindən istifadə edib Midiya ərazisinə hücum etməklə bərabər, həm də Atropatenanı özünə tabe edir. Lakin bu vəziyyət uzun müddət davam etmir.

Strabonun yazdığına görə atropatenalıların parfiyalılar kimi qüdrətli qonşuları olmuşdur. Bu qonşular tez-tez onun vilayətlərini kəsib götürdüklərinə baxmayaraq, atropatenalılar müqavimət göstərmiş və çox vaxt düşmən tərəfindən işğal edilmiş ərazini geri qaytarmışlar[263].

İstər Midiya, istərsə də Atropatena e. ə. I əsrin hadisələrində mühüm rol oynamışdır[264]. Eramızdan əvvəl I əsrin birinci yarısından etibarən Atropatena romalıların nəzər-diqqətini cəlb edir. Onlar Ermənistanda olduğu kimi bu ərazini də özlərinə tabe etməyə cəhd göstərirlər. Romalılar parfiyalılarla aparacaqları yeni müharibədə müvəffəqiyyət əldə etmək üçün bu ərazinin strateji əhəmiyyətə malik olmasını dərk etmişdilər. Parfiyalılarla romalıların siyasi və diplomatik əlaqələrinin kəskinləşdiyi bir dövrdə Antoni (e. ə. 40-cı ildə) özünü Sezarın varisi hesab edib, onun tərəfindən həyata keçirilməyən bütün planların öhdəsindən gələ biləcəyini bildirib fəaliyyətə başladı. Antoni e. ə. 39-cu ildə Kiçik Asiyaya gəldi. Əhəmiyyətsiz bir iş üstündə baş komandanı vəzifəsindən kənar edib, özü baş komandan keçdi. O, Parfiya əleyhinə müharibə aparmaq üçün böyük və geniş plan tərtib etmişdi. Antik müəlliflərin verdiyi məlumata görə Antoninin başçılıq etdiyi ordu sayca olduqca çox idi. Atlı dəstələr ən ağır silahlarla təchiz olunmuş xüsusi hissələrdən başqa onun ordusu 13-dən 18 legiona qədər idi[265] Parfiya çarı IV Fraat Antoninin hücumunu Fərat çayı sahilində gözləyirdi. Ona görə də bütün qüvvəsini Mesopotamiya ərazisində yerləşdirmişdi. IV Fraatın bu hərbi sirrindən xəbərdar olan Ermənistan çarı II Artavazd öz müttəfiqi Antonini xəbərdar edib, ona düzgün istiqamət verdi: parfiyalılar üzərinə şimaldan - Atropat Midiyası ərazisinə hücum etməyi məsləhət gördü.

Ermənistan ərazisində Aptoninin 100 min nəfərdən ibarət qoşun dəstələri toplanmışdı. O dövrdə Ermənistan ərazisində toplaşıb böyük qüvvə olan bu ordu Asiya xalqlarını təşvişə salırdı. Ordu başçıları Antoniyə məsləhət gördülər ki, bu böyük qüvvə Ermənistan ərazisində qışladıqdan sonra yazda Atropatenaya hərəkət edib işğal etsin. Antoni isə ordu başçılarının bu təklifi ilə razılaşmayıb təcili Araz çayını keçərək Atropaten ərazisinə daxil oldu. Bu səfərdə Antoni ilə hərəkət edib, qalauçuran alətləri 10 min əsgəri qüvvə ilə birlikdə gətirən Statian da iştirak edirdi. Antoni Atropat Midiyasının paytaxt şəhəri olan Fraaspaya (Təxt-e Süleymana)[266] təcili çatmaq üçün Statianın komandası altında olan iki möhkəm

---

263 Strabon. Göstərilən əsəri, XI, 13, 3.

264 İsidor Xaraksi. Göstərilən əsəri, 6.

265 A. S. Raulinson. Göstərilən əsəri. X, 184, I, s. 113.

266 Yenə orada.

zirehli legionu geridə qoymuşdu (e. ə. 36-cı ildə). Antoni şəhəri mühasirə etdikdə qalauçuran silahlarla təchiz olunmuş legionları gözləməli oldu. Romalıları izləyən parfiyalılar arxada qalmış hərbi legionlar üzərinə hücum edib onları tamamilə məhv edib qiymətli hərbi ləvazimat olan qaladağıdan alətləri ələ keçirdilər. Antoni bu ağır, gözlənilməz tələfatı bərpa edə bilməyib çıxılmaz vəziyyətə düşdü. Qalauçuran silahların əldən çıxması Antonini Fraaspa şəhərini işğal etmək imkanından məhrum etdi. Şəhəri uzun müddət mühasirədə saxlamaq üçün də o, böyük ordusunu da iqtisadi cəhətdən təmin etmək iqtidarına malik deyildi. Digər tərəfdən yerli əhali (atropatenalılar) düşmənin süvarilərdən ibarət kiçik hərbi dəstələrini də məhv edirdi. Lakin onlar böyük dəstələrə qarşı cürət edib hücum edə bilmirdilər[267].

Çarəsiz qalan Antoni Fraaspa şəhərinin ətrafında çoxlu səngər qurulması əmrini verdi ki, bəlkə bu yolla şəhəri fəth edə bilsin. Lakin onun bu tədbiri də baş tutmadı. Digər tərəfdən Antoni aclığa məruz qalan süvari dəstələrinin bir hissəsini atlarını otarmaq üçün bu şəhərdən birgünlük yol olan otlağa göndərdi. Bu dəstə isə otlaqlara çatmamış, parfiyalıların hücumuna məruz qaldı. Antoni özü də bu süvarilərin içərisində idi. Parfiyalıların şiddətli ox yağdırmalarını görən Antoni piyada əsgərlərə parfiyalılara hücum etmək əmrini verdi. Bu zaman parfiyalılar qəsdən qaçdılar. Bu hadisəni parfiyalıların məğlubiyyəti kimi qəbul edən Antoninin sevinci uzun çəkmədi. Parfiyalılar geri qayıdaraq onun dəstələri üzərinə yenidən hücum edib şəhər ətrafında tikdikləri səngərlərə yaxınlaşmalarına mane olmuşlar. Digər tərəfdən atropatenalılar romalılar tərəfindən mühasirə edilmiş şəhərdən çıxaraq onlarla qarşılaşdılar. Bu toqquşmada romalılar böyük tələfat verib qaçmağa məcbur oldular. Bu məğlubiyyətdən qəzəblənən Antoni şəhərin mühasirəsindən əl çəkdi. Beləliklə, Atropat Midiyasının eramızdan əvvəl baş vermiş I əsrin hadisələrində görkəmli rolu olmuşdur.

Məlum olduğu kimi Antoninin hücumu zamanı Atropat Midiyası romalıların müharibə meydanı olmuşdur. Oranın paytaxtı olan Fraaspanın qəhrəmanlıqla müdafiə edilməsi Antoninin Parfiya ilə apardığı müharibə planının alt-üst edilməsinə səbəb olmuşdur.

Antoni Atropatenadan geri çəkilərkən, özünə yaxın adamlarının məsləhətinə görə düzənliklə deyil, təpəlik və dağlıq rayon yolunu seçmişdi. Bir sıra müəlliflərin məlumatına görə Antoniyə geri çəkilərkən bir nəfər Mardlı əsir bələdçilik edirdi [268]. Roma ordusunun olduqca ehtiyatlı geri çəkilməsinə baxmayaraq, onlar xəstəliyə, aclığa, sərt iqlim şəraitinə, habelə Atropatena və parfiyalıların təqib hücumlarına məruz qalıb tələfata uğrayırdılar.

Atropatenalıların düşmənə qəhrəmancasına müqaviməti Antoninin hiyləgər planlarını puça çıxartdı. Romalılar bu müharibədə həddən artıq itki verdi. Plutarxın yazdığına görə romalılardan bu vuruşmada 20 min piyada, 4 min süvari

---

[267] Plutarx. Antoni, 39.
[268] Həsən Pirniya. İran-e bastan ya tarix-e müfəssəl-e İran-e qədim. Tehran, 1331, s. 2455.

tələf olmuşdu[269]. Çox güman ki, Statianın başçılıq etmiş olduğu legionların sayı yuxarıdakı rəqəmlərə əlavə edilməmişdir.

Velli Peterkulun göstərdiyinə görə romalılar əsas orduların dörddə bir, köməkçi qoşunlarının isə üçdə bir hissəsini itirməmişlər.

Məğlub edilmiş Antoni geri çəkilən zaman Fraaspa şəhərindən Araz çayına qədər olan məsafəni 27 gün ərzində qət etmişdi[270]. Romalılar bu müvəffəqiyyətsiz yürüşdən ibrət götürdülər. Onlara açıq-aydın məlum oldu ki, ermənilər, ancaq öz müstəqilliyini saxlamaq xatirinə Romanın tərəfində onun müttəfiqi kimi çıxış etmişlər. Lakin bu ittifaq etibarsız idi. Onlar öz istiqlaliyyətini qorumaq xatirinə istədikləri vaxt Romanın mənafeyini qurban verməyə hazır idilər. Lakin Antoni biabırçı halda geri çəkildikdən sonra da Parfiyaya hücum planından əl çəkmədi. O, ilk əvvəl yenidən II Artavazdla müttəfiq olmağa cəhd göstərdisə də bu iş baş tutmadı. O, hiylə ilə Ermənistan çarını əsir alıb, öz məşuqəsi olan Misir kraliçası Kleopatraya hədiyyə göndərdi[271], Artavazdın oğlu Artaksi isə Parfiyaya qaçdı. Bu müvəffəqiyyətsizlikdən sonra Antoni IV Fraat və Artaksi tərəfindən sıxışdırılan Atropatena hökmdarı Artavazdın simasında öz müttəfiqini tapmış oldu[272]. Avqust ilə Antoni arasında gedən kəskin mübarizə Antoninin hərbi planlarına son qoymuş oldu.

Parfiyanın daxili vəziyyətinə gəldikdə bu zaman orada hakimiyyəti ələ keçirmək uğrunda IV Fraat və II Tirdat arasında kəskin mübarizə başlanmışdı. Romalıların köməyinə arxalanan II Tirdat bir neçə dəfə Mesopotamiyanı ələ keçirib IV Fraatı qorxutmuşdu. Mesopotamiyada zərb edilmiş sikkələrdən məlum olur ki, IV Fraat ilə II Tirdat arasında gedən şiddətli mübarizə eramızdan əvvəl 27 - 26- cı illərdə baş vermişdir[273].

Bundan sonra mənbələrdə II Tirdatın adına daha təsadüf edilmir. IV Fraat isə yenidən Parfiyanı bütünlüklə öz hakimiyyəti ətrafında birləşdirə bilmişdi. Beləliklə, Atropatena hökmdarı eramızın ərəfəsində romalılarla parfiyalılar arasında gedən kəskin siyasi ziddiyyətlərdən bacarıqla istifadə edib öz müstəqilliyini diplomatik yolla qoruyub saxlamış oldu.

## ATROPATENA ELLİN DÖVLƏTLƏRİ SİSTEMİNDƏ

Makedoniyalı İskəndərin orduları Əhəməni imperiyasına son qoyub geniş bir ərazini özünə tabe etdi. Onların Şərq ölkələrinə olan böyük hücumu zamanı təşkil etdikləri imperiyanı möhkəmləndirmək məqsədi ilə Makedoniyadan, Yunanıstandan və Kiçik Asiyadan bu əraziyə özlərilə külli miqdarda hərbçi,

---

[269] Plutarx. Göstərilən əsəri, s. 50.
[270] H. Pirniya. Göstərilən əsəri, s. 2455.
[271] M. M. Dyakonov. Göstərilən əsəri, s. 217.
[272] Plutarx. Antoni, 50
[273] M. M. Dyakonov. Göstərilən əsəri, s. 218.

sənətkar və tacir gətirməyə başladılar. Gəlmələr işğal etdikləri ölkələrdə özlərinin adət-ənənə, dil, mədəniyyət, ictimai və hərbi qayda-qanunlarını da yaymağa səy göstərirdilər. Beləliklə, imperiyanın tabeliyində olan ölkələrdə Şərq ilə Qərbin xüsusiyyətlərini özündə birləşdirən mədəniyyət yaranmağa başladı. Bu hadisə tarixdə ellin mədəniyyəti adı ilə məlumdur.

Ellinizmin Atropatena və ona qonşu olan ölkələrdə yayılmasını sübut edən bir sıra tarixi sənədlər mövcuddur. Mənbələrdən məlum olduğuna görə Makedoniyalı İskəndər III Daranı məğlub edib, Persepolu ələ keçirdikdə oranın divanxana və xəzinəsində olan sənədlərin bir nüsxəsini əldə edib öz dillərinə tərcümə etdirmişdi. Yerdə qalan və zəruri olmayan tarixi, dini kitab və sənədləri yandırtmışdı. İskəndər və onun canişinləri işğal etdikləri ölkələrin dövlət və elm xadimlərindən öz məqsədləri üçün lazımınca istifadə etmişdilər. Öz növbəsində işğal edilmiş ölkələrin dövlət və elm xadimləri də işğalçıların dilini öyrənməyə və mədəniyyətlərinə maraq yaranmışdı. Xüsusilə şəhər sakinləri, o cümlədən tacir və sənətkarlar onların dillərini öyrənməyə möhtac olduqlarına görə, bir neçə ildə bu vəzifənin öhdəsindən tezliklə gələ bildilər. Beləliklə, Qərb mədəniyyəti ilə Şərq mədəniyyətinin birləşməsinin siyasi, iqtisadi və ictimai təməli qoyuldu.

Yunan dili əsas dillərdən biri kimi qəbul edilmişdi. Parfiya şahı III Artabanın Suz şəhərinə yunan dilində məktub göndərməsi məlumdur. Parfiyalılardan başqa həmin dövrdə Şərqin digər dövlətlərində də yunan dili və ellin mədəniyyəti yayılmaqda idi. Zaqros dağlarında, Kürdüstan ərazisinin Avroman adlanan ərazidən içərisində dəri üzorində yazılmış üç əlyazması olan daş küpün tapılması ellinizmin Atropatenada da yayılmasını sübut edir. Əlyazmalardan ikisi yunanca yazılmış icarə müqaviləsi idi. Müqavilələrdən məlum olur ki, müqavilə bağlayan tərəflərin və onların şahidlərinin adları yunan adı deyildir. Lakin onlar yunan dili və hüquq qaydalarından istifadə etmişlər[274].

E. Minnin göstərdiyinə görə əlyazmalardan biri Parfiya şahı II Mitridatın hakimiyyətinin son dövrlərində (e. ə. 88-ci il), ikincisi IV Fraatın (e. ə. 21-ci il), üçüncüsü isə ondan az sonra yazılmışdır[275].

Ellin mədəniyyəti Şimali Azərbaycan - Albaniya ərazisində də yayılmışdı. Bunu Bərdə və Qəbələdə aşkar edilmiş pul dəfinələri, müxtəlif bəzək əşyaları, bullalar və s. də sübut edir.

Hələ Mingəçevirdə aparılan qazıntılar zamanı torpaq qəbirlərdən boz və qara rəngli gil qab-qacaq əldə edilmişdi. Vazaların forması, dar dibli küplər və digər qablar bu ərazidə yerli mədəniyyətlə ellin mədəniyyəti arasında əlaqə olduğunu güman etməyə imkan verir.

Strabonun göstərdiyinə görə Midiyada makedoniyalılar tərəfindən bünövrəsi qoyulmuş yunan şəhərləri mövcuddur. Onlardan Rey, onun yaxınlığında olan Madikiya, Anageya və s. göstərmək olar. Belə ki, bu şəhərlərin əsası Selevk

---

[274] Məhəmməd Sadiq Keya. Köşt-e dəbire, İran kude № 5, Tehran.
[275] Məhəmməd Sadiq Keyanın tərcüməsi. “Köşt-e dəbire”. Tehran, № 5.

Nikator tərəfindən qoyulmuşdur. Rey şəhəri Kaspi darvazasının cənubunda, ondan 500 stadi aralı olan sahədə yerləşir[276].

Atropatena ticarət yolları vasitəsilə həmin şəhərlərlə daim əlaqədə olmuşdur. Digər tərəfdən Midiya və Atropatenanı ellin mərkəzləri ilə birləşdirən şəhərlər əsasən Baktriya və Hindistana gedən şimal karvan yolu (tarixi mənbələrdə bu yol "Böyük ipək yolu" adı ilə məşhurdur) yanında yerləşirdi. Onun əsas düyün nöqtəsi Ekbatan şəhəri idi. Buradan Bisütun və Zaqros vasitəsilə Selevkiyə şəhərinə və Atropatenanın mərkəz şəhərləri olan Qazaka (Şiz) və Fraaspa vasitəsilə Albaniyaya, İberiyaya, Ermənistana və Qara dəniz sahilinə ticarət yolları uzanırdı. Bu yollar göstərdiyimiz ölkələrin iqtisadi və ictimai inkişafı üçün böyük əhəmiyyətə malik idi. E. ə. II əsrə qədər Qara dənizə doğru gedən yollar üzərində hakimiyyət əsasən Atropatena, qismən də Ermənistan hökmdarlarına məxsus olmuşdur. Bundan başqa Kaspi dənizi, Kür və Rion çayları vasitəsi ilə Qara dənizə gedən ticarət yolu ilə yanaşı Qafqazda başqa su və quru yollar da olmuşdur[277]. Şübhəsiz ki, həmin ticarət yollarının bir qolu cənuba doğru uzanmaqla Atropatenanın mərkəz şəhərlərində şimala doğru gedən yollarla birləşirmiş.

V. F. Minorskiyə görə, İran yaylasının mərkəzi hissəsini Urmu gölünün cənubu (Qazaka və Fraaspa ilə - A. F.) və oranı isə Beynəlnəhreynlə birləşdirən yol böyük əhəmiyyətə malik olmuşdur[278]. Bu ərazidən bir yol da ayrılıb Xəzər dənizi ətrafına doğru gedirdi. Göstərdiyimiz ticarət yolları vasitəsi ilə Çin, Hindistan və Orta Asiya əyalətlərindən, habelə Parfiya və İrandan qərbə (Roma və Yunanıstana) göndərilən malların bir hissəsi Atropatena vasitəsi ilə aparılırdı.

Atropatenada tranzit ticarət üçün əsas yol Ekbatandan Qazakaya gedən karvan yolu idi. Strabonun dediyinə görə, bu yolla dəvələrlə Hindistan və Babilistan malları daşınırdı. Böyük Plininin verdiyi məlumata görə, Qazaka Ermənistanın paytaxtı Artaşatdan 450 min addımlıq (360 kilometr) məsafədə idi. Qazaka ilə Ekbatan arasındakı məsafə də bir o qədər idi[279].

Atropatena şahları Roma, Pont, İberiya, Ermənistan çarları ilə iqtisadi məqsədlə tez-tez dostluq müqaviləsi bağlayırdılar. Ellinizm dövründə ticarət ümumdünya əhəmiyyəti kəsb etmişdi. Çinin, Hindistanın, İranın və digər Şərq ölkələrinin Qərb ölkələrilə olan ticarətinə Atropatena da cəlb edilmişdi. Bir sözlə, dünya ticarətinin inkişafı Atropatenanın dirçəlməsinə kömək edirdi[280]

Arxeoloji qazıntılar zamanı Naxçıvan, Qəbələ, Bərdə, Xınıslı və digər yerlərdən İskəndər və onun canişinləri tərəfindən zərb edilmiş sikkələrin tapılması faktı həmin ərazidə ticarət və pul münasibətlərinin inkişafını göstərən əsas amildir. Atropatenanın təbii-coğrafi şəraitinin əlverişli olması, digər tərəfdən məşhur ticarət

---

276 Strabon. Göstərilən əsəri, s. XI – 13.
277 Z. İ. Yampolski. Göstərilən əsəri, s. 20.
278 V. F. Minorski. Göstərilən əsəri, s. 30.
279 Plini. XVIII, 144.
280 Azərbaycan tarixi, I cild, Bakı. 1958, s. 35.

yolunun bu ərazidən keçməsi, onun iqtisadi inkişafına bilavasitə obyektiv şərait yaratmışdı. Bu cəhətə görə Atropatena həm də qonşu ölkələrin iqtisadi inkişafında mühüm rol oynaya bilmişdi.

Bir sıra mənbələr Atropatenanın mədəni və iqtisadi səviyyəsinin üstünlüyünü qeyd edir. Atropatena bir sıra bitkilərin də vətənidir. O cümlədən atçılığın inkişafında böyük əhəmiyyətə malik olan yonca bu ərazidə əkilirdi. Bu bitkinin toxumu Atropatenadan Avropa və digər ölkələrə aparılmışdır. Plini yoncanı Midiya otu adlandıraraq yazırdı ki, onu (yoncanı) iranlılar Daranın Avropaya qoşun çəkdiyi dövrdə o qitəyə aparmışlar[281]. Atropatenadan Qərb ölkələrinə yun və ipək parça da ixrac olunurdu. Ümumiyyətlə, Atropatena digər ölkələrə görə ellin dövlətləri ilə daha sıx iqtisadi və siyasi əlaqədə olmuşdur.

Beləliklə, arxeoloji tədqiqatların nəticələri Atropatenada ellin mədəniyyətinin geniş yayıldığını söyləməyə imkan verir. Arxeoloji tapıntıların nəticələrini yazılı mənbələr də təsdiq edir. Digər tərəfdən ellin dövlətləri ilə atropatenalıların müntəzəm iqtisadi, ictimai və siyasi əlaqələrin olması istər-istəməz mədəni əlaqələrin də yaranmasına tarixən şərait yaratmışdır.

## ATROPATENA VƏ PARFİYA

Atropatena hökmdarları öz müstəqilliklərini qoruyub saxlamaq xatirinə əvvəllər Selevkilər, sonra isə Roma və Parfiya kimi qüdrətli dövlətlər arasında gedən şiddətli çəkişmələrdən daima istifadə etmişlər. Onlar müəyyən dövrlərdə Selevki, Parfiya, bəzi hallarda isə Romanı müdafiə edirdilər. Bu baxımdan da Atropat Midiyasında Roma münaqişələri bir sıra hallarda atropatenalıların xeyrinə müvəffəqiyyətlə nəticələnirdi. Böyük Midiyaya gəldikdə isə o, iki böyük qrup arasında gedən mübarizələrdə daima parfiyalıların mənafeyini müdafiə edirdi. Vətənlərini yadellilərdən müdafiə edən midiyalılar digər tərəfdən parfiyalılarla dil və etnik nöqteyi-nəzərdən yaxın idilər. Vətənpərvərlik əhval-ruhiyyəsi ilə çıxış edib parfiyalıların tərəfini saxlayan midiyalılar romalılara şiddətli müqavimət göstərmişdir. Məlum olduğu kimi, Atropatena hökmdarı I Artavazd Antoni ilə Fraat arasında olan çəkişmələrdə əvvəllər Fraatın tərəfində olub Antoniyə qarşı vuruşmuş, sonralar qənimətin bölüşdürülməsi üstündə Fraatdan inciyərək Antoninin tərəfinə keçmişdi. Bu səbəbə görə də Fraat Atropatenaya hücum edib I Artavazdı hakimiyyətdən salmışdı. O, Atropatenanın idarə olunmasını müvəqqəti olaraq Ermənistan çarına tapşırmışdı. Belə olduqda I Artavazd məcbur olub Antoniyə pənah gətirmişdi. Bu zaman I Artavazd həm də Antoninin oğlu ilə qohumluq münasibəti yaratmışdı. Antonidən sonra Kiçik Asiyaya gələn Avqust I Artavazdın xidmətini bəyənmişdi. Bu dövrdə Ermənistan hökmdarı Araksın əhali tərəfindən öldürülməsi ilə əlaqədar olaraq Artavazd Ermənistan hökmdarı təyin

---

[281] Plini. XVIII, 144.

edilmişdi. Lakin o, vəfat etdiyinə görə, Avqust onun yerinə oğlu Aryə Bərzənəni Atropatena hökmdarlığına təyin etdi (e. ə. 30 - 20-ci illər). Aryə Bərzənənin romalıların səyi ilə şahlığa çatmasına baxmayaraq o, Parfiya şahının vassalı kimi ona xərac verirdi. Aryə Bərzənənin oğlu II Artavazd Atropatena ilə yanaşı Ermənistana da hakimlik etmişdi.

Ümumiyyətlə, əldə olan faktlar açıqcasına sübut edir ki, Atropat Midiyasında olan siyasi cərəyan romalıların əleyhinə olmuşdur. Misal üçün, Atropatena şahı III Artaban Ərdəvan) (eramızın 10 - 40-cı illəri) ana tərəfdən Parfiyanın şimal-şərq rayonunun zadəgan köçəri tayfasına mənsub olan Arşakilərin kiçik qolunun banisi olmaqla bərabər eyni zamanda romalıların açıq düşməni olmuşdur[282]. Bu hadisə ilə əlaqədar Atropatenada Arşakilərin kiçik qolu yaranmış və bu sülalə Sasanilərin dövründə də hakimiyyətdə olmuşlar.

Korneli Tatsit və İosif Flavinin vermiş olduqları məlumatlardan məlum olur ki, Atropatın tərəfdarları dini ideologiya bayrağı altında mübarizə aparmışlar. Onları narahat edən əsas məsələ Arşakilər hakimiyyətinin romalıların təsiri altına düşməsi olmuşdur. Onlar III Tirtatın (Adtabanın rəqibi və romalılar tərəfindən təyin edilmiş hökmdar) yunanlara yaxın olmasından bərk narazı idilər[283]. Roma əleyhinə aparılan mübarizə Kir və İskəndər dövlətinin yenidən bərpa edilməsi bayrağı altında aparılırdı[284].

Arşaki hakimiyyətini ələ keçirən III Artaban öz qardaşı Vanonu Atropat Midiyasının hökmdarı təyin edir[285]. Məlum olduğu kimi bu dövrdən etibarən Atropat Midiyasında Arşakilərin kiçik qolu hökmranlıq etmişdir[286]. Sonrakı dövrlər haqqında antik müəlliflərin verdikləri məlumatlarda Atropatenaya dair hadisələrin araşdırılmasında alanların həmin əraziyə iki dəfə etdikləri hücumdan başqa digər fakta təsadüf edilmir. Eramızın 72 - 74-cü illəri arasında Xəzər dənizi sahili əyalətlərinə, Atropatenaya alanlar hücum etdilər. Onlar həmin dövrdə Azov ilə Xəzər dənizi arasında olan geniş çölləri ələ keçirdilər. Atropatena hökmdarı Pakor alanlara lazımi müqavimət göstərə bilməmişdi.

75-ci ildə alanlar Parfiyanın içərilərinə doğru hücuma başladılar. Voloqez romalı Vespasiana müraciət edib kömək istədi, lakin onun xahişi romalılar tərəfindən rədd edildi. Vespasian yalnız Roma təsiri altında olan İberiya çarlığının müdafiə qabiliyyətini gücləndirdi[287]. Voloqezin müraciətinin romalılar tərəfindən rədd edilməsinə baxmayaraq Roma ilə Parfiya bir müddət sülh şəraitini qoruyub saxlaya bildilər. Lakin rəqiblər olduqca diqqətlə biri digərini izləyib, fürsət əldə etdikdə ciddi surətdə müqabil tərəfə ağır zərbə vurmaq əzmində idilər. İki böyük

---

[282] Г. А. кошеленко. Культура Парфии, Москва, 1966, с. 50 – 51.
[283] Tatsit. Annalı, II, 2.
[284] Yenə orada, VI, 31.
[285] Г. А. Кошеленко. Внутриполитическая борьба в Парфии. ВДИ, 1963, № 3, с. 56.
[286] Yenə orada, s. 50 – 51.
[287] Г. А. Кошеленко. Внутриполитическая борьба в Парфии. ВДИ, 1963, № 3, с. 50 – 51.

dövlət arasında olan möhkəm sülh özünü doğrultmadı. Onlar parfiyalıların Ermənistan və Fərat çayı hövzəsində olan tam hökmranlığı ilə razılaşmayıb, fürsət əldə etdikdə hücuma keçməyə hazır idilər[288].

Müasir Türkmənistan və Xorasan antik dövrdə Parfiya adlanırdı. I Dara tərəfindən yazılmış Bisütun, Presepol, Nəqş-e Rüstəm kitabələrində bu ad "Pərsəvə", qədim erməni mənbələrində isə "pəhl şahistan" formasında verilmişdir. Xəzər dənizinin cənub-şərqində yerləşən bu ölkə əkinçilik üçün əlverişli olmayan vadilərlə həmsərhəd idi. Ətrafında olan səhralara görə nazik zolaq olan bu ərazi Xəzər dənizindən şərqə doğru uzanırdı[289]. Parfiyanın heç bir vaxt Assur dövlətinə tabe olmadığına baxmayaraq bu ərazi haqqında ilkin məlumata Assur mənbələrində təsadüf edilir. Əhəməni imperiyasının Şimal satraplığını təşkil edən Parfiya I Daranın hakimiyyətə keçməsi ilə əlaqədar Midiyada Fraortanın rəhbərliyi altında baş verən üsyana qoşulub farsların zülmünə qarşı mübarizə aparmışlar.

Eramızdan əvvəl III əsrin ortalarından etibarən Selevki dövləti dağılmağa başlayır. Məhz bu zaman (e. ə. 250-ci ildə) Parfiya dövləti təşəkkül tapır. Bu dövlətin tərkibinə Orta Asiyanın cənub-qərb hissəsi, İranın isə şimal şərqi daxil idi. Parfiya dövlətinin paytaxtı əvvəllər Nisa şəhəri, sonralar isə Ktesifon şəhəri olmuşdur. Ölkəni əsası I Arşak tərəfindən qoyulmuş Arşakilər (Əşkanilər) sülaləsindən olan çarlar idarə edirdi. Geniş ərazinin ayrı-ayrı vilayətlərinin idarəsi isə kiçik çarlara həvalə edilmişdi. Parfiya hökmdarları özlərini şahlar şahı adlandırırdı. Parfiya dövrünü 3 dövrə bölmək olar:

1.Parfiya dövlətinin yaranması və Selevkilərin İran ərazisindən tamamilə qovulması.

2.Parfiya dövlətinin Romaya qarşı apardığı müharibələr.

3.Parfiya dövlətinin tənəzzül dövrü.

Strabonun göstərdiyinə görə Parfiya çox da geniş əraziyə malik deyildi. O, farsların hökmranlığı dövründə (Əhəməni imperiyası nəzərdə tutulur - A. F.) Hirkaniya ilə birlikdə İrana, onlardan sonra isə uzun müddət makedoniyalılara xərac verirdi. Əhəmiyyətsiz dağlıq hissəsinə gəldikdə isə onu qalın meşələr örtmüş və olduqca kasıb ölkədir. Çarları böyuk qoşun dəstələrini az müddət ərzində belə ərzaqla təmin edə bilmirdi. Halbuki indi onların ölkəsi genişlənmişdir. Parfiya ölkəsinə Komisen, Xoren, Kaspi dərvazəsinə kimi olan ərazi, o cümlədən Raqa və tapurların ölkəsi də daxildir[290].

Strabonun göstərdiyinə görə, Atropaten varisləri ermənilərin, suriyalıların, sonralar isə parfiyalıların çarları ilə qohumluq münasibətləri yaratmışdılar[291].

---

[288] Q. Debevols. Arolitikal partiya, Çikaqo, 1938, s. 21.

[289] Bu ərazinin uzunluğu şərqdən qərbə 514, eni şimaldan cənuba 322 kilometrə bərabərdir.

[290] Strabon. Göstərilən əsəri, s. 486.

[291] Yenə orada, XI, 13.

Atropatena şahları öz müstəqilliyini qorumaq məqsədilə bu və ya digər qüvvətli ölkənin şahları ilə iqtisadi əlaqəyə meyl göstərməklə bərabər eyni zamanda həmin ölkələrlə diplomatik və siyasi əlaqə də yaradırdılar.

Əhəmənilər sülaləsinin son nümayəndəsi olan III Daranın Makedoniyalı İskəndərlə sonuncu toqquşması eramızdan əvvəl 331-ci ildə Qavqameldə baş vermişdir. Beləliklə, Əhəməni imperiyası dağıldı və onun ərazisi Makedoniyalı İskəndərin ixtiyarına keçdi. Lakin bu imperiyada Əhəmənilərin dövləti kimi möhkəm deyildi. Ona görə də İskəndərin vəfatından sonra (e. ə. 323-cü ildə) imperiya onun sərkərdələri arasında bölüşdürüldü. Sərkərdələrdən biri olan Selevk, Suriya, Mesopotamiya, İran və Parfiyanın bir hissəsini özünə tabe etdi. Beləliklə, ellin dövlətləri adlanan dövlətlərdən biri - Selevki dövləti təşəkkül tapdı. Selevkilər Suriya, İran və Mesopotamiyanı tabe etdikləri kimi, Atropatenanı da zəbt etməyə cəhd göstərirdilər. Lakin bütün səylərinə baxmayaraq bu işdə onlar müvəffəqiyyət qazana bilmirdilər.

E. ə. 222 - 223-cü illərdə Midiya satrapı Molonun üsyanı baş verən zaman Selevki çarı III Antiox Atropatenaya hücuma keçdi. Atropatena hökmdarı Artabaz düşmənə müqavimət göstərərək onu geri çəkilməyə məcbur etdi.

Artabaz düşməni paytaxt şəhəri olan Selevkiyə qədər təqib etmişdi (e. ə. 220-ci ildə).

E. ə. II əsrdə yaşamış yunan tarixçisi Polibinin yazdığına görə Selevkilər dövləti "Midiya ilə yanaşı olub ondan dağ silsiləsi ilə ayrılır. Onun bəzi hissələri Fasisdən (Rion çayı) yuxarıdakı yerlərdə Pontun (Qara dənizin) üzərində yüksəlir, digər tərəfdən Girkan dənizinə qədər çatır"[292] Atropatena hökmdarı e. ə. 220-ci ildə Selevkilərlə müharibəni qurtarıb onlarla müqavilə bağladı. O, bu müqavilə ilə öz, ərazisini genişləndirdi. Artabazın hakimiyyəti altında Ayrarat vilayətinin baş şəhəri olan Arşavirlə (Onun xarabaları Ermənistan SSR-in Oktamberyan rayonundadır) birlikdə, Araz vadisi də daxil olmaqla Atropatenadan Kolxidaya qədər bir ərazi birləşdirilmişdi[293].

Beləliklə, Makedoniyalı İskəndərin vəfatından sonra onun imperiyası üzərində 3 dövlət yaranmış oldu. Selevkilər, Misirdə Ptolemeylər, Avropada isə Makedoniya və Yunanıstan. Bu üç birinci dərəcəli dövlətlərdən başqa digər dövlətlər də mövcud idi. İskəndər və onun canişinləri bu dövlətlər təhdid etsələr də aradan çıxara bilmədilər.

Bu qisim ölkələr aşağıdakılardan ibarət idi: Atropatena, Ermənistan, Kapadogiya, Pont, Bitiniyyə və Perqam.

Arrianın göstərdiyinə görə Atropat Makedoniyalı İskəndərin III Dara ilə olan son vuruşunda Daranın sərkərdələrindən biri idi. Daranın məğlubiyyətindən sonra o, İskəndərin tərəfinə keçib Midiyanın hakimi olmuşdu. Suz təntənəsində isə

---

[292] Polibi. Göstərilən əsəri, s. 55.
[293] Azərbaycan tarixi, I cild, Bakı, 1958, s. 69 – 78.

İskəndərin sərkərdəsi Perdikka Atropatın qızı ilə evlənmişdi[294]. Perdikkanın dövründə Atropat öz hökmranlığını bir daha möhkəmləndirmiş oldu. Atropatdan sonra onun nəsli 350 ilə yaxın həmin ərazidə hökmranlıq etmişlər.

Məlum olduğu kimi, midiyalıları, kaspiləri, albanları, sakasenləri və digər tayfaları Əhəmənilər öz ordularına cəlb etmişdilər. Midiyalılar və Kaspilər piyada qoşunları ilə yanaşı, həm də donanmada xidmət edirdilər. III Dara İskəndərlə müharibə etmək üçün bütün əyalətlərdən hərbi qüvvə toplamışdı. Daranın ordusunda o dövrdə Kiçik Midiya satrapı olan Atropatın komandanlığı altında Midiya atlılarından təşkil olunmuş böyük bir süvari dəstəsi olmuşdur.

Beləliklə, müstəqil Atropatena dövləti Atropatın başçılığı ilə eramızdan əvvəl 223-cü ildən etibarən təşkil edilmişdi. Bu sülalə eramızın III əsrinin I rübünə kimi hakimiyyətdə olmuşdur.

Parfiya şahlarının Atropaten nəslindən olan qolu:

III Artabanın anası parfiyalı IV Fraatın qızı, atası isə Atropatın nəslindən olmuşdur. Beləliklə, III Artabandan etibarən Parfiya şahları Atropatın nəslindən olmuşlar.

IV Artaban Ermənistanın da şahı olmuş Pakor.
(Atropatenanın şahı)
Tirdat
Balaş (Valaqez)
Xosrov
II Pakor
II Balaş
III Balaş
IV Balaş
V Artaban
VI Balaş

Atropatena (e. ə. 250, eramızın 224-cü illəri) demək olar ki, tam müstəqil olmuşdur. Lakin Atropatena şahları bəzi hallarda öz istiqlaliyyətini qorumaq məqsədi ilə Parfiya şahlarına az miqdarda vergi verməli olurdular. Bundan başqa müharibə zamanı əsgəri qüvvə ilə də onlara kömək edirdilər. Parfiya şahları bunun müqabilində bu vilayətin qayda-qanunlarına toxunmayaraq, həm də onların daxili işlərinə qarışmırdılar. Bəzi hallarda Atropatena şahları ölkəni Parfiya işğalından qorumaq məqsədilə romalılarla ittifaqa girdilər. Romalılar hələ birinci dəfə eramızdan əvvəl 190-cı ildə III Antioxun dövründə Asiya qitəsinə qədəm qoyub, Termopol döyüşündə Antioxu məğlub etmişdilər. Lakin onlar sülh bağladıqdan sonra geri çəkilmiş və e. ə. 92 - 91-ci illərə qədər Asiya qitəsinə gəlməmişlər. Selevkilər parfiyalıların ardı-arası kəsilməyən hücumlarına tab gətirə bilməyib məğlubiyyətə uğradıqdan sonra istər-istəməz işğal etdikləri ərazilərdən əl çəkməli

[294] Arrian. Göstərilən əsəri, XXIX, 29, 30.

oldular. Bu müharibələrdə atropatenalıların böyük rolu olmuşdur. Belə ki, e. ə. 222 - 220-ci illərdə III Antioxun Atropatenaya hücumu Artavazd tərəfindən dəf edilmiş, eyni zamanda atropatenalılar əks hücuma keçib düşməni paytaxt şəhərləri olan Selevkiyə kimi təqib edib sülh bağlamağa məcbur etmişlər. Lakin Selevkilərin süqutundan sonra Asiya qitəsinə yeni və güclü bir işğalçı olan romalılar gəlməyə başladılar. Selevkilərə qarşı Ermənistan çarı olan Artavazd da üsyan qaldırmış, lakin məğlub edilmişdi. Onun ərazisi yenidən Selevki dövlətinin ixtiyarına keçmişdi. E. ə.189-cu ildə isə Ermənistan hakimi Artaşes Selevki hökmdarlığına qarşı apardığı mübarizədə qalib kələrək ölkəsində müstəqil dövlət yaratmışdı. Lakin bir qədər keçdikdən sonra, e. ə. 55-ci ildə Parfiya şahı I Mitridat Ermənistan ərazisini işğal etdi. I Mitridat Ermənistanın idarəsini öz qardaşı Valarşaqa tapşırmışdı. Beləliklə, Ermənistanda Parfiya mənşəli Arşakilər dövləti yaranmışdı. E. ə. 64-cü ildə isə Kiçik Ermənistan romalılar tərəfindən işğal edildi. Bu tarixdən etibarən Ermənistan uğrunda iki böyük dövlət arasında mübarizənin təməli qoyuldu.

Parfiya şahı II Mitridat (e. ə. 123 - 88-ci illər) öldükdən sonra Parfiyanın daxilində baş vermiş çəkişmələrdən istifadə edən II Tiqran Ermənistanı müstəqil elan etdi və bir müddət Atropatenanın da bir hissəsini özündən asılı vəziyyətə saldı. Parfiya çarı isə qocaldığına və daxili çəkişmələrdən ehtiyat etdiyinə görə II Tiqrana müqavimət göstərməkdən imtina etdi. Digər tərəfdən Romaya qarşı istər Pont çarı Mitridatın və istər II Tiqranın müttəfiqi olmaq təklifini də rədd etmiş, Roma ilə Pont və Ermənistan arasında aparılacaq müharibələrdə bitərəf qaldığını bildirmişdi.

Romalılar e. ə. 69-cu ildə Lukullun komandanlığı altında Pont çarı Mitridat Evpatorun qoşunlarını məğlub edərək Ermənistana basqın etdilər. İberiya, Albaniya və Atropatenanın da zəbt edilməsi qorxusu yarandı. Lukull Ermənistanın paytaxtı Tiqranakert şəhərini mühasirəyə aldı. Erməni çarı II Tiqranın müttəfiqləri olan atropatenalıların, albanların və iberlərin böyük hərbi dəstələri onun köməyinə gəldilər. Plutarxın göstərdiyinə görə hökmdarlar əli silah tuta bilən bütün midiyalılardan və albanlardan ibarət xalq qoşunları ilə buraya gəldilər. Babil yaxınlığında olan dənizdən çoxlu ərəb, Kaspi dənizindən isə külli miqdarda alban və onların qonşuları gəldilər. Həmçinin Araz boyunda yaşayan müstəqil tayfalardan da az adam gəlməmişdi[295]. Tiqranakert altındakı döyüşdə ermənilərin, atropatenalıların və iberlərin birləşmiş qoşunları düşmənə şiddətli müqavimət göstərdilər. Onlar romalılar üzərinə ox yağdırır, yanar neft tökürdülər. Plutarxın göstərdiyinə görə, atropatenalıların və albanların dəstələri müttəfiqlər ordusunun olduqca böyük hissəsini təşkil edirdi. Belə ki, Tiqranakert yaxınlığındakı döyüşdə müttəfiqlər ordusunun sağ cinahı Midiya qoşunları adlanan qoşunlardan ibarət idi. Buna baxmayaraq, Lukull Tiqranakerti aldı; lakin e. ə. 67-ci ildə Roma qoşunları

[295] Plutarx. Antoni, XXX, VIII.

böyük itki verərək müttəfiqlərin təzyiqi altında tezliklə Ermənistandan çəkilməyə məcbur oldular. Roma senatı Lukullu komandanlıqdan kənar edərək buraya məşhur sərkərdə Qney Pompeyi göndərdi[296].

Eramızdan əvvəl 66-cı ildə Roma qoşunlarının Ermənistan və onunla qonşu olan ölkələrə yeni hücumu başlandı. Romalılar II Tiqranın qüvvələrini məğlub edərək, onu təslim olmağa məcbur etdilər. İşğalçılar Kaspi dənizi sahilində möhkəmlənməyə çalışır və Albaniyadan keçib Hindistana gedən ticarət yolunu zəbt etmək istəyirdilər. Plini bu haqda yazır ki, Pompeyin yürüşü zamanı təsdiq edilmişdi ki, yeddi gün ərzində Hindistandan Baktriyaya, Oks (Amu Dərya) çayına tökülən Bentra (Belxa) çayına və bu çaydan Kaspi dənizinə, ordan Kir (Kür) çayına qədər gəlmək, buradan isə Hindistan mallarını beş gündən az müddətə quru yolla Ponta və Fazisə çatdırmaq olar. Görünür, romalılar Parfiya dövlətinə şimaldan zərbə endirmək və Asiyanın içərilərinə doğru irəliləmək üçün Albaniya ərazisindən istifadə etmək istəyirmişlər[297].

Romalılar Kaspi dənizinin sahillərinə çatmağa dəfələrlə cəhd göstərmiş olsalar da müvəffəqiyyətsizliyə uğramışlar. Onlar bu işi görməkdən iki məqsəd qarşıya qoymuşdular. Birinci məqsəd Asiyanın içərilərinə soxulub Hindistana gedən ticarət yollarını, digər tərəfdən isə gələcəkdə Hindistanın özünü işğal etmək. İkinci məqsəd isə, Parfiya dövlətinə şimaldan zərbə endirmək idi.

E. ə. 36-cı ildə Antoni 100 min nəfərlik ordu ilə Ermənistan ərazisini işğal etdikdən sonra isə Atropatenaya hücuma başladı. Romalıların 13 legionuna qarşı Parfiya çarı IV Fraat 50 minlik ordu çıxara bilmişdi. Atropatena şahı Artavazd bu müharibədə böyük rol oynaya bildi. O, romalılara qarşı IV Fraatın tərəfində çıxış edirdi. Ermənistan ərazisində toplanmış Antoninin 100 min nəfərlik qoşun dəstəsi o dövrün ən böyük hərbi qüvvəsi olmaqla bərabər bütün Asiyanı təşvişə salmışdı. Ordu başçıları Antoniyə məsləhət gördülər ki, bu böyük qüvvə Ermənistan ərazisində qışladıqdan sonra, yazda Atropatenaya hücum edib qarət etsin. Antoni isə ordu başçıları ilə razılaşmayıb təcili Araz çayını keçərək Atropatena ərazisinə daxil oldu.

Atropatena şahları 350 ilə yaxın müstəqil hökmranlıq etmişdilər. Onlar öz ölkəsini yadellilərin hücumundan qurtarmaq üçün bu və ya digər qüvvətli dövlətlə iqtisadi siyasi əlaqəyə girirdilər. O dövrün ən güclü dövlətlərindən olan Parfiya və Roma bu qəbildəndir. Antoni Atropatenaya hücum edən zaman atropatenalılar dərhal parfiyalıların müttəfiqi kimi romalılara qarşı vuruşdular. Bu müharibə Atropatena ərazisində baş verdiyinə görə müharibənin əsas ağırlığı atropatenalıların üzərinə düşdu. IV Fraatın qoşun dəstələrinin romalılara qarşı arabir hücum etmələrinə baxmayaraq onlar bu müharibədə həlledici rol oynaya bilmədi. Atropatenanın hər iki paytaxt şəhəri işğalçıların hücumuna məruz qalmışdı.

---

[296] Plutarx. Antoni, XXX, VIII.
[297] Yenə orada.

Atropatenalılar bəzən də romalılarla qohumluq əlaqəsi yaradıb Parfiya şahlarına qarşı ittifaq bağlayırdılar. Hər halda atropatenalıların başqa ölkələrə nisbətən parfiyalılarla iqtisadi və ictimai əlaqələri daha möhkəm və səmimi olmuşdur.

Məlumdur ki, Selevkilərdən sonra İran yaylasında ən qudrətli dövlət Parfiya dövləti olmuşdur. Parfiyalıların əsas peşəsi maldarlıq və qoyunçuluq olmuşdur.

Lakin onların yaşadıqları susuz, otlaqsız və böyük qumsallıqlara malik olan geniş ərazi maldarlıq, habelə qoyunçuluq təsərrüfatının inkişaf etdirilməsi üçün olduqca əlverişsiz idi. Parfiyalılar yarımköçəri həyat sürür, vaxtlarını müharibələrdə, yeni otlaqlar axtarmaqda, qonşu tayfaların hesabına varlanıb yaşamaqda keçirirdilər. Təqribən 500 ilə yaxın geniş bir ərazidə hökmranlıq etmiş parfiyalılar Yaxın və Orta Şərq xalqları ilə daima iqtisadi-ictimai və siyasi əlaqədə olduqları kimi, uzun müddət atropatenalılarla da iqtisadi-ictimai, habelə siyasi münasibətdə olmuşlar. Belə bir qarşılıqlı əlaqə çox hallarda atropatenalıların xeyrinə olmuşdur.

## ATROPATENANIN ROMA İŞĞALÇILARINA QARŞI MÜBARİZƏSİ

Atropatena öz təbii-coğrafi şəraiti ilə şöhrət qazanmışdı. Bu da yadelli işğalçıların nəzərlərini cəlb edirdi. Atropatenanın qiymətli metal mədənləri və maldarlıq, xüsusən atçılığın inkişafına bilavasitə şərait yaradan zəngin otlaqlara, əlverişli və hərbi strateji mövqeyə malik olması böyük dövlətlər tərəfindən onun işğal edilməsi amillərindəndir. Bu səbəbə görə də bir müddət Əhəməni imperiyası, sonralar Selevkilər, parfiyanlar və nəhayət, romalılar oranı işğal etməyə səy göstərmişlər. İlk dəfə Pompey Mitridatı təqib edən zaman Kür çayına qədər gəlib alban tayfaları ilə vuruşdu. Strabonun qeyd etdiyinə görə romalılarla vuruşda albanlar o zaman böyük qüvvə - 60 min piyada, 22 min süvari çıxarmaq iqtidarına malik idilər. Onlar düz qılınclarla, nizələrlə, cidalarla, yay və oxlarla silahlanmış və zirehli paltar geymişlər. Silahlanma səviyyəsinə görə albanlar iberlərdən və ermənilərdən geri qalmırdılar[298].

Roma imperiyası sərkərdə Antoni ilə Avqust arasında bölüşdürüldükdə Şərqi Roma imperiyası Antoninin payına düşmüşdü. O, İranı işğal etmək məqsədilə 100 min nəfərlik qoşunla Ermənistandan keçib Atropatenaya soxuldu. Bu vaxt Parfiya dövlətinin daxilində hakimiyyət uğrunda çəkişmə gedirdi.

Antoni Ermənistan ərazisində öz qoşununu gözdən keçirdi. 100 min nəfərlik bu ordu Asiya xalqlarını təşvişə salmışdı. Antoni Ermənistan şahını özünə tabe edib onun ordularının da atropatenalılara qarşı vuruşmalarını tələb etdi.

---

[298] Strabon. Göstərilən əsəri, XI, 4, 5.

Artavazd isə məcburiyyət qarşısında öz ordularını Antoninin ixtiyarına verdi. Antoninin sərkərdələri ona məsləhət gördülər ki, bu böyük qüvvə Ermənistan ərazisində qışladıqdan sonra yazda Atropatenaya hərəkət edib oranı işğal etsin[299]. Antoni isə ordu başçılarının bu təklifini rədd edib təcili Araz çayını keçib Atropatena ərazisinə daxil oldu. Antoninin bu səfərində Statyanusun başçılıq etdiyi 10 min nəfərlik əsgəri qüvvə və qalauçuran alətlər də olmuşdur. Antoni Atropatena hökmdarlarının qış iqaməti yerləşən Verranı hücumla aldıqdan sonra Fraaspaya tərəf hərəkət etməyə başladı.

Geridə qalan Statyanusun orduları parfiyalıların ağır zərbələrinə məruz qalıb darmadağın edilməklə özü də onlar tərəfindən öldürüldü [300]. Antoni Atropatenanın dağlıq hissəsi ilə deyil; düzənliklərdə Fraaspa şəhərinə yaxınlaşırdı. Fraaspa coğrafi cəhətdən möhkəm və əlverişli strateji mövqeyə malik olan ərazidə yerləşirdi. Son zamanlarda müasir Təxt-e Süleymanda aparılan arxeoloji qazıntılar nəticəsində atropatenalıların yay iqaməti yerləşən Fraaspa şəhərinin yerində möhkəm bir qalanın divarları aşkar edilmişdir. Antoni atropatenalılar tərəfindən məhz bu qala ətrafında məğlub edilmişdir. Antoni Fraaspa şəhərini mühasirə etdi. Şəhərin uca hasarlarına yaxınlaşdıqda mühasirə alətlərini, mancanaqları özü ilə gətirmədiyinə peşman oldu.

Şəhərin divarları ətrafında çoxlu səngər tikdirdi ki, bəlkə şəhəri mühasirədə saxlayıb onu fəth edə bilsin.

Yeni hakimiyyətə keçmiş Parfiya şahı IV Fraat böyük bir qüvvə ilə Statyanusun 10 min nəfərlik ordusunu darmadağın etdikdən sonra Antonini izləyirdi. Şəhərin Antoni tərəfindən alınması uzanırdı. Havalar get-gedə soyumağa başlayırdı. Digər tərəfdən Antoninin 100 min nəfərlik ordusunun azuqə ehtiyatı qurtarmaq üzrə idi. Ermənistan çarına gəldikdə o, şəhərin alınmasının uzandığını görüb, 16 min nəfərlik ordusu ilə Ermənistana geri qayıtdı.

Ermənistan şahı Artavazd Antoninin bu səfərdə müvəffəqiyyət qazana bilməyəcəyini əvvəlcədən bilirdi. Ona görə də onun Atropatena üzərinə payız fəslində hücum etməsi əleyhinə idi. Digər tərəfdən Fraaspa şəhərinin atropatenalılar tərəfindən möhkəm müdafiə edildiyini və parfiyalıların düzənlikdə göstərəcəyi hərbi məharəti qabaqcadan dərk edirdi. Nəhayət, Antoni məğlub edildikdə ölkəsinin gələcək müqəddəratı onu düşündürməyə bilməzdi. Antoni azuqənin azaldığını nəzərə alıb süvari dəstələrinin bir hissəsini atlarını otarmaq və piyada hissələrinə azuqə əldə etmək məqsədi ilə Fraaspaya birgünlük yol olan otlaqlara göndərmişdi. Bu dəstə otlaqlara çatmamış parfiyalıların hücumlarına məruz qaldı. Parfiyalıların şiddətli ox yağdırmalarını görən Antoni piyada əsgərlərə parfiyalılara hücum etmək əmrini vermişdir. Bu zaman parfiyalılar adətləri üzrə qəsdən qaçmışlar[301]. Bu hadisəni görən Antoni sevinmişdi. Lakin parfiyalılar geri

---

[299] Plutarx. Antoni, XXX, VIII.
[300] Yenə orada.
[301] Abbaspur Məhəmmədəli şuştəri. Göstərilən əsəri, s. 109.

qayıdaraq Antoninin dəstələrinə təkrar hücum etmiş, onların Fraaspa ətrafında olan səngərlərə dolmalarına mane olmuşlar. Belə bir vəziyyəti müşahidə edən atropatenalılar (şəhərin müdafiəçiləri) Fraaspanın qapılarını açaraq romalılar üzərinə gözlənilmədən hücum etmişlər. Vuruşmada atropatenalıların cəsarətli hücumlarını görən romalılar ağır tələfat verdikdən sonra qaçmağa məcbur olmuşlar. Bu məğlubiyyətdən qəzəblənən Antoni, bütün ordunun toplanması və onların 12 - 12 sıraya düzülməsi, hər 12 nəfərdən birinin "püşk atmaqla" öldürülməsi əmrini vermişdir. Antoni geri çəkilən zaman düzənliklə deyil, dağ yolu vasitəsilə canını qurtarmağa səy göstərmişdir. Lakin dəhşət içərisində özünü itirən Antoni yolu tanımadığına görə bir nəfər mardlı bələdçilik edib onu Araz çayı sahilinə çıxarmışdır. Antoni Fraaspa ətrafından Araz çayına qədər olan məsafəni 27 gün ərzində qət edə bilmişdir. Bir sıra tarixçinin yazdığına görə Antoni Atropatena vuruşmasında 20 min piyada və 4 min süvari itirmişdir[302].

Plutarxın yazdığına görə Antoni Atropatenada 10 min nəfərlik döyüşçü itirmişdir[303]. Romalılar Fraaspa şəhərini mühasirə edib ala bilmədilər. Qışın yaxınlaşmasını görən Antoni qələbə ümidindən əl çəkərək danışıqlar aparmağa və geri çəkilməyə məcbur oldu. Bu məqsədlə Antoni öz elçilərinə demişdir: "Mən Fraatdan parfiyalılar tərəfindən ələ keçirilmiş Roma bayraqları və əsirlərdən başqa heç bir şey istəmirəm". IV Fraat isə Antoninin bu təklifini rədd etmişdir. Lakin Fraat Roma ordusu geri çəkilən zaman onlara mane olmayacağını bildirmişdir[304]. Bu vədə baxmayaraq Roma orduları geri çəkilən zaman Atropatena və Parfiya orduları romalıları təqib etməyə başlamışlar.

Dion Kassinin yazdığına görə, Antoni ilk hücumunu Beynəlnəhreyndən Krassın gəldiyi yol ilə başlamaq istəyirdi. Lakin o, e. ə. 37-ci ildə Fərat çayının sahilinə yetişdikdə parfiyalıların hazırlıq işlərini görüb, buradan keçməyin mümkün olmadığını nəzərə alaraq Ermənistana tərəf hərəkət etmiştir[305].

Antoni bu vuruşda 20 min piyada, 4 min süvari, o cümlədən 10 min Statyanusun ordusu və 7 - 8 min nəfər isə acından həlak olanı itirmişdir ki, tələfatın hamısı birlikdə 42 min nəfərə çatır. Antoni Atropatena ərazisini tərk etdikdən sonra, Artavazd ilə IV Fraat arasında əldə edilmiş qənimətlərin bölüşdürülməsində kəskin mübarizə başlayır. Bu vəziyyətdən istifadə edən Atropatena hökmdarı parfiyalılardan üz döndərib romalılarla müttəfiq olmaq üçün öz elçilərini Antoninin yanına göndərir. Antoni Atropatena elçilərini hörmətlə qarşılayır və onlarla Parfiya əleyhinə ittifaq bağlayır. Romalılarla atropatenalılar arasında ittifaqı möhkəmləndirmək məqsədi ilə dövrün adətinə görə hər iki dövlət qohumluq əlaqəsi yaradır. Artavazd öz qızı Yutapanı Antoninin oğlu İskəndərə ərə verir.

---

[302] Plutarx. Antoni, XXXIII.
[303] Yenə orada.
[304] Yenə orada.
[305] Dion Kassi. XXXIX, kitab; 25-ci bölmə.

Beləliklə, Roma ilə Atropatena arasında olan iqtisadi-siyasi əlaqələr bir daha möhkəmlənir.

E. ə. 35-ci ildə Antoni Ermənistan çarı Artavazda məktub göndərir. Bu vaxt Ermənistan çarı Artavazd tamamilə parfiyalıların təsiri altında idi. Buna görə də o, Antoninin məktubuna cavab vermir.

E. ə. 34-cü ildə Antoni yeni ordu ilə qəflətən Ermənistan ərazisinə daxil olur. Ermənistan çarı cürət edib müqavimət göstərə bilmədiyi üçün Antoninin yanına gedir. Antoni isə onu həbs edir[306]. Antoni Atropatena şahının qızını oğluna alıb toy etdikdən sonra Atropatena şahı Artavazdı götürüb Ermənistan ərazisini qarət edir, sonra isə özü Misrə Kleopatranın yanına qayıdır[307]. Antoni e. ə. 32-ci ildə yenidən Araz çayına qədər gəlib Atropatena şahı Artavazd ilə dostluq müqaviləsini təzələmişdir [308]. O, ikinci dəfə Atropatena sərhəddindən uzaqlaşdıqdan sonra IV Fraat Ermənistan şahının oğlu Artakezyas ilə birlikdə Atropatenaya hücum etmişdir. Birinci döyüşdə məğlub olmasına baxmayaraq IV Fraat ikinci vuruşda Atropatena şahı Artavazdı məğlub edib, oranı işğal etmişdir. Bu zaman Artakezyas da Ermənistanı ələ keçirib, orada olan Roma ordularını dağıtmışdır. Beləliklə, e. ə. 32-ci ildə Atropatena yenidən parfiyalılara vergi verməli olmuşdur.

Lakin bu hadisə uzun sürməmiş, IV Fraat hakimiyyətdən əl çəkdikdən sonra atropatenalılar parfiyalılara vergi verməkdən boyun qaçırıb yenidən müstəqil siyasət aparmışlar [309]. Eramızın 2 - 5-ci illərində anası parfiyalı, atası isə atropatenalı olan III Artaban hakimiyyət başına keçdikdən sonra Atropat nəslindən olan o, bütün İrana şahlıq etmiş qardaşı Pakoru isə Atropatena hökmdarı təyin etmişdir. Beləliklə, Artabandan etibarən Parfiya hakimiyyəti Atropat sülaləsinə keçmişdir. Atropatena hökmdarları parfiyalılarla romalılar arasında gedən çəkişmələrdən məharətlə istifadə edib öz ölkələrinin iqtisadi-siyasi və mədəni müstəqilliyini qoruyub saxlaya bilmişdilər.

Digər tərəfdən atropatenalılar bir çox hallarda qonşuları olan ermənilərlə də qohumluq və diplomatik əlaqə yaratmışdılar.

## ATROPATENADA ARŞAKİLƏRİN KİÇİK QOLUNUN HAKİMİYYƏTİ

Atropaten Midiyası Makedoniya müharibələrindən sonra Midiyadan ayrılıb onun digər əyalətlərindən fərqli olaraq öz müstəqilliyini saxlaya bilmişdir. Polibinin[310] göstərdiyinə görə III Antiox (e. ə. 223 – 222) Midiya satrapı Molonu

---

306 Strabon. Göstərilən əsəri, XI, 13, 15.
307 История армянского народа. Аипетрат, Ереван, 1951, с. 47.
308 Yenə orada.
309 Abbaspur Məhəmmədəli şuştəri. İrannamə, Tehran, 1321, s. 103.
310 Polibi. V, 55.

və onun qardaşı Aleksandrı məğlub etdikdən sonra Atropaten Midiyasına hücum etmişdir. Atropatena çarı Artabazan düşmənə müqavimət göstərərək onu geri çəkilməyə məcbur edib onları paytaxt şəhərləri olan Selevkiyə qədər təqib etmişdir. E. ə. 220-ci ildə Atropatena çarı Artabazan Selevkilərlə müharibəni qurtarıb onlarla sülh müqaviləsi bağladı. Bu müqaviləyə görə Atropatena ərazisi xeyli genişlənmiş oldu. Belə ki, Ayrarat vilayətinin baş şəhəri olan Armavirlə birlikdə Araz vadisi Atropatenanın tərkibinə daxil edildi; ərazisi Kolxodiyaya kimi gedib çatdı.

Arşakilər ilk növbədə özlərini Şərq xalqlarının xilaskarı kimi göstərib, Selevkilərə qarşı həmin xalqların gücündən istifadə edirdilər.

Yustinin göstərdiyinə görə VII Antioxun dövründə Selevkilərlə Arşakilər arasında gedən müharibələrdə Böyük Midiya görkəmli rol oynamışdır[311]. Bu müharibələrdə Arşakilər bir neçə dəfə məğlub edilmişdir. VII Antiox parfiyalıları yer üzündən silib məhv etməyi qarşıya məqsəd qoymuşdu[312].

VII Antiox öz hərbi regionlarını parfiyalıların geri çəkildiyi rayonlarda yerləşdirmişdi. Regionların yerləşdiyi yaşayış məntəqələrində baş verən üsyanlar Selevkilərin məhv edilməsində mühüm rol oynamışdır.

Böyük Midiyaya gəldikdə o, iki böyük dövlət arasında gedən mübarizələrdə daima parfiyalıların mənafeyini müdafiə edirdi. Midiyalılar isə ilk növbədə "vətənpərvərlik" əhval-ruhiyyəsi ilə öz torpaqlarını yadelli işğalçılardan təmizləmək, digər tərəfdən isə parfiyalılarla dil və etnik nöqteyi-nəzərdən yaxın olduqlarına görə müdafiə edirdi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, e. ə. I və eramızın I əsrində baş vermiş mühüm tarixi hadisələrdə Atropaten Midiyası, habelə Böyük Midiya böyük rol oynamışlar. Eramızdan əvvəl I əsrin hadisələrində parfiyalılarla romalılar arasında gedən müharibələrdə Atropaten Midiyası, mühüm rol oynamışdır. Belə ki, eramızdan əvvəl 36-cı ildə Antoninin Atropatenaya hücumu zamanı Qazaka şəhərinin atropatenalılar tərəfindən qəhrəmancasına müdafiəsi və bu müharibədə Antoninin 100 min nəfərlik ordusunun məğlub edilməsi romalıların parfiyalılarla aparacaqları müharibənin planını alt-üst etmişdir.

Ümumiyyətlə, Atropatena hökmdarları öz müstəqilliyini qoruyub saxlamaq xatirinə böyük qüvvələrin ilk növbədə selevkilər, sonralar isə parfiyalılar və romalılar arasında gedən şiddətli çəkişmələrdən daima istifadə etmişlər.

Atropatenalılar Parfiyanı, bəzi hallarda isə Romanı müdafiə edirdilər. Atropaten müəyyən vaxtlarda Roma intriqaları bir sıra hallarda müvəffəqiyyət qazana bilmişdir. Belə ki, I Artavazd Antoni ilə IV Fraat arasında olan müharibələrdə ilk növbədə Fraatın tərəfində olub Antoniyə qarşı vuruşmuşdu, sonralar qənimətin bölüşdürülməsi üstündə IV Fraatdan inciyib Antoninin tərəfinə keçmişdir. Bununla əlaqədar IV Fraat Atropatenaya hücum edib I Artavazdı

---

[311] Yusti. XXX, VIII, 10.

[312] Е. Бикерман. Государство Селевкидов. Москва 1985, с. 36.

hakimiyyətdən qovmuşdu. I Artavazd isə bu hadisədən sonra Antoniyə müraciət etmiş, həm də onunla qohumluq əlaqəsi yaratmışdır. Antonidən sonra Kiçik Asiyaya gələn Avqust I Artavazdın xidmətlərini bəyənmiş, onu Atropatenadan başqa, həm də Ermənistan hökmdarı təyin etmişdir. I Artavazd vəfat etdikdən sonra Avqust Atropatena hökmdarlığını onun oğlu Aryabarzana tapşırır. Eramızın 20 - 30-cu illərində II Artabarzan romalıların səyi ilə şahlığa çatmasına baxmayaraq, o, parfiyalılardan asılı vəziyyətə düşmüş və onlara xərac verməyə məcbur olmuşdu. II Aryabarzanın oğlu II Artavazd Atropatena ilə yanaşı Ermənistana da şahlıq etmişdir.

II Artavazdan sonra Atropatenanın daxili və xarici siyasətində mühüm dəyişikliklər baş vermişdir. Belə ki, eramızın I əsrinin birinci yarısından etibarən Atropatenada Arşakilərin kiçik qolu hakimiyyət başına gəlmiş və bu sülalə Sasanilərin dövründə də hakimiyyət başında olmuşdur. Bu hadisədən sonra Atropaten Midiyasında olan siyasi cərəyanlar büsbütün romalıların əleyhinə olmuşdur. Arşakilər hakimiyyətini ələ keçirən II Artaban öz qardaşı Vanonu Atropaten Midiyasının hökmdarı təyin edir. Eramızın 10 - 40-cı illərində hakimiyyət sürmüş Atropaten Midiyasının şahı III Artaban (Ərdəvan) ana tərəfindən Parfiyanın şimal-şərq zonasında yaşayan zadəgan köçəri tayfasına mənsub olmuş, atası isə Atropatena şahı idi. III Artaban Atropaten Midiyasında Arşakilər sülaləsinin kiçik qolunun banisi sayılır. O, romalıların barışmaz düşməni olmuşdur. Beləliklə, Atropatın nəsli Artavazdan sonra Atropaten Midiyası ilə yanaşı bütün İrana və ona tabe olan əyalətlərdə də hökmranlıq etmişlər.

Antik müəlliflərin Midiya və Atropaten Midiyasının sonrakı dövrləri haqqında olan məlumatlarında ancaq alanların həmin əraziyə iki hücumuna təsadüf edilir. Alanlar eramızın 72 - 74-cü illəri arasında Xəzər dənizi sahilində olan əyalətlərə, o cümlədən Atropatenaya basqın etdilər. Alanlar bu zaman geniş ərazi olan Azov dənizi ilə Xəzər dənizi arasında olan ərazidə yaşayırdılar. Arşakilərin nəslindən olan Atropaten Midiyasının hökmdarı Pakor da alanların hücumlarının qarşısını ala bilməmişdi. Parfiya çarı Valagez (Balaş) əlacsız qalaraq bu böyük təhlükənin qarşısını almaq üçün parfiyalılara düşmən olan Roma imperatoru Vespasiana müraciət edib kömək istədi. Romalılar parfiyalıların müraciətinə mənfi cavab verib, alanlar əleyhinə vuruşmada onlara kömək etmədilər. Valagezin müraciətinin romalılar tərəfindon rədd edilməsinə baxmayaraq romalılarla parfiyalılar bir müddət sülh şəraitində yaşadılar. İki böyük dövlət arasında olan sülh uzun müddət davam etmədi. Romalılar parfiyalıların Ermənistan və Fərat çayı hövzəsində olan tam hökmranlığı ilə razılaşmayıb Arşakilər üzərinə hücum etmişdilər.

Bu müharibələrdə Arşakilər Atropaten Midiyasının strateji mövqeyindən istifadə edirdilər.

Arşakilərin kiçik qolu II Artabanın oğlu Vanondan başlayaraq III Artaban və sonra gələn hökmdarlar Atropaten Midiyasının hərbi nöqteyi-nəzərindən

gücləndirməyə səy göstərmişlər. Bu hökmdarlar qüvvətli ölkələrlə iqtisadi-ictimai, bəzi hallarda isə diplomatik əlaqə yaradırdılar.

Atropatena hökmdarları (e. ə. 250-ci ildən eramızın 224-cü ilinə qədər) Arşakilər hakimiyyət başına gələndən onların sonuna qədər öz müstəqilliyini qoruyub saxlaya bilmişlər. Lakin Atropaten Midiyasının şahları bəzi hallarda parfiyalılara az miqdarda olsa xərac verirdilər. Müharibə zamanı isə öz orduları ilə düşmənlə vuruşmalı olurdular. Bunun müqabilində parfiyalılar atropatenalıların daxili işinə qarışmır və Atropaten Midiyasının daxili qayda-qanunlarına toxunmurdular. Atropaten Midiyasının şahları öz müstəqilliyini qoruyub saxlamaq məqsədi ilə parfiyalılar əleyhinə romalılarla qohumluq əlaqəsi yaradıb həm də diplomatik müqavilələr də bağlayırdılar.

Atropatın qızı Yutapanın Makedoniyalı İskəndərin sərkərdəsi Perdikka, II Artavazdın qızını Antoninin oğlu İskəndərlə evlənməsini misal göstərmək olar.

Strabonun yazdığına görə, atropatenalıların parfiyalılar və ermənilər kimi qüvvətli qonşuları olmuşdur; onlar qonşuları ilə daima iqtisadi-ictimai və siyasi əlaqə yaradırdılar[313].

## ATROPATENA ŞAHLARININ ŞƏCƏRƏ CƏDVƏLİ

1.— Atropat (Azərbad)—E. ə. 328-ci ildən hakimiyyətə keçmişdir.

2.— Artabazan. III Antioxla sülh müqaviləsi bağlamışdır.

3.— Mitridad (Mehradad)—E. ə. 67-ci ildə II Tiqranın qızı ilə evlənmişdir.

4.— Dara (Daryuş) — E. ə. 65-ci ildə.

5.— I Aryabarzan — E. ə. 30-cu illər.

6.— I Artavazd — E. ə. 20-ci il.

7.— II Aryabarzan— E. ə. 20-ci ildən eramızın 2-ci ilinə qədər. Bu şəxs eramızın 1-ci ilinə kimi Ermənistanın da şahı olmuşdur. Antoninin Kleopatradan olan oğlu İskəndər II Aryabarzanın bacısı ilə evlənmişdir.

8.— Artavazd. Atropaten Midiyası həm də Ermənistanın şahı olmuşdur.

Arşakilərin kiçik qolu.

1. - Vanon.

2. - III Artaban (10 - 40-cı illər). Anası IV Fraatın qızı, atası isə Atropatena hökmdarlarından olmuşdur. Beləliklə, Arşakilərin kiçik qolu olan Atropatena şahları III Artabandan başlayaraq Ermənistanda olduğu kimi, bütün İranda parfiyalıların son dövrünə qədər hakimiyyət başında olmuşlar[314].

3.— IV Artaban (Küdarz).

4.— Küdarz Horavda Vanon (Ermənistanın şahı olmuşdur).

---

313 Strabon. Göstərilən əsəri, XI, 13, 3.

314 H. Pirniya. Göstərilən əsəri, s. 2460. S. Nəfisi. Fəhəngnameyi parsi, Tehran, 1319, s. 105. A. Fazili. Göstərilən əsəri, s. 90 – 93.

5.— II   Pakor.
6.— II Valagez.
7.— III Valagez.
8.— IV Valagez.
9.— V Artaban.
10. —V Valagez.

Eramızın 224-cü ilində Artaban V Ərdəşir tərəfindən məğlub edildikdə Arşakilər sülaləsinə son qoyulmuşdur.

Atropatena hökmdarı II Artavazdla IV Fraat arasında olan narazılıq onu istər-istəməz romalılarla əlaqəyə girməyə sövq etdi. II Artavazd Roma ilə iqtisadi-ictimai və habelə siyasi diplomatik əlaqə yaratmaqla eyni zamanda öz qızı Yutapanı Antoninin oğlu İskəndərə ərə verdi.

II Artavazd İskəndərə Ermənistan şahlığını tapşırdı. Artavazdın bu hərəkəti ermənilərin xoşuna gəlməyin Antoninin oğlunu taxtdan salıb, dövləti Ermənistanın keçmiş hökmdarı Artavazdın oğlu Artaşesə tapşırmışlar. Bu hadisədən sonra Atropatena şahı II Artavazd kürəkənini müdafiə etmək məqsədilə Ermənistana qoşun çəkmişdi. Artaşes isə müqavimət göstərə bilməyib IV Fraata sığınmışdı.

Ümumiyyətlə, Atropatenada hökmranlıq edən Arşakilərin kiçik qolu dövründə bu dövlətin istər daxili və istərsə xarici siyasətində parfiyalıların tam nüfuzu qabarıq formada özünü göstərdi. Bundan sonra atropatenalıların romalılara rəğbət bəsləmələri gözə çarpmır.

Beləliklə, Arşakilərin kiçik qolu III Artabandan başlayaraq Atropatena ilə birlikdə bütün İran əyalətlərində hökmranlıq etmişdir.

## SASANİ DÖVLƏTİNİN YARANMASI. AZƏRBAYCAN VİLAYƏTLƏRİNİN SASANİLƏR TƏRƏFİNDƏN İŞĞALI

İranın cənub-qərbində yerləşən Fars əyaləti hələ Əhəmənilərin dövründən iqtisadi, siyasi və mədəni cəhətdən başqa əyalətlərdən fərqlənirdi.

Əhəməni imperiyası Makedoniyalı İskəndər  tərəfindən yıxıldıqdan sonra Fars əyaləti Selevkilərin dövründə öz müstəqilliyini nisbətən qoruyub saxlaya bildi. Bu əyalət, formal olaraq parfiyalılardan asılı olsalar da öz daxili muxtariyyətini əldən verməmişdir. Lakin digər asılı əyalətlər kimi Fars əyaləti də parfiyalılara vergi ödəyir, lazım gəldikdə isə hərbi dəstələrini onların ixtiyarına verirdilər. Əldə olan mənbələrin, habelə sikkələrdən məlum olur ki, Fars əyalətinin başçıları həm də dinin təbliğ edilməsinə rəhbərlik edirdilər. Elə bu səbəbə görə də Əhəmənilər dövründə Fars əyalətində mövcud olmuş mağların ayinləri qorunub saxlanılmışdır. Fars əyaləti başçılarından yadigar qalmış sikkələrin üzərində müqəddəs odun qarşısında əlində kaman duran dövlət başçısı, digər tərəfdə isə odun üzərində dalğalanan Kavənin bayrağı təsvir olunur. Digər tərəfdən Təxt-e

Cəmşid Makedoniyalı İskəndər tərəfindən yandırıldıqdan sonra Fars əyalətində olan İstəxr yeni inkişaf mərhələsinə qədəm qoyur. Beləliklə, İstəxr şəhəri Fars əyalətinin iqtisadi-ictimai və mədəni mərkəzinə çevrilir[315]. Parfiyalılardan asılı olan əyalətlər daima ayrılmağa və müstəqil olmağa cəhd göstərirdilər. Belə əyalətlərdən biri də iqtisadi-ictimai cəhətdən inkişaf etmiş Fars əyaləti idi.

Parfiya dövlətinin yıxılması haqqında tarixçi Təbəri yazır ki, Ərdəşir Babəkan (224 - 241) qalxıb Əcəm ölkəsini asılı ölkələr sistemindən azad etdi[316]. Beləliklə, 224-cü ildə parfiyalıların hakimiyyəti devrilib yerində yeni bir dövlət olan Sasanilər dövləti təşəkkül etdi. Yeni dövlət sülaləsi olan Sasanilər tayfalar birliyi və yaxud asılı dövlətlər sistemini ləğv edərək mərkəzləşmiş dövlət yaratdılar. F. Engels Sasanilərin yeni dövlət sistemindən "Sasanilərin nizama salınmış İran monarxiyası"[317] kimi bəhs etmişdir. Beləliklə, Sasanilər nizamlı bir dövlət quruluşu yaratmış oldular.

Sasanilər parfiyalıları məğlub etdikdən sonra öz hakimiyyətlərini möhkəmləndirmək məqsədilə yeni ərazilərin işğalına başladılar. Hələ I Ərdəşirin dövründə Sasanilər Mesopotamiyanı, Atropatenanı və Orta Asiyanın bir hissəsini zəbt etdilər. Atropatenanın iqtisadi inkişaf nöqteyi-nəzərdən qonşu ölkələrdən irəlidə olması, digər tərəfdən həmin ölkənin strateji mövqeyinin əlverişliliyi onu hələ qədimdən məşhur etmişdi. Bu ərazi gələcəkdə Sasanilər üçün Ermənistan, istərsə də Roma imperiyası ilə baş verə biləcək müharibələrdə mühüm strateji mövqeyə malik idi. III əsrdən etibarən Atropatenada feodal münasibətləri rüşeym halında olsa da təzahür etməyə başlayır. Bu dövr həm də Atropatenada Zərdüşt dininin (zərdüştiliyin) formalaşıb geniş yayıldığı dövrdür. Məhz bu baxımdan da istər I Ərdəşir, istərsə də onun oğlu I Şapur (241 - 272) dövründə Zərdüşt dinindən öz hakimiyyətlərini möhkəmləndirmək xatirinə yeni bir ideologiya kimi istifadə edirlər. Sasanilərin ilk dövründə Zərdüşt dini işğal edilmiş ölkələrdə zorla yayılırdı.

İranda III əsrin birinci rübündə yeni dövlət sistemi olan Sasani hakimiyyətinin təşkili və inkişafını, adicə sülalə dəyişikliyi kimi izah olunmamalıdır. Bəlkə həmin hadisə bilavasitə dövrün iqtisadi və ictimai şəraiti ilə əlaqədar və ondan doğan bir fakt kimi şərh edilməlidir.

III əsrdən etibarən kəndlilər və qulların ağır şəraitdə istismar edilməsi hesabına artan əmtəə istehsalı, habelə kənd təsərrüfatı məhsullarına, bədii sənətkarlıq şeylərinə artan tələbat, Atropatenadan İran, Çin və Hindistana keçib gedən ticarət yollarının toplanması, bütün bu faktlar Atronatenanın iqtisadi-ictimai və siyasi tarixində yeni mərhələnin başlanması demək idi. Bu göstərdiyimiz obyektiv şəraitdə yeni dövlət sisteminin, daha doğrusu, mərkəzləşmiş hakimiyyətin təşkil edilməsini və Atropatenanın zəbt edilməsini tələb edirdi.

---

[315] В. Г. Луконин. Иран в эпоху первых Сасанидов. Ленинград, 1961, с. 5, 6.
[316] M. Təbəri. Göstərilən əsəri.
[317] K. Marks və F. Engels. XXI cild, s. 494.

Yeni hakimiyyət tezliklə "dünya dövlətlərindən" birinə çevrilib, tabeliyində olan ərazini başqalarının hesabına genişləndirmək uğrunda mübarizəyə başlayır. Sasanilər dövləti məhsuldar torpağa malik olan Beynəlnəhreyn, Ermənistan və habelə İberiya uğrunda Roma ilə uzun sürən müharibələr aparmışdır.

Beləliklə, III əsrin birinci rübündən etibarən əvvəlcə Fars əyalətində yaranıb, sonralar isə bütün parfiyalılara tabe olan əyalətləri mərkəzləşmiş dövlət ətrafında birləşdirən Sasani hakimiyyəti Azərbaycanda da mövcud olmuş Parfiya hökmranlığına son qoymuşdur.

Sasanilər dövründə Atropatenada olduqca məşhur bir neçə atəşgədə mövcud idi. Bir sıra tədqiqatçılar, o cümlədən S. Nəfisi bu məşhur atəşgədələrin Azərbaycanda mövcud olması ilə əlaqədar həmin ərazini Zərdüştün ölkəsi kimi tanımışdır [318] . Atropatena 227-ci ildən etibarən Sasanilərin işğalı altına düşmüşdür[319]. Həmin dövrdən İranın şimal-qərbi Azərbaycan adlandırılmışdır. S. Nəfisi bu haqda yazır ki, ərazi VI əsrdə Nəsturi dininin mərkəzlərindən biri olduğuna görə, Aysori kitablarında o mərkəz həmin adla adlandırılmışdır [320]. Sasanilərin idarəetmə qaydalarını qoruyub saxlayan Abbasi xəlifələri Azərbaycanın adını olduğu kimi qoruyub saxlamışlar. Azərbaycan sərhədləri bu dövrdə belə olmuşdur. Cənub-şərqdən Cibal (qədim Midiya), cənub-qərbdən Cəzirə (qədim Assur) əyalətinin bir hissəsi, qərbdən Ermənistan, şimaldan Aran (Qafqaz), şərqdən isə Xəzər dənizi sahilinin iki əyaləti olan Muğan və Gilanla həmsərhəd olmuşdur.

Güman ki, bu göstərdiyimiz sərhədlər nisbi xarakter daşıyır. Digər tərəfdən xilafət dövründə Azərbaycanın sərhədlərini ərəb müəlliflərinin tövsiyə etdikləri kimi qəbul etmək olar. Lakin Sasani hökmranlığı dövründə Muğan bütövlükdə və Gilanın qərb rayonları da Atropatena ərazisinə daxil olmuşdur[321]. Sasanilər Atropatena mərzbanlığının sərhədlərini olduğu kimi saxlamışlar. Ərəblərin dövründə isə Muğan və Gilan görünür ki, müvəqqəti olsa da Azərbaycanın tərkibindən ayrılmışdır.

Müxtəlif mənbələrin göstərdiyinə görə strateji nöqteyi-nəzərdən əhəmiyyətli olan bir sıra əyalətlərdə olan hakimlər şah ünvanı daşımışlar. İbn Xordadbehin göstərdiyinə görə, Sasani imperiyasının dörddə bir hissəsini təşkil edib, şimal spəhbudu tərəfindən idarə edilən şimal əyalətlərinə Azərbaycan, Ermənistan, Rey, Aran və sair daxil idi[322]. Sasanilərin dövrundə olmuş şah ləqəbi (titul) haqqında İbn Xordadbeh yazır: I Ərdəşir (224 - 241) Azərbaycan, Ermənistan və başqa ölkələrin hakimlərinə şahlıq ləqəbi vermişdir. Həmin bu

---

[318] S. Nəfisi. Göstərilən əsəri, s. 105.
[319] Yenə orada.
[320] Yenə orada.
[321] Strabon. Göstərilən əsəri, XI, 13.
[322] N. Vəlixanlı. Göstərilən əsəri, s. 106.

ölkələrin şahları Azərbaycanşah, Şirvanşah, Braşkanşah (Azərbaycan), Allanşah (Muğan), Ərmənşah, Filanşah və sair adlanırdı[323]. Dərbənd səddinin tikilməsindən bəhs edən bir mənbədə göstərilir ki, Ermənistan, habelə Azərbaycanın bəzi əyalətləri Bizans çarları və Xəzər xaqanlığı tərəfindən işğal edilmişdi. Qubad, habelə ondan əvvəlki şahlar ölkəni qıpçaq və xəzərlərin hücumundan qorumaq, müdafiə məqsədilə səddləri tikməyə başladılar. Ənuşirəvan Ermənistanı Roma çarlarının işğalından, Azərbaycanı isə qıpçaqlardan təmizləyərək Dərbənd səddini tikdirib başa çatdırdı. Belə ki, hər məntəqənin özünün ayrıca hakimi olmuşdur. Bunlardan Şirvanşahlar, Filanşahlar, Xirsanşahlar və başqalarını göstərmək olar[324].

Sasanilərin dövründə İran qismən ittifaq, dövlət və yaxud federasiyalardan təşəkkül tapmışdı. Bu özu də biri digərindən və daima İran mənşəli olan "İran şəhr" və yaxud "Eran", o biri isə Sasanilər tərəfindən tutulub ölkələrinə qatılmış, geniş sahələrə malik olan "Əniran", daha doğrusu, İran mənşəli olmayanlar idi. Bunlar təbii sərhədlərə və ayrı irqə malik irsi olaraq müəyyən ailələr tərəfindən idarə olunan müstəqil hökmranlıqlar olmuşdur. Bu hakimlər hər il şahənşah xəzinəsinə müəyyən edilmiş pul verməli və əlavə olaraq "Novruz", "Mehrikan" bayramlarında hədiyyələr göndərməli idilər. Onlar müharibələrdə öz süvari və piyada dəstələri ilə Şahənşah ordusunda iştirak etməli və öz hərbi qüvvələrinin xərcini ödəməli idilər. İrsi və müstəqil olan bu hökmranların hər birinin xüsusi ləqəbi olmuşdur. Onların əksəriyyətinin ləqəblərinə ölkə və yaxud irqlərinin adi ilə birlikdə şah məfhumu da əlavə edilmişdi[325]. Sasani hakimiyyəti dövründə şah tituluna malik olan vilayətlər (məntəqələr) Kuşan şah, Gilan şah, Mişan şah, Səkistan şah, Mərv şah, Girman şah, Bədəşvarkər şah, Yəmən şah, Kazuş şah, Bərksan şah, Şabran şah (ehtimal ki, İranın qərbində olan üç əyalətin adı imiş), Mukan şah (Azərbaycanda olmuşdur), Mokran şah, Turan şah, Hindivan şah, Kablan şah, Şirvan şah, Rigan şah, Blaşkan şah, Davəran şah, Nexşban şah[326] və başqalarından ibarət olmuşdur. Bunlardan başqa bir sıra kiçik məntəqələrində hakimlərinə şah ləqəbi verilmişdir. O cümlədən Termez şah, Xarəzm şah, Vərdin şah, Abxaz şah, Təbər şah, Miran şah, Filan şah, Gerşan şah və Araz çayının şimalında olan Aran məntəqəsinin hökmranları[327] və sairə. Bir sıra əyalətlərin hakpmlərinə xuday və bəzilərinə isə spəhbod ləqəbi verilmişdir[328].

Bizi maraqlandıran məsələ vaxtilə Azərbaycanın bir sıra əyalətlərində mövcud olmuş şahlıqlardır. Yuxarıda göstərilən "Azərbaycan şah" Cənubi Azərbaycan zonasına, keçmiş Atropatena və bir sıra qərb və habelə cənub əyalətlər

---

[323] Yenə orada.
[324] İbn Xordadbeh. Göstərilən əsəri, s. 61.
[325] Yenə orada.
[326] İbn Xordadbeh. Göstərilən əsəri, s. 61.
[327] N. Vəlixanlı. Göstərilən əsəri,61.
[328] Yenə orada.

daxil olmaqla geniş bir ərazini öz ətrafında birləşdirdiyini görəcəyik. Bundan başqa Arazın cənubunda yerləşən Muğan əyalətində “Muğan şah” və habelə həmin ərazidə olan “Allan şah”, keçmiş Albaniya torpağında “Şirvan şah”, “Miran şah”, “Filan şah”, “Gerşan şah”, “Təbərsaran şah” kimi daxili muxtariyyətə sahib olmuş irsi hökmdarlıqlar var idi[329].

Sərhəd rayonlarında olan hökmranların bir çoxu Sasani nəslindən olan nüfuzlu şahzadələrdən seçilib təyin edilirdi. Bunlar, şahla eyni hüquqa malik olub, şahlığa çatana kimi təyin olunmuş əyalətlərdə qabaqcadan ölkənin idarə olunması qayda-qanunlarını öyrənirdilər[330]. Sərhəd zonalarında olan hakimlər mərzban adlanırdı.

I Xosrovun dövrünə qədər İran ordusu bir başçıya (fərman dehə) malik olmuşdur. Həmin başçı “spəhbod” adlanırdı. Xosrov bu vəzifəni ləğv edib yerinə dörd sərkərdə təyin etdi. Bu sərkərdələrin hər biri ölkənin hərbi qüvvəsinin dörddə bir hissəsinə başçılıq edirdi. Bundan başqa hər bir hissəsin özünün “pazkus” adlanan naib səltənəsi (vəliəhdi) olmuşdur. O dövrdə İran dörd bərabər bölgüyə, daha doğrusu, dörd pazkusa malik olmuşdur. Bu pazkusların hər biri bir naib səltənəyə tapşırılmışdır ki, bunlara “pazkuspan” deyirdilər. Göstərdiyimiz pazkuslar coğrafi cəhətdən belə bölünmüşdür. Şimal-Əvaxtər, Şərq-Xorasan, Cənub-Nimruz və qərb-Səxarməran (Xavər; Xavəran).

Yuxarıda göstərdiyimiz pazkuspanlar və yaxud naib səltənələr ölkənin daxili işlərinə nəzarət etməyə təhkim edilmişdilər. Çox güman ki, onların tabeliyində olan ərazinin sərhədlərini və habelə daxili qayda-qanunlarını qorumaq məqsədilə ixtiyarlarına müəyyən miqdarda hərbi qüvvə də verilmiş olsun. Qeyd etmək lazımdır ki, yalnız I Xosrovun dövründən etibarən pazkuspanlar spəhbudların tabeliyində olmuşlar[331].

Sasanilərin dövründə ancaq Azərbaycan, Ermənistan və Hindistana yaxın əyalətlər də hökmranlıq (pazkuspanlar) mövcud olmuş, başqa məntəqələrin hakimlərinə isə mərzban deyirmişlər[332]. Mərzban titulu əvvəllər sərhəd qüvvələrinin başçılarına, sonralar isə bu ləqəb tabeliyində olan ərazinin vüsət etibarilə Əhəmənilər dövrünün səviyyəsinin yüksələ bilməyən hökmdarlara da şamil edildi[333]. Sasani şahları tərəfindən bir şəxsə gümüş taxt bağışlanması həmin şəxsə onların fövqəladə mehribanlıq əlaqələrinin yaxşı olmasını bildirirdi. İstisna olaraq irsi hakimi olan Allan və Xəzərətrafı əyalətlərinin hökmdarlarına Sasani şahları kimi qızıl taxtda əyləşmək hüququ verilmişdir[334].

---

[329] Yenə orada.
[330] S. Nəfisi. Göstərilən əsəri, s. 140.
[331] S. Nəfisi. Göstərilən əsəri, s. 140
[332] Yenə orada.
[333] Yenə orada.
[334] Yenə orada.

Muğan əyalətində Allanlar yaşayırdı. Şimal sərhədlərinin qorunmasında qoçaqlıq göstərib fəal iştirak etdiklərinə görə, onların başçılarına qızıl taxtda əyləşmək hüququ verilmişdir.

Sasanilərin dövründə Azərbaycan İranın sərhəd əyalətlərindən birini təşkil edirdi. Bu səbəbə görə də Azərbaycanın əlverişli coğrafi şəraiti və möhkəm strateji mövqeyə malik olmasını nəzərə alan Sasani hökmdarları bu əraziyə həddən artıq fikir verirdilər. Ermənistan uğrunda Sasanilərlə Roma imperiyası arasında gedən uzun-uzadı müharibələrdə əsas rol oynayan Azərbaycan rayonları iqtisadi inkişaf nöqteyi-nəzərdən də irəlidə gedirdi. IV əsrdən etibarən Azərbaycanın şəhərləri ticarət-sənətkarlıq və abadlıq nöqteyi-nəzərdən qonşu ölkələrin şəhərlərindən üstün mövqeyə malik idilər. Azərbaycan Arran Ermənistan ərazisi ilə iqtisadi cəhətdən daima əlaqədə olmuşdur[335]. Bu baxışdan da Azərbaycan, Arran və Ermənistan tarixi biri digəri ilə tam surətdə bağlı olmuşdur. Kür-Araz çayları arasında yerləşən ərazi keçmişdə Arran adlanırdı. Ərəb müəlliflərinin verdikləri məlumata görə bu ərazinin sakinləri özlərinə məxsus olan Aran dilində danışırmışlar. Erməni tarixçilərinin verdiyi məlumata görə eramızın V əsrində həmin dildən ötəri xüsusi əlifba tərtib edilmişdi. Beləliklə, bu dil çox qədim olmaqla bərabər, həm də islamiyyətdən əvvəl də işlənirmiş[336].

Arsax əyaləti də Alban ərazisinin tərkibinə daxil olan əyalətlərdən biridir. Arsax monqol dövründən etibarən Qarabağ adlandırılmışdır[337]

Sasanilərin vaxtında İranşəhr adlanıb tabeliyində olan geniş ölkə dörd hissəyə bölünməklə bərabər onların hər biri “kust” adlanırdı. Eyni zamanda hər kustın özünün ayrıca adı olmuşdur.

“Kust” sözünə pəhləvi dilində yazılmış ədəbiyyatda təsadüf olunur[338]. Lakin sonralar bu termin aradan çıxmışdır. Sasanilər dövrünün kustları belə olmuşdur.

1. Xorasan (şərqi). Buraya müasir Xorasan, Buxara, Soğd, Gurkan, Sistan, Bəlucistan və İranşəhrinin şərqində olan başqa əyalətlər daxil idi.
2. Xorbəran (qərb). Buraya İraq, Girmanşah, Kürdüstan, habelə qərb əyalətləri daxil idi.
3. Baxtər (şimal). Buraya Azərbaycan, Gürcüstan, Qafqaz, Təpuristan və Dəmavənd əyalətləri idi.
4. Nimruz (cənub). Buraya Xuzistan, Pars, Girman, Səkistan və Sind əyalətləri daxil idi. Sasanilər hər kustın özünə ayrıca hakim təyin edirdilər. Bu hakimlər “pazkuspan”, yaxud “mərzban” adlanırdı. Pazkuspan hökmdar, hakim, mərzban isə müasir dövrdə sərhədçi deməkdir. Lakin hər dörd kust ayrılıqda əcnəbi

[335] Yenə orada, s. 141.
[336] S. Nəfisi. Göstərilən əsəri, s. 141.
[337] Yenə orada.
[338] Yenə orada.

torpaqları ilə sərhəd olduğuna görə kustpanlar həm də sərhədçi (mərzban) vəzifəsini ifa edirdilər[339].

Movses Xorenatsi İranşəhrin dörd "kust", yaxud kustə bölünməsini qeyd etməklə hər kustın adını bir-bir sayır[340]. Hicrat tarixinin II əsrində yazılmış "Şatristanhayi İran" əsərində əfsanəvi formada olsa da hər kustın adı və onların şəhərləri haqqında məlumat verilir. Həmin kitabda əvvəlcə Xorasan, Xorbəran, Nimruz, habelə Azərbaycan və şimal kustının başqa şəhərlərindən danışılır[341].

"Pazkuspan" sözünün tərkibi üç hissə olan "paz", "kust" və "pan"dan ibarətdir. Belə ki, "kust" sözünə "pan" artırılaraq "kustpan" olmuşdur. Mənasına gəldikdə kusti idarə edən və yaxud onu qoruyan deməkdir. "Paz" isə bir sıra ad və titulların əvvəlinə "padşah" sözündə olduğu kimi sonradan əlavə edilmişdir. Daha sonralar sözü yüngülləşdirmək məqsədilə "pazuspan" formasında işlənmişdir[342].

## ATROPATENA SASANİ İMPERİYASININ MÜHÜM ƏYALƏTLƏRİNDƏN BİRİ VƏ ŞAHLAR ŞAHI DASTAKERTİNİN[343] BİR HİSSƏSİ KİMİ

Parfiyalıların romalılara qarşı apardıqları ardı-arası kəsilməyən müharibələr onları iqtisadi cəhətdən ağır və çıxılmaz vəziyyətə gətirib çıxarmışdı. Mərkəzi hakimiyyət asılı dövlətlər sistemi olan tayfalar birliyini idarə etməkdə çətinlik çəkirdi. Bu səbəbə görə də ölkədə hərc-mərclik hökm sürməkdə idi. Nəhayət, eramızın 224-cü ilində Sasani nəslindən olan I Ərdəşir İranda parfiyalıların hakimiyyətini devirib Sasanilər dövlətini yaratmışdı. Sasani hökmdarları özlərini "Şahənşah" (şahlar şahı) adlandırırdılar. Şahdan sonra ən yüksək mənsəbi şəhrdarlar tuturdular.

Şəhrdarlar (spəhbodlar) nisbətən müstəqil olub əyalətləri idarə edir, müharibə zamanı isə öz silahlı qüvvələrini mərkəzi ordu ilə birləşdirib onlara rəhbərlik edirlər. V əsrdən etibarən Sasani imperiyası dörd böyük mərzbanlığa bölünür. Şəhrdarlar (spəhbodlar) mərzbanlarla əvəz edilir. Bu vaxtdan etibarən mərzbanlar mülki və hərbi işlərə təkbaşına başçılıq edirdilər. Mənbələrin göstərdiyinə görə böyük əyalətə başçılıq edən mərzbanlara şah adı verilmişdi. Sasanilər öz hakimiyyətlərini İran daxilində möhkəmləndirdikdən sonra geniş işğalçılığa qədəm qoyurlar. Onlar Atropatenanı, Orta Asiyanın bir hissəsini, Suriya və Mesopotamiyanı zəbt etdilər. Atropatena Sasanilərin dövründə Aturpatakan,

---

339 Yenə orada, s. 143.

340 Movses Xorenatsi. Göstərilən əsəri, s. 59.

341 Markvart. İranşəhr, Tehran, 1310, s. 15.

342 S. Nəfisi. Göstərilən əsəri, s. 143.

343 Pəhləvi dilində yazılmış ilk mənbə olan "Matakdan-e hazar dahistan" adlı əsərdə "dastakert" və yaxud "dastqorda"a belə tərif verilmişdir. Qul əməyindən istifadə edilib becərilən torpaq sahəsi "pəhləvi və müasir fars dilində" dəsti "əl", "kərd" isə "kərdən" felindən olub "etmək" deməkdir. Bir sözlə, demək, əl ilə görülən iş.

Adarbadaqan, Azərbazqan adlanaraq bu imperiyanın şimal mərzbanlığını təşkil edirdi. I Xosrovun dövründə (531 - 579) şimal mərzbanlığına aran, Ermənistan, İberiya, Balasakan, Sisakan, Muğan, Deyləm və sairə əyalətlər daxil idi. Əyalətin hakimi hələ I Ərdəşirin (224 - 232) dövründən etibarən Atarpatakan şah adlanırdı.

Atarpatakan Sasani dövlətinin on mühüm əyalətlərindən biri hesab olunurdu. Bu əyalətin təbii-coğrafi və strateji şəraitinin əlverişli olması onu digər əyalətlərdən fərqləndirirdi. Atarpatakanda böyük şəhərlərin mövcudiyyəti (o cümlədən Tavreş, Ordbil, Qazaka (Fraaspa), Aqanzana, Marağa və s. digər tərəfdən bu şəhərlərin ticarət yolları üzərində yerləşib dünya ticarətinə cəlb edilmələri onun iqtisadi-ictimai yüksəlişinə mühüm təsir göstərən amillərdəndir. Bu səbəbə görə də Sasani imperiyasının şimal mərzbanları məhz Ordbil və Tavreş kimi dövrünə görə böyük ticarət mərkəzlərini özlərinə iqamətgah etmişdilər. Atarpatakanda da hakim mövqe tutan Zərdüşt dinini Sasanilər dövlət dini elan etdilər. Zərdüşt dini hakim feodalların tələbatına uyğunlaşdırılmışdı. Zərdüşt dininin başçıları Sasanilər dövlətinin həyatında böyük rol oynayırdı. Mağların ixtiyarında külli miqdarda böyük torpaq sahələri var idi. Mağlar mülki, hüquqi işlərdə hakim vəzifəsini də ifa edirdilər. Ölkədə böyük nüfuza malik olan mağlar dövlətin daxili və xarici sisətində böyük rol oynayırdılar. Qazakada atəşpərəstlərin ən böyük məbədi olan Azərgəşəsp yerləşirdi. Azərgəşəsp atəşgədəsində fəaliyyət göstərən mağların ixtiyarında 10 min nəfərə qədər adam işləyən geniş torpaq sahələri var idi. Onlar bu malikanələrdən külli miqdarda gəlir əldə edirdilər. Atarpatakan III əsrdən artıq bir müddətdə Sasanilərin dastakerti olub, onların zülmü altında qalmışdı.

Marksizm nəzəriyyəçiləri torpaq üzərində mülkiyyət formasına feodalizmin yaranmasından etibarən xüsusi diqqət vermişlər. Feodalın torpaq üzərində xüsusi mülkiyyəti, onun iqtisadi inkişafına təsir göstərən əsas amildir. Bununla əlaqədar olaraq mülkiyyət formaları, habelə torpaqdan necə, hansı yolla istifadə olunması formalarının və xarakterinin tədqiqi maraqlıdır. Ərəblərə qədər feodal mülkiyyətinə aid bir neçə termin bizə məlumdur. Onlardan pəhləvi dilində olan mənbələrdə adına təkrarən təsadüf edilən “dastakart” və yaxud “dastgerd” terminidir[344].

N. V. Piqulevskaya Suriya mənbələrinə istinad edərək Sasanilər dövründə yayılmış bu termin haqqında yazır: “Maxazda vəba xəstəliyi yayılmışdı. Hörmüzd və II Xosrovun müasiri bioqraf Marqivarqis, Mehranquşnasp xəbər verir. Tisfun və Selevkiyyədə vəba yayılmışdır. Epidemiyanın yaxınlaşmasından qorxuya düşən Mehranquşnasp bütpərəstlərin adətinə görə özünü epidemiyadan qorumaq məqsədilə oradan qaçıb arxalandığı və öz dastkartlarının birində yaşamışdır”[345].

Ərəb müəlliflərinin əsərlərində də təkrarən Sasani şahlarına məxsus “əl-Daskara” və yaxud “daskarat əl-məlikə” adlı yer adına təsadüf edilir.

---

[344] А. Г. Пераханян: Matkdan i hazar dadistan, изд: АН Армянской ССР, 1973 г. С. 438 – 460.
[345] N. V. Piqulevskaya. Göstərilən əsəri, s. 13.

Arxeoloji qazıntıların nəticəsinə görə buradan dövrəsi möhkəm hasarla əhatə olunmuş böyük müdafiə əhəmiyyətli saray olmuşdur. N. V. Piqulevskayanın ehtimalına görə Daskara Bizans imperatoru İraklinin hücumu zamanı (627 - 628) onun orduları tərəfindən dağıdılmışdır[346]. Ona görə "Şah Dastakartı" Tisfundan Həmədana gedən yol üzərində Sasanilərin paytaxt şəhərinin 107 kilometrliyində yerləşirdi.

İrakli Qazaka şəhərində atəşpərəstlərin məbədini dağıdıb onun xəzinəsini qarət etdikdən sonra yola düşüb şah sarayı yerləşən Dastgerdi tutub onu viran etmişdir[347].

"Karnamak-e Ərdəşir-e Papakan" əsərində dastakart terminə bir neçə yerdə təsadüf edilir. Orada deyilir ki, Ərdəşir Papakan çox kəndi (dehi) müqəddəs və toxunulmaz elan etdi. Dastakart, ümumiyyətlə, kənddən fərqlənirdi. Bir sıra mənbələrdə dastakart qul əməyi ilə becərilən torpaq sahələrinə aid edilmişdir.

Dastakart termininin izahı bu mübahisələrə son qoyur. Sözün birinci hissəsi olan "dəst" arami dilində "əl" deməkdir. "Kərd" isə pəhləvi və müasir fars dilində "kərdən" felindən olmaqla "etmək" deməkdir. Bir sözlə, əl ilə görmək və yaxud əl ilə etmək mənasındadır. Hertsfeld və Bartolomey bir neçə dəfə bu terminin aydınlaşdırılması ilə məşğul olmuşlar. Bartolomeyə görə dastakart "torpaq sahəsi", "torpaq mülkiyyəti" mənasındadır[348].

Erməni mənbələrində də dastakert terminə təsadüf edilir. Orada dastikirti yaşayış yeri, şəhər və bazarı olan kənd kimi göstərilir[349]. III - V əsrə aid pəhləvi mənbələrində isə dastakart möhkəm müdafiə əhəmiyyətli qala düşərgə mənasındadır. Ərəb dilində isə dastakart qəsr mənasına uyğundur. Karnamak əsərinə gəldikdə isə orada bir sıra kənd (deh) xutur dastkart adlandırılır[350].

Aturpatakanın paytaxt şəhəri Qazaka II Xosrov Pərvizin dastakarti olmuşdur. Orada II Xosrova məxsus müdafiə əhəmiyyəti möhkəm və əzəmətli sarayların, habelə məbədlərin olması, şəhərin və onun ətraf kəndlərinin Sasani şahənşahının dastakerti olduğunu güman etməyə imkan verir. Mənbələrdəki dastakarti Qazaka şəhəri və orada olan saraylarla müqayisə etdikdə istər-istəməz yuxarıdakı nəticəyə gəlmək olur.

Moisey Kalankatuylunun göstərdiyinə görə azatlar bir neçə Dastakertin maliki olmuşdur.

VI əsr mənbəyi olan "Matikan-i hazar datastanda dastakerd mülkiyyət forması belə izah edilir: "Dastagerd" qulların məskun olub və onların əməyindən istifadə edilən xüsusi mülkiyyət formasına deyilir.

---

346 N. V. Piqulevskaya. Göstərilən əsəri, s. 13.
347 Yenə orada.
348 Bartolomey. Dərbab-e Zəbanha-e İran-e myane, 3-cü cild, s. 34.
349 Моисей Каланкатуйский. История Албан, кН. 1, гл. 263, с. 132.
350 Karnamak-e Artaşir-e Papakan, II – III.

İran ərazisində quldarlıqdan feodalizmə keçid ərəfəsində “azad” və “dastakerd” istehsal formalarına təsadüf edilir.

S. T. Ermyana görə Ermənistan ərazisində mövcud olmuş dastakerdlərdə çalışanlar əsas etibarilə qullar olmuşdur.

Sasanilər hakimiyyəti dövründə İran ərazisində feodal torpaq mülkiyyətinin iki əsas forması nəsli (“dastakert”) və “xostak” şərti torpaq mülkiyyəti mövcud olmuşdur.

Ellinizm dövründə İran ərazisində “dastagerdlə” “xostak” torpaq mülkiyyət formaları prinsip etibarilə biri digərindən bir o qədər də fərqlənmirdi. Lakin Matikanda göstərildiyi kimi “dastagerd” irsi mülkiyyətə deyilir, “xostak”ı isə satmaq, bağışlamaq, girov qoymaq olardı. Dastakerd mülkiyyət forması yalnız bir şəxsə deyil, bütün ailə üzvlərinə məxsus idi. Dastakerd torpaqlarında hüquqi nöqteyi-nəzərdən ailənin ağsaqqalı əsas sima hesab edilirdi.

# IV FƏSİ L

## MƏDƏNİYYƏT

Atropatenanın mədəniyyəti tədqiqatçılar tərəfindən hələlik lazımi səviyyədə araşdırılmamışdır. Bu baxımdan da qarşıya qoyulan problemin həlli öz-özlüyündə çətinlik törədir. Atropatena mədəniyyətinin işıqlandırılması iki yolla araşdırıla bilər: Atropatena ərazisində aparılmış arxeoloji qazıntıların nəticələrini, antik dövr və orta əsr mənbələrində mövcud olan məlumatların müqayisəli şəkildə tədqiqi.

Atropatena ərazisində yerləşən Təxt-e Süleymanda alman və İran arxeoloqları tərəfindən 8 il müddətinə qazıntı işləri aparılmışdır. Həmin qazıntılarda əldə edilmiş bir sıra möhtəşəm memarlıq abidələrinin qalıqları, eləcə də digər maddi-mədəniyyət nümunələri Atropatena mədəniyyəti tarixinin öyrənilməsinə imkan yaradır[351].

Bu qazıntıların nəticəsi Atropatena ərazisində şəhərsalma, habelə müdafiə əhəmiyyəti kəsb edən qala divarlarının tikinti texnikasını aşkar etmişdir. Fraaspa (müasir Təxt-Süleyman) tədqiqatçıların fikrinə görə e. ə. II əsrdə bina edilmişdir[352]. Əvvəllər bu şəhərin Parfiya şəhəri olub-olmaması güman edilirdisə, hazırda görkəmli arxeoloqlar A. Qodar və R. Girşman bu şəhərin parfiyalılara aid olduğunu iddia edirlər[353].

Fraaspa bina edildiyi dövrdən mühüm hərbi əhəmiyyət kəsb edərək, işğalçılar tərəfindən asanlıqla alına bilməyən bir qalaya çevrilmişdir. Belə ki,

---

351 Ə. Sərfəraz. Göstərilən əsəri, s. 1.
352 Г. А. Кошеленко. Культура Парфии, Москва, 1966, с. 52.
353 Yenə orada.

həmin bu qalada Roma sərkərdəsi Antoni eramızdan əvvəl 36 – 35-ci illərdə atropatenalılar tərəfindən məğlub edilib ağır tələfat verdikdən sonra geri çəkilməyə məcbur olmuşdu.

Təxt-e Süleyman (Fraaspa) İran Azərbaycanında, Urmu gölunün cənub-şərqində, Əfşar mahalında yerləşir. Bu ərazi cənub-şərqdən Zəncan, şimal-qərbdən Marağa, qərbdən Kürdüstanın Sənədəc və Bicar şəhərləri ilə həmsərhəddir. Bu ərazidə arxeoloji qazıntıların aparılması iki məqsəd güdürdü:

1.Parfiya və Sasanilərin dövründə Atropatenanın paytaxt şəhşrinin və Şərqin ən məşhur atəşgədəsi olan Azərgəşəspin bu ərazidə yerləşməsini aşkar edib;

2.Azərgəşəsp atəşgədəsinin yerləşdiyi yer haqqında tədqiqatçıların mübahisələrinə son qoyulması[354].

Təxt-e Süleymandakı qala ellips şəklində 12 min kvadrat-metrə bərabər olmaqla şimaldan cənuba uzunluğu 400 metrə, şərqdən qərbə isə 300 metrə bərabərdir[355].

Dairəvi formada olan şəhər divarı 1120 metr uzunluqdadır. Divar 3,9 metr enə, 13 metr hündürlüyə malikdir. Qala dəniz səviyyəsindən 2450 metr yüksəkdə olub, ətrafındakı ərazidən 18 - 20 metrə qədər hündürlükdə yerləşmişdir. Şəhər divarı kiçik daşlardan və əhəngdən tikilmişdir. Lakin divara yonulu daşlarla üzlük çəkilmişdir. Mütəxəssislərin rəyinə görə şəhər divarı Parfiya dövründə tikilmiş, üzlük isə Sasani dövrünə aiddir[356]. Şəhər divarının üzərində biri-birindən 22 - 26 metr aralı yerləşən 37 yarımdairəvi bürc nəzəri cəlb edir. Bu fakt şəhər istehkamının təkmilləşməsinə ilkin sübutdur. Şəhər divarının hazırda iki əsas böyük qapısı qalmaqdadır. Bunlardan biri şimal qapısıdır ki, onun hündürlüyü 5 metr, eni 4,5 metrdir. İkinci isə cənub-şərq qapısıdır ki, onun hündürlüyü 3 metr, eni 3,4, divarının qalınlığı isə 3,9 metrdir. Ona Təxt-e Süleymanın giriş qapısı deyilir. Divarın cənub-şərqindəki qapının üstündə olan nişanələrdən məlum olur ki, bu divar parfiyalıların dövrünə aiddir.

Q. A. Koşelenko öz kitabında Təxt-e Süleymanı “Tak-i Süleyman” formasında vermişdir. Halbuki bu forma düz deyildir.

Azərbaycanın dini mərkəzi olan Fraaspada Anahita məbədi mövcud olmuşdur. Bu məbəddə mağların bir dəstəsi sakin idi. Güman ki, onlar zərdüşt dininin bir sıra xüsusiyyətlərini də qəbul etmişdilər. İranın şimal əyalətlərində insan meyidinin azad havada qoyulması adəti hələ Əhəməni dövründən yayılsa da lakin Parfiya dövründə bu adət aradan çıxmışdır[357].

Din başçıları olan mağların vəzifəsi yalnız dini ayinləri təbliğ etməklə bitmirdi. Onlar məbədlərdə yuxarı təbəqənin uşaqlarının təlim-tərbiyəsilə məşğul olur, eyni zamanda xəstələri də orada müalicə edirdilər. Bundan başqa mağlar

---

[354] Ə. Sərfəraz. Göstərilən əsəri, s. 2.
[355] M. İmani. Gözəraş-e həffari Təxt-e Süleyman, məcəlləyi bastanşünası, Tehran, 1938, s. 115.
[356] Yenə orada.
[357] Q. A. Koşelenko. Göstərilən əsəri, s. 50 – 53.

astrologiya elmi ilə məşğul olurdular; salnamələrin tərtib edilməsi də onların öhdəsinə düşürdü. Beləliklə, mağlar təlim-tərbiyə, təbabət və astrologiya, habelə salnamə tərtib edən silkə bölünürdü.

İstər Atropatena və istərsə də Sasanilərin hakimiyyəti dövründə Azərbaycanın, habelə İranın dini mərkəzi sayılan Qazaka (Şiz) şəhərində də mağlar təlim-tərbiyə, təbabət, eyni zamanda salnamə tərtib etməklə də məşğul olmuşlar.

Təxt-e Süleymanda aparılan arxeoloji qazıntılar zamanı həmin ərazinin şimal-şərqində, arxeoloqların nəzər-diqqətini özünə cəlb edən əzəmətli böyük bir məbəd aşkar edilmişdir. Mütəxəssislərin rəyinə görə bu əzəmətli məbəd Anahita məbədidir[358]. Azərbaycan Sasanilər tərəfindən işğal edildikdə, Şiz məbədində olan mağlar ancaq dini ayinlərin icrası və təbliği ilə məşğul olurdular. Əhməd Şəhristani özünün "Əl-Miləl və əl-Nihəl" əsərində zərdüştiləri 3 qrupa bölür. Zərdüştün tərəfdarları, zərvanilər və Kəyumərsilər. Sasanilər öz hakimiyyətlərini möhkəmlətmək, geniş xalq kütləsini amansız surətdə istismar etmək və onları daima itaətdə saxlamaq üçün Zərdüşt dinindən bir vasitə kimi istifadə edirdilər. Onlar atəşgədələrə xüsusi fikir verir, məbəd torpaqlarından gələn gəlirin düzgün xərclənməsinə nəzarətçilər təyin edirdilər. Müqəddəs od daima yanmalı, heç bir vaxt sönməməli idi. Sasani şahlarının oda olan hörmətini, onlar tərəfindən vaxtilə zərb edilmiş sikkələrdə daha aydın müşahidə etmək olur. Sikkənin bir tərəfində Sasani şahının, digər tərəfdə isə atəşdanla birlikdə onu qoruyan iki nəfərin təsviri zərb edilmişdir.

Müharibələr zamanı qızıl atəşdanların ətrafında möbədlər hərəkət edir və onlar müqəddəs oddan qələbə diləyirdilər.

Sasanilərin hakimiyyəti dövründə zərdüşti təriqətləri qüvvətlənərək ölkənin rəsmi dininə çevrilmiş oldu.

Ruhani silkinin başçısı olan möbədan-e möbədə ən böyük və ali rütbə və məqam verilmişdi. Geniş xalq kütləsinin bilavasitə "Avesta" və Zərdüştün təlimlərindən istifadə etməsi məqsədilə kitabın mətninin Sasani pəhləvəsinə çevirməklə ona şərhlər əlavə edib "zənd" adlandırdılar.

Avestada təlim-tərbiyəyə böyük yer verilir. Vəndidadın IV Fərkordının XXXXIV bəndində göstərilir ki, təhsil almaq məqsədilə yanınıza gəlib sizə müraciət edən şəxsin kim olmasından asılı olmayaraq onu qəbul et və istədiyini ona öyrət. Vilyam Ceksonun göstərdiyinə görə "Avestada hüspərəm" başlığı ilə ataların vasitəsilə övladlarının təlim-tərbiyəsinə dair xüsusi fəsil mövcud olmuşdur. Burada təlim-tərbiyənin növü, tərbiyəçi və müəllimin xüsusiyyətləri izah edilmişdir. Lakin tarixi hadisələr nəticəsində bu fəsil aradan çıxmış və bizə gəlib çatmamışdır. Həmin fəslin xülasəsi Dinkordda da dərc edilmişdir. Orada deyilir: təlim-tərbiyə varlığın bünövrəsi kimi mühüm əhəmiyyətə malikdir. Hər bir şəxs müəllim və tərbiyəçilər vasitəsilə yazıb oxumağı öyrənməklə özünün də

---

[358] Ə.Sərfəraz. Göstərilən əsəri, s. 40.

sağlamlığına ciddi fikir verməlidir. Yalnız bu yolla hər bir şəxs yüksək rütbəyə çata bilər. Orada təbiət, coğrafi şərait, din və dövlətin idarə edilməsi üsulları təlim-tərbiyənin əsas amili kimi göstərilmişdir. Əlbəttə, yuxarıdakı şərhlə razılaşmaq olmaz. Azərbaycana gəlikdə isə Zərdüştliyin ən geniş yayılmış olduğu bu ölkədə dini ayinlər əsasında yaranmış təlim-tərbiyə üsulu mövcud olmuşdur.

Çox güman ki, Azərbaycan ərazisində bina edilmiş mühüm atəşgədələrin nəzdində istər dini, istərsə də dövrun tələbatından doğan digər təhsil növləri kifayət qədər olmuşdur.

Bu dövrdə saray, atəşgədə, atəşgah və ailə məktəbləri mövcud olmuşdur. Sasanilərin hakimiyyəti dövründə isə təhsil ocaqlarına ölkənin iqtisadi-ictimai inkişafı ilə əlaqədar olaraq ibtidai məktəblər və müəyyən peşə məktəbləri əlavə edilmiş oldu.

Saray məktəblərində, habelə əyan və rütbə sahiblərinin uşaqları, şahzadələr təhsil alırdı.

Bu məktəblərdə dövlət aparatını idarə edə biləcək kadrlar hazırlanırdı. Məktəblər sarayların, dövlət idarələrinin yaxınlığında bazar və izdihamlı yerlərdən uzaqda yerləşirdi.

Sinifli cəmiyyətdə ümumi təhsil və təlim-tərbiyədən danışmaq yersizdir. Bu dövrdə təlim-tərbiyə, habelə təhsil sinfi xarakterə malik olmuşdur. Təlim-tərbiyə ocaqlarında ancaq yuxarı sinfin, o cümlədən saray adamlarının, qoşun başçılarının, böyük torpaq sahiblərinin, azatların uşaqları təhsil ala bilərdi. Geniş xalq kütləsinə mənsub olan kəndlilərin, sənətkarların, habelə şəhər yoxsullarının uşaqları istər dini və istərsə də dünyəvi təhsildən məhrum idilər.

Məktəblər dörd silkə (təbəqəyə) xidmət məqsədilə dörd bölməyə: uşaqlara, cavanlara, kişilərə və yaşlılara bölünürdü. Yaşlılar uşaqlara, kişilər isə cavanlara təlim-tərbiyə verməyi öhdələrinə götürmüşdü.

Təhsil səhər tezdən başlanırdı. Atəşgədələrdə təhsil alanlara gəldikdə onlar bütün günü təhsil alır və həm də orada gecələyirdilər. Dini təhsil alanların məxarici atəşgədələrin hesabına ödənilirdi. Belə ki, orta əsrlərdə, elə indi də dini təhsil alanlar məbədin, kilsə və məscidlərin hesabına saxlanılır. Herodot və Strabonun məlumatına görə uşaqların 5 yaşından etibarən təhsilə başlaması göstərilmişdir. Dinkord və Şahnaməyə gəldikdə bu mənbələrdə uşağın 7 yaşı tamam olduqda təhsilə başlaması fikri irəli sürülür.

Zərdüşt dinini qəbul edən hər bir gənc 15 yaşından etibarən həddi-büluğa çatır, bu müddətdən etibarən dini ayinləri yerinə yetirməyə borcludur.

Vəndidadda göstərilir: hər bir şəxs 15 yaşından "sədrə" geyinməsə, belinə "keşti" bağlamasa böyük günahkar sayılır[359].

Əyan uşaqlarının təhsil müddətinin qurtarması Herodotda 20, Strabonda isə 24 yaş göstərilmişdir. Saray məktəblərində gənclərin təlim-tərbiyəsinə ancaq

---

[359] Vəndidad. Darmesteterin tərcüməsi, s. 196 – 200.

şahzadələr və ustandarlar məşğul olurdu. Digər məktəblərə gəldikdə orada mağlar, onları isə hirbod və yaxud atrvanlar əvəz etməklə təlim tərbiyə işilə məşğul idilər[360].

Həmin məktəblərin təlim-tərbiyə proqramı 3 mühüm hissəyə dini-əxlaqi, fiziki (idman) və yazıb-oxumağa bölünürdü. Təlim-tərbiyənin əsas hissəsini təşkil edən dini və əxlaqi təlim cəmiyyətə üzv olmaq üçün ən zəruri məsələlərdən biri sayılırdı. Belə ki, Büzürgmehrin "nəsihətnamə"sində göstərilir ki, hər bir şəxs gecə-gündüzün üçdə birini dini-əxlaqi tərbiyəyə sərf etməlidir; lallar, karlar və şikəstlər bu təlim üsulundan azaddırlar.

7 ilə 15 yaş arasında bir gün bayram edilir. Dost-tanışlar həmin məclisə dəvət olunur. Məbəddə xüsusi dini ayinləri yerinə yetirir, uşaq yuyundurulduqdan sonra məbədin göstərişilə kəlmeyi-şəhadət deyir. "Sədrə" (müqəddəs köynək) geydikdən sonra "geşti" (müqəddəs kəmər) bağlayır. Beləliklə, gəncə Zərdüşt dinini qəbul etdirirlər.

A. Kristensen göstərir ki, "qaranlıq otaqlarda oddanda olan od şölə çəkir, arxasında isə metal alət bərq vurur, ruhanilərin uca və bəzən bəmdən ürəyə yatan zümzümələri eşidənləri ehtizaza gətirir, istər-istəməz özünə cəlb edirdi"[361].

Zərdüşt dininin təriqətlərində fiziki tərbiyəyə, xüsusən idmana ciddi yer verilmişdir. Xəstələnmə, zəifləmə Əhrimənin əməllərinə məxsusdur. Ona görə də Əhrimənlə mübarizə aparmaq üçün sağlamlığa, təmizliyə, qüvvətlənməyə ciddi fikir verilməlidir. Sağlam bədən sağlam düşüncəyə malikdir şüarı hələ qədim zamanlardan bizim əcdadımızı düşündürmüşdür. Bir sıra mənbələr də bizim dediyimizi təsdiq edir. O cümlədən Herodot, Ksenefon və Strabonda cıdır, ox atmaq, ov, çovkan, güləş və zubin atmaq kimi idman növləri göstərilmiş.

Qədim Azərbaycan atçılığın inkişafında mühüm rol oynamış ölkələrdən biridir. Manna, Midiya, Atropatena və habelə Sasanilər hakimiyyəti dövründə bu ərazidə atçılıq çox inkişaf edib, Yaxın və Orta Şərqdə böyük şöhrət qazanmışdı.

Çox güman ki, at ilk növbədə burada əhliləşdirilmişdir. Digər tərəfdən nal, yügən, ağızlıq, yəhər və ikitəkərli araba burada ixtira edilmişdir. Qədim Azərbaycanda at ailə üzvü sayılırdı. Belə ki, dua və nəzir-niyazda ailə ilə birlikdə həmin ailəyə məxsus olan atın da adı çəkilirdi. İstər qədim, istərsə də orta əsr dastanlarında qəhrəmanların adı ilə atlarının adının bir sırada çəkilməsi bizim fikrimizi qismən də olsa təsdiq edir. Firdovsinin "Şahnamə", Nizaminin "Xəmsə", Mənuçehrinin divanında və s. ədəbi əsərlərdə atın adı, onun cəmiyyətdə tutduğu mövqe haqqında dəfələrlə qeyd edilmişdir. Müasir dövrə qədər Atropatenanın gözəl, qıvraq və yaraşıqlı at cinslərinin gəlib çıxması, at tövlələrinin hörməti (müqəssir şah və yaxud rütbə sahibi at tövləsinə girdikdə ona toxunulmur və o bağışlanılırdı) bizim fikrimizi təsdiq edir. Azərbaycanda toy və bayram

---

[360] Yenə orada.
[361] Artur Kristensen. İran dər zaman-e Sasaniyan, Tehran, 1317, s. 76. R. Yasəminin tərcüməsi.

şənliklərində cıdırdan geniş istifadə edirdilər. At minmək təlimi uşaqlıqdan vərdiş etdirilirdi.

Ox atmaq və ov Azərbaycanda qədimdən yayılmış idman növlərindəndir. Çovkan oyunu ən geniş yayılmış oyun növlərindən idi.

## DİN. ZƏRDÜŞTİLİK VƏ AVESTA HAQQINDA

Qədim Azərbaycanda məhsuldar qüvvələrin inkişafı, ibtidai icma quruluşunun dağılması və xüsusi mülkiyyətin meydana çıxması, habelə cəmiyyətin siniflərə bölünməsi ilə əlaqədar baş verən böyük təbəddülat dini ayinlər sistemində də öz əksini tapmışdı. Yeni cəmiyyətin spesifik xüsusiyyətlərinə uyğun olaraq, məhz Cənubi Azərbaycan ərazisində dünyanın ən qədim dini etiqadı olan zərdüştilik meydana çıxmışdı. Zərdüşti dini onun banisi Zərdüştün adı ilə bağlıdır. Bu yeni dini etiqad yalnız Azərbaycan ərazisində yaşayan tayfalar tərəfindən qəbul edilmədi; o eyni zamanda İran, Orta Asiya və digər ölkələrdə yaşayanların da dininə çevrildi. Zərdüştün həyat və fəaliyyəti haqqında hələ də tədqiqatçılar arasında mübahisə gedir. Uzun illər ərzində bu barədə külli miqdarda tədqiqat aparılmasına baxmayaraq hələ də Zərdüştün nə vaxt və harada yaşayıb-yaratması haqqında dəqiq məlumata təsadüf edilmir.

Zərdüştiliyin təbliğ edilməsi və onun adının çəkilməsi ilə əlaqədar bir sıra mənbələrdə olan məlumatlara görə, habelə bəzi tarixi və əfsanəvi şəxslərin onunla əlaqədar adlarının çəkilməsi ilə Zərdüştün nə zaman və harada yaşadığını təyin etmək düzgün deyildir.

Avesta və pəhləvi mənbələrində Zərdüştün adı, eləcə də onun öz dini etiqadını təbliğ edib yayması haqqında məlumata təsadüf edilir. Lakin unutmaq olmaz ki, Avesta, eləcə də pəhləvi dilində yazılmış mənbələr Sasanilər dövrünün məhsuludur. Bu baxımdan da hələlik biz əlimizdə olan faktlarla Zərdüştün nə zaman və harada yaşayıb-yaratmasını dəqiq təyin edə bilmərik[362].

Zərdüşt dininin əsas müddəası ondan ibarət idi ki, dünyada bir-biri ilə daimi vuruşan iki qüvvə vardır. Bunlardan biri xeyir - Hörmüzd (Ahuraməzda),

---

[362] Zərdüşt dini məzdəizm, eləcə də başqa dinlərin tarixində baş vermiş daxili təhəvvülata məruz qalmışdır. Bu baxımdan da ilkin mağlar tərəfindən qəbul edilmiş Zərdüşt dini və onun dünya görüşünü Sasanilər dövründə yayılmış məzdəizm ilə eyniləşdirmək olmaz. Girşmanın göstərdiyi kimi məzdəizmin ilkin dövründə əsas fövqəlbəşər qüvvə Hörmüzd, Mehr (Mitra) və Nahid idisə, sonralar onları əvəz edən Hörmüzd və onun barışmaz düşməni olan Əhrimən görüşü həqiqi dualizmdir. Ona görə ki, onlar iki – biri digərinə zidd olan qüvvəyə (xeyir-şərə) və yaxud substansiyaya inanır və bu mübarizədə Hörmüzdün (xeyirin) qalib gəlməsinə əmindirlər. Məzdəizmə görə Hörmüzd ilə Əhrimən nur ilə zülmət, xeyir ilə şər və sülh ilə müharibə arasında gedən mübarizə kimi iki ictimai və təbii kökə malikdir.

a. Mübarizənin ictimai kökü, məzdəizmin meydana çıxdığı dövrdən etibarən əkinçiliklə məşğul olan tayfa və qəbilələrlə maldarlıqla məşğul olan köçərilər arasında gedən mübarizədən ibarətdir.

b. Mübarizənin təbii kökü: soyuq-isti, qıtlıq-bolluq, gecə-gündüz, tufan-sakitlik, münbit-şoran və digər təbii ziddiyyətlət daxildir.

digəri isə şər - Əhrimənd‌ir (Anqara-Manyu). Zərdüştün dini təlimində baş ilahi qüvvə, Hörmüzddür ki, onu od təmsil edir. Zərdüşt dininə inananlar atəşgədələr tikir, orada od yandırır və bu odu qoruyub saxlayırdılar. Onlara görə od müqəddəs bir qüvvədir, o daima yanmalı və təbiətdə mövcud olan napak ünsürlərdən qorunmalıdır. Zərdüşt dininə inananlara görə həyatın əsasını təşkil edən su, od, torpaq və havadır (külək). Onlar bu dörd ünsürü müqəddəs hesab edib, onların daima təmiz qalmasına səy göstərirdilər. Zərdüşt dininə inananlar odu göstərdiyimiz dörd ünsür içərisində ən müqəddəs baş ilahi və ülvi qüvvə hesab edirdilər. Onlar oda sitayiş edir, qarşısında səcdə qılıb, dua oxuyur və onun şərəfinə qurbanlar verirdilər. Mağlar xalqın başına gələn bütün müsibət və fəlakətləri qəddar ruhun, Əhrimənin üzərinə yıxırdılar. Onlar mövcud ictimai quruluşun ilahi fövqəlbəşər bir mənşəyə malik olduğunu təbliğ edirdilər.

Antik müəlliflər Zərdüştü mağ təriqəti və yaxud məzdəizmin banisi hesab edirlər.

III əsrin filosofu Porfiosa görə “mağ” allaha sitayiş edib, onun elmi sirlərinə yiyələnən şəxsə deyilir.

Zərdüşt haqqında ilkin məlumat verən yunan tarixçisi Xsanti (e. ə. 465 - 425) olmuşdur. Kiçik Asiyanın Sard şəhərində yaşayan bu tarixçi Herodotdan da əvvəl Urmu gölünə qədər olan əraziyə bələd olmuşdur. İlk əvvəl Herodot, sonralar isə dəməşqli Nikolay onun yazılarından istifadə edib məzdəizm haqqında məlumat vermişdir.

17 il İran sarayında yaşayıb əsərini dövlət arxivi əsasında yazan Ktesidən (e. ə. 464 - 358) istifadə edən Diodor Zərdüştün Bəlx şahı olduğunu bildirmişdir.

Ammian Marsellinin yazdığına görə Zərdüştün dövründən etibarən xüsusi ailədən olan mağlar nəsildən-nəslə din başçılığına təyin edilmişlər[363]. Ona görə ilk əvvəl onların sayı az olsa da, sonralar onların sayı get-gedə artmışdır. Mağlar adət-ənənələrinə görə digər təbəqələrdən fərqlənirdi[364]. Xüsusən onlar böyük hörmət və nüfuza malik olmuşlar.

Plasta istinad edən Ammian Marselli davam edərək yazır ki, mağların təriqəti və dünyagörüşləri yüksək olmaqla bərabər həm də onların allaha pərəstiş etmələri sırf və ciddidir[365]. Bu dünyagörüşünün banisi Bəlxdən olan Zərdüştdür. Belə ki, onun ideologiyasını Daranın atası Gəştasib qəbul edib onun dininə inanmışdır [366]. Beləliklə, Ammian Zərdüştün Bəlx şahı Gəştasibin dövründə yaşadığını və mağ təriqətinin müəssisi olduğunu göstərir. Gəştasib Daranın atasıdır. Dara Bisütun qayasında atasına işarə edib yazmışdır: “Part və Varkan mənim əleyhimə çıxaraq Frasyakın tərəfinə keçdilər. Atam Part ölkəsində idi, orada yaşayanlar ona qarşı çıxdıqda, o, ordusu ilə geri çəkildi. Partlarla olan

---

[363] Ammian Marselli. XXIII, 6.
[364] Yenə orada.
[365] Yenə orada, XXX, 6, 32, 34.
[366] Yenə orada.

vuruşmada atam Hörmüzdün köməyi ilə onlara qalib gəldi (e. ə. 521-ci il fevralın 5-də). Mən isə Raqadan (Reydən) Pars ordusunu atamın köməyinə göndərdim. Onlarla birlikdə düşmənə mənə qarşı çıxan Gəştasib (e. ə. 520-ci ildə) üsyan edənləri darmadağın etdi. Kitabədə Dara atasını şah deyil, bir əyalətin satrapı adlandırır.

III Artakserks (Ərdəşir 356 - 338) Təxt-e Cəmşid kitabəsində öz əcdadı haqqında yazır: Böyük şah, şahlar şahı, ölkələr şahı, bu ərazinin şahı. Mən şah I Artakserksin oğluyam. Artakserks Xaşayarşanın, Xaşayarşa Daranın, Dara isə Gəştasbın, Gəştasb isə Arşamın oğludur[367]. Şübhəsiz, adı bu kitabədə çəkilən Gəştasib Zərdüştün havadarı hesab etmək deyildir. Ona görə ki, bütün dövrlərdə Gəştasib adı ilə adlandırılmış şəxslər çox olmuşdur. Müasir dövrdə Zərdüşt dininə inananların əqidəsinə görə Zərdüşt e. ə. 660 - 589-cu illər arasındakı dövrdə yaşaması zənn edilir[368]. Bu ehtimal pəhləvi mənbələrində az fərqlə təsdiq edilir.

"Ardavirafnamə"nin I fəslində deyilir ki, müqəddəs və pak din olan bu dinin banisi Zərdüşt öz ideologiyasını əhali arasında yayıb təbliğ etmişdir. Məzdəizm 300 il müqəddəs və toxunulmaz qala bilmişdir. Nəhayət, şər rəmzi olan Əhrimənin köməyi ilə Makedoniyalı İskəndər İrana hücum edib oranı dağıtmışdı[369].

"Zad Sparam" əsərində deyilir: Zərdüşt dininin yarandığı gündən 300 il sonra İran taxt-tacı aradan getmişdir. Şübhəsiz ki, bu əsərdə də İskəndərin hücumu nəzərdə tutulur (Zad Sparam, 23-cü fəsil, 12-ci fəqərə; Zərdüşt haqqında).

"Bəndhüş"də deyilir: Kəyan sülaləsinin (Əhəmənilər - A. F.) hakimiyyət başına keçməsindən İskəndərin vəfatına qədər olan müddət 329 ildir. Buna görə də Zərdüşt e. ə. 595-ci ildə peyğəmbər olmasını elan etmişdir. Bəndhüşə görə İskəndər 14 il hökmranlıq etmişdir (Bəndhüş, 44-cü fəsil, 7-8-ci fəqərələr). Ərəb müəllifi Məsudi deyir: mağların rəvayətinə görə onların peyğəmbərləri olan Zərdüşt ibn Spitmanın dövründən İskəndərə qədər olan müddət 258 ildir[370]. Məsudi başqa əsərində bu müddəti 280 il qeyd etmişdir[371].

Əbu Reyhan Biruni də Zərdüşt ilə İskəndər arasında olan müddəti 250 il hesab edir[372].

"Qatha" kitabında Zərdüşt dörd yerdə Gəştasibin adına toxunur[373].

Mənbələrdə Zərdüşt haqqında olan müxtəlif və rəngarəng məlumatın olduğuna baxmayaraq hələ də onun yaşayıb-yaratdığı dövr dəqiq müəyyən edilməmişdir.

---

367 М. А. Дандамаев. Иран при первых Ахеменидах. Москва, 1963, с. 41 – 79.
368 İ. Purdavud. Göstərilən əsəri, s. 120 – 130.
369 Ardavirafnamə, IV – XII.
370 Əl-Məsudi. Müruc əz-zəhəb və əl-məadin əl-cöhvər. Paris. 1861.
371 Yenə orada.
372 Əbu Reyhan Biruni. Göstərilən əsəri, s. 267.
373 Purdavud. Qatha, Bombey, 1927, s. 120 – 125.

Müqəddəs külliyyat olan Avesta Azərbaycan, İran, habelə Orta Asiya ərazisində yaşayan tayfa və qəbilələrin həyat tərzi və məişətini özündə əks etdirən ən qədim mənbədir.

Öz quruluşuna görə Avesta çoxtəbəqəli olmaqla bərabər, eyni zamanda müxtəlif hadisə və faktları özündə cəmləşdirən dini kitabdır. Burada təkrarlara, habelə ziddiyyətli fikirlərə tez-tez təsadüf edilir. İstər Avestanın dili, istərsə onun yazı üslubu, ayrı-ayrı fraqmentləri rəngarəng olub, tarixən tayfa və qəbilələrin şifahi dilinin forma və təfəkkür tərzini özündə əks etdirir. Bu baxımdan da kitabda çoxtəbəqəli məlumatların toplanmasına, habelə onun lüğət fondunun tərkibinə görə yarım əsr ərzində bir sıra avestaşünaslar onun həqiqi Avesta olmasına şübhə etmişlər. Müqəddəs dini kitab olan Avestanın meydana çıxması Azərbaycan və İran xalqlarının çoxəsrli yaradıcılıq bacarığına, onların folklorunun ən yüksək səviyyədə yaranıb inkişaf etdiyini göstərən əsas amildir. Avesta istər iqtisadi-ictimai inkişaf qanunlarına uyğun tərzdə tayfa və qəbilələrin birləşib xalq halını alması, istərsə də köçəri-maldar tayfaların oturaq həyat tərzinə alışıb əkinçiliklə məşğul olmaları və nəhayət, sinifli cəmiyyətin meydana çıxdığı dövrün məhsuludur. Avestanın bir sıra ölkələrdə təkallahlığın meydana çıxmasında böyük rolu olmuşdur. Avesta hindlilərin “Rıkvıda” və yəhudilərin “Tovrat” kitabı kimi dünyada ən qədim dini ştablardan biri olmaqla bərabər o, eyni zamanda Tunc dövrünün məhsuludur. Avestada müharibələrdən və metal alətlərdən bəhs edilsə də bu kitabda dəmir filizinin adına təsadüf edilmir.

Holland alimi Pileyə görə Avesta eramızdan 860 il əvvəlki dövrün məhsuludur. İran alimi Purdavud yazır: Avestanın (Yəsnanın—A. F.) hissəsi olan “Qatın” (Qatha) dil xüsusiyyəti, onun lüğət fondu bizə imkan verir ki, onun meydana çıxdığı dövrü e. ə. II minilliyin sonuna aid edək[374]. İ. H. Əliyev yazır: Yəsnanın hissəsi olan Qatlar e. ə. VIII - VII əsrə aid olmaqla daha qədim və ilkindir. Hətta imkan daxilində Avestanın bir sıra motivlərini e. ə. II minilliyə aid etmək olar[375]. Avestanın meydana çıxdığı dövr də ona aid olan digər məsələlər kimi mübahisəlidir. Bir sıra tədqiqatçı Avestanın İranın şərqində Orta Asiyada meydana çıxmasını iddia edir (V. Qeyqar, Bartolomey, Markvart, V. V. Bartold, V. V. Struve, A. A. Freyman, H. Nuberq, Y. Bertels, V. Q. Henninq və başqaları). Digər avestaşünaslar isə, onun İranın şimal-qərbində yaranması fikrini müdafiə edir (F. Şpikel, J. Darmesteter, Cekson, E. Herstfeld, A. Meyye, P. Tedesko, A. O. Makovelski və s.)[376].

Hər iki fikri irəli sürən tədqiqatçılara hədsiz rəğbət bəsləyənlər vardır. Lakin hələlik bu məsələ həll edilməmiş və hansı qrupun üstün gəlməsi təsdiq edilməmişdir.

---

[374] Yenə orada, s. 121.
[375] İ. H. Əliyev. История Мидии. Баку, 1960, с. 14.
[376] Yenə orada.

Avestanın hissələri Yəsna, Videvdad, Vispared və Yəştdir. İlkin Avesta bizə gəlib çıxmamışdır. Bir sıra pəhləvi mənbələrində olan məlumata görə həqiqi Avesta Makedoniyalı İskəndərin İrana olan hücumu zamanı, Persepol (Təxt-e Cəmşad) alındıqda onun tərəfindən yandırılmışdır[377].

Əlimizdə olan Avestaya gəldikdə bu təkmil olmayan kitab Parfiya və Sasanilərin ilk dövründə həqiqi Avesta əsasında toplanmış hissələrdən ibarətdir. 1771-ci ildə fransız alimi Anketil dü Perron ilk dəfə olaraq Avestanı fransız dilinə tərcümə edib nəşr etmişdir.

Avestanın kodifikasiyası IV əsrə aiddir. Sasani şahı I Şahpurun (309 - 379) dövründə Zərdüşt dininin ən görkəmli mağlarından olan aturpat Marspandan toplayıb təkmilləşdirmişdir. Məlum olduğuna görə Avesta Sasani dövründən daha əvvəl mövcud olmuşdur. Makedoniyalı İskəndərin göstərişi əsasında (e. ə. IV əsrdə) Feotamp Zərdüştiliyin qədim dini kitablarını öyrəndi. Eramızdan əvvəl yaşamış Qermipp onların 2 min sətirdən ibarət olduğunu təyin etmişdir[378].

Müqəddəs dini kitab olan Avesta fars ədəbiyyatında Vesta, İsta, Əst, Əsta, Upastə, Abesta, Bəsta, ərəb dilində Bestaq formasında göstərilmişdir[379]. Andreasa görə fars dilində Avesta pəhləvi dilində olan upastadan əmələ gəlmişdir. Bu sözün mənasına gəldikdə isə o, "əsas", "bünövrə" deməkdir. Bartolomeyə görə Avesta "kömək" və "sığınacaq" deməkdir[380]. Zərdüşt öz təriqət və ideologiyasını təbliğ etmək məqsədi ilə onun əsas müddəalarını, parça-parça şer formasında şagirdlərinə (mağlara) vəz etmişdir. Ondan sonra onlar Zərdüştün nəğməsinə oxşar dini ayinlər yaratmağa başlamışlar. Avestanın hissələri əvvəllər şifahi şəkildə ona inananlar arasında əzbərlənir və nəsildən-nəslə keçirdi. Mənbələrdə olan məlumata görə Əhəmənilərin dövründə Avestnın iki nüsxəsi mövcud olmuşdur. Onlardan biri İstəxrdə "Dej nəpiştək", yaxud "Gənc nəpiştək" adı ilə məşhur olan şahənşah sarayının xüsusi dəbirxanasında, digəri isə "Gənc Şepikan"da saxlanırmış[381].

Artur Kristensenə görə Yəsnanın IV fəsli olan "Qatha" X, XIII və XIX yəştlər Əhəməni imperiyası təşəkkül etdiyi dövrdən daha əvvəl yazılmışdır. V yəşt e. ə. 404-cü ildə, XVII, VIII, XIV, IX, XI, XXXXXVII və XV yəşt Əhəmənilər imperiyası dövründə qələmə alınmışdır. Videvdad e. ə. 147-ci ildə, IX yəşt e. ə. I əsrdə, XIV yəşt isə Parfiya dövründə, Nihayə Xurda Avesta II Şahpurun dövründə yazılmışdır[382].

---

377 Karnamake Ardaşire Papakan, Tansarın məktubu və başqaları.

378 İ. Purdavud. Göstərilən əsəri, s. 120 – 130.

379 İqrar Əliyev. Göstərilən əsəri, s. 15; Бертельс. Новые работы по изучении Авеста. Учение записки Ин-та Востоковедения АН СССР, III, 1951. с. 267 – 268.

380 Bəyanül Ədyan, s. 17.

381 Məcməlül təvarix vəl qisəs, s. 12. Şiz xəzinəsi deməkdir. Makedoniyalı İskəndər I nüsxəni yandırmış, II nüsxə isə onun əmri ilə yunan dilinə tərcümə edilmişdir. Bax: Tanserin məkyubu, s. 11; Dinkardın III kitabı; Ərdavirafnamə, s. 2. Tarix-e sünənülmülük vəl-ərz, s. 18.

382 Artur Kristensen. Göstərilən əsəri, s. 67 – 80; Bir sıra avestaşünaslar "Qatları" Zərdüştün özünün surud və nəöməsi hesab edərək, fikirlərini sübut etmək üçün 53-cü yəsnaya istinad edirlər.

Avesta İran yaylasının sakinləri olan arilər, onların həyat tərzi və məişəti haqqında ətraflı məlumat verir. Avestada göstərilən alver, pul, sikkə ilə deyil, sadəcə olaraq mübadilə yolu ilə edilirdi. Əsas ekvivalent isə qoyun, at, öküz, qatır, dəvə və s. heyvan nəzərə alınırdı. Bu dövrdə mağlara — atrabanlara (ordu, mühafizə edənlərə) əmək haqqı natura ilə ödənilir. Avestada qədim şəhərlərdən ancaq Babilin adı çəkilir. Hələ Əhəmənilərdən əvvəl Midiya dövründə dövlət, habelə dini mərkəz olan Hekmatana (Həmədanın) haqqında Avestada məlumata təsadüf edilir. Bir sıra tədqiqatçı bu adın Neynəva olduğunu iddia edirlər. Lakin Rangha Avestada təkrar qeyd edilən çay adıdır. Şübhəsiz, bu çayı müasir Amu-Dərya ilə eyniləşdirmək daha məqsədəuyğundur. Ehtimal ki, göstərilən şəhər də həmin çayın kənarında olmuşdur. Dara tərəfindən Bisütun qayasında e. ə. 520-ci ildə yazılmış kitabədə Avestanın adının çəkilməsi sübut edir ki, Avesta o dövrdə yazılı şəkildə mövcud olmuşdur.

Avesta, onun dövrü, harada meydana çıxması haqqında orta əsr müəlliflərinin əsərlərində külli miqdarda məlumata rast gəlmək olar.

Əbu Cəfər Məhəmməd ibn Cəfər Təbəri Zərdüşt və onun kitabı Avesta haqqında yazır: "Məlum olsun ki, Zərdüşt Spitman Gəştasibin şahlığı dövründə özünü peyğəmbər elan etmişdir. Gəştasibin əmri ilə dəbirlər Zərdüştün dediklərini qızıl suyu ilə 12 min öküz dərisinə yazdılar"[383]. Gəştasib həmin kitabı öz xəzinəsinə qoyub, onun qorunmasını bir dəstə müqəddəs və inanılmış şəxslərə tapşırdı. Digər tərəfdən əhali onun ehkamlarını öyrənməyə başladı. Təbəriyə görə onun dövründə də bəzi mağlar Zərdüşt dininin ehkam və dualarını əzbər bilirdi[384].

Məsudiyə görə də Avesta 12 min öküz dərisinə yazılmışdı[385]

Zərdüşt dininin əxlaqi təlimi 3 əsası olan yaxşı düşüncə, gözəl bəyan və xeyirxahlıq üzərində qurulmuşdur. Bu dinin təlimlərində ailə, övlad tərbiyəsinə xüsusi fikir verilir.

Bu dinə qail olan hər bir şəxs öz gündəlik həyatında düz danışmalı, yalançılığa yol verməməli, cəmiyyətin fəal üzvü kimi əkinçilik və maldarlıqla məşğul olub, bataqlıqları qurudub, onun məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir. Bundan başqa bu təriqətə inananlar ziyanvericilərə qarşı da daim mübarizə aparmalıdır.

Beləliklə, məzdəizm (Zərdüştilik) antik dövrün ideoloji-fəlsəfi, dini və həyati dünyabaxışıdır. Bu ideologiya "Avesta"da öz əksini tapmışdır. "Avesta"nı yalnız bir xalqın dini, dünyəvi və həyati ideologiyası hesab etmək yanlışdır. Məhz "Avesta" böyük bir ərazidə yaşamış müxtəlif tayfa, qəbilə nəhayət, xalqın fəlsəfi, mənəvi mədəniyyət nümunəsidir. Azərbaycan, İran, Orta və Kiçik Asiyada geniş surətdə yayılmış zərdüştilik ərəb işğallarına, hələ ondan sonrakı dövrlərdə sayı az olsa da, müasir dövrümüzə qədər onun tərəfdarları gəlib çıxmışdır.

---

[383] M. Təbəri. Tarix-e Təbəri. I cild, s. 440.
[384] Yenə orada.
[385] Məsudi. Göstərilən əsəri. II cild, s. 241.

## MƏZDƏKİLƏR HƏRƏKATI VƏ ONUN İCTİMAİ KÖKLƏRİ

Məzdəkin rəhbərliyi ilə (496 - 531) Sasani zülmünə və feodallara qarşı baş vermiş hərəkat, ilk orta əsrlərin ən mühüm ictimai və tarixi hadisələrindən biridir.

Maniçiliyin təsiri ilə yaranmış Məzdəkilər hərəkatı özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Maniçiliyin banisi Mani (216 - 274 və ya 276) Şərq ölkələrində məşhur rəssam kimi məşhur olmuş və Mani Nəqqaş adı ilə adlandırılmışdır. Manilik təlimi Sasanilər hakimiyyətinin ilk dövründə İranda, Orta Asiya və qonşu ölkələrdə Zərdüşt dininə qarşı çevrilmiş geniş dini hərəkat idi.

Maniliyə görə dövrün bütün mövcud dinlərini əvəz edən ümumi bir din olmalıdır. Bu ümumi din manilikdir və onda Zərdüşti, xristian və bütpərəstlik dinlərindən götürülmüş ünsürlər də mövcud olmalıdır. Manilik təlimində qədim yunan fəlsəfəsinin, eyni zamanda Babilistanın qədim dini əqidələrinin də təsiri görünür. Mani təlimi tərəfdarları xalqı hakim təbəqənin dəbdəbəsinə və zənginliyinə qarşı çıxış etməklə bərabər, eyni zamanda onları zahidliyə, nikahsızlığa, fəal həyata dəvət edirdilər. Hakim təbəqənin nümayəndələri tərəfindən maniliyin amansız surətdə təqib edilməsinə baxmayaraq bu dini cərəyan sürətlə, xüsusən şəhər əhalisi arasında geniş yayılırdı.

Manilik yeni bir dini cərəyan kimi meydana gəldikdə bir sıra xalqlar tərəfindən rəğbətlə qarşılanmışdı. Lakin maniliyin bütün dini təriqət və əqidələrdən iqtibas etməsinə baxmayaraq, onun tərəfindən yaranmış dini anlayış heç də özündən əvvəlki dini ayinlərin təkrarı deyil, əsas baş xətti və ideologiyası şəxsən Maninin özü tərəfindən yaradılmışdı.

Maniliyin əsasını iki qüvvə: xeyir-şər və yaxud nur-zülmət təşkil edirdi. Həqiqətdə onlara görə iki böyük nur və zülmət allahları mövcuddur.

Azərbaycanın ilk orta əsrlər tarixinin iqtisadi və ictimai məsələlərinin işıqlandırılmasında məzdəkilər hərəkatının da tədqiq edilməsi mühüm elmi əhəmiyyətə malikdir. Məzdəkilər hərəkatı başlandığı ərəfədə Şərqin digər ölkələrində olduğu kimi Azərbaycanda da feodal münasibətlərinin möhkəmlənməsilə əlaqədar olaraq kəndli kütlələrinin vəziyyəti daha da ağırlaşmışdı.

Pəhləvi dilində Tanser tərəfindən yazılmış "Tanserin məktubu" [386] Sasanilər dövrünün iqtisadi-ictimai tarixinin öyrənilməsinə dair mühüm mənbədir. Bu mənbədə əhali dörd silkə bölünür; onlardan birincisi kahinlər (möbədan-e möbəd), ikincisi hərbçilər, üçüncüsü mirzələr (dəbirlər), dördüncüsu əkinçi, tacir və sənətkarlardan ibarət idi.

Dəbirlər silkinə məktubları və aktları tərtib edənlər, yazıçılar, şairlər, hesabdarlar, hüquqşünaslar, həkimlər, coğrafiyaşünaslar və rüsumçular daxil idilər.

---

[386] Tanserin məktubu. Pəhləvi dilindən tərcümə edəni İbn Müqəffə, pəhləvi dilindən ərəb dilinə İbn-e İsfəndiyar, Müctaba Minəvinin şərhi ilə, Tehran, 1311, s. 12.

Dördüncü silkə daxil olan tacirlərin və sənətkarların vəziyyəti əkinçilərə (kəndlilərə) nisbətən yaxşı idi. Tacirlər və sənətkarlar bir çox mükəlləfiyyətlərdən, o cümlədən hərbi mükəlləfiyyətdən azad edilirdi. Əksinə, bir çox mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edilən kəndlilərin vəziyyəti isə dözülməz və son dərəcə ağır idi. Ona görə ki, ikinci və üçüncü silkə daxil olanlar dövlət vergilərindən azad edilirdi. Bütün vergilər dördüncü silkin, xüsusilə kəndlilərin üzərinə düşürdü. Birinci və ikinci silkin nümayəndələri (kahinlər və arteşdarlar) icmaçı kəndliləri daha çox özlərinə tabe edir, onların torpaqlarını əllərinə keçirirdilər. Digər tərəfdən icmanı dövlət də amansızcasına istismar edirdi. Bu dövrün vergiləri içərisində ən dözülməz və ağırı can vergisi (gizit) idi. I Xosrovun hakimiyyətinə (531 - 579) qədər bütün vergilərin müəyyən miqdarı olmadığına görə, dövlət məmurları öz istədikləri kimi hərəkət edirdilər. Kəndlilər məhsulu götürmədən əvvəl vergini ödəməli idilər. Bu hal kəndlilərin ağır olan iqtisadi vəziyyətini bir daha çətinləşdirirdi. Kəndli vergini vermədən nə məhsulu yığa bilər, nə də onu bazara çıxarıb sata bilərdi.

Gizit 4 dirhəmdən 12 dirhəmə qədər alınırdı. Bu vergini ödəməyənlərin bütün əmlakı dövlətin ixtiyarına keçirdi. Vergi verməli olan şəxs öldükdə onun varisi həmin vergini ödəməli idi. Yalnız I Xosrovun islahatından sonra uşaqlar, qadınlar və 60 yaşından yuxarı olan kişilər can vergisindən azad edilirdi. Deməli, istər Məzdək hərəkatından əvvəl və istərsə də hərəkat ərəfəsində göstərilən şəxslərdən can vergisi alınırmış. Kəndlilər bir sıra digər icbari əmək mükəlləfiyyətlərinin də öhdəsindən gəlməli idi; o cümlədən körpü tikmək, yol çəkmək, arx qazmaq və su bəndlərinin salınmasında da iştirak etməli idi.

Digər tərəfdən İranla Bizans arasında gedən dağıdıcı müharibələr ölkənin təsərrüfatının dağılmasına və kəndlilərin böyük tələfatına səbəb olurdu. Köçəri tayfaların ardı-arası kəsilmədən ölkəyə basqın etmələri də öz növbəsində zəhmətkeşlərin ağır olan vəziyyətini bir daha ağırlaşdırırdı.

Cəmiyyətin bütün ağırlığı kəndlilərin üzərinə düşürdü. Kəndlilər mülkədarlar, məmurlar və din xadimləri tərəfindən vəhşisəsinə istismar edilirdilər. Sasanilər hakimiyyəti dövründə aşağı silkin yuxarı silkə keçməsinə icazə verilmirdi. Bu dövrün qayda-qanunlarını təsvir edən Firdovsi yazır ki, I Xosrova pul lazım olur, o, həmin pulu toplamaq üçün əyalətlərə məmurlar göndərir. Bu vaxt bir nəfər çəkməçi dövlətə böyük miqdarda pul verməyi öhdəsinə götürür. Lakin bu şərtlə ki, I Xosrov çəkməçinin oğluna oxumaq icazəsi vermiş olsun. Sasani şahı ehtiyac içərisində olmasına baxmayarq, həmin şəxsin oğluna oxumaq icazəsi vermir.

Məzdəkilər hərəkatı ərəfəsində quraqlıq və təbii fəlakətlər nəticəsində də ardı-arası kəsilmədən aclıqlar baş vermişdi. Beləliklə, hərəkatın başlanmasının iqtisadi və ictimai amilləri meydana gəlmişdi.

Məşhur Çexoslovakiya şərqşünası O. Klimanın göstərdiyinə görə, Məzdək hərəkatı heç də dinin təsiri altında olmamışdır[387].

Şəhristaninin yazdığına görə Məzdək öz çıxışlarında deyirdi ki, insanı allah bərabərhüquqlu yaratmışdır. Lakin bir qrup adamlar varlanıb bütün sərvəti öz əllərinə toplamışlar, bu mal-dövləti onların əllərindən alıb bütün insanlar arasında bərabər surətdə bölmək lazımdır[388]. Şəhristani davam edərək yazır: insanların bir hissəsi həm çoxlu mala və həm də çoxlu qadına malikdir. Buna görə də varlıların mal-dövləti və qadınını alıb yoxsullar arasında paylaşdırmaq və onlar arasında bərabərlik yaratmaq lazımdır[389].

496-cı ildə quraqlıq nəticəsində baş verən qıtlıq Məzdəkilər hərəkatının başlanmasına təkan verdi, onlar mülkədarlara hücum edib onların torpaq sahələrini ələ keçirir və öz aralarında bərabər surətdə bölürdülər. Bu səbəbdən də Məzdəkilər tezliklə məzlum və yoxsullar tərəfindən rəğbətlə qarşılandılar. İqtisadi-siyasi cəhətdən ağır vəziyyətdə olan ölkəni xilas etmək məqsədi ilə Qubad (488 - 531) onlarla sazişə girib, müqavilə bağlamalı oldu. Lakin bütün bunlara baxmayaraq İranda və Atropatenada feodal zülmünə və Sasanilər hakimiyyətinə qarşı xalq hərəkatı daha da genişləndi. V əsrin 80-ci illərindən başlamış Məzdəkilər hərəkatı feodal istismarına qarşı qüdrətli xalq üsyanına çevrildi[390]. Belə bir şəraitdə mərkəzi hakimiyyət böyük torpaq sahələrinə malik olan din başçıları və əyanların özbaşınalığının qarşısını almaqda da aciz idi. Ona görə ki, istər ruhanilər, istərsə də mülkədarlar mövcud dövlətlə razılaşmadan müəyyən işlər görürdülər. Bu hal da istər-istəməz Qubadı narahat edirdi.

Məzdəkilər hərəkatına Məzdək Bamdadan rəhbərlik edirdi. O, ilk dəfə öz təlimini Həmədan rayonunda yaymağa başlamışdı. Hərəkatın əsas hərəkətverici qüvvəsini öz ağalarına qarşı mübarizə aparan icmaçı kəndlilər təşkil edirdi. Qullar və nökərlər də onlara qoşulmuşdular. Hərəkatda sənətkarlar, şəhər yoxsulları, bəzən xırda və orta torpaq sahibləri də iştirak edirdilər. Məzdəkilərin ölkə daxilində böyük nüfuz qazanıb çoxlu tərəfdar toplamaları yuxarı təbəqəni bərk təşvişə saldı. Ona görə də onlar Məzdəkilərə qarşı düşmənçilik münasibəti bəsləyən bacarıqlı bir şəxsin hakimiyyət başına gətirilməsinin tərəfdarı idilər.

529-cu ildə iri feodallar I Qubad və onun oğlu I Xosrov başda olmaqla hərəkatı yatırdılar.

Üsyan başçıları, o cümlədən Məzdək öldürüldü. Bütün ölkədə Məzdəkilərin kütləvi qırğını başladı. 80 min nəfərə qədər adam öldürüldü[391]. Məzdək hərəkatı nəticəsində iri kahinlərin dövlət rütbələri siyahısından birinci yeri itirdi və dünyəvi vəzifə sahibləri ilk plana çəkildilər. Məzdəkilər hərəkatı pis təşkil

---

[387] O. Klima. Mazdak, Praqa, 1957, s. 130.
[388] Şəhristani. Göstərilən əsəri, s. 291.
[389] Yenə orada.
[390] Azərbaycan tarixi, I cild, Bakı, 1958, s. 103 – 104.
[391] Azərbaycan tarixi, s. 104.

edilmiş kortəbii bir hərəkat idi. Üsyançılar hərəkatın inkişaf qanunlarını düzgün başa düşmürdülər. Bütün kəndli hərəkatında olduğu kimi, Məzdəkilərin də aydın proqramları yox idi. Kəndli üsyanları ona görə məğlub olmuşlar ki, bu üsyançılar kortəbii çıxış edirdilər, üsyanın heç bir siyasi və iqtisadi tələbləri yox idi. Daha doğrusu, dövlət çevrilişi məqsədini qarşıya qoymamışlar. Kəndlilərin kortəbiiliyi onların mübarizə metodları ilə izah edilirdi. Üsyanın nə məramnaməsi və nə də nizamnaməsi yox idi.

Kəndli hərəkatıiın başçıları və iştirakçıları istismarın ictimai, iqtisadi bərabərsizliyin əsas səbəbi olan istehsal vasitələri üzərində xüsusi mülkiyyəti aydın görmürdülər. İstismardan azad olmaq üçün hansı mübarizə metodlarına əl atmağın lazım olduğunu bilmirdilər. Onlar yalnız bərabərliyi meydana atır, varlılar üzərinə düşüb onların varını əllərindən alıb öz aralarında bölməklə kifayətlənirdilər.

Məzdək hərəkatının məhdud cəhətlərinə baxmayaraq bu üsyan dövrün müstəbid hökmdarlarını geniş zəhmətkeş kütlələr qarşısında müəyyən ictimai-iqtisadi və siyasi güzəştlərə getməyə və gələcək kəndli üsyanlarının qarşısını almaq məqsədilə I Xosrovu islahat keçirməyə məcbur etdi. Sonrakı feodal zülmünə qarşı kəndli hərəkatının inkişafına mənəvi zəmin hazırladı.

Məzdək hərəkatının məğlub olmasına baxmayaraq Məzdəkin adı əsrlər boyu İranın, Azərbaycanın və digər Şərq ölkələrinin zülmə məruz qalmış xalqlarının xatirəsində yaşamışdır.

Məzdəkizm İran və Azərbaycan xalqlarının feodal istismarına qarşı sonrakı azadlıq mübarizəsinin gedişinə böyük təsir göstərmişdir.

Məzdək hərəkatı və onun ictimai xarakteri haqqında Bizans, Suriya, ərəb və İran mənbələrində külli miqdarda məlumata rast gəlmək olar. Əbu Cəfər Məhəmməd ibn Cəfər Təbəri özünün "Tarixe ər-rüsəl və əl-mülük" əsərində, Əbu Mənsur Səalibi "Yətimət əd-dəhr", Məsudi "Müruc əz-zəhəb və əl-məadin əl-cövhər", Şəhristani "Əl-miləl və əl-nihəl", Nizamül-mülk "Siyasətnamə", Firdovsi "Şahnamə" əsərində Məzdək hərəkatı və onun ictimai xarakteri haqqında ətraflı məlumat vermişlər. Bundan başqa Bizanslı Prokopinin əsərində də Məzdək haqqında maraqlı fikirlər vardır. Həmin mənbələrdən istifadə edən Çexoslovakiya tarixçisi O. Klima və Sovet tarixçisi N. V. Piqulevskaya Məzdək hərəkatı və onun tarixi, ictimai xarakteri haqqında bir sıra əhəmiyyətli tədqiqat əsərləri nəşr etdirmişlər. Məzdək hərəkatı haqqında Nizamülmülk deyir: "Əhali gizlin və aşkar surətdə Məzdəkin ideologiya və dünyagörüşünü qəbul etdilər" [392]. Bu haqda Firdovsi yazırdı ki, cavan və yaşlı olmalarından asılı olmayaraq, bütün yoxsullar onunla birləşdilər.

Əyan və ruhanilərin özbaşınalığından və onların mərkəzi hakimiyyətin bütün işlərinə qarışmalarından cana gələn Qubad Məzdəkin tərəfdarları ilə razılaşmağa və saziş bağlamağa məcbur olmuşdu. Girşmanın yazdığı kimi xalq

[392] Nizamülmülk. Siyasətnamə, s. 65.

elliklə Məzdək hərəkatına qoşulmuşdu[393]. Məzdək hərəkatının iştirakçıları Camaspın hakimiyyəti dövründə üç il təqib edilib sıxışdırılmışlar. Lakin Camasp hakimiyyətdən düşdükdən sonra Qubadın dövründə 25 - 26 il ərzində Məzdək və onun tərəfdarlarına toxunulmamışdır. Nəhayət, Qubad əyan və ruhanilərlə sazişə gəldikdən sonra 564-cü il yanvarın 25-də Məzdək və onun tərəfdarlarına divan tutmuşdur.

Nizamülmülk "Siyasətnamə" əsərinin IV - V fəsillərində Məzdək hərəkatı, onun təriqəti, nəhayət, I Xosrov tərəfindən hərəkatın yatırılması və Məzdəkin öldürülməsi haqqında I Xosrova istinadən yazır: "Məzdəki öldürmək asandır, lakin onun tərəfdarları olduqca çoxdur. Onu öldürsəm Məzdəkilər qaçıb dağılar, əhalini dəvət edib, bərk istehkamlar əldə edər, bizim və ölkənin işini bitirərlər. Biz fikirləşməli, onları elliklə qırıb, bir nəfəri də belə diri qoymamalıyıq. Nizamülmülkün yazdığına görə, Qubad və I Xosrov Məzdəki aldadıb ona dedilər ki, tərəfdarlarını topla, onlara xələt və hədiyyə vermək lazımdır; onun tərəfdarlarını bu adla 20 - 30 və ya 30 nəfərdən ibarət dəstələrə bölüb bağa aparıb məhv etdilər.

## ATROPATENA ZƏRDÜŞTİLİK DİNİNİN MƏRKƏZİDİR. TEOKRATİYA. ATROPATENA MÖBƏDLƏRİ TƏRƏFİNDƏN AVESTANIN TOPLANMASI

Zərdüştilik qədim Azərbaycan və İranda yaranmış ən mühüm dünyagörüşüdür. Bu dünyagörüşü Zərdüşt tərəfindən təqribən ikinci min illiklə 2500-ci illər arasında yaradılmışdır. Zərdüştilik köçəri həyatdan oturaq və yaxud əkinçiliyə keçid dövrünün məhsuludur. Sonrakı dövrlərdə meydana çıxmış Mitraizm, Anahitə pərəstiş, zərvanilik, manilik və məzdəkilik (Məzdəizm) bu görüş əsasında meydana gəlmişdir. Məzdəizm yəhudi, xristian, hətta islam dininə də təsir göstərmişdir. Bundan başqa bu dünyagörüşün təsirini biz yunan fəlsəfəsində, o cümlədən Heraklit, Pifaqor və Platonda da müşahidə edirik. Bu dünyagörüşünün iki mühüm təkamül dövrü olmuşdur. Birinci dövr Məzdəkizm dünyagörüşünün yarandığı, xüsusən Avestanın (Qatlardan tutmuş xırda Avestayadək) meydana gəldiyi dövrdür. Bu dövr Zərdüşt tərəfdarlarının, Zərdüştün özü və onun ailəsinin Əhrimənlə (şər ilə) apardıqları mübarizə dövrüdür. Avestada bu mübarizəyə dair əfsanəvi rəvayətlərə təkrarən rast gəlmək olur. Avestada olan rəvayət və hekayətlərdə Zərdüşt bir sıra şəxsləri tərif edir, digərlərinə isə, əksinə, lənət yağdırırdı[394]. Bu baxımdan tədqiqatçı həmin dövrün ictimai vəziyyətinə dair Avestanın bu hissəsindən məlumat əldə edə bilər. Zərdüşt özünün müxalifləri tərəfindən öldürülməsinə baxmayaraq, onun tərəfindən yaradılmış dünyagörüşü sonralar yaranmış dini təriqətlərdə təzahür etmişdir.

---

[393] Girşman. Göstərilən əsəri, s. 136.
[394] Литература древнего Востока. Изд. МГУ, 1984, с. 5 – 40.

İkinci dövr Zərdüşt dininin təkamül dövrü adlanır. Bu dövr Ərdəşirin hakimiyyət başına gəlməsindən Şapurun hakimiyyətə keçməsinə qədər olan dövrü əhatə edir. Daha doğrusu, təqribən 150 il.

Nisbətən uzun olan bu müddətdə, Azərbaycanda olan möbədlər Sasani şahlarının nəzər-diqqətini daha artıq özünə cəlb etmiş oldu. Sasani şahları məzdəizm dünyagörüşünü yenidən bərpa etmək məqsədilə Atropatena möbədləri və hirbodlarından istifadə etməyə başladılar. Bu sülalənin nümayəndələri Avesta, Xurd Avestanın toplanmasında, Avesta əlifbasının (din dəbirə) yaranmasında, Məzdəizm qayda-qanunlarının yenidən bərpasında Atropatena ruhanilərindən istədikləri kimi istifadə etdilər. Teokratik dövlət yaradan Sasanilər özlərini həxamənşilərin varisi hesab edirdi. Buna görə də onlar Avesta və Məzdəizmi əhya etməyi qarşılarına məqsəd qoymuşdular.

Tanser yazır ki, parfiyalılar zəiflədikləri dövrdə ölkədə çoxlu atəşgədələr tikdirməyə başladılar. Lakin onlar bu işin öhdəsindən gələ bilmədilər[395]. Lakin onların işini davam etdirən Sasani şahları yeni dini mərkəzlər yaratmağa müvəffəq oldular. Digər tərəfdən müvafiq məqsədlər güdən Sasanilər bu işi görməyə məcbur idilər. Ona görə ki, bu zaman II Şapurun dövründə mərkəzi Konstantinopol olan xristianlıq tədricən Azərbaycan və İranda yayılmaqda idi. Şərqə gəldikdə isə Guşanda Buddizm sürətlə yayılırdı. Belə bir şəraitdə Sasanilər Məzdəizm ideologiyasını təbliğ etməyə məcbur idilər.

Sasanilərin hakimiyyəti dövründə Zərdüştilik bütün ölkədə hakim ideologiyaya çevrildi. Əhəmənilər hakimiyyəti devrildikdən sonra Yaxın Şərq ölkələrində ellin mədəniyyəti, o cümlədən müxtəlif dini və fəlsəfi görüşlər geniş surətdə yayılmışdı. Bu səböbə görə də, parfiyalılar ilk dövrlərdə ellin mədəniyyətinin təsirindən asanlıqla xilas ola bilməmişlər. Bir sözlə, demək olar ki, Zərdüştilik Sasanilərin hakimiyyət başına gəlmələri ilə əlaqədar olaraq qüvvətlənməyə başlamışdı. Bu dövrdən etibarən dağınıq məlumatların toplanıb işlənməsinə iqdam edilir.

Zərdüştilik dini təriqət kimi Sasanilərin dövründə deyil, hələ ondan çox əvvəl meydana çıxmışdır.

Feodalizmin meydana gəlməsi ilə əlaqədar olaraq, dini əqidə və etiqadlarda da böyük təbəddülat baş verdi. Belə ki, feodalizm özündən əvvəlki quruluşa nisbətən mütərəqqi rola malik olması ilə əlaqədar özünə uyğun yeni dini anlayışların qanunauyğun bir tərzdə dəyişməsini və inkişaf etməsini qarşıya qoymuş olur. Azərbaycan ərazisində inkişaf edib yayılmağa başlamış Zərdüşt dininə Midiya kahinlərinin də dini təlimləri təsir göstərmişdir. Zərdüşt dini Əhəmənilərin dövründən etibarən Azərbaycan, İran və Orta Asiyanın qədim tayfalarının dini idi. Bu dinin əsas müddəası ondan ibarət idi ki, dünyada bir-biri ilə daim vuruşan iki qüvvə vardır; bunlardan biri xeyir - Ahura Məzda (Hörmüzd),

---

[395] Tanserin məktubu, s. 12 – 20.

digəri isə şər - Anhra Manyu (Əhrimən) dir. Zərdüştiliyin tərəfdarlarına görə baş ilahi Hörmüzddür. Onu da müqəddəs od təmsil edir. Zərdüşt dininə inananların atəşgədələrində müqəddəs od daima şölə çəkib yanmalıdır. Zərdüştilər müqəddəs oda sitayiş edir, onun şərəfinə qurbanlar verirdilər.

Möbədlər xalqın başına gələn bütün bəlaları və müsibətləri qəddar ruhun - Əhrimənin üzərinə yıxırdılar. Onlar mövcud ictimai quruluşun ilahi bir mənşəyə malik olduğunu təbliğ edirdilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Zərdüştün anadan olduğu yer haqqında tədqiqatçıların fikri müxtəlifdir. Bəziləri Zərdüştün Bəlxdə, müasir Zərdüştilər isə öz peyğəmbərlərinin Atropatenada anadan olmasını bildirir ki, bütün fərziyyələrdən güclü və inandırıcıdır. Zərdüşt yunan mənbələrində Qazaka, ərəblərdə Cənzə, müasir dövrdə isə Təxt-e Süleyman adlanan yerdə, bir sıra alimlərə görə Urmaitdə anadan olmuşdur. Çox güman ki, bu səbəbə görə də Urmu gölünün suyu, həmin dövrdən etibarən müqəddəs hesab edilirdi. Bütün atəşgədələr arasında Qazakada olan Azərgəşəsp atəşgədəsi daha məşhur idi. Yaqut Həməvinin göstərdiyinə görə, Cənzə (Qazaka) Marağa ilə Zəncan, Zur və Dinəvər şəhərləri arasında yerləşir. O, şəxsən orada olan atəşgədələri görmüşdür[396].

İbn Xordadbehin yazdığına görə, Sasani şahları tac qoyduqdan sonra Mədaindən piyada buraya gələrək atəşgədəni ziyarət edirdilər[397]. Bir sıra yunan tarixçiləri onun xəzinəsinin zəngin olması haqqında məlumat vermişlər. İbn Xordadbeh, Bəlazuri, Məsudi Həmzə İsfəhani, Yaqut Həməvi, Həmdullah Qəzvini, Əbul-Fida, Əbu Reyhan Biruni Zərdüştün Azərbaycanda anadan olmasını söyləmişlər. Biruni yazır ki, Zərdüşt peyğəmbərliyə Savalan dağında çatmışdır. Ən mühüm atəşgədələrin Atropatena ərazisində mövcud olması, digər tərəfdən Zərdüştün özünün bu ərazidə doğulub boya-başa çatması öz-özlüyündə belə Atropatenanın dini mərkəzə çevrilməsinə bilavasitə şərait yaratmışdır. Bundan başqa Atropatena həm də Zərdüşt dininin ideoloji və təlim mərkəzinə çevrilmişdi.

Dövrün ən görkəmli din xadimləri (möbədan-e möbədlər) Cənzədə təhsil alır və ölkədə olan digər atəşgədələrə göndərilirdilər.

Xüsusilə, Sasanilərin dövründə Azərbaycanın dini mərkəz olması daha qabarıq şəkildə nəzər-diqqəti cəlb edir. Sasanilər sülaləsindən Ərdəşir (226 - 241) öz hakimiyyətini möhkəmləndirmək məqsədilə Zərdüşt dinindən istifadə etməyə çalışırdı. Bu səbəbə görə də o, var gücü ilə Zərdüşti ideoloji ehkamlarının bütün İrana yayılmasına və onun ən qabaqcıl nəzəriyyəyə çevrilməsinə canfəşanlıq göstərirdi.

Dinkorda görə: Böyük hökmdar Ərdəşir Avestanın toplanmasını möbədlərin möbədi (herbodane herbod) Tanserə tapşırdı. Tanser həmin dövrün ən görkəmli alimlərindən biri idi. Bu haqda Məsudi deyir ki, o, tayfalar hakimi əmirlərindən biri, atası isə fars hakimi idi.

---

[396] Yaqut Həməvi. Möcəm əl-buldan, Leypsiq, 1949, s. 6 – 7.
[397] İbn Xordadbeh. Əl-məsalik və əl-məmalik, Liden, 1870, s. 65.

Lakin Tanser zahidliyi və pəhrizkarlığı üstün tutaraq, hakimiyyətdən əl çəkdi. Tanser Sasanilər hakimiyyətinin genişlənməsində Ərdəşirə kömək etməklə bərabər, tayfalar hökmranlığını ona tabe olmağa dəvət etdi. Mənbələrin göstərdiyinə görə Tanser "Avesta"nın toplanmasına rəhbərlik etmişdir.

Birinci Şapur (242 - 272) atasının yolu ilə gedərək "Avesta"nın toplanılmasına böyük fikir verirdi. Onun bütün hissələrinin toplanması əmrini verməklə bərabər, eyni zamanda yığılmasını da təşkil etmişdi. Lakin bu işi II Şapur (309 - 370) başa çatdırdı. Onun dövründə möbədane möbəd Azərbad Mehr Spənd kitabda ("Avesta"da) olan bütün lüğət fərqlərini aradan qaldırıb, onu tamamladı. Onun tərəfindən tamamlanan kitaba "Xurd Avesta"[398] adı verildi. Azərbaycanla yanaşı Rey və Yaxın Şərqin dini mərkəzlərindən biri olmuşdur. Bir sıra alimlər belə hesab edirlər ki, Rey Zərdüştün anadan olduğu yerdir. Bu ad Raqa adı ilə Bisütun qayalarında yazılmışdır. XIX əsrdən onu Zərdüştün Raqası adlandırırlar. Pəhləvi tərcümələrində Reyin Azərbaycanda olması söylənilir[399].

Məşhur yunan coğrafiyaşünası Ptolomey (eramızın II əsri) Reyin adını çəkir. Reyin xarabaları müasir Tehran şəhərinin yaxınlığında qalmaqdadır. Rey keçmişdə müqəddəs şəhərlərdən biri sayılmaqla bərabər, həm də İran ruhanilərinin dini mərkəzi idi. Yaqut Həməvi Reyin Dəmavənd dağının ətəyində olmasını göstərir. Məhəmməd Təbərinin dediyinə görə, Musmuğan qardaşı ilə birlikdə ərəblərə əsir düşmüş və onun qızı Bağdada sovqat aparılmışdı. Pəhləvi dilində "Mus" muğların (ruhanilərin) başçısına deyilir. Muğanların böyüyü Mus Atropatenanın mərkəzi şəhəri olan Şizdə otururdu. Mənbələrin verdiyi məlumatlara görə Rey muğlarına və atəşgədələrinə Şizdən rəhbərlik edilirdi. Dinkorda görə, Avestanın bir nüsxəsi Azərbaycanın Şiz şəhərində olan məşhur Azərgəşəsp atəşgədəsində, başqa nüsxəsi Təxt-e Cəmşiddə (Pereopolis) olan dövlət arxivində saxlanılırdı.

Avestanın dini mahiyyət daşımasına baxmayaraq, onu bir sıra qədim xalqların, o cümlədən qədim Azərbaycan xalqının mədəniyyətini, adət və ənənəsini, tarix və coğrafiyasını özündə əks etdirən böyük bir ensiklopedik kitab adlandırmaq olar.

Avestanın Makedoniyalı İskəndər tərəfindən yandırılması faktını bir sıra mənbələr, o cümlədən "Karnameyi Ərdəşir Papakan", "Tanserin məktubu", "Ardavirafnamə" və s. təsdiq edir.

Tanserin məktubunda deyilir: "Bilirsənmi? 12 min öküz dərisində yazılmış bizim dini kitabı İskəndər İstəxrdə yandırmışdır[400]. "Ardavirafnamə"də həmin bu fikir təkrar olunur. İbrahim Purdavuda görə də, Avestanın bir nüsxəsi

---

398 Ruzbeh Dayvidadın oğlu Abdulla ibn Müqəffə (Zahirdə müsəlman, əslində isə Zərdüşti) Avestanı 760-cı ildə pəhləvi dilindən ərəb dilinə tərcümə etmişdir. Hal-hazırda onun tərcümə etdiyi "Avesta" London muzeyində mövcuddur.

399 İbrahim Purdavud. Qatha, Bombey, 1927, s. 49.

400 Tanserin məktubu, s. 12.

Azərbaycanın Şiz şəhərində olan Azərgəşəsp atəşgədəsində saxlanılırmış[401]. Dinkorda görə, Avesta qədimdə olmuş Avesta deyildir[402].

Darmestetərə görə, Avesta güman ki, Roma imperatoru Neronun müasiri olan I Balaşın (51 - 78) dövründə toplanmışdır[403]. Parfiya hökmdarları içərisində dindarlıqda I Balaşın ailəsi xüsusi mövqe tuturdu. Lakin Avestanın toplanılması Atropatena məbədləri tərəfindən başa çatdırılmışdır.

Avestanın toplanmasında Sasanilərin də rolu az olmamışdır. Sasanilər sülaləsi ata-babadan irsən dindar olmuşdur. Belə ki, vaxtilə Ərdəşirin babası Sasan İstəxrdə olan Anahid məbədinin başçısı idi. Sasanilər dövrünün sikkələri üzərində atəşgədənin milli simvol kimi verilməsi də öz növbəsində həmin sülalənin Zərdüşt dininə olan münasibətini göstərir.

Bu hal qaya rəsmlərində də qabarıq bir tərzdə nəzərə çarpır. Dinkorda görə, Ərdəşir möbədan-e möbəd (hirbodane hirbod) olan Tanseri saraya dəvət edib, Avestanın toplanılmasını ona tapşırır[404].

Hələ I Şahpur Hindistan, Yunanıstan və digər ölkələrdə dağınıq şəkildə mövcud olan tibb, coğrafiya, fəlsəfə və astronomiya elminə aid məlumatları toplatdırıb, Avestaya əlavə etdirmişdi. Bundan sonra da onun dövründə müqəddəs kitabın qorunub saxlanılmasına, ona şərh yazılmasına və bir sıra dini sənədlərin toplanmasına səy göstərilmişdi. II Şahpurun dövründə Avestanın bəzi hissələrinin izahında (təfsirində) ixtilaf yarandığına görə onun göstərişi ilə dövrün ən görkəmli ruhanisi Azərbad marspand muğların bir sıra səhv fikirlərini aradan qaldırıb Avestanı təkmilləşdirmişdir. Bu düzəlişlərdən sonra Avesta ölkənin bir növ qanunlar külliyyatına çevrildi. Azərbaddan sonra da Avestanın təfsirinə əlavə izahat yazanlar olmuşdur. Belə ki, şərqşünasların tədqiqatı əsasında məlum olmuşdur ki, 528-ci ildən sonra Vəndidadın pəhləvi təfsiri hazırda mövcud olan vəziyyətə düşmüşdür. Vəndidadın IV Fərkurunun 49-cu bəndində I Xosrov Ənuşirəvanın əmri ilə öldürülmüş Məzdək Bamdadan yad edilir. Halbuki, Avestanın bu hissəsi hələ I Xosrovdan (531 - 579) xeyli əvvəl toplanmışdır.

Sasanilərin son dövrü olan VI əsrdə din-dəbirə əlifbasının (Avesta əlifbasına deyilir) tətbiq edilməsinə şərait yaranmış oldu.

Sasanilər dövrü Zərdüştiliyin ən yüksək mərhələyə qalxdığı dövr olmuşdur. Belə ki, mağlar həmin dövrdə dini ayinlərin icrasından başqa, dövlətin

---

401 İ. Purdavud. Qatha, s. 40.

402 Pəhləvi dilində olan mənbələr içərisində Avesta haqqında Dinkord da olduqca dəqiq məlumat vardır. Dinkordda olan məlumatın əksəri şərqşünaslar tərəfindən qəbil edilmişdir. Dinkordun özündə belə Avestanın Sasanilər dövründə məbədlər tərəfindən toplanılması fikri irəli sürülmüşdür. Dinkordda göstərildiyinə görə Zərdüşt spəntman 21 nəskdən (fəsildən) ibarət olan Avestanı Gəştasba təqdim etmişdir.

403 Darmesteter. Avesta. Oksford. 1880.

404 Tanser Sasani dövrünün ən görkəmli alimlərindən biridir. Məsudinin yazdığına görə, o tayfalar hökmranlığı dövrünün ən nüfuzlu şəxsiyyətlərindən biri olmuşdur. Tanser bir sıra əsərlərin, o cümlədən “Tanserin məktubu” adlı əsərin müəllifidir.

işlərinə də qarışır və bəzi hallarda əyanlarla birlikdə şahın əleyhinə ittifaq bağlayırdılar[405]. Bundan başqa möbədlərin ölkə daxilində nüfuzunun artması onların dövlətin xüsusi işlərinə qarışmalarına şərait yaratmışdı. Ona görə də ölkənin daxili-xarici işləri, habelə bütün mübahisəli məsələlər bu silkin məsləhəti ilə həll edilirdi. İstər dövlət tərəfindən verilmiş hüquqların toxunulmamazlığı külli miqdarda münbit torpaq sahələrinə malik olmaları, istərsə də dini cərimələr, bu silkə həddindən artıq varlanıb, nüfuzlarının artmasına şərait yaratmışdı.

A. Kristensenin göstərdiyinə görə bu silk, ruhanilikdən əlavə digər geniş və müstəqil hüquqlara malik olmaqla, dövlət daxilində dövlət yaratmışdılar[406].

"Bəyan əl-ədyan" kitabında Avesta "Vesta", "İsta" və "Əst", "Əvista" formasında işlənmişdir. "Mücməl-ət-təvarix vəl-qisəs"də isə bu söz "Əbəstaq" şəklində göstərilmişdir. Sasanilər dövründə tərtib edilib bizə gəlib çatan Avestanın məzmunu Zərdüşt dini təlimlərinin külliyyatından ibarətdir.

Avestanın yazıldığı dil Avesta dili kimi məşhurdur. Avestanın yazıldığı ilkin dil Parfiya dili olmuşdur. Avestanın dili hind - Avropa dil ailəsinə mənsub ari və yaxud İran dil qruplarından biridir. "Avesta"nın yazıldığı tarixi düzgün təyin etmək üçün Zərdüştün dövrü dəqiq müəyyənləşdirilməlidir. Halbuki Avestanın da dövrü dumanlıdır. Məhəmməd Müin bu haqda yazır: "Avestanın dövrünu təqribi halda e. ə. 660-cı ildə qəbul etmiş olsaq, belə bir nəticəyə gəlmək olar ki, bu kitab hindlilərin "Rigvida" və yəhudilərin "Tovrat"ından sonra dünyanın ən qədim kitablarından biridir. Avesta başdan-başa tayfalar ittifaqının ibtidai həyat tərzini əks etdirən mənbədir. Avestanın yazıldığı dövrü e. ə. VIII - VII əsrlərdən əvvəl hesab etmək düzgün deyildir. Lakin Avestanın bir hissəsi olan "Qat"ların dövrünü ondan bir neçə yüz il əvvəl hesab etmək məqsədə uyğundur.

E. ə. III əsrdə yaşamış yunan tarixçisi Hermippin İran sakinlərinin təriqət və dini ayinləri haqqında yazmış olduğu əsər hələ indiyə qədər bizə gəlib çatmamışdır. Lakin Plutarxın öz əsərində Hermippin İran haqqında yazmış olduğu kitabından bəhs etmişdir. Ona görə Zərdüşt dininə inananların müqəddəs kitabı iki milyondan artıq sətrə malikdir. Eyni zamanda o, Avestanın on iki min aşılanmış gön üzərində yazıldığını qeyd etmişdir. Bu məlumata biz Təbəri, Məsudi və Firdovsinin "Şahnamə" əsərində də rast gəlirik. Ərəb və farsdilli müəlliflər Avestanın 1200 fəsildən ibarət olduğunu göstərmişlər.

Yuxarıda sadalanan rəqəmlərin həddən artıq şişirdilməsinə baxmayaraq, hər halda bu rəqəmlər Avestanın əzəmətini göstərən amillərdən biridir. Pəhləvi mənbələrində mövcud olmuş Avesta 1000 fəsil və yaxud 21 cilddən ibarət imiş. Sasanilər hakimiyyəti dövründə yazılmış Avesta isə 345700 sözdən ibarət olub 348

---

[405] Hirbodların mövqeyi hələlik müəyyənləşdirilməmişdir. Sasanilərin dövründə Zərdüşt dini ruhanilərin hamısı möbəd adlanırdı. Həqiqətdə isə möbəd mağların başçısına deyilirdi. Herbod məfhumu çox güman ki, möbədə nisbətən daha bir çərçivədə spesifik mövqeyə malik olmuşdur. Herbodane herbod termininə biz sonralar təsadüf dirik. Məlum olduğu kimi, herbodane herbod fəxri ad olmuşdur.

[406] A. Kristensen. Nəxostin insan və nəxostin padşah dər tarix-e İran, I cild, s. 140 – 150.

fəsil və yaxud “Nəsk”ə bölünmüşdür. Sasanilər dövrü Avestanın 345700 sözündən ancaq 83000 kəlməsi bizə gəlib çatmışdır. Qalanı isə ehtimal ki, ərəb və monqol işğalları dövründə aradan çıxmışdır. Bizə gəlib çatmış olan Avestanın bölmələri aşağıdakılardan ibarətdir: Qatha, Yəsna, Vidivdat, Yəşt, Visparad və Xurda Avesta.

Zərdüşt ilk dəfə öz ideologiyasını və təriqətinin qayda-qanunlarını şer halında təbliğ edirdi. Onun şagirdləri də Zərdüştün nəğmə və dualarına oxşar nəğmə və dualar hazırlayırdılar.

Avestanın yazıldığı yer də hələlik mübahisəlidir. Bir sıra tədqitatçılar Avestanı İranın şərqinə, Orta Asiyaya, digərləri isə onu İranın şimal-qərbi olan Azərbaycana aid edirlər.

İ. H. Əliyevin fikrinə görə, istər Avropa və istərsə Sovet alimləri içərisində hər iki nöqteyi-nəzəri müdafiə edən adlı-sanlı tədqiqatçılara təsadüf edilir[407].

Faktlar göstərir ki, məhz Azərbaycan dini mərkəz olmuşdur. Mühüm atəşgədələrin bu ərazidə yerləşməsi və dini ayinlərin icrası Azərbaycanın dini mərkəz kimi şöhrətlənməsində mühüm rol oynamışdır. Xüsusilə bu vəziyyət Sasanilər dövründə daha qabarıq şəkildə diqqəti cəlb etmiş olur. Sasanilər dövrünün mənbəyi sayılan “Karnameyi-Ərdəşire Papakan” da həmin dövrün üç adlı-sanlı atəşgədəsi haqqında məlumat verilir. Bu atəşgədələrdən biri də Azərbaycanda olmuş Azərgəşəspdir. Sasanilər dövrünün ruhaniləri Azərbaycanda dini təlim aldıqdan sonra ölkənin digər dini mərkəzlərinə göndərilirdi. Digər tərəfdən möbədlərin möbədi daima Azərbaycanın Şiz şəhərində olan Azərgəşəsp atəşgədəsini özünə iqamətgah seçmişdi.

Ümumiyyətlə, Zərdüştün Azərgəşəsp atəşgədəsi yerləşdiyi ərazidə anadan olması həmin möbədə hörmət qazandıra bilmişdir.

## Nəticə

Azərbaycan tarixinin olduqca mürəkkəb və ən az tədqiq edilmiş Atropatena dövrünün öyrənilməsi böyük zəhmət tələb edir və onun ciddi tədqiqata ehtiyacı vardır. Bu baxımdan oxuculara təqdim edilən bu monoqrafiya müəyyən nöqsanlarına baxmayaraq Atropatena tarixinə dair yazılmış ilk tədqiqat əsərlərindən biridir.

Tədqiqatın nəticələrindən məlum olur ki, Atropatena ərazisi bəşər mədəniyyətinin ilk mərkəzlərindən biri olmaqla bərabər, həm də cəmiyyət tarixinin bütün mərhələlərini özündə əks etdirmişdir. Atropatena ərazisində aparılmış arxeoloji tədqiqatların nəticəsi sübut edir ki, əsrlər boyu atropatenalılar özünəməxsus zəngin maddi və mənəvi mədəniyyətə malik olmuşdur. Həsənlu,

[407] İ. H. Əliyev. Göstərilən əsəri, s. 14 – 30.

Təxt-e Süleyman qazıntıları dünya mədəniyyəti xəzinəsinə olduqca nəfis incilər bəxş etmişdir.

Həsənludan tapılmış "qızıl cam", "gümüş güldan", habelə digər zərgərlik məmulatları dünya tədqiqatçılarını heyrətdə qoymuşdur. Ərdəbil, Maku, eləcə də Baruc və Zöhhak qalasından təsadüfi hallarda tapılmış silah və zinət şeyləri, məişətdə istifadə edilən digər əşya olduqca maraqlıdır. Atropatena ərazisində külli miqdarda payızlıq və yazlıq taxıl məhsulunun yetişdirilməsi, dünyada misli olmayan "Nisa" cins atlarının bəslənilməsi, bir dəfə əkilmiş taxıl zəmilərindən 2 dəfə məhsul əldə edilməsi, bu ərazidə külli miqdarda mal-qara və xırdabuynuzlu heyvanların yaylaq-qışlaq şəraitində bəslənilməsi, ölkəyə dünya şöhrəti qazandırmışdı. Məhz buna görə də Atropatena dünya ticarətinə cəlb edilmiş ilk ölkələrdən biri olmuşdur. Atropatena ərazisində Təbriz, Ərdəbil, Urmu, Marağa, Miyana, Zəncan, Naxçıvan, Maku, Sarab, Mərənd və digər şəhərlərin yaranıb inkişaf etməsi ölkənin daxilində böyük iqtisadi və ictimai təbəddülat yaratmış, onlar mühüm sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir. Atropatena şəhərləri quru, həm də su (dəniz) ticarət yolları vasitəsi ilə dünyanın müxtəlif ölkələri ilə ticarət və mədəni əlaqə saxlayırdı. Atropatena şəhərləri şimalda Qafqaz Albaniyası, İberiya, Ermənistan, şərqdə məşhur "İpək yolu" vasitəsi ilə İran, Orta Asiya, Hindistan və Çin, qərbdə Kiçik Asiya ölkələri ilə iqtisadi əlaqəyə girirdi.

Şəhərlərdə hazırlanmış qiymətli sənət nümunələri, o cümlədən xalça, bəzək şeyləri, yun məmulatları dünya şöhrəti qazanmışdı. Texniki cəhətdən mürəkkəb, estetik cəhətdən zövq ilə hazırlanmış bəzək əşyaları, xüsusən zərgərlik nümunələri qonşu ölkələrdə də məşhur idi. Əkinçilik, maldarlıq, toxuculuq, metalişləmə, dulusçuluq və s. Atropatenanın təsərrüfat həyatının əsasını təşkil edirdi. Atropatenalılar Əhəməni imperiyasına, parfiyalılara, xüsusilə Roma işğalçılarına qarşı amansız mübarizə aparmışdır.

III Daranın məğlubiyyətindən sonra Atropatın başçılığı ilə bu ərazidə Atropatena dövləti yaranmış və 350 il müstəqil dövlət kimi öz varlığını qoruyub saxlamışdır. Atropatena Sasanilərin dövründə imperiyanın dini və ideoloji mərkəzinə çevrilmişdi. Avesta məhz Atropatena möbədləri tərəfindən toplanıb kodifikasiya edilmişdir,

Sasani şahları tac qoyduqda Ktessifondan (Mədaindən) Qazakaya piyada gəlib müqəddəs odu ziyarət etdikdən sonra şahlığa çatırdılar.

Atropatena tarixinin qismən olsa da təhlili bizə imkan verir ki, aşağıdakı nəticələrə gələk:

Atropatena ərazisi dünyanın ən gözəl və əlverişli təbii-coğrafi şəraitə malik olan bir ərazi olmuşdur.

Burada olan təbii, yeraltı və yerüstü sərvətlər ölkə iqtisadiyyatını inkişaf etdirməyə şərait yaradırdı. Bu ərazidə əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət və şəhər həyatı inkişaf etmişdi. Burada bəslənilən atlar dünya şöhrəti qazanmışdı.

Yadelli işğalçılara qarşı atropatenalılar amansız mübarizə aparmışlar. Antoninin 100 min nəfərlik ordusu məhz Qazaka şəhəri ətrafında məğlub edilmişdir.

Atropatın başçılığı ilə bu ərazidə Atropatena dövləti yaradılmış və onun varisləri burada 350 il müstəqil hakimiyyət sürmüşlər.

Avesta Atropatena möbədləri tərəfindən toplanmış, Sasanilər imperiyası dövründə siyasi müstəqilliyini itirsə də Atropatena yenə də ideoloji və dini mərkəz kimi bu böyük imperiyanın həyatında mühüm rol oynamışdır.

## ƏDƏBİYYAT


Авдиев В. И. История Древнего Востока. М., 1970.

Avesta. Kopenhagen. 1910.

Avesta. Strasburq. 1910.

Алиев И. История Мидии. Баку, 1960.

Ализаде А. А. Социально-экономическая история Азербайджана XIII – XIV вв. Баку, 1956.

Ammian Marselli. 1918.

Arrian. Anabazis.

Арриан. Поход Александра Великого. ВДИ. № 1.

Babilistan Talmudu.

Bartolomey. Zabanhay-e İran-e Miyan-e. 3-cü cild.

Baba Səfərli. Ərdəbil dər gözərgah-e tarix. Tehran, 1335.

Бартольд В. В. Историко-географический обзор Ирана. СПб, 1903.

Hüdud əl aləm minəl məşriq İləl məqrib. Бартольд В. В. Л., 1930.

Bahar Məhəmmədtağı. Səbkşünasi. Tehran, 1331.

Бунятов Т. А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы Баку, 1957.

Bünyadov T. A. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964.

Бунятов З. М. Азербайджан в VII—IX вв. Баку, 1965.

Bəhrami Tağı. Tarix-e Kəşavərzi-e İran. Tehran, 1330.

Bəhrami Tağı. Coğrafiye Kəşavərzi-e İran. Tehran, 1330.

Bəhrami Tağı: Fərhəng-e Rustai. Tehran, 1316.

Bərzigar Ərdəşir. Tarix-e Təbəristan. Tehran, 1950.

Vəlixanlı N. İbn Xordadbeh. Bakı, 1986.

Гаи Плиний Секунд. Естественная история. Перевод В. В. Латышева. ВДИ, 1949, № 2.

Геродот. История в девяти книгах. т. 1 - 2, Перевод Ф. Г. Мищенко. М., 1888.

Qəzvini H. Nüzhət əl-qülub. M. Dəbir-Səyaqi. Tehran, 1936.

Грантовский Э. А. Иранские имена из Приурмийского района в IX - VIII в, Сб. «Древний мир», М., 1962.

Грантовский Э. А. Ранняя история иранских племен Передней Азии. М., 1970.
Гуммель Я. И. Отчет о раскопках около Кировабада. 1938 г. Изв. Аз ФАН СССР, 1939, № 3.
Dehxuda Ə. Lüğətnamə. T. hərfi Tehran, 1349.
Dibac İ. Rahnüma-e asar-e tarixi-ye Azərbaycan-e şərqi. Təbriz, 1344.
Dibac İ. Asar-e tarixi-e Azərbaycan-e şərqi. Təbriz, 1355.
Дионисий. Пер. И. П. Иветкова. ВДИ, 1948, № 1.
Диодор Сицилийский. Историческая библиотека. Пер. Алексеева. Т. 1 - 6, СП., 1774 – 1775.
Дьяконов И. М. История Мидии. М., 1956.
Дьяконов М. М. Очерк истории древнего Ирана М., 1961.
Евстафий. Коментарии к землеописанию.
Edvard Braun. Tarixe Ədəbi İran. Tehran, 1343.
Enfels F. Ailənin xüsusi mülkiyyəti və dövlətin mənşəyi. Bakı, 1971.
Ələkbər Sərfəraz. Təxt-e Süleyman. Təbriz, 1342.
Əli Rəzmara. Coğrafiya-e nizami İran. Tehran, 1320.
İsa Sədiq. Tarix-e fərhəng-e İran. Tehran, 1338.
Əl-Yəqubi. Əl boldan. Liden, 1897.
Əl-Məsudi. Əl tənbih vəl əşraf. Leyden, 1891.
Əl-Məsudi. Müruc əz zəhəb vəl məadin əl-cövhər. Paris, 1861.
Əl-Müqəddəsi. Əhsən ət-təqasim fi mərifət ül-əqalim. Leyden, 1906.
Əl-Şuştəri. Təzkihey-e Şuştər. Kəlküttə, 1343.
Ərdavirafnamə. Zərdüşt Bəhram pəjuh.Tehran, 1343.
Ətləs-e tarixi-ye İran, Tehran, 1350.
Ərdavirafnamə. Zərdüşt Bəhram pəjuh. Tehran, 1343.
Əhməd Mustofi. Coğrafiya-e ümumi. Tehran, 1332.
Jak Demorqan. Coğrafiya-e qərb-e İran. Təbriz, 1339.
Zəbiulla Səfa. Həmasə sərai dər İran. Tehran, 1332.
Zəhirəddin Mərəşi. Tarixe Təbəristan. Peterburq, 1850.
İbn-e Bəlxi. Farsnamə. Tehran, 1343.
İbn-e Bəttutə. Səfərnamə. Məhəmməd Əli Müvəhhədinin tərcüməsi. Tehran, 1337.
İbn-Rüstə. Kitab-e əl-əlaq əl-nəfisə. Bril, 1891-92.
İbn əl-Əsir. Əl-kamil fit-tarix. Beyrut, 1966.
İbn əl-Fəqih. Kitab əl-boldan. Leyden, 1880.
İbn Hövqəl. Əl-məsalik vəl-məmalik. Leyden, 1939.
İbn Hövqəl. Surət əl ərz. Cəfər Şüarin, tərcüməsi Tehran, 1345.
Иванов М. С. Очерки истории Ирана. М., 1952.
İran Kudə. M. Müqəddəm. Tehran, 1314.
İsidor Xaraksi.

Yaqut Həməvi. Möcəm Əl büldan. Tehran, 1969.
Каганкатваци Мовсес. История Агван. Перевод Патканова, СПб., 1867.
Казиев С. М. Об археологических раскопках в Мингечауре. «Доклады АН Азерб. ССР», 1946, № 10.
Karəng Əbdüləli. Tati və hərzəni do ləhçey-e Əz zəban-e bastani-ye Azərbaycan. Təbriz. 1338.
Keyhan M. Coğrafiya-e Mofəssəl-e İran. Tehran, 1318.
Kəsrəvi Ə. Namhay-e Şəhrha və dehhaye İran. Tehran, 1930.
Kəsrəvi Ə. Şəhriyaran-e qomnam. Tehran, 1307.
Klio. Tarix-e Herodot. Tehran, 1336.
Ковалевский С. А. Карта Птоломея в свете исторической географии Прикасрия. Изв. Всесоюз. Географ. Обшества, II, 1963.
Комаров В. Л. Происхождение культурных растений. М., 1938.
Кошеленко Г. А. Культура Парфии. Москва. 1966.
Kristensen A. Vəz-e millət və dövlət və dərbar-e Şahənşah-e Sasaniyan. Tərcüməsi Minəvinindir. Tehran, 1314.
Kristensen A. İran dər zəman-e Sasaniyan. Tehran, 1345.
Крачковская И. Я. Шахразур в географическом сдоваре из записки Абудулафа. Изв. АН Азерб. ССР, 1950, № 5.
Kərimi Bəhmən Mirzə. Rahhay-e Bastani Tehran, 1329.
Girşman R. İran Əz Ağaz ta islam Tehran, 1336, tərc. M. Müin.
Латышев В. В. Известия древних писателей о Скифии и Кавказе. «ВДИ», 1947, № 4.
Левиатов В. Н. Азербайджан в V в. до н. э. I в. н. э. «Изв. Ан Азерб. ССР», 1950, № 1.
Ləmbton. Malik və Zare dər İran. Tehran, 1339.
Lenin V. İ. Seçilmiş əsərləri. XXIX cild, Bakı, 1935.
Луконин В. Г. Иран в эпоху первых Сасанидов. Л., 1961.
Маркс К., Энгельс Ф. Немецкая идеология. Сочинения, т. IV, М., 1937.
Marks K. Kapital. I cild, Bakı, 1955.
Marks K, Engels F. Seçilmiş əsərləri. 2-ci cild, Bakı, 1959.
Markvart. İranşəhr. Tehran, 1310.
Matikan hazar datastan. Bombey, 1910.
Məhəmməd Cavad Məşkur. Nəzəri be tarix-e Azərbaycan. Tehran, 1340.
Məsər İbn Mühəlhil. Səfərnamə.
Müxbir M. Mərzhay-e İran. Tehran, 1334.
Minorski V. F. Tarix-e Təbriz. Tərcümə Ə. Karəng. Təbriz, 1337.
Минорский В. Ф. История Ширвана и Дербенда. М., 1963.
Minorski V. F. Şəhre Marağa. Məcəlleyi "Yəğma". Tərcümə Ə. Karəngindir, Sale XVIII, № 3, Tehran, 1965.

Məhəmmədi M. Fərhəng-e İran və təsir-e an təməddün-e İslam və Ərəb. Tehran, 1323.
Məhəmməd Həsdnxan. Murat ül-Boldan-e Naseri. Tehran (1294), 1877.
Məhəmməd Həsənxan. Kitab-e əl-tədvin Fi əhval-e Cibal-e Şərvin. İstanbul, 1893.
Müin M. Məzdəyəsna və təsir-e an dər ədəbiyyat-e parsi. Tehran, 1326.
Musa Xorenatsi. Tarix-e Ermənistan. İrak, 1331.
Mənuçehr İ. Qozareşhay-e Həffari-ye Təxt-e Süleyman məcəlleye bastanşenası, Tehran, 1338.
Mücməl üttəvarix vəl-qisəs. Be təshih-e M. Bahar, Tehran, 1318.
Məcid Yektai. Tarix-e darai İran. Tehran, 1335.
Г. А. Меликишвили. Некоторые вопросы истории Маннейского царства. ВДИ, 1949, № 1.
Моисей Каланкатуйский. История агван. Пер. Патканова К., СПб., 1861.
Моисей Хоренатсий. История Армении. Перевод о. О. Эмина. М., 1893.
Nəfisi S. Tarix-e təməddün-e İran-e Sasani. Tehran, 1331.
Nəfisi. Fərhəngnameyi parsi. Tehran. 1319.
Onullahi S. M. Təbriz şəhərinin tarixi. Bakı, 1982.
Пахомов Е. А. Монетные клады Азербайджана и других краев и областей Кавказа. Вып. I. Баку. 1926.
Пахомов Е. А. Бардинский клад. Монеты Барда. Изв. ФАН СССР, 1940, №8.
Плутарх. Параллельные биографии (жизнь и дела замечательных людей древности). Т. I—II. 1889.
Pirniya H. Tarix-e müfəssəl-e İran. Tehran, 1331. Полибий. V — 4.
Pirniya Həsən. İran-e bastan. Tehran, 1342.
Пигулевская Н. В. Города Ирана в раннем средневековье. М. – Л., 1966.
Pirniya H. Tarix-e İran-e bastan. Tehran, 1333.
Petrov S. P. Coğrafiya ye İran. Tərcümə Gülgülab. Tehran, 1339.
Pur Məhəmmədəli Şuştəri. İrannamə. Tehran, 1321.
Purdavud. Qatha Bombey, 1927.
Purdavud. Yəştha. Tehran, 1331.
Purdavud. Yəsna. Tehran, 1333.
Периханян А. Г. К вопросу о рабовладении и земледелии в Иране парфянского времени. ВДИ, 1952, № 4.
Периханян А. Г. Сасанидский судебник. Книга тысячи судебных решений. Ереван, 1973.
Purməhəmmədəli Şuştəri. İrannamə. Tehran, 1321.
Pərviz Vərnavənd. Sərzəmin-e Qəvzin, Tehran, 1349.
Плиний. О сельском хозяйстве. М., 1967.
Раулинсон Г. Г. Заметки о городах Атропатены – Экбатана. Журнал Королевского Географического общества. Париж. 1940, X.

Rəhimzadə Səfəvi. Tarix-e iqtisadiye İran. Tehran, 1308.
Ravəndi M. Tarix-e İctimaiye İran. Tehran, 1962.
Rəşid-əd-din. Cami ət-təvarix. Bakı, 1957.
Плутарх. Паралельные биографии. Жизнь и дела замечательных дюдей в древности. Т. I—II, 1889.
Prokopius. Cəngaeye İran-Rom. Tehran, 1330.
Ravəndi. Tarix-e ictimaiye İran. Tehran, 1332.
Sami Əli. Təməddon-e Sasani. I c., Tehran, 1342.
Sami Əli. Təməddon-e həxamənşi. Tehran, 1341.
Səfərnamey-e Nasir Xosrov. Tehran, 1349.
Страбон. География в 17 книгах. Пер. Г. Стратановского. М., 1964.
Tağızadə. Bist məqaleyi Taqizadə. Tehran, 1341.
Teodor Nöldöke. Həmasehay-e milli İran. Tərcümeyi Bozorkələvi, Tehran, 1325.
Tanserin məktubu. Tərcümeyi. m. Minəvi, Tehran, 1333.
Фавстос Бузанд. История Армении. Пер. М. Георгян, Ереван, 1953.
Fəxrəddin Musəvi Ərdəbili. Tarix-e Ərdəbil və daneşməndan. Tehran, 1347.
Фирдоуси. Шахнаме. М., 1962.
Xəlilov C. Ə. Qərbi Azərbaycan tunc dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1969.
Ə. Hakimi. M. Rad. Həsənlu. Tehran. 1329.
Herodot. Tarix-e Herodot. Tərcümə H. Hidayətinindir, Tehran, 1335.
Hertsfeld. Paykuli, № 570, 567.
Hidayəti H. Kuruş Kəbir. Tehran, 1335.
Hidayəti Hidayət. Tarix-e Herodot. Tehran, 1336.
Cəmşid İbadullazadə Məliki. Ərdəbil (Şəhre moqəddəs). Tehran, 1346.
Şəmsəddin Sami. Qamus. İstanbul. 1306.
Юсифов Ю. Б. О наименованиях «Албания» и «Иран». Изв. Ан Азерб. ССР, 1961, № 10.
Ямпольский З. И. Атропатена и Кавказская Албания в III - I вв. до н. э. Баку, 1952,
Ямпольский З. И. История древней Кавказской Албании. Баку, 1949.
Ямпольский З. И. К изучению древнего пути из Каспийского моря по реке куре через Грузию к черному морю. Тр. Института Истории АН Груз. ССР, 1956, № 11.

## GÖSTƏRİCİLƏR

### ŞƏXS ADLARI

**A**

Aşurbəyli S. B. – 7
Allmiker – 10
Antoni – 11, 14, 22
Ammian Marselli – 13, 14, 163
Apollonid – 14
Arrian – 14
Angüetil Düperron – 15
Aqafangel – 18, 22
Artabaz – 31
Ahurəmazda – 33
Abbas Mirzə - 90
III Antiox – 110, 120, 131
V Artavazd – 112
III Artabon – 112, 113, 129
Atropat – 114, 115, 119
I Artavazd – 128, 129, 133
Avqust – 129
I Aryə Bərzən – 123
II Aryə Bərzən – 129
II Artavazd – 129, 145
III Artaban – 129
Aleksandr – 141

**B**

Bartold V. V. – 7, 20, 95
Bünyadov Z. M. – 7
III Balaş – 9
Buzand – 18, 22
Belova N. K. – 20
Babək – 24
Bünyadov T. – 34
Bəhrami T. – 39, 72
Berezin İ. N. – 80
Bəhram Çubin – 84

**V**

Vanon – 129, 143
Valagez – 130
Vespasian – 130
III Valagez – 114
V Valagez – 144
Vilyam Cekson – 159
**Q**

Qasımova S. Y. – 7, 21
Qurbanov Rza – 7
Qan K. F – 14
I Qubad – 171, 172, 174

**D**

Dyakonov M. M. – 7, 20, 21
Dyakonov İ. M. – 7, 21
III Dara – 13, 101, 105, 106, 107
Delli – 14, 22
Didro – 14
Diodor – 22, 163
Dion Kassi – 11, 22
Dara – 44, 163
I Dara – 100, 118

**E**

Etimad M. – 6
Engels F. – 50
Eremyan S. T. – 155

**Ə**

Əliyev İ. H. – 7, 21
Əliyev K. H – 7, 21
Ələkbər Sərfəraz – 10, 12, 20
Əbülfəz Nəbii – 6, 20
Əli Həkimi – 10, 20
I Ərdəşir – 16, 146, 148, 152, 177, 178

Ərdəvan – 17
Əl-Mənsur – 17
Əl-Məsudi – 18, 19
Əl-İstəxri – 18, 19
Əl-Müqəddəsi – 18
Əl-Yəqubi – 18, 19
Əli Sami – 20, 54
Əbül-Fida – 20
Ərdəşir – 38, 105
Ənuşirəvan – 52, 64, 148
Əsədulla xan Xonsari – 72
Əbu İshaq ibn Əli – 24
Əhrimən – 162, 174, 176

**Z**

Zərdüşt – 19, 23, 33, 158, 161, 162, 163, 164, 174, 176

**İ**

İbn Müqəffə - 10, 14
İbn İsfəndiyar – 16
İbn Hövqəl – 18, 19
İbn Fəqih – 18
İbn əl-Əsir – 18, 19, 64
İosif Flavi – 14, 129
İbn Kəlbi – 19
İbn Xordadbeh – 83, 148, 176
İskəndər – 132, 144

**Y**

Yəzdi Ə. – 6
Yampolski Z. İ. – 7, 21
Yeqişe – 18
Yaqut Həməvi – 18, 19, 25, 26, 177
Yutapa – 140, 143

**K**

Koşelenko

Kəsrəvi Ə. – 6, 20
Krımski A. E. – 7, 20
Kalankaytuklu Musa – 51, 155
Korneli Tatsit – 129
Krass – 14
Kristensen A. – 20, 160, 167, 180
Kəşlu Cim ibn Liti – 30
Klima – 50, 100

**G**

Gəştasp – 164
**L**

Lukonin A. Q. – 7, 21
Latışev V. V. – 14
Lenin V. V. – 51

**M**

Mənuçehr Mürtəzəvi
Məmmədov T. M. – 7, 21
Məmmədova F. C. – 7, 21
Mahmud Rad – 10, 20
Mitridat – 12, 111
Miletli Hegatey – 13
Mişşenki P. F. – 14
Muğ Karitr – 16, 17
Makedoniyalı İskəndər – 17, 27, 97, 114, 120, 125, 144, 164, 178
Markvart – 17
Məhəmməd Təbəri – 18, 19
Molon – 131, 141
Məsudi – 168
Movses Xorenatsi – 18, 22
Məhəmməd Müni – 20
Məhəmməd Həsənxan – 24
Məsər ibn əl-Mühəlhil – 27
Məsud Keyhan – 29
Məzdək – 51, 165, 172, 173
Məhəmmədi M. – 64
Minorski V. F. – 78

Melikişvili Q. A – 80
III Mitridat – 126
I Mitridat – 134
Mani – 168

**N**

Nəfisi Səid – 6, 20
Nersi – 12
Nadir şah – 47
Nizamülmülk – 52, 173

**O**

Ord – 9

**P**

Pirniya H. – 6
Piqulevskaya N. V. – 7, 21
Perixanyan A. Q – 7, 17, 21
Plutarx – 11, 13, 14, 22
Polibi – 13, 14, 31, 22, 132
Plini – 13, 22
Purdavud İ. – 15
Purdavud İbrahim – 20
Pomponi Mela – 28
Ptolomey – 95
Pakor – 113, 120, 140
Plutarx – 134
Pompey – 137
Plast – 103
Piley – 165
Pifaqor – 174
Platon – 174

**R**

Rəna xanım – 5
Rəhimzadə Səfəvi – 6, 100
Raulinson H. K. – 10

Rəhim Hüveyda – 20
Ravəndi M. – 56, 58

**S**

Sumbatzadə Ə. S – 7, 21
Strabon – 11, 13, 14, 22, 119, 160
Stratanevski Q. A. – 14
Sebeos – 18
Seyid Həsən Tağızadə - 20
Sprinqli – 20
Süleymani Ə. – 21
II Sarqon – 76
Sultan Heydər – 91
Statyanus – 138

**T**

Trever K. V. – 7
Tatsit – 13
Tanser – 16, 53, 58, 169, 177
II Tiqran – 111
II Tirdat – 124

**F**

Fazili A. H. – 21
Fray R. – 20
Firdovsi – 19
Favst – 18, 22
Firuz – 64
IV Fərhad – 9
Fondrasten – 10
Fraat – 12, 117
IV Fraat – 124, 145

**X**

Xanıkov N. V. – 80
Xosrov Pərviz – 84
I Xosov – 57, 63, 149, 150, 172, 174

**H**

Hertesfeld – 10
Herodot – 13, 160
Həmdulla Qəzvini – 19
Hummel Y. İ. – 45
Huşəng – 60
Həmzə İsfahani – 25
Heraklit – 174
Hörmüzd – 162, 163, 174

**C**

Cəmaləddin Fəqih – 5, 6, 20
Cavad Məşgur – 5, 20
Cekson – 10
Cəşnəsəf – 16

**Ş**

Şeyx Həsənalı – 5
I Şahpur – 13, 16, 20, 53, 146
Şəhristani – 19
II Şahpur – 57, 63
Şah İsmayıl – 91

## COĞRAFİ ADLAR

**A**

Azərbaycan – 3, 5, 8, 13, 147
Atropatena – 8, 13, 152, 156
Albaniya – 8, 10, 13, 14
Azərgəşəsp – 10, 11, 12, 19, 157, 181
Araz – 11, 13, 23, 136
Adərbican – 13
Atropatakan – 13
Avropa – 17
Acı çay – 22
Ağrı dağı – 24, 29

Akfudə - 25
Alrai – 49
Assuriya – 50
Ağ İmam – 91
Aqanzana – 97
Artobed – 97
Arran-Aran – 29
Arsax – 151

**B**

Baruc – 8
Bağdad – 17
Buzgüş – 22
Balıqlı – 22
Bəzz qalası – 24
Bərdə - 24
Baqavan – 25
Balharı – 37
Beynəlnəhreyn – 51, 14
Babil – 120
Baqro (Amard) – 22, 23
Bəhrəmtəpə - 46
Baxtər – 151
Bicar – 157
Bizans – 170
Bəlx – 163

**V**

Vera – 11, 13

**Q**

Qaradağ – 9, 13
Qazaka (Şiz) – 10, 11, 12, 13, 66, 83, 143, 154
Qavqamel – 12, 107, 114
Qarasu – 24
Qəbələ - 29, 57
Qalaqayın – 31
Qaragöl – 23

Qanzak (Qazaka) – 17, 19
Qaflantı – 22
Qafqaz – 14, 53
Qarabağ – 151

**D**

Dərbənd – 17, 97, 148
Dərəvurd – 24
Deyləm – 25
Dird çayı – 25
Dinəvər – 84

**E**

Ekbatan – 93, 127
Eniap (Yunan) – 97
Ermənistan – 13, 14, 17, 18

**Ə**

Ərşə - 3, 8, 9
Ərdəbil – 3, 5, 11, 20, 22, 23, 88, 89, 182
Əmliş – 10
Əlburz – 38
Ənzəli – 42
Əfşar – 156

**Z**

Zəncan – 5, 24, 156
Zaqafqaziya – 18
Zaqros – 22, 23
Zur – 84

**İ**

İberiya – 13, 14
İngiltərə - 92
İstəxr – 145, 178
İason dağları – 68

İran – 144, 170

**Y**

Yurdçu – 24

**K**

Kapudan – 25
Kaspi – 34, 37, 134
Kür çayı – 30
Kolxida – 94, 141

**G**

Gənctəpə - 8
Germi – 3, 5, 8, 9, 12
Gürcüstan – 17, 18
Gərməri (Gərmrud) – 24
Gürcan – 42, 87
Gavurarx – 49
Getara (Qanqar) – 97
Gilan – 10, 147

**L**

Leylan – 11
Luristan – 80

**M**

Meşkinşəhr – 5, 8, 12
Mərənd – 5, 8, 12
Miyana – 5, 95
Marağa – 5, 11, 150
Maku – 5, 8, 112, 182
Məşhəd – 7
Midiya – 13, 141
Matiana – 13, 69
Mazandaran – 16, 25, 87
Muğan – 3, 8, 12, 24, 147
Misir – 50

Mədain – 113
Mesopotamiya – 8, 10, 12
Manna – 161
Midiya – 161

**N**

Narınqala – 90
Naxçıvan – 85, 182
Nəştəri – 22
Novur – 23
Nimruz – 151

**O**

Orant – 68
Orta Asiya – 140
Oke – 135
Ordbil – 153

**P**

Parfiya – 9, 14, 130
Praasna – 11, 81
Persepol – 125
Paytakaran (Örənqala) – 97

**R**

Roma – 3, 14
Ruindej – 20, 82
Ragiana (müasir Rey) – 117

**S**

Sarab – 5, 8, 12, 24, 26
Savalan – 9, 22, 23
Sort şəhəri – 15
Səhənd – 22, 23
Salmas – 26

Sulduz – 29
Selevki – 110
Sumbaki – 111
Sənəndəc – 157

**T**

Təxt-e Süleyman – 3, 8, 10, 12, 165
Talış dağları – 9, 24, 37
Tufarqan – 26
Təzəkənd – 74
Tarmakis – 76, 97
Tavris – 78
Təbriz – 5, 12, 23, 25, 79, 95, 178
Trabzon – 94
Tarum dağı – 25
Təbəristan – 95
Ternopol – 133
Tavreş – 153

**U**

Urmu – 5, 23
Unar – 22
Urmu körpüsü – 156, 179

**F**

Fraata – 11, 97
Fasit – 13
Fransa – 15
Fars – 52
Fars əyaləti – 145
Fraaspa – 156

**X**

Xido – 22
Xorasan – 151
Xorbəran – 151

**H**

Həsənlu – 3, 182
Hirkan – 13, 25
Hindistan – 15, 146, 183
Həmədan – 17, 28, 100, 172
Həştəri – 20

**Ç**

Çiçəst – 25
Çin – 140

**C**

Cənzə - 83
Cibal (Midiya) – 147

**Ş**

Şah gölü – 25
Şəhriyar – 46
Şəki – 97
Şamaxı – 97

## Dövlət və tayfa adları

**A**

Atropatena – 3, 4, 5, 6, 7, 9, 11, 13, 19, 25, 40, 67, 97, 112, 115, 145
Atropatilər – 3
Arşakilər – 9, 29, 134, 141, 143, 145
Almaniya – 10
Albaniya – 97
Amardlar – 13
Allanlar – 150

**E**

Elxanilər – 91

Ermənistan – 129

**Ə**

Əhəmənilər – 100, 118, 145
Əhəməni imperiyası – 6, 12, 67, 105, 114, 183
Ərəb xilafəti – 17

**Z**

Zərdüştilər – 23, 113, 114

**İ**

İran – 5, 6, 10, 18
İran İslam Cümhurisi – 5

**K**

Kaduslar – 13, 23, 24, 68
Kurtilər – 13
Kimmerlər – 13
Kaspi ölkəsi – 73
Kaspiana – 73

**G**

Gil – 23
Galış – 23

**M**

“Mük” tayfaları – 13
Midiya – 23, 25, 70, 97, 98, 117, 120
Manna – 75
Monqollar – 90
Möhürlər – 12
Məzdəkilər – 168, 171

**P**

Parfiya sülaləsi – 17, 35, 67
Pəhləvi – 23
Parfiya – 122, 123, 131, 139

**R**

Romalılar – 135

**S**

Sasanilər – 7, 8, 12, 20, 33, 113, 146, 147, 150, 155, 175, 176
Sasanilər imperiyası – 8, 53, 14, 16, 17, 19
Sovet İttifaqı – 9
Skiflər – 13
Səfəvilər – 91
Səlcuqlar – 91
Suriya – 106
Selevkilər – 145

**T**

Talış – 23
Tapurlar – 13

**U**

Urartu – 281

**F**

Finikiya - 106


АЛБАНИЈА
Сакасена
Габада
Кемахеј
Утилар
Каспилар
Нахчыван
Кадусилар
АТРОПАТЕНА
Сарпо
Термакис
Урмаја
Вера
Газака
(Тахти-Сүлејман)
Екбатана
АТРОПАТЕНА
(е.ә. IV- е.ә. I)
Хәританын мүәллифи
А.Һ. Фазили



# MÜNDƏRİCAT

Ön söz.........................................................................................................

Giriş...........................................................................................................

**I fəsil**

Atropatenanın təbii-coğrafi şəraiti.........................................................................

**II fəsil**

ATROPATENANIN TƏSƏRRÜFAT HƏYATI.....................................................

Əkinçilik.................................................................................................

Maldarlıq...................................................................................................

Şəhər həyatı..............................................................................................

Atropatenada ticarət və ticarət yolları...................................................................

**III fəsil**

**ƏHƏMƏNİ İMPERİYASININ SÜQUTU. ATROPATENA DÖVLƏTİNİN YARANMASI**

Atropatenanın qonşuları...........................................................................

Atropatena eramızın ərəfəsində.................. ...........................................................

Atropatena ellin dövlətləri sistemində...................................................................

Atropatena və Parfiya...............................................................................

Atropatenanın Roma işğalçılarına qarşı mübarizəsi..................................................

Atropatenada Arşakilərin kiçik qolunun hakimiyyəti..............................................

Sasani dövlətinin yaranması. Azərbaycan

vilayətinin Sasanilər tərəfindən işğalı......................................................................

Atropatena Sasani imperiyasının mühüm əyalətlərindən biri və şahlar şahı dastagertinin bir hissəsi kimi.............................................................................

**IV fəsil**

**MƏDƏNIYYƏT**

Din. Zərdüştilik və Avesta haqqında.......................................................................

Məzdəkilər hərəkatı və onun ictimai kökləri............................................................

Atropatena Zərdüştilik dininin mərkəzidir.
Teokratiya. Atropatena möbədləri
tərəfindən Avestanın toplanması...........................................................................
NƏTİCƏ..........................................................................................................
ƏDƏBİYYAT....................................................................................................
GÖSTƏRİCİLƏR..............................................................................................

Abdulla Həsənalı oğlu Fazili

**ATROPATENA**
er. əv. IV – er. VII əsri

Абдулла Гасаналы оглы Фазили

**АТРОПАТЕНА**
IV в. до н.э. – VII в. н. э

Nəşriyyat redaktoru R. Qurbanov. Rəssamı V. Ustinov.
Texniki redaktoru T. Ağayev. Korrektoru S. Əliyeva.
İB № 2262.

Yığılmağa verilmiş 12. 06. 91. Çapa imzalanmış 18. 03. 92. Kağız formatı 60x82. Mətbəə kağızı № 1. Şrifti ədəbi qarnitur. Yüksək çap üsulu. Şərti çap vərəqi 12, 55. Rəngli şərti ç/v. 12.55. Hes.-nəşriyyat vərəqi 12, 61. Tirajı 5000
Sifariş 259.

“Elm” nəşriyyatı 370143, Bakı – 143, M. Əzizbəyov prospekti, 31. Akademiya şəhərciyi. Əsas bina.

Azərbaycan Dövlət Mətbuat Komitəsinin “Qızıl Şərq” mətbəəsi. Bakı, Həzi Aslanov küç., 80.